C. Neysbitin futuroloji tədqiqat olan “Meqatrendlər” əsəri amerika cəmiyyətinin XX əsrin sonralarındakı inkişaf tendensiyalarının real, dəqiq və ciddi təhlilinə söykənir. Burada gerçəkliyin yeni anlamı verilir və gələcəyə yeni baxış sərgilənir, amerika cəmiyyətinin postindustrial mərhələdən informasion dövrə keçidi, səciyyəvi xüsusiyyətləri və zəruri şərtləri işıqlandırılır. Bir-birindən maraqlı, diqqət çəkən fəsillərlə tanış olduqca, istər-istəməz, əsərin möhtəşəmliyinə, evristik gücünə, bu günün özündə də nə qədər aktual və əhəmiyyətli olduğuna heyran qalırsan. Məhz həmin əsərdə, ilk dəfə olaraq, C. Neysbit “**Nou-xau**”nu sərvətin yeni növü adlandırmış, izafi dəyərin, K. Marksın köhnəlmiş nəzəriyyəsində olduğu kimi, əməyin deyil, **biliyin** hesabına yaranması nəzəriyyəsinin işlənib hazırlanması zərurətini göstərmiş, bilik istehsalının kütləviləşməsinin və fasiləsiz sistemləşdirilməsinin formalaşan informasiya cəmiyyəti, intellektual potensialın kəmiyyət-keyfiyyətcə gücləndirilməsi üçün əhəmiyyətini vurğulamış, kütləvi bilik istehsalının müasir iqtisadiyyatın hərəkətverici qüvvəsi olduğunu əsaslandırmışdır. Con Neysbit kitabında sonralar məşhurlaşmış belə bir şüar da səsləndirmişdir: “**Güc-qüvvənin mənbəyi – azların əlində olan pul yox, çoxların sahib olduğu informasiyadır**” **[9, s. 29]**.

C. Neysbitə görə, informasiya cəmiyyətində zamanın axarında müəyənləşmə, nəyə və necə hədəflənmə, yəni, oriyentasiyalar seçiminin özü dəyişir. Məsələn, əgər aqrar dövr üçün – keçmişə, industrial cəmiyyətdə isə – bugünə, yəni, indiki mövcud zamana oriyentasiya üstünlük təşkil edirdisə, informasiya cəmiyyəti üçün gələcəyə hədəflənmə, perspektivi görmək, onu hesablayaraq anlamaq və adekvat fəallıq göstərərək hərəkət etmək daha önəmlidir: “Biz gələcəkdən, necəki vaxtilə keçmişdən dərs alırdıq, öyrənməliyik” **[10, s. 32]**. Yəni, alimin fikrincə, informasiya cəmiyyətində tarix və sosial zaman gələcəyə hədəfləndiyindən, biz bu gələcəyi öncədən görməli və bilməliyik. Bunu edə bilsək, anlayarıq

ki, **hansısa ictimai və yaxud bəşəri trend – heç də alın yazısı, qəzavü-qədər deyil və başımıza gələn hər şeyi talenin, fələyin ayağına yazmaqla yaşadığımız və inşa etdiyimiz zamanı mənalandırmaqdan uzaq düşməməliyik, passiv seyrçiliyin itaətkar quluna çevrilməməliyik.** Tarixi və sosial zaman fəal, yaradıcı, məsuliyyətli və vicdanlı insanlar, onların ağıl-kamalla təşkilatlandırdıqları cəmiyyət və dövlət hesabına mənalanır, dolğunlaşır, necə deyərlər, sivil səviyyədə müasirləşir və insaniləşir. Bu xüsusiyyət, fikrimcə, müasir qoyuluşda istər ictimai, istərsə də qlobal meqatrend problemi üçün çox zəruri və önəmlidir. Bu, habelə, nəzərdə tutulan siyasi islahatların uğurla aparılmasının mühüm şərti və tələbidir. Başqa cür də deyə bilərik: islahat və modernizasiyanın keyfiyyəti insanların, toplumun keyfiyyət səviyyəsindən yüksək ola bilməz. Belə bir yaxşı deyim var: "Nə atarsan aşına, o da çıxar qarşına".

Ümumiyyətlə, ABŞ-ı gələcəklə bağlı ən maraqlı, sanballı əsərlər yazmış müəlliflərin vətəni saymaq olar. Xüsusən keçən əsrin 50-60-cı illərindən başlayaraq bu günə kimi xeyli sayda futuroloji yönümlü dəyərli kitablar yazılıbdır ki, dünya səviyyəli bestseller adını qazanıblar. Ən vacibi isə - bəşəri duruma, siyasi-iqtisadi-mənəvi və geosiyasi proseslərin cərəyanına, texniki-texnoloji inkişafa ciddi təsir göstəriblər. Ümumiyyətlə, postindustrial və yaxud informasion cəmiyyət mövzularına həsr edilmiş əksər məşhur əsərlər kifayət qədər futuroloji elementlərlə, öncəgörmələrlə, maraqlı ideya və mülahizələrlə zəngin olmuşlar. Bu yöndə düşünərkən, fikrimcə, C. Neysbitlə yanaşı, ilk növbədə, Deniel Bellin yaradıcılığı xüsusi qeyd edilməlidir. Həm nəzəri, həm də praktiki planda onun hələ keçən əsrin 70-ci illərindən başlayaraq işıq üzü görən dəyərli yazıları, deyərdim ki, müasir ABŞ-ın, ümumən, Qərb dünyasının son 45-50 ildə ictimai meqatrendlərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Gerçəkliyin real təhlilinə əsaslanan və gələcəyə baxışla bağlı bütün sanballı əsərlərlərdə D. Bellin yaradıcılığı bir mənbə kimi götürülür və onun fikirlərinə istinad edilir. Heyranedici öncəgörmə istedadı ilə fərqlənən bu məhsuldar müəllifin ilk futuroloji əsəri ("Postindustrial cəmiyyət barədə qeydlər") hələ 1967-ci ildə nəşr edilmişdir. Sonralar işıq üzü görmüş "Postindustrial cəmiyyətə xoş gəlmisiz" (1976), "Gələcək haqqında fikirlər" (1979) və digər məşhur əsərləri indinin özündə də dəyərli mənbə, fikir qaynağı kimi istifadə olunur. Hətta deyərdim ki, bu günün özündə də D. Bell kimi yaradıcı zəka sahiblərinin (C. Neysbitdən əlavə olaraq, məsələn: Elvin Toffler, Heidi Toffler, Gary S. Becker, Tomas Fridman, Duqlas Mak-Qreqor, Mark Porata, Stiven Djobs, Morris Yanovits, Kolin Norman, Con Herbers, Maykl Armstronq və b.) fövqəl əhəmiyyətli yaradıcılığı, başda ABŞ olmaqla,

müasir Qərb dünyasının elmi-texniki-texnoloji inkişaf mahiyyətini mənalandıran və şərtləndirən, yüksək sivillik səviyyəsini göstərən ümumi meqatrendin həm təməl, həm də istiqamətverici qaynaqları rolunda çıxış edir. Bu müəlliflərin yaradıcılığını mən həyatverici, tərəqqi və sağlamlıq ruhu verən bulağa bənzədərdim. Onun suyundan içmədən, təfəkkürcə durulmadan, mənəviyyatca paklaşmadan təqdirəlayiq islah və modernləşmə mümkün deyil!

Gələcəyə hədəflənmə istiqamətində yazılmış və Qərb dünyasında ictimai meqatredlərin formalaşmasına əhəmiyyətli təsir göstərmiş bütün əsərlər və onların müəllifləri barədə hazırda geniş və ətraflı məlumat vermək imkanı olmasa da, burada yalnız elmi-ictimai, sosial-iqtisadi və siyasi şüura güclü təsiri baxımından üç kitabı qeyd edərdim: Elvin Toffler. Hakimiyyətin metamorfozları (1990) **[11]**; Tomas Fridman. Müstəviləşmiş dünya (2005) **[12]**; Geri S. Bekker. İnsan davranışı: İqtisadi yanaşma (2003) **[13]**.

Elvin Tofflerin adını çəkdiyim bu kitabı onun trilogiyasını tamamlayan, müəllifin orijinal, parlaq ideyalarının inkişafını kulminasiya nöqtəsinə çatdıran, gələcəyə baxış müstəvisində "sosial fəlsəfə" janrında yazılmış ən təsiredici əhəmiyyətli əsərlərdəndir. Müasir sivilizasiyanın dəyişib yeniləşməsinə həsr olunmuş trilogiyada amerikalı sosioloq və futuroloq E. Toffler öz proqnozlarını nə utopiya, nə də antiutopiya sayır. Öz janrını o, "proktopiya", yəni, praktiki utopiya adlandırır. Burada hədsiz idealizasiya yoxdur. Söhbət yaşadığımız indiki dünyadan fərqli insan üçün daha praktik və əlverişli dünyadan gedir. Lakin, bu "yaxşı dünya" da heç də utopiya deyil, burada da şərin (aclıq və xəstəliklərin, çirkli siyasətin, ədalətsizliyin) yeri var.

İctimai tərəqqiyə çoxölçülü təsir göstərən texniki-texnoloji mutasiyalar məsələsinə xüsusi diqqət yetirən E. Tofflerin fikrincə, bəşəriyyət yeni texnoloji inqilaba keçid edir. Birinci (aqrar sivilizasiyanın) və ikinci (industrial sivilizasiyanın) dalğaların yerinə tam yeni – fövqəl industrial sivilizasiyanın yaranmasına aparan dalğa gəlir. Qeyd edim ki, hazırda çoxları üçün adi görünən bu fikir onun tərəfindən hələ keçən əsrin 70-80-ci illərində səsləndirilib və Qərb dünyasının yeni bir ictimai meqatrendə doğru transformasiyasında, öncül mövqelər, o cümlədən "soyuq müharibə"də qələbə qazanmasında özünəməxsus rol oynayıb. Biliyi qlobal faktor kimi dəyərləndirən E. Toffler göstərirdi ki, yeni dalğa tarixin ən möhtəşəm (bütün incəlikləri öncədən təsəvvür belə edilməyən) dönüşünə səbəb olacaq, ictimai və individual mövcudluğun köklü və hərtərəfli dəyişməsinə gətirib çıxaracaq. Və bu gün biz artıq həmin dəyişmə, mutasiya və

transformasiyaların şahidiyik, həm də – müxtəlif rolların daşıyıcısı olaraq, aktiv və ya passiv iştirakçısı!

Təqdirə layiqdir ki, E. Toffler lokal və qlobal xarakterli dəyişmələrin müjdəsini verərkən, heç də hərəkətverici qüvvəni siyasi rejimlərin əvəzlənməsinə yönəlmiş sosial inqilablarda görmürdü. Faktiki, o, sosial inqilablar vasitəsilə yaxşı nəyəsə nailolma paradiqmasına qarşı çıxış edir, onu yanlış və ziyanlı yanaşma-mövqe sayırdı. İctimai və qlobal tərəqqi məsələsinə bu cür baxış sərgiləməsilə E. Toffler, əslində, bir sıra görkəmli şəxsiyyətlərin (məsələn, kvant mexanikasının banilərindən olan V. Heyzenberq kimi duhaların!) tərəfini tutur, onlarla həmrəy olurdu. Mütəfəkkir başlıca hərəkətverici qüvvəni sürətlə artıb-zənginləşən, bütün fəaliyyət sahələrinə sirayət edən elmi bilikdə, texniki-texnoloji innovasiyalarda görürdü. Vurğulayırdı ki, yalnız bu yolla və bu müstəvidə bəşəriyyət zorakılıqdan, diktatdan, qeyri-insani rəftardan xilas ola bilər. Və bəşəriyyət bu zərurəti, yəni, yeni dalğaya keçidi nə qədər tez anlayarsa, bir o qədər müxtəlif, o cümlədən, gözlənilməz təhlükə və fəlakətlərdən yayına bilərər.

Mütəfəkkirin baxışlarını incələyib ümumi bir xülasə versək, məncə, bu qənaəti söyləmək olar: ictimai natarazlıqların, bütün neqativlərin mənbəyində, ilk növbədə, elmsizlik, təfəkkür qüsurları və deməli, mənəviyyat qəbahətləri durur; ciddi təfəkkür qüsurları, idraki şikəstlik mütləq mənəvi-əxlaqi duruma (təkcə, xüsusi və ümumi mənada) mənfi təsir göstərir, onu tənəzzül və deqradasiya məcrasına salır, ictimai münasibətlərdə nizam və harmoniyanı pozur; təqdirəlayiq birgəyaşayış mədəniyyətinin, fərdi və kollektiv azadlıq ruhunun pərvazlanması və təntənəsi yalnız elmləşmə, rasional təfəkkürə sahiblənmək yolu ilə mümkündür. Bu, yoxdursa, ictimai və fərdi həyat üçün vacib olan "**Ölçü**" anlayışı destruksiyaya uğrayır, əməli funksionallığını itirir, deməli, təməlində daxili **nizam və ədalət** hökmü dayanan birgəyaşayış və birgəfəaliyyət mədəniyyəti zədələnir, artan sürətlə qeyri-insani çalarlar, vərdişlər, istək və niyyətlər yığımına çevrilir. Nəticə olaraq, yalançılıq və riyakarlıq, oğurluq və talançılıq, laqeydliq və qəddarlıq, rüşvət və korrupsiya, məmur özbaşınalığı və yekəxanalığı ictimai həyata qənim kəsilir. Və bu gedişatda heç bir sosial inqilab və yaxud kütləvi surətdə dini ehkamlara müraciət, möcüzə yarada biləcək xilaskar axtarışı əlac vasitəsi, qurtuluş və tərəqqi zəmini ola bilmir.

İctimai-tarixi prosesin mahiyyəti, qanunauyğunluqları və hərəkətverici qüvvələri haqqında nəzəriyyə kimi çıxış edən tarix fəlsəfəsi elmlər sistemində, bəlkə də, ən mühüm və əhəmiyyətli sahədir. Belə ki, bu fəlsəfi elm sahəsi hesabına insanların, xalqlar və millətlərin, cəmiyyət və

dövlətlərin taleyi, bugünü və gələcəyi müəyyənləşir – onlar ya tərəqqi və xoşbəxtliyə, ya da tənəzzül və bədbəxtliyə doğru gedirlər. İctimai praktikanın fundamentində dayanan nəzəriyyə, istər-istəməz, öz təsir gücünü göstərir, ictimai-tarixi gedişatın məzmun-mahiyyətini şərtləndirir.

Tarix fəlsəfəsinə öz töhfəsini vermiş görkəmli mütəfəkkirlərə məxsus belə fikir var: **ümumdünya tarixi – azadlıq anlayışının inkişafıdır; tarix – azadlığın dərkində tərəqqidir.** Bu fikir xüsusən Hegelin tarix fəlsəfəsində güclü və qabarıq verilir. Hegelin "Tarix fəlsəfəsi" əsərindəki titanik ideyalardan vəcdə gələn F. Engels 1840-cı ildə yazırdı: "Onun (Hegelin) tarix fəlsəfəsi sanki mənim qəlbimdən oxunub" (**20, s. 546**). Böyük filosofa görə, ümumdünya tarixi – bəşəriyyətin keşməkeşli tarixidir, burada da ən başlıca məqam **insanlıq potensialının** artması və güclənməsidir. İnsanlığın isə nüvəsini, məğzini daxili azadlıq təşkil edir. Və hər bir şəxs, xalq layiq olduğu qədər azadlığa çatır. Hegel hətta deyirdi: "İnsanın mahiyyəti azadlıqdır, lakin o, əvvəlcə bu azadlıq üçün yetişməlidir"[**18, s.94**]. Bu prosesdə insana hərtərəfli yardım zəruridir, onu azadlığın dərki prosesində təkbaşına, köməksiz qoymaq böyük səhv olardı. Mütəfəkkirlərin, səlahiyyət sahiblərinin də başlıca vəzifələrindən biri ondan ibarətdir ki, azadlığın dərki yolunda kamilləşmək üçün insanlara yol göstərsinlər, vacib mətləbləri aydınlaşdırsınlar, onlara şərait və imkan yaratsınlar, kömək etsinlər. K. Marks deyirdi: "Bir halda ki insanın xarakterini şərait formalaşdırır, deməli, şəraiti insaniləşdirmək lazımdır" [**21, s. 160**].

Ayrı-ayrı filosofların ümumdünya fəlsəfəsinə verdikləri töhfələr də məhz bundan ibarət olmuşdur ki, insanları, xalqları və cəmiyyətləri azadlığa yetişdirmək üçün müvafiq baxışlar sistemi, nəzəriyyələr ortaya qoysunlar, ictimai praktika üçün müfəssəl zəminlər yaratsınlar. Diqqətlə nəzər yetirsək görərik ki, bu missiyanın yükü altında çalışıb, zəhmət çəkmişlər heç də az olmayıb: Əl-Fərabi və İbn Xəldundan tutmuş Qerderə, Kanta və Fixteyə, Şellinq və Hegelə, Marksa və Engelsə, Toynbi və Habermasa kimi. Bütün elmi-yaradıcılıq fərqlərinə və səciyyəvi xüsusiyyətlərə baxmayaraq, biz bütün bu korifeylərə minnətdar olmalıyıq. İndinin özündə də bu bəşəri xəzinədən bəhrələnmək üçün kifayət qədər əsas və zərurət var. Müasir dünyanın yenidən formatlaşması dövründə və köklü islahatların həyata keçirildiyi bir vaxtda bu zərurət daha da qabarıq özünü göstərir.

Məqsədi insanları azadlıq üçün yetişdirmək və bununla onları xoşbəxt etməkdən ibarət olan nəzəriyyə və təlimlərin yaradılması, əslində, hansısa yeni rasionallıq şəbəkəsinin, epistemoloji paradiqmanın işlənilməsi və

təklif edilməsi deməkdir. Bu missiya qətiyyən xoş arzu və niyyətlər toplusunu ortaya atmaqdan, tarixi hadisələrin xronologiyasını verməkdən, səlnamə yaratmaqdan ibarət deyil. Birmənalı olaraq deyə bilərik: burada təqdim olunan nəticə köhnə biliyin yox, mütəfəkkir tərəfindən generasiya olunmuş yeni biliyin məhsuludur. Bu yeni biliyi "**emercent bilik**" də adlandıra bilərik Köhnə bilik elementləri yeni bilgilər sistemini yaratmaq üçün yalnız vasitələrdən biri ola bilər. Fundamental əsaslara söykənən yeni bilik sistemini isə yalnız epistemoloji yəqinlik və optimallıq şərtləri daxilində yaratmaq mümkündür. Bu, o deməkdir ki, qnoseoloji zəminlər, metodoloji yanaşmalar, məntiqi qanunauyğunluqlar və aksioloji məqamlar baxımından alim-tədqiqatçı üçün bir müəyyənləşmə, təfəkkür və əməl aydınlığı var. Ümumiyyətlə, yeni elmi məhsulu yalnız köhnə biliklə, ənənəvi idraki üsul və vasitələrlə kifayətlənməklə əldə etmək mümkün olmur. Əvvəlcədən verilmiş, artıq mövcud olan biliklər hesabına yalnız "yaxşı padşah" nağılları, yaxud da – "ideal dövlət" haqqında utopik baxışlar toplusu quraşdırmaq olar. Başqa cür desək, ümumdünya tarixinin sirlərinə, ictimai-tarixi proseslərin mahiyyətinə varmaq yalnız professional fəlsəfəçilik müstəvisində və səviyyəsində mümkündür. Bu iş, bu missiya həvəskar üçün hesablanmayıb, onun gücü çərçivəsində deyil! Missiyanın möhtəşəmliyinin bir səbəbi də elə bundadır.

Bir məqama da xüsusi diqqət yetirmək istərdim: yeni, yəni, emercent bilik istehsalı, həmçinin, yaradıcı intuitsiya ilə də sıx bağlıdır. Bunu, bəlkə də, fəhm də adlandırmaq olar. Yaradıcı intuitsiyə elə bir anadangəlmə ilahi qabiliyyətdir ki, nadir insanlara məxsus olur. Burada, əlbəttə ki, söhbət elmi intuisiyadan gedir. Elmi intuitsiyanı, məncə, elə elmi fəhm kimi də səciyələndirə bilərik. Bu amil də mütəfəkkir missiyasının möhtəşəmliyini şərtləndirir. Fikrimcə, elmi-fəlsəfi intuisiya (fəhm) olmadan hansısa təfəkkür sərrastlığı, dərindən və əhatəli dərketmə, doğru-düzgün əqlinəticə-lər generasiyası mümkün deyil.

Düşünürəm ki, konkret zaman-məkan çərçivəsində ictimai meqa-trendin müəyyənləşməsi, hərəkət və inkişaf düsturunun formulə edilməsi yuxarıda göstərdiyim missiya daxilində ən mühüm məsələlərdəndir. Meqatrend dedikdə, cəmiyyətin simasını və mahiyyətini, fəaliyyət dinami-kasını və dayanıqlığını, aparıcı vektorunu və inkişaf hədəflərini müəyyən-ləşdirən əsas hərəkət paradiqması nəzərdə tutulur ki, özündə ideya-siyasi, sosial-iqtisadi, hüquqi-əxlaqi, mənəvi-psixoloji ünsür və parametrlərin sintezləşmiş cəmini daşıyır. İctimai meqatrendi müəyyənləşməmiş cəmiyyət – müfəssəl nəzəri-ideoloji bazası olmayan cəmiyyətdir ki, onun da hansısa uğurlara imza atması mümkün deyil. Belə cəmiyyətlər

mövcudluqlarını saxlamaq naminə yalnız bir seçim edə bilərlər – get-gedə daha çox avtoritarizmə və totalitarizmə doğru yuvarlanmaq! Tarix dəfələrlə bunu sübuta yetirib.

Bəşər tarixində belə hallar da olub ki, müəyyən zaman intervallarında ayrı-ayrı cəmiyyətlərin fəaliyyətini istiqamətləndirən və tənzimləyən nəzəri-ideoloji baxışlar sistemi, formal da olsa, öz təsirini göstərib. Lakin bu təsir ya qısamüddətli, yaxud da, ümumən, elə əvvəlcədən effektsiz və qeyri-məhsuldar olub. Bünövrəsindən reallıqlarla hesablaşmayan, ifrat xəyalpərəstliyə, sübyektivliyə söykənən "nəzəriyyə-layihə", faktiki, cəmiyyətlərin lehinə yox, əleyhinə işləyib. Son nəticədə, insanları azadlığın dərki məsələsində irəliyə doğru deyil, geriyə aparıb. Müəyyən dərəcədə bu aqibət keçmiş sovet xalqları üçün də xarakterik olub. SSRİ-nin süqutundan sonra postsovet ölkələrində baş vermiş hadisələr, bu gün də cərəyan edən xoşagəlməz, həttda dramatik proseslər tam aydınlığı ilə deyilənləri təsdiqləyir. Həyat göstərdi ki, postsovet məkanında yaşayan əksər xalqlar həqiqi azadlığın həm dərki, həm də praktikada reallaşması baxımından, Hegelin təbirincə desək, lazımınca yetişməmişlər. Bir daha aydın oldu ki, ənənəvi buxovların və sərhədlərin götürülməsi heç də hələ azadlığa nail olmaq deyil.

Cəmiyyətlərin dolğun inkişafı üçün ictimai meqatrendin müəyyənləşməsi qədər də onun reallıqla, gerçəkliklə uzlaşması vacibdir. Başqa sözlə, hər bir meqatrend gerçəklikdən qaynaqlanmalı və gerçəkliyin davamı kimi çıxış etməlidir. Burada cəmiyyətin öz səciyyəvi xüsusiyyətlərini, yaşadığı keçmişini və bu gününü, zəmanənin tələblərini və verdiyi imkanları, əhalinin xarakterini və potensialını, xarici əlaqələr müstəvisində onun tutduğu yerin nədən ibarət olmasını, artıq fəaliyyət göstərən iqtisadi, siyasi, sosial institutların vəziyyətini və mənəvi durumun keyfiyyətini, coğrafi faktorları və geosiyasi məqamları nəzərə almaq əhəmiyyətli məsələlərdəndir. Meqatrendin gücü və optimallığı cəmiyyətin, xalqın səciyyəvi xüsusiyyətlərinə, keyfiyyət göstəricilərinə adekvat olmalıdır. Onun əsas məzmunu cəmiyyətin öz daxilindən gələn tellər-köklər hesabına qidalanmalıdır. Əks təqdirdə, heç bir meqatrend fəaliyyət qabiliyyətli, optimal ola bilməz. Bəşəri sərvət sayılan "demokratiya", "hüquqi dövlət", "liberal dəyərlər" kimi məfhumlar, əgər onların qərarlaşması vacib bilinirsə, yalnız bu zəmində reallaşaraq öz məzmun-mahiyyətlərini ifadə edə bilərlər.

Vurğulamaq istərdim ki, hazırda aktual olan və faktiki reallaşdırılan dünyanın yenidən formatlaşması məsələsi ictimai meqatrend problemi ilə bilavasitə bağlıdır. Yenidən formatlaşmanın necəliyi məhz meqatredlərin

müəyyənləşməsindən asılıdır. Meqatrend seçimləri, habelə, geosiyasi və geoiqtisadi mənzərəni müəyyənləşdirən başlıca amillərdəndir. Xüsusən sosial-iqtisadi, siyasi və mənəvi-mədəni islahatlar dövründə meqatrend problemi olduqca böyük aktuallıq kəsb edir. Və əksər hallarda problemə yenidən baxış zərurəti ortaya çıxır.

Dünyanın yenidən formatlaşdırılması, deməli, müvafiq geosiyasi fəlsəfə zəminində kompleks işlərin həyata keçirilməsi, əlbəttə ki, ümdə bir problemə münasibətdə aydınlıq tələb edir. Bu problem sual şəklində belə səslənir: bəşəriyyətin düşdüyü "ölü ilmə"dən çıxış yolu nədən ibarətdir? Hansı istiqamətlə getməli, bəşəriyyət nəyə üstünlük verməlidir? Əlbəttə ki, mövqelər müxtəlifdir. Bir-birinə tamamilə zidd olan yanaşmalar da var, bir-birilə uzlaşan, elementləri çarpazlaşanlar da. İri planda isə mövqeləri iki qrupa bölmək olar: kapitalist xətti dəstəkləyənlər və sosialist xəttə üstünlük verənlər. Hər bir qrupun da daxilində yüzlərcə qollar, axınlar mövcuddur. Bir sözlə, yekcins olmayan mənzərə göz önündədir.

Öz mövqeyimi açıqlayaraq, deyə bilərəm ki, bəşəriyyətin nicatı, düşdüyü "ölü ilmə"dən çıxışı, əsasən, sosial ədalət prinsipini, şəxsiyyət suverenliyini və qanunçuluğu rəhbər tutan sosialist vektorundadır. Bu vektor üzrə hərəkət qətiyyən Lenin-Stalin təcrübəsini təkrarlamağı, onu yenidən bəşəriyyətə yaşatmağı nəzərdə tutmur. Ümumi bəşəri meqatrend, eynilə Çin modelini olduğu kimi götürüb, tirajlamaqda da deyil. Şübhəsiz, Çin təcrübəsi, onun ortaya qoyduğu qazanclar, işlək mexanizmlər istifadə olunmalıdır və olunacaq – bir zəmin, nümunə və təkan kimi! Ümumi dünyagörüşü, ideya-siyasi və nəzəri elementlər baxımından da Çin meqatrendi faydalıdır və şübhəsiz, ona istinad ediləcək. Habelə, Şimali Avropa ölkələrinin, Yaponiya, Cənubi Koreya, Tayvan və Sinqapurun nümunəvi islahatlar təcrübəsindən istifadə olunmalıdır. Lakin, prinsipcə, mənim nəzərdə tutduğum ictimai və ümumbəşəri (qlobal) meqatrend öz mahiyyəti etibarilə tam yeni elmi, ideya-siyasi və sosial-iqtisadi biliklər sistemidir. Habelə, yeni mənəviyyat və geosiyasət fəlsəfəsidir. Burada məqbul və vacib sayilan köhnə bilik yeni (emercent) biliyin yalnız bir ünsürü, zəruri tərkib hissəsi ola bilər.

Yüz il əvvəl də bəşəriyyət analoji dərin böhranla üzləşmiş və alternativlər axtarışında idi. 1917-ci ilin Böyük Oktyabr sosialist inqilabı bu alternativlərdən seçimə bir cavab olaraq baş vermişdir. Onun hazırlanmasında, həyata keçirilməsində və bunun davamı olaraq yeni dövlətin qurulmasında əvvəlcədən və məqsədli surətdə zorakılıqdan, sərt üsullardan, amansız rəftar qaydalarından istifadə məqbul və hətta zəruri sayılırdı. Bunlar artıq inqilabın nəzəri əsaslarında təsbit olunmuş və hər vəchlə təbliğ-təşviq edilirdi.

V. İ. Leninin o dövrün bir çox sosial-demokratları ilə, sosialist vektoruna üstünlük verənlərlə mübahisəsi, kəskin çəkişməsi də elə əsasən bu səbəbdən və bu mövzu ətrafında idi. Bu kontekstdə, ilk növbədə, onun Aleksandr Aleksandroviç Boqdanovla baş vermiş fikir toqquşmalarını xüsusi qed etməyi vacib bilirəm.

Təşkilatlanma və idarəetmə nəzəriyyəsi məktəbinin parlaq nümayəndələrindən olmuş A.A. Boqdanov (1873-1928) öz zəmanəsini fikir cərəyanı, idraki gücü və potensialı baxımından xeyli qabaqlamış, "tektologiya" adlanan ümumi təşkilatlanma elmini yaratmışdır. Onun onilliklər sonra formalaşacaq sistem yanaşmaya, bütövlük problematikasına, mürəkkəb sistemlər nəzəriyyəsinə, sinergetika və xaos nəzəriyyələrinə təsiri danılmazdır. Yaradıcılığına yaxından bələd olan bir adam kimi deyə bilərəm ki, A. Boqdanovu tam əsasla bu gün mən işlədiyim və təbliğ etdiyim postneoklassik epistemologiyanın ideya sələfləri sırasına da aid etmək olar. Bu qənaətlərimi 80-90-cı illərdə yazığım əsərlərdə ətraflı arqumentləşdirməyə çalışmışam [**14**].

Rusiya imperiyasında həqiqi sosializm barədə Leninlə Boqdanovun mübahisəsi, demək olar ki, onların Kapridəki söhbətləri ilə tamamlanıb. Sosialist Boqdanov 1905-ci il inqilabının məğlubiyyəti şəraitində israrla çalışıb ki, sosializmin mənəvi-etik dəyərlər sistemini və idarəetmə elminin perspektiv tələblərinə cavab verən potensialını inkişaf etdirsin, bu yönümdə ortada olan zərurətin ödənilməsinin nə qədər vacib olduğunu sosialist xəttinə mənsub aparıcı şəxslərin, o cümlədən, V. Leninin diqqətinə çatdırsın. Onun tektologiya elminin (bir növ, kompüterəqədərki kibernetikanın!) əsas qayəsi də elə buradan qaynaqlanır. Bu məqsədlə o, hətta "İnsan və maşın arasında" adlı kitabında (1913-cü ildə nəşr olunub) idarəetmə sistemləri üzrə zəmanəsinin ən məşhur mütəxəssisi F. Teylorun nəzəriyyəsini dərindən təhlil edib, əhəmiyyətli nəticələr ortaya qoyub.

Boqdanov bəşəriyyətin işıqlı gələcəyini, belə deyək, kommunizmi bütün varlığı ilə istəyən və buna çalışan alicənab adam olub. Lakin V. Lenin və L. Trotski kimi odlu-alovlu inqilabçılardan fərqli olaraq, əvvəldən axıracan bu ideala doğru aparan yolun necəliyi, onun insani-humanist dəyərlər və vasitələr hesabına reallaşması barədə düşünüb. Sadəcə, düşünməyib, bunun üçün çalışıb, əlindən gələni edib. Onun üçün məqsədin (nəticənin) əhəmiyyətliliyi hədəfəçatma prosesinin optimallığı ilə ölçülüb. Bu, həqiqətən də, böyük alim və əsl insan mövqeyi olub!

Lenin, habelə, lev Trotski üçün isə hər vəchlə, insani dəyərlərin amansızcasına təkzibi və tapdalanması hesabına belə, hakimiyyətə yiyələnmək məsələsi vacib idi. İdeala-məqsədə aparan yolun necəliyi, pros-

esin dramatikliyi, üsul və vasitələrin məqbulluğu məsələsi onları qətiyyən düşündürməyib. Aydındır ki, məntiqi olaraq, Leninin cəmiyyəti kökündən dəyişdirmək düsturu aşağıda sadalanan məqamları-elementləri özündə daşımalı idi:

- mənəvi-etik dəyərlərlə və fərqli maraq daşıyıcıları ilə hesablaşmamaq;
- müxalif mövqeli aktorları ictimai prosesdən xaric etmək, hər vasitə ilə onların fəallığına son qoymaq;
- diktat və gücdən, amansız təqib və zordan istifadə;
- "Mən"in suverenliyini çərçivələmək, yəni, yox etmək, fərdi və kollektiv düşüncəni fövqəlideyaya tabe etmək;
- sinergetik başlanğıcları söndürmək, özünüidarə və özünütənzimləmə qabiliyyətlərini fövqəlideya istiqamətində nəzarətə almaq, onları hökm və direktivlər basqısı altında saxlamaq;
- cəmiyyətin bütün seqmentlərinə sərt müdaxiləni və şiddətli mübarizə amansızlığını rəhbər tutmaq;
- təbliğat-təşviqat, dezinformasiya, yalan və qorxu amilini önə çəkmək;
- donosçuluğa-seksotluğa, satqınçılığa rəvac vermək;
- fərdin və ictimai qrupların tamamilə dövlətə-hakimiyyətə tabe edilməsi;
- siyasətdə və iqtisadiyyatda ciddi fikir müxtəlifliyinə, rəqabətə yol verməmək, təbii opponetlik institutunu səhnədən silmək;
- ictimai nəzarət mexanizmlərini bilavasitə dövlət-hakimiyyət nəzarət sisteminin tərkib hissəsinə çevirmək;
- elm və təhsildə, mədəniyyətdə, incəsənət və ədəbiyyatda, mənəvi həyatın bütün sahələrində vahid partiyalılıq prinsipini rəhbər tutmaq.

Sonralar, bildiyimiz kimi, Stalin məhz həmin prinsipləri həyata keçirmişdir. Onun rəhbərliyilə reallaşdırılmış dövlət quruculuğuna xas olan sərt idarəçilik, həttda qəddarlıq və amansızlıq, necə deyərlər, bolşevizmin təməlində dayanan nəzəri müddəalardan, şübhə altına alınmayan imperativlərdən qaynaqlanırdı. Bunu Lenin siyasi fəlsəfəsindən, ümumən, dövrün dominant inqilab nəzəriyyəsindən irəli gələn bolşevizmin nizamnaməsi-məramnaməsi tələb edirdi. Hər halda, Stalinin adına yazılan qəddarlıq və amansızlıq yalnız onun şəxsi keyfiyyətlərinin, anadangəlmə təbiətinin törəməsi və məhsulu deyildi. Bunlar bir bəşəri ideal kimi təqdim və təşviq olunan layihənin özündən doğan atributiv elementləri, xassələri idi.

Həqiqətə qalanda, məsələ təkcə nəzəri müddəalarda-prinsiplərdə də deyildi, belə ki, başqa alternativ də yox idi. Qanlı-qadalı vətəndaş mühari-

bəsindən, Birinci dünya savaşından çıxmış ölkəni, bütün həyat sahələri tənəzzülə uğramış, alt-üst olmuş məmləkəti başqa yolla, özü də qısa bir müddətdə dirçəltmək, bəlkə də, mümkün deyildi. Yumşaq və rəhimdil dövlət quruculuğu, mülayim idarəçilik, yəqin ki, dövrün tarixi şərtləri ilə uzlaşmırdı. Xüsusən də kapitalist dünyasının şiddətli basqı və həmlələrini nəzərə alsaq, daha aydın olar ki, mövcud tarixi şərait Stalin üçün başqa alternativə yol vermirdi. Bu fövqəlinsan da məhz tarixin diqtə etdiyi alternativ üzrə hərəkət etmişdir.

Yumşaq, mülayim idarəçilik Stalindən sonra, Xruşşovun gəlişilə başlamış və SSRİ-nin tənəzzül xətti də elə o zamandan özünə yer etmişdir. Əslində, Xruşşovun gətirdiyi “rəhimdillik”, “mülayimlik” sovet xalqından, sadə insanlardan çox, bürokratiyaya, nomenklaturaya hesablanmışdır, yuxarı-aşağı, müxtəlif ierarxiya pillələrində çalışan məmurların maraqlarına xidmət edirdi. Stalinin yaratdığı və sərt tələblər çərçivəsində saat mexanizmi kimi işləyən dövlət

idarəetmə sistemi (sovet məmurunu ciddi nəzarət və bərk əl altında saxlamaq, onu görməli işinə cavabdeh və məsul etmək düsturu-üsulu) artıq çoxdan nomenklaturanı, yüksək vəzifəli məmurları qane etmirdi. Nomenklatura daim başının üstündə zərbə vurmağa hazır olan “Domokl qılıncı”ndan yaxa qurtarmaq istəyirdi. O, sərbəstliyə, öz fəaliyyət sahəsində padşahlığa, şəxsi və ailə istəklərini təmin etməyə can atırdı. Xruşşovun hakimiyyət başına yüksəlməsi də, habelə, olduqca sərt-tələbkar və bacarıqlı menecer olan L.P. Beriyanın tezliklə aradan götürülməsi də elə əsasən bu motivlərlə izah oluna bilər.

Bəli, Stalinin ciddi nəzarəti, sərt tələbləri altında məhz xalq və dövlət üçün fəaliyyətə səfərbər edilmiş Siyasi Büro üzvləri, yuxarı eşelonda təmsil olunan məmurlar, ağır məsuliyyət və fədakarcasına çalışmaq yükündən yayınmaq, yaxa qurtarmaq, artıq özləri, ailələri və yaxın çevrələri üçün yaşamaq istəyirdilər, həm də qat-qat yaxşı yaşamaq! Burada şəxsi-subyektiv və ailə-qrup maraqları naminə fəaliyyət göstərmək – yüksək (dominant) səviyyədə, əzab-əziyyət hesabına qurulmuş dövlət və zəhmətkeş insanlar barədə düşünmək isə yox dərəcəsində idi. Nomenklaturanı xalqın güzaranı, onun rifah halının yüksəldilməsi, cəmiyyətdə həqiqi azadlığa və ədalətə yol açmaq kimi məsələlər narahat etmirdi. Onu narahat edən, necə deyərlər, burjua xislətindən qaynaqlanan istəklər idi: “ümumi” maraqların hesabına olsa da belə, “təkcə” və “xüsusi” istək-arzuları ödəmək! Beləliklə də, faktiki olaraq, “xüsusi subyektivlik” amili tam məşum bir formada özünə yer etmişdir.

Ən dəhşətli məqamlardan biri ondan ibarət idi ki, bu xüsusi subyektivlik, hər şeydən əlavə, sovet ideoloji sistemini içindən darmadağın edirdi. Belə ki, kollektivçilik ruhu aşımalı, hamıya və hər bir sovet adamına xidmət etməli ideologiya əməldə imtiyazlı azlığın mənafelərinə tabe etdirilirdi. Bununla da rəsmən, guya, rəhbər tutulan ideologiya reallıqla qarşılıqlı təmasda qaçılmaz ziddiyyətlər müstəvisinə salınırdı. Bu, o demək idi ki, rəsmi ideologiya ilə gerçəklik, sözlə əməl arasında günbəgün artan uyğunsuzluğa təməl qoyulmuşdur. Aydın idi ki, belə bir şəraitdə mənəvi destruksiyaya, fərdi və kollektiv şüurda ruhi-psixoloji diskomforta yol açılır, dövlətə və hakimiyyətə münasibətdə insanlarda inamsızlıq və hətta nifrət yaranır, habelə rəsmi dövlət ideologiyasının özü ikrah hissi doğurur və sürətlə gözdən düşür.

O da tam aydındır ki, geosiyasi rəqiblər üçün belə vəziyyət, necə deyərlər, göydəndüşmə olur. Onlar yaranmış fürsətdən geninə-boluna bəhrələnmək, təhlükəli rəqibi sıradan çıxartmaq istəyində bulunur, bütün təbliğat-təşviqat, kəşfiyyat-agentura, təxribat-diversiya şəbəkəsini daha da intensiv surətdə işə salır, gecə-gündüz rəqib ölkə əhalisinə müxtəliv kanal və vasitələrlə təsir etməklə insanların dünyagörüşünü öz məkrli niyyətləri istiqamətində formalaşdırırlar. "Beyinlər yuyulur", bir qayda olaraq, cır düşüncəli millətçilərdən, şovinist xislətli adamlardan, psixopatik tiplərdən, lümpen şüurlu, özünəvurğun "dəli oğlan"lardan əməlli-başlı istifadə edilir. Maraqlı qüvvələr hər vəchlə çalışırlar ki, hədəfə aldıqları dövlətdə idarəetmənin təsirli nöqtələrində maddiyyatçı, mənfəətdar, savadsız və vicdansız məxluqlar yerləşsinlər, beləliklə də mütərəqqi ideya-ideallara, həqiqi milli hiss və maraqlara, ümumbəşəri dəyərlərə heç bir daxili vurğunluğu, sadiqliyi olmayan məmurlar ordusu yaransın. Son nəticədə, cəmiyyətdaxili korroziya sürətlə artır, idarəetmədə xoşagəlməz meyllər yayılır, rüşvətxorluq və korropsiya idarəetmə üsuluna çevrilir, xalqla hakimiyyət, vətəndaşla dövlət arasında dərinləşən uçurum yaranır.

Geosiyasi güclərin (capital dünyasının) aşkar və kizli müdaxiləsi nəticəsində təzahür edən bütün bu simptomlar Stalinin ölümündən sonra qabarıq və artan şiddətlə özünü göstərməyə başlamışdır. N. Xruşşovun hakimiyyət başına gəlməsiylə, demək olar ki, fəhlə sinfinin, ümumən, zəhmətkeşlərin statusuna və ictimai nüfuzuna sarsıdıcı zərbə vurulmuşdur. Nomenklatura məqsədli və ardıcıl surətdə əmək adamının ictimai nəzarətindən çıxarılır, onunla hesablaşmamaq hüququ və imkanı qazanırdı. Əmək adamının diktaturası əvəzinə, imtiyazlı bürokratiyanın, nomenklaturanın diktaturası formalaşdırılırdı. Paralel olaraq, fəhlə-kəndli və ziyalı nomenklaturası da yaradılırdı ki, ümumiyyətlə, bu "qarmaq"lar hesabına

xalqı itaətdə saxlamaq mümkün olsun və siyasi isteblişmenin imtiyazlı həyatına təhlükə yaranmasın. Xalqı yox, məsuliyyətdən və qanunun tələblərindən azad olan nomenklaturanı qoruyan sovet dövləti artıq ciddi korroziyaya, tənəzzülə uğradığını nümayiş etdirirdi. Sonralar L. Brejnev, K. Çernenko və M. Qorbaçovun Baş katib kürsüsünə seçilmələri də elə bu korroziya-çürümə prosesinin davamı, bir ifadəsi kimi izah oluna bilər.

Dünyanın taleyində təsirli rol oynamış tarixi hadisə və prosesləri, hansısa bir meqatrendin özünü necə büruzə verməsi qismində təhlil-tədqiq etmək olar və bu iş vacibdir, lakin baş vermiş tarixi birtərəfli mövqedən mühakimə etməyi məqsədəuyğun və məqbul saymıram. Elə bu mövqedən də mən Böyük Oktyabr inqilabına və Sovetlər İttifaqının təcrübəsinə yanaşıram. Nəyisə, kimisə alqışlamaq və yaxud qaralamaq fikrindən də uzağam. Sadəcə, bəzi mətləbləri müəyyənləşdirmək və onları reallaşdırmaq, məqbul saydığımı oxuculara çatdırmaq, konkret olaraq, gələcək üçün hansı yolun daha düzgün, optimal olduğunu aydınlaşdırmaq naminə öz təhlilimi aparır və fikirlərimi bölüşürəm.

Bir çox illər əvvəl marksizm təlimini təhlil edərək əsaslandırmışdım ki, K. Marksın nəzəriyyəsi – dopinq nəzəriyyədir, yəni, onun sağlamlaşdırıcı gücü-potensialı qısamüddətli ola bilər. Eyni zamanda, göstərmişdim ki, marksizm, xoşməramlı motivlərdən qaynaqlansa da, amansız diktaturaya meyllik onun bətnindən, daxili məntiq-mahiyyətindən doğur. Nəzəriyyədə marksizmi birmənalı qəbul edən və rəhbər tutan, istər-istəməz, ictimai-tarixi praktikada zor işlətməyə məhkumdur, başqa cür ola bilməz. Marksizm təlimi əsasında ictimai rekonstruksiya həyata keçirmək – elə öncə zora-təqibə, bir sözlə, diktaturaya arxalanmaq və ona rəvac vermək deməkdir! Bu təlimdə, faktiki olaraq, siyasi motivli fikir, mütləq həqiqət qismində götürülərək, mütləqləşdirilir, bu "yeganə həqiqət"ə şübhə yeri qoyulmur; hər hansı fərqli fikir, opponent mövqeyi bəribaşdan təkzib və rədd edilir, bunula da ictimai rekonstruksiya prosesində "yadlar" kateqoriyasına daxil edilənlər sosial-siyasi, iqtisadi və mənəvi-mədəni iştirakçılıqdan kənarlaşdırılırlar. Hətta onların açıq-aşkar təqibi, fiziki məhvi də məqbul sayılır. Sovetlər praktikası bu məqbulluğu nəinki təsdiq etmiş, həyata da keçirmişdir. 37-ci il də daxil, həyata keçirilmiş silsilə repressiyalar da elə bu qəbildəndir. Ümumiyyətlə, yalnız marksist-leninçi müddəalara söykənən siyasi praktika şəraitində hansısa demokratik norma və prinsiplərə, bərabərhüquqlu ictimai iştirakçılığa yer verilmir, çünki özünütəşkil və özünüidarə ocaqları, sinergetik başlanğıclar öncədən sıxışdırılır və boğulur. Belə siyasi praktika mühitində dövlət yalnız "bərk əl", "dəmir ira-

də", sərt idarəçilik və toyal təbliğat-təşviqat vasitəsilə öz funksionallığını saxlaya bilər.

Deməк istədiyim ondan ibarətdir ki, Stalinin adına-ayağına yazılan zor, təqiblər, repressiyalar bilavasitə marksizm-leninizmdən irəli gələn nəticələr idi. Siyasi təlim olan leninizm marksizmin konkret zaman-məkan daxilində bir modifikasiyası, K. Marksın öz ifadəsilə desək, təbii-tarixi məhsulu olmuşdur. Ehtimal ki, mükəmməl elmi biliyə malik mütəfəkkir, cəmiyyətin bir mürəkkəb sistem olduğunu və bu mürəkkəbliyin necəliyini çoxlarından yaxşı bilən alim-ensiklopedist, həkim və yazıçı A. Boqdanov, məhz marksizmin yuxarıda göstərdiyim bu neqativlərini dərk edərək, "sadiq marksist", "dünya proletarlarının rəhbəri" V. Leninin baxışlarını bölüşməkdə çətinlik çəkirmiş, o vaxtın sosial-demokratlarından və hətta bolşeviklərindən olsa da (1905-ci ildən 1912-ci ilə qədər). Boqdanovun sosializmi, əslində, Leninin və bütövlükdə bolşeviklərin sosializmindən bir sıra prinsipial müddəalarına görə fərqlənirdi, özü də - yaxşı mənada! [**17**]. O, sosializmin mənəvi-etik tərəflərinə, əsaslarının konstruktivlik-rasionallıq tələblərinə və ümumi təşkilatlanma, özünüidarəetmə, sisteməqovuşma və sistemyaratma məsələlərinə daha həssas və elmi surətdə yanaşırdı.

Bu yerdə başqa bir alim-mütəfəkkirin, XX əsrin ən nəhəng elm adamı Albert Eynşteynin sosializmə bəslədiyi vurğunluğunu xatırlatmaq istərdim. Onun "Nə üçün sosializm?" adlı essesi tanınmış Amerika siyasi iqtisadçısı, monopolist kapitalizm nəzəriyyəsinin banisi Pol Suizinin xahişilə yazılıb və 1949-cu ilin may ayında "Aylıq icmal" (Monthly Review) jurnalının birinci sayında dərc edilib [**23**]. O illərdə Eynşteyn Qərbdə irticaya qarşı aparılan mübarizənin mərkəzində fəallıq göstərib, ABŞ-da vətəndaş hüquqlarının pozulmasına qarşı vuruşub və sülh uğrunda beynəlxalq hərəkatın təşkilatçısı olub. Sosializmə üstünlük verən və onu alqışlayan alim, eyni zamanda, sosializm quruculuğunda adekvat metodların, yəni, insani üsul və vasitələrin vacibliyi məsələsini önə çəkib. Onun fikrincə, həqiqi sosializm sosial-etik məqsəd daşıyır və bu məqsədin reallaşması insani keyfiyyətlərin artmasından keçir. Cəmiyyət, ictimai mühit insanları təhdid etməməli, onların üzvi sığınacaq və rahat fəaliyyət yeri olmalıdır. Habelə, Eynşteyn zəruri saydığı planlaşdırmanın, özlüyündə, əlahiddə götürüldükdə, kafi olmadığını söyləyib.

Eynşteynin həmin essedəki mülahizələrindən maraqlı və əhəmiyyətli əqlinəticələr hasil olunur: kapitalizm cəmiyyəti, istər-istəməz, insanları eqoistliyə sövq edir; öz eqoistliklərinin əsirinə çevrilmiş bədbəxt bəndələr isə daim özlərini tənha, həyatın ən sadə sevinclərindən məhrum, qorxu və təhdidlər içərisində hiss edirlər; insan, həyatının mənasını yalnız özünü

cəmiyyətə, başqalarına, ülvi mətləblərə, ali məqamlara həsr etdikdə tapa bilər. Qeyri-insani, dəhşətli vəziyyətin həqiqi mənbəyi məhz kapitalizmə xas olan fetişləşmiş iqtisadi rəqabət və iqtisadi anarxiyadır. Biz qarşımızda böyük bir istehsal-istehlak icması görürük ki, onun hər bir üzvü bir-birini kollektiv əməyin məhsulundan məhrum etməyə çalışır. Və zorla deyil, əsasən qanunlarla sanksiyalanmış qaydalara riayət etməklə. Onu da nəzərdən qaçırmamalıyıq ki, zəruri olan bütün istehsal vasitələri, iqtisadi güc ayrı-ayrı şəxslərə məxsusdur, onların mülkiyyətidir. Anlamaq vacibdir ki, hətta nəzəriyyədə fəhlənin əməkhaqqı onun istehsal etdiyi məhsulun dəyəri ilə müəyyənləşmir.

Böyük alim vurğulayır ki, xüsusi kapitala azlığın əlində cəmləşmək (konsentrasiya olmaq) tendensiyası xasdır. Bu, bir tərəfdən, kapitalistlər arasındakı rəqabətlə bağlıdır, müəyyən qədər də onunla ki, texniki-texnoloji inkişaf və dərinləşən əmək bölgüsü kiçik istehsal vahidlərinin hesabına nəhəng istehsal vahidlərinin formalaşmasını səbəbləndirir. Bu proseslər nəticəsində kapitalist olqarxiyası yaranır ki, onun da dəhşətli hökmranlığını hətta demokratikcəsinə təşkil olunmuş cəmiyyətin özü effektli surətdə məhdudlaşdıra bilmir. (Bu yerdə bizim, guya, inshisara, oliqarxiyaya qarşı mübarizə aparan milli demokratlara məsləhət görərdim ki, Eynşteyn kimi dahiləri yenidən yaxşı-yaxşı oxusunlar!).

“Nə üçün sosializm?” məqaləsini A. Eynşteyn bu fikirlərlə tamamlayır: “Mən əminəm ki, bu dəhşətli şərdən yaxa qurtarmaq üçün yalnız bircə üsul var – müvafiq təhsil sisteminə malik sosialist iqtisadiyyatının yaradılması yolu ki, ictimai məqsədlərə çatmağa yönümlənmiş olsun. Belə iqtisadiyyatda istehsal vasitələri bütün cəmiyyətə məxsusdur və plan üzrə istifadə edilir. İstehsalı cəmiyyətin tələbatlarına uyğun tənzimləyən planlı iqtisadiyyat zəruri əməyi işqabiliyyətli cəmiyyət üzvləri arasında paylaşdıra bilərdi və hər bir kişinin, qadının və körpənin yaşamaq hüququna qarant olardı.

Təbii qabiliyyətləri inkişaf etdirməkdən əlavə, insanın təhsillənməsi başqa adamların həyatına münasibətdə məsuliyyət hissinin inkişafını (hakimiyyətin və uğurun bizim cəmiyyətdəki tərənnümünün əvəzinə) özünə məqsəd qoyardı. Yadda saxlamaq zəruridir ki, planlı iqtisadiyyat hələ sosializm deyil. Öz-özlüyündə o, şəxsiyyətin tam təhkimçiliyi ilə müşayiət ola bilər. Sosializmin qurulması həddən ziyadə mürəkkəb sosial-siyasi problemlərin həllini tələb edir: siyasi və iqtisadi mərkəzləşmənin yüksək dərəcədə olmasını nəzərə alaraq, necə etmək lazımdır ki, bürokratiya fövqəlgücə çevrilməsin? Şəxsiyyət özünün və başqalarının hüquqlarının müdafiəsini, bununla bir yerdə isə, bürokratiya hakimiyyətinə qarşı demo-

kratik əks-təsiri necə təmin etməli? Sosializmin məqsəd və problemlərinə dair aydınlıq bizim keçid zamanında nəhəng əhəmiyyətə malikdir” [**24**].

Sosializmin danılmaz üstünlüklərindən yazan və deyən görkəmli şəxsiyytlər əvvəllər də çox olub, sonralar da. Burada onlardan A. Eynşteynlə əlaqəli yalnız birinin – 1 mart 2019-cu ildə vəfat etmiş məşhur fizik, Nobel mükafatı laureatı, akademik Jores Alfyorovun adını çəkmək istərdim. “Elm uğrunda” qəzetin 27 may 2016-cı il tarixli sayında “Albert Eynşteyn, sosializm və müasir dünya” adlı məqaləsində, məsələn, yazır: “Sovet İttifaqının dağılmasından sonra bizim ölkədə qurulmuş və alqışlan-an “hüquqi dövlət” tamamilə qanuni əsaslarla başqalarının mülkiyyətini reydersayağı ələ keçirməklə məşğuldur” [**3**]. J. Alfyorov öz məqaləsini belə fikirlə tamamlayır: “K. Marksın “elm – cəmiyyətin məhsuldar qüvvəsidir!” formulu bizi etik normalara görə ali olan cəmiyyətə - SOSİALİST cəmiy-yətinə səsləyir” [**16**].

Rusiya telekanallarının birinə müsahibə verən görkəmli alim bu maraqlı fikirləri də söyləmişdir: “Böyük Vətən müharibəsindən cəmi bir il sonra - 1946-cı ildə institut dosentinin aldığı əməkhaqqı rayon partiya komitəsi katibinin maaşından iki dəfə çox idi, üstəlik də, alim-pedaqoqun müxtəlif güzəştləri, imtiyazları vardı. Dövlət alimin, müəllimin nüfuzunu yüksək tuturdu, ona hərtərəfli qayğı göstərilirdi. Elmdə, texnikada, cəmiyyətimizin inkişafında böyük uğurlar da bu hesaba idi! Bütün bunlar bir həqiqətdir! Belə quruluşu məhv edib, yerində yırtıcılara sərf edən nəsə yaratmaq düzgün iş deyil, cinayətdir!” .

Belə deyim var: “Od axtaran onu tüstüsü ilə birgə tapır”. Bu həqiqəti elə hər iki meqatrend tipinə - sosializmə də, kapitalizmə də şamil etmək olar: hər birinin öz tüstüsü var – acı və gözçıxardan. Və ictimai fikir tarixində, habelə, siyasi idarəetmə praktikasında dəfələrlə belə cəhdlər olub: sosializmi kapitalizm hesabına, kapitalizmi isə sosializm hesabına yaxşılaşdırmaq, yəni, tüstüdən azad etmək. Elə sintezləşmə aparmaq ki, nəticədə hər iki meqatrend tipinin yalnız müsbət cəhətləri öz ifadəsini tapsın, tüstüsü-çəni aradan götürülsün. Bu kontekstdə bir sıra görkəmli fikir və əməl sahiblərinin adlarını çəkə bilərik: məsələn, utilitar (individualist) və kollektivist (sosialist) düşüncə elementlərini sintezləşdirməyə cəhd etmiş E. Dürkheimi, M. Veberi, Z. Freydi, E. Frommu, T. Parsonsu, iqtisadi və siyasi konvergensiya mövqeyindən çıxış edən C. Helbreyti, P. Sorokini, Y. Tinbergeni, R. Aronu, C. Streyçi, A. Saxarovu, habelə, dövlət xadimi Den Syaopin kimi böyük reformator-mütəfəkkirləri göstərə bilərik.

Sosializmin və kapitalizmin sintezləşməsindən və yaxud konvergensiyasından söhbət gedəndə, sanki, bir dəb üzrə, əksəriyyət tamamilə

səhv qənaət sərgiləyərək, belə fikir söyləyir: "bu sintezləşmə, konvergensiya cəhdi boş şeydi, ictimai praktika və tarix göstərir ki, sosializmlə kapitalizmin tamamlanması və ya kapitalist elementlər hesabına sosializmin dolğunlaşdırılması, prinsipcə, mümkün deyil". Və təfəkküri ətalətə mübtəla olmuş insanlar, yumşaq desək, bu yalanı heç bir şübhə altına almadan qəbul edir və onu tirajlayırlar. Baxmayaraq ki, elə ictimai praktika və tarixin özü əks fikir söyləməyə əsas verir: yəni, sosialist elementlərlə kapitalist elementlərin ağıllı, ciddi ideya-nəzəri zəminlərə söykənən sintezləşməsi həmişə müsbət nəticə verib! Çin və indiki Vyetnam da daxil olmaqla bəzi ölkələrdəki konfutsian sosializm, Tayvan, Honkonq, Sinqapur kimi dövlətlərdə isə qərarlaşmış konfutsian kapitalizm buna əyani sübutdur. Dərinə getsək, deyə bilərik ki, Yaponiya, Cənubi Koreya və Yeni Zenlandiya, İsveç, İsveçrə, Danimarka, Avstriya və Hollandiya da, habelə, İngiltərə və Fransa kimi ölkələrin özü bu inteqrallaşmadan (kapitalizmin sosialist elementlərlə zənginləşməsindən!) az bəhrələnməyiblər. Bu həqiqətləri anlamaq üçün kifayət deyil ki, hansısa konyukturaya xidmət edən "mütəxəssisin" uydurmalarını kor-koranə mənimsəyəsən, vacibdir ki, hadisə və proseslərin, tarixi faktların mahiyyətini açmaq, onların dərin köklərini anlamaq üçün özün-özünə kömək edəsən. Bu da yoxdursa, yaxşı olar ki, konyukturadan, tərəfli mövqedən uzaq duran tədqiqatçıları oxuyasan!

Çoxlarına təəccüblü gəlsə də, demək istərdim ki, məsələn, konfutsian kapitalizm arealına daxil olan Yaponiyada kapitalizmlə sosialist elementlərinin milli ənənələr və dəyərlər əsasında üzvi sintezini ilk dəfə uğurla həyata keçirən (əvvəlcə nəzəri müstəvidə, sonra isə praktikada) böyük sənayeçi və mütəfəkkir Sibusava Eydzi (1840-1932) olmuşdur. İmperator Meydzinin (Mutsixito, 1852-1912) məşhur islahatları da xeyli dərəcədə Eydzinin nəzəri-praktiki təcrübəsinə, məfkurə və əməl sisteminə arxalanmışdır. Bu barədə mən hələ 2005-ci ildə çap olunmuş "Demokratiya: reallıq və zərurət" [**15**] adlı kitabımda fikir söyləmişdim.

Ümumiyyətlə, düşünürəm ki, kapitalist və sosialist elementlərin müxtəlif modifikasiyalarda çarpazlaşması-sintezləşməsi inkişaf etmiş ölkələr sırasına aid etdiyimiz bütün ölkələrə xasdır. Bu fikri söyləməyə onların yaşadıqları təkamül tarixinin, mövcud durumlarının dərin təhlili əsas verir. Həmin təhlil həm də onu göstərir ki, üzvi sintezləşmənin dərəcəsi və keyfiyyəti, hər şeydən əlavə, xalqların mentaliteti ilə, onların nizamsevərliyi, rasionallığa önəm vermələri və fədakarlıqları, ictimai borca həssaslıqları ilə sıx bağlıdır. Bu kontekstdə düşünərək, biz ingilisləri, almanları, hollandları, fransızları, amerikalıları, yaponları, koreyalıları, nəhayət, çinliləri, tayvanlıları və vyetnamlıları başqalarından müsbət mənada fərqləndirməli

deyilikmi? Etiraf etməli deyilikmi ki, gözəl nəzəri konsepsiya və paradiqmaların, bu əsasda möhtəşəm idarəetmə sistemlərinin yaradılmasında, fərdlərin təşəbbüs və azadlıqlarına, onların rahat və firavan həyatına əlverişli şərait və imkanlar formalaşdıran başlıca amil-güc elə ilk növbədə xalqların özüdür, insanların inteqrativ keyfiyyətidir?! Necə qəbul edə bilərik ki, fərdi və kollektiv əməyin, ictimai həyatın özünün təşkilində konkret insan və xalq amili kənara qoyulsun, bir növ, məsuliyyət altından çıxarılsın?!

Yalnız ortodoksal marksist-leninçi mövqedən çıxış edərək "görünən dağı" kənara atmaq, hesaba almamaq, hər şeyin adını "üstqurum" qoyaraq iqtisadi bazisdən törədiyini şişirtmək olar. Söz yox, heç bir ağıllı və vicdanlı kəs iqtisadi bazisin, istehsal üsulunun rolunu və əhəmiyyətini təkzib etməyə girişməz. Müəyyən ictimai həyat intervallarında bu bazisin müəyyənediciliyini də qəbul edər. Lakin bazisin müəyyənediciliyini, dominantlığını mütləqləşdirmək, iqtisadi amillərin yerini və rolunu olduğundan çox şişirtmək obyektiv reallığı, bəşəri həyatın mahiyyətini təhrif etmək, təbii-tarixi qanunauyğunluqlara zor göstərmək deyilmi?! İqtisadi bazisin özünü, istehsal üsulunu, əmək alət və vasitələrini, görəsən, hansı fövqəlqüvvə ixtira edib yaradır ki, burada insana, xalqa və millətə ehtiyac qalmır? Qalmırsa, marksistlər-leninistlər bir ağızdan, xeyr ola, belə şuar səsləndirirlər: "Xalq – tarixin yaradıcısıdır!". Əcaba, bu, necə məntiqdir: xalq tarixin yaradıcısı olur, ancaq onun hansı keyfiyyət daşıması qətiyyən bir əhəmiyyət kəsb etmir; yaxud tarixin yaradıcısı olan xalqı təmsil edən insan yalnız ictimai münasibətlərin məcmusu sayılır, onun bir "MƏN", bir suveren "nüvə" kimi dəyəri bir qara qəpiklə də ölçülmür. Burada, istər-istəməz, ABŞ prezidenti Ronald Reyqanın vaxtilə söylədiklərini xatırlayıram. O, "kommunist kimdir?" sualına – "Marksı və Lenini oxuyan!", "Bəs, antikommunist kimdir?" sualına isə – "Marksı və Lenini oxuyub, başa düşən!" cavabı vermişdir. İngiltərənin Baş naziri Marqaret Tetçerin də bir düşündürüçü fikrini xatırlatmaq istərdim: "Sosializmin problemi ondadır ki, əzəl-axır başqalarında da pul qurtarır".

Bir çoxları, xüsusən keçmiş SSRİ məkanında və sosialist düşərgəsində yaşamış insanlar, indiki narahat, sıxıntılı vəziyyətdən narazı olaraq, adətən, belə fikirlər söyləyirlər: "Mən repressiyaların tərəfdarı deyiləm, ancaq elə ideya var ki, mənim üçün əzizdir. Bu, sosializm ideyasıdır ki, insanları daha yaxşı birləşdirir, onlarda bir-birinə qayğıkeşlik, mərhəmət aşılayır. 10% vətəndaşın milli sərvətin 90%-nə sahib olduğu indiki vaxtda belə şeylər mümkün deyil". Analoji olaraq, bu cür də deyənlər var: "Siyasətdə solçu baxışları rəhbər tut, çünki yalnız sosializm tərəfdarları, bütün səhvlərinə

baxmayaraq, sözün həqiqi mənasında insanlara biganə deyillər. Onların təəssübünü çəkirlər, dünyanı yaxşı istiqamətdə dəyişmək istəyirlər".

Son illərdə oxşar fikirlər Rusiya mətbuatında, internet saytlarında, tel-eradio verilişlərində daha çox səslənir. Özü də yalnız sadə adamlar yox, həm də hakimiyyətə yaxın şəxslər tərəfindən. Görünür, rəsmi Rusiya hakimiyyəti, ilk növbədə, prezident Putin, müəyyən məqsəd güdərək, belə ovqatın formalaşmasında maraqlıdır.

Bu dalğada Stalinin pərəstişkarlarının sayı və reytinqi də durmadan artmaqdadır. Qeyri-hökümət təşkilatı kimi özünü təqdim edən "Levada-Sentr"in 2017-ci ilin iyun ayında nəticələrini açıqladığı sosioloji sorğuya əsasən, İosif Stalin bəşər tarixinin ən görkəmli dövlət başçısı kimi, birinci yer tutub [**19**]. V. Lenin isə üçüncü yerdə gəlir. Sosioloji sorğu 2017-ci ilin 7-10 aprelində Rusiyanın 48 regionunda, 137 yaşayış məntəqəsində 18 yaşdan yuxarı 1,6 min şəxs içərisində aparılıb. O da maraqlıdır ki, Kreml sorğunun nəticələrinə dair hansısa konkret fikir söyləməkdən çəkinmişdir, baxmayaraq ki, "bütün zəmanələrin və xalqların ən görkəmli şəxsiyyətləri" sırasında həmin sorğunun nəticələrinə görə Stalindən sonra V. Putinin adı gedir [**22**].

Düşünürəm ki, Rusiyanın hal-hazırki durumunda Stalinə münasibət heç də təsadüfi və keçici məsələ deyil. Müvafiq meqatrend axtarışlarının intensivləşdiyi və konseptual müxtəlifliyin durmadan artdığı bir vaxtda bu məsələ, bəlkə də, müstəsna əhəmiyyət kəsb edir. Həm də təkcə Rusiya üçün yox! Bu məsələdə müəyyənləşmə, istər-istəməz, qonşu postsovet ölkələrinin, o cümlədən, Azərbaycanın da bugününə və gələcəyinə təsir edəcək. Bu mənada bizim də yaranmış multiparadiqmal fəzaya qoşulmağımız, öz təhlillərimizi apararaq qənaətlərimizi ortaya qoymağımız vacibdir. Stalin fenomeni və onunla bağlı bir çox problemlər yalnız Rusiya məsələsi deyil. İndiki meqatrend axtarışları prosesində bizim üçün də aktual və aydınlaşmasını tələb edən məsələdir. Nəzərdən qaçırmamalıyıq ki, inkişaf etmiş sivil ölkələrin varlığını şərtləndirən dəyərlər və nailiyyətlər kompleksinə biz daxilən istəkli olsaq da, tarixi yaşayış məkanımız Avrasiya olub və belə də davam edəcək. Bu məkanda yaşayaraq da biz Rusiya və başqa qonşu ölkələrlə vahid tarixin iştirakçıları olmuşuq, ən azı, ümumi həyat elementlərinə, çarpazlaşan, bəzən də üst-üstə düşən ənənə, düşüncə və əməl parametrlərinə sahiblənmişik, idarəetmə və inzibatçılıq yolu keçmişik. Ona görə də, xoşbəxt gələcəyimizi qurmaq istəyində bulunaraq, bu tarixən obyektivləşmiş həqiqətlərə göz yummamalı, təkamül dialektikasını zorlamamalı, universal olanı təpikləməklə xüsusini və təkcəni qandan-qidadan məhrum etməməliyik.

Bir təkcə Stalin məsələsində deyil, bütün taleyüklü problemlərin araşdırılıb həll olunmasında ən düzgün yanaşma ondan ibarətdir ki, ümumini görək, duyaq və təhlildən kənarda qoymayaq. Ümuminin ("Tam"ın) statusu, mahiyyəti, tələbləri qeyri-təbii və qeyri-məntiqi surətdə təkzib edilərsə, təkcə və xüsusi olanların taleyinə də sağalmaz yaralar yetirilər, onların bugünü və perspektivləri əllərindən alınar. Çəkinmədən deyə bilərəm: ümumi-xüsusi-təkcə əlaqə və nisbətlərində DİALEKTİKAnı dərindən anlaya bilməyənlər, yəni, düşüncə və dünyagörüş cəhətdən qəbahətlər daşıyıcısı olanlar dövlət, millət, xalq, cəmiyyət, azadlıq və suverenlik, iqtisadiyyat və idarəetmə, sosial həyat və mənəviyyat, ictimai rekonstruksiya və geosiyasət kimi məfhumlarla bağlı problemlərə girişib, insanlara yol göstərməsələr, daha yaxşıdır! Hər halda, belə hərəkət etsələr, az ziyan verərlər.

Hansısa emosional ovqatdan, yaxud da sadəcə, eqoistik-konyuktur motivlərdən çıxış edərək və "mən də varam!" deyərək insanları çaşdırmaq, xalqın taleyini alt-üst etmək – vicdansız, məsuliyyətsiz, yəni, intellektuallıqdan məhrum adamların peşəsidir. Bu tip şəxslər (özlərini "politoloq", "siyasətçi", "sosioloq", "ekspert" adlandırsalar da!), bir qayda olaraq, hamıdan çox vətənpərvər, millət və din təəssübünü çəkən kəslər kimi görünməyə çalışır, hər vəchlə ictimaiyyəti ovsunlamağa girişirlər. Əfsuslar ki, onların təmtəraqlı sözlərinə uyan və inananlar az deyil. Bunlar, sadəlövhcəsinə, belə vicdansızların şüarlarına aludə olaraq, son tənqidi düşüncə elementlərini də, sinergetik birgəyaşayış mədəniyyətini də itirir, səadət və xoşbəxtlikdən daha da uzaqlaşırlar. Bu acı təcrübə dünən də olub, indi də var, sabah da özünü göstərəcək. Göstərməməsi üçünsə, her olmasa, bir yoluxucu xəstəlik kimi tənqidi mövqedən qeyd edilməli və məqsədli maariflənmə işi aparılmalıdır.

Söz yox, fikir müxtəlifliyi yaxşı və lazımlı şeydir. Ancaq bu yaxşılıq o vaxt hasil olur ki, fikir müxtəlifliyi sərsəm şüarların səsləndirilməsinə, kinküdurətin püskürməsinə, dəyərli tarixi şəxsiyyətlərin adından suiistifadələrə yox, vahidliyə, rasional fəaliyyətə və pozitiv nəticələrə xidmət edir. Bu, həqiqi plüralizmə, fikir azadlığına və demokratiyaya təminat verən tələbdir. Bu, eynilə, dialoji təfəkkürün atributu-tələbidir. Ümumi götürdükdə isə, dialoji təfəkkür tənqidi-sinergetik təfəkkür tipinin mühüm əlaməti, ayrılmaz xassəsidir. Belə demək olar: dialoji təfəkkür – tənqidi-sinergetik təfəkkürün mövcudluq üsulu və vasitəsidir. Fikir cərəyanında, onun hər bir mərhələsində və səviyyəsində daxili dialoq, yəni, qarşılıqlı fayda verən mübadilə və özünükorreksiya yoxdursa, tənqidi-sinergetik təfəkkürdən danışmaq əbəsdir.

Tənqidi-sinergetik təfəkkür və onun ayrılmaz atributu olan dialoji təfəkkür barədə vaxtilə kifayət qədər yazmışam. Burada, qısaca, bəzi məqamlara bir daha toxunmaq istəyirəm.

**Birincisi**, dialoji təfəkkür və bütövlükdə tənqidi-sinergetik təfəkkür, bəzi şəxslərin anladığı kimi, yalnız iki, üç və daha çox subyekt arasındakı diskussiyaya, fikir üzləşməsinə və mübadiləsinə şamil olunmur. Onun əhəmiyyətli cəhəti ondadır ki, düşüncə sahibi olan konkret fərdə, ayrıca götürülmüş subyektə də şamil edilir. Dialoji təfəkkür, ilk növbədə, fərdin öz təfəkkür tərzini, onun fikir refleksiyasını, düşüncə cərəyanını xarakterizə edir. O, ehkamlar, şüar və postulatlar, qəlibləşmiş aksiomalar vasitəsilə yox, inkişafda olan fikir elementlərinin, alternativlərin müqayisəsi və konvergensiyası vasitəsilə məntiqəuyğun düşünməyi, əqlinəticələr irəli sürməyi tələb edir. Yalnız bu halda konkret insan fərdlərarası disskussiyada dialoji mühitə, fikir məhsuldarlığına, idraki xəzinəyə fayda verə bilər. Dialoji təfəkkürə əməli konstruktivlik, fikir cərəyanının sistemliliyi və ardıcıllığı, düşüncə məsuliyyəti və nizamı xasdır.

**İkincisi**, öz tarixi kökləri, intişar mənbələri baxımından dialoji təfəkkür müasirliyi qədər də ənənəvi hadisə-fenomendir. Onun parlaq nümunələrinə misal olaraq, biz qədim filosofların, görkəmli mütəfəkkirlərin söhbətlərini, əsərlərini göstərə bilərik. Bu gün də həmin qaynaqlar qida mənbəyidir. Eynilə, dialoji təfəkkür millilikə bəşəriliyin üzvi vəhdətinə, harmoniyasına motivasiyalı və sevgili təfəkkürdir.

**Üçüncüsü**, dialoji təfəkkürün əhəmiyyəti yalnız idraki-koqnitiv sahə ilə məhdudlaşmır. O, fəaliyyət fəlsəfəsini (prakseologiyanı) müəyyənləşdirmədə daha dürüst və qabiliyyətli olduğundan, ictimai praktikanın məzmun-mahiyyətinə bilavasitə pozitiv təsir göstərir. Bu mənada dialoji təfəkkürün siyasi islahatların təşkili və aparılmasında, geosiyasi mühitin, beynəlxalq münasibətlərin formalaşmasında artan aktuallığı, yeri və rolu danılmazdır. Fikrimcə, dialoji təfəkkür dünyanın yenidən formatlaşmasında və ictimai meqatrendin müəyyənləşib qərarlaşmasında ən mühüm amil-vasitələrdən biridir. Bu təfəkkür dini, etnik, mədəni, siyasi və iqtisadi müxtəlifliklərin ortaya çıxartdığı məhdudiyyətləri dəf etməyə, tolerantlığa və harmoniyaya, birgəyaşayış mədəniyyətinin pozitiv məqamlarına, rəngarənkliyin ümumi potensial gücünə vüsət verməyə qadirdir.

Azərbaycan reallıqlarını nəzərə alsaq, dialoji təfəkkürün önəmliliyini vurğulamaq, düşünürəm ki, olduqca əhəmiyyətlidir. Mətbuatda, internet saytlarında, məqalə və kitablarda (xüsusən də siyasi, geosiyasi və geostrateji məsələlərə dair) tez-tez elə mülahizələrə, imperativ-diktə xarakterli fikirlərə rast gəlirsən ki, tam məəttəl qalırsan. Məsələn: “Biz

Rusiya, İran və Çinin müttəfiqi ola bilmərik", "Rusiya bizim böyük düşmənimizdir", "İranla, Rusiya ilə bizim birgə gələcəyimiz ola bilməz", "Çin də, SSRİ kimi, dağılacaq", "Bütün xristian dünyası müsəlmanlara qarşıdır", "İslam – gələcəyə aparan yeganə yoldur!" və s. Ziyan yetirməkdən başqa heç bir pozitiv yük daşımayan, hansısa ciddi araşdırmalara söykənməyən, milli maraqlara və ümumən sağlam məntiqə zidd olan bu cür hökmvari sözlər-şüarlar, görəsən, nəyə hesablanıb? Onları səsləndirən partiya sədrləri, politoloqlar, ekspertlər nə vaxta qədər milli-mədəni və dini dəyərləri, görkəmli şəxsiyyətlərin adını istismar edərək, siyasi reytinq və maddi dividentlər qazanacaqlar? Axı, yerli-yersiz bəyanatlarla, məntiqi və faktoloji kökləri olmayan mülahizələrlə, əsassız çağırış və vədlərlə məqbul siyasət mümkün deyil!

Gəldiyim qənaət budur: ifrat millətçiliyə və mövhumatçılığa əl atanlar, etno-milli və dini amillərdən, tarixi şəxsiyyətlərin adından sui-istifadə edənlər, adətən, kamil peşəkarlığı, savadı, istedadı, sərrast icraçılıq qabiliyyəti olmayan adamlar içindən çıxır. Onların ambisiyaları həmişə bilik və bacarıqlarını üstələyir. Elə bu daxili təzadlar komleksi də hansısa peşə-sənət istiqamətində onların püxtələşməsinin, kamilləşməsinin qarşısını alır. Zaman axarında isə həmin təzadlar kompleksi zəruri çərçivə və ölçü bilməyən bu adamları rəzil günə qoyur. Bununla yanaşı, onlar az-çox təmsil etdikləri fəaliyyət sahələrinə də xeyli ziyan yetirirlər. Bu tip adamlara bəzən "psixopat" da deyirlər. Lovğalıq, eqoizm, kin və aqressiya, parçalama və ayırma, uydurma və böhtan, necə deyərlər, əllərindən gələn işdir. Dəqiq desək, qüsurlu təbiətlərinin xrakterik elementləridir. Bacarmadıqları isə mərhəmətli, məsuliyyətli və vicdanlı, yəni, alicənab olmaqdır, nizama, qayda-qanuna və ədalətə daxili vurğunluq göstərməkdir, insanları mütərəqqi ideya-ideallara doğru hərəkat istiqamətində birləşdirməkdir. Onlar, ümumiyyətlə, insanlarda, cəmiyyətdə nəsə fəzilətli bir şey, birləşdirici tellər axtarıb-görməyə qadir olmurlar. Ambisiyaları ağıl və bacarıqlarını hədsiz dərəcədə üstələyən bu adamlar özlərini millətin vicdanı, haqq və ədalət carçıları qismində təsəvvür edir və bunu ictimailəşdirməkdən çəkinmirlər. Ümumən, onların ictimai fikrə, siyasi-mənəvi mühitə, dialoq mədəniyyətinə, konstruktiv islahatlar prosesinə vurduqları ziyan danılmazdır.

Üzdə özlərini idealist kimi göstərən, daxilən isə qatı maddiyatçı, super-materialist olan bu şəxslər hər bir ölkə, o cümlədən, Azərbaycan üçün ən böyük təhlükə mənbələrindən biridir. Belə ki, daxili və xarici düşmən qüvvələrin müxtəlif mənfur həmlə və layihələrində (müəyyən maddi dividentlər. maliyyə ödənişləri, qrantlar müqabilində) yer alaraq çirkin öhtəlikləri icra etmək onların, sanki, həyat düsturuna çevrilir.

Konkret hadisə və faktların təhlilindən çıxış edərək açıq demək istəyirəm: son onilliklərdə Azərbaycanın siyasi və mədəni mühitinin çirklənməsində, ailə də daxil olmaqla müxtəlif social institutlarının korroziyaya uğramasında məhz bu şəxslər xüsusi canfəşanlıq göstəriblər və hazırda da onlar destruktiv fəaliyyətlərini davam etdirməkdədirlər. Əfsuslar ki, bu məşum fəaliyyətin qarşısını almaqda müvafiq dövlət qurumları, elə ictimaiyyətin özü də anlaşılmayan acizlik göstərir.

Şübhəsiz, yetirilən bütün bu ziyanlar Azərbaycan meqatrendinin formalaşıb sabitləşməsində də, ölkənin geosiyasi, siyasi və iqtisadi, sosial-mədəni mövqelər üzrə qərarlaşmasında özünü göstərir. İstər-istəməz, ideoloji-psixoloji böhrana, məfkurə çaş-başlığına, şüur sarsıntılarına səbəb olur. Beləliklə də, "Biz hansı yolun yolçusuyuq? Nəyi və necə etməliyik? Hansı üsul və vasitələrdən istifadə olunmalıdır?" kimi suallar birmənalı cavabını tapa bilmir və açıq qalır. Əlbəttə ki, bütün günahlar yalnız yuxarıda qeyd etdiyim bədbəxt bəndələrdə deyil, səbəblər çoxdur. Burada, hər şeydən əlavə, ictimai və humanitar elmlərin müasir tələblərə müvafiq qaydada cavab verə bilməməsi də xüsusi rol oynayır. Tək-tək alimlərin təşəbbüsləri, gördükləri işlər, əldə etdikləri elmi nəticələr isə müxtəlif obyektiv və subyektiv səbəblər üzündən məqsədyönlü surətdə və yaxu da, sadəcə, laqeydlikdən ictimailəşdirilmir, elə fərdi fədakarlıq nümunəsi olaraq kölgədə qalır. Düşünürəm ki, bu təşəbbüs və fədakarlıqlar vaxtında diqqətə alınmalı və dəyərləndirilməli, onların müəlliflərinə isə daha geniş imkan və səlahiyyətlər, maddi-mənəvi dəstək verilməlidir. Kadrların yeniləşməsində bu "qızıl fond"dan istifadə olduqca vacib və zəruridir. Əhəmiyyət kəsb edən ciddi elmi nəticələrdən, dəyərli nəzəriyyə və konsepsiyalardan istifadə olunmalıdır.

Qüsurlu təfəkkür tipinin dominantlığı şəraitində optimal meqatrendin formalaşması ya xeyli dərəcədə ləngiyir, ya da ümumən, mümkün olmur. Bəşəri təcrübə də əyani surətdə göstərir ki, cəmiyyətin simasını, onun təkamül dinamikasını xarakterizə edən meqatrend özlüyündə etibarlı, elm-nəzəri cəhətdən kamil və təminatlı deyilsə, cəmiyyətin perspektivliyi, onun mövcudluğu ciddi təhlükə altına düşür. Son onilliklərin acı nümunəsi kimi, SSRİ-nin, Əfqanıstanın, İraq və Liviyanın, Misir və Suriyanın başına gələnləri göstərə bilərik. Məsələn, Misir, Liviya və Suriyada hələ 60-cı illərdən başlayaraq (SSRİ-nin təsiri və köməyi ilə) "ərəb sosializmi" adlanan ictimai inkişaf trendi formalaşmışdır. Bu inkişaf trendinin hər bir ölkə üçün özünəməxsus forması, məzmun-mahiyyəti vardı. Bununla belə, onları ümumi bir təzad birləşdirirdi: sosialist fikrə xas olan atributiv elementlərin inkişafdan qalması, durğunluğu və nəticə olaraq, həmin

cəmiyyətlərin get-gedə daha çox avtoritar-totalitar üsul-idarəçiliyə yuvarlanması, çoxluq üzərində imtiyazlı azlığın diktəsi və hökmranlığı, sərtləşdirilən idarəçiliyin şəxsin və xalqın suverenliyinə yox, hakim elitanın məhdudlaşmayan maraqlarına xidmət etməsi. Bu dalğada cəmiyyətdaxili mühitdə xalq-hakimiyyət münasibətlərində qarşılıqlı uzaqlaşmanın, yadlaşmanın, potensial nifrət və inamsızlığın artması, ictimai-publik müstəvidə riyakarlıq və yaltaqlığın, hiylə və qəddarlığın yayılması, insani tellər üzrə ünsiyyət və davranış formalarının zəifləməsi baş verirdi. Belə durumda "ağıllı olub, başı salamat saxlamaq" düsturu bir inperativə, koda çevrilirdi ki, bundan da, son nəticədə, böyüməkdə olan nəsil – körpələr, uşaqlar, gənclər daha çox əziyyət çəkirdi. Onlar "ağıllı", hiylə-fənd işlətməkdə ustalaşmış ataların qurbanına çevrilirdilər. Bəzən də bu qəddar, pozğun, arsız-abırsız duruma dözməyərək intihara əl atırdılar, çünki əllərindən alınmış perspektivlərinə artıq heç bir ümidləri qalmırdı. Salamat qalan gənclik isə get-gedə daha çox qəzəb-nifrət alovuna tutulurdu.

Üstəlik də ideoloji, ideya-siyasi potensialın tükənməsi, yaradıcı axında fəaliyyət göstərməməsi, öz növbəsində, nəzəri fikir durğunluğunu daha da dərinləşdirir, ehkamçılığa və əsatirliyə, əfsanə və tarixi uydurmalara geniş meydan açırdı. Müasirləşmiş ideya-siyasi təsəvvürlər sistemi, güclü elmi-nəzəri fikrə söykənən ideoloji baza olmadan isə hansısa müsbət nəticələr verə biləcək ictimai rekonstruksiya, islahatlar həyata keçirmək, prinsipcə, mümkün deyildi. Mümkün olan isə müstəbidliyi artırmaq, dövlətin və cəmiyyətin idarəçiliyində ailə-klan hökmranlığını qərarlaşdırmaq və möhkəmləndirmək, dövlət başçılığı institutunu tamamilə xalqın seçim hüququndan azad etmək və ifrat şəxsi-ailə motivləri əsasında formalaşdırmaq idi. Belə bir ictimai trendin gələcəyi ola bilməzdi və olmadı da! M. Qəddafinin vaxtilə yazdığı "Yaşıl kitab" da bu məşum gedişin qarşısını ala bilməzdi, çünki zahirən müəyyən cəlbediciliyə malik olsa da, onun ideoloji baxışlar toplusu zəruri elmi-tarixi qaynaqlardan, bəşəri təcrübənin yaradıcı təhlili və ümumiləşdirmələrindən, müasirlik tələblərinə cavab verən parametrlərdən məhrum idi. Belə əsərlər, yeni ideya-nəzəri fikirlərin təqdimatına iddialı olsalar da, adətən, təfəkkür çevikliyinə və dinamikliyinə xidmət etmirlər, əksinə, fikri refleksiyanı buxovlayır, hədsiz dərəcədə qəlibə salır, köhnə ehkamları təzələri ilə çulğalaşdıraraq əcaib düşüncə tərzi formalaşdırır.

Ümumiyyətlə, müsəlman dünyasının hökmdarları "yeni baxış", "yeni yol" deyərək nəsə təqdim etmək istəyinə düşdükdə, bir qayda olaraq, öz fikir və qənaətlərini hər şeydən üstün tutur, nə keçmişin, nə də indinin möhtəşəm fikir sahiblərinə müraciət etməyi özlərinə borc bilmirlər. M.

Qəddafi də, Türkmənbaşı Niyazov da, İslam Kərimov da elə bu tip dövlət başçılarından idilər. Onlar üçün, öz qəti qənaətlərinə görə, yalnız ölkəyə başçılıq etmək kifayət etmir, vacibdir ki, zəmanələrinin baş nəzəriyyəçisi qismində də çıxış etsinlər, böyük mütəfəkkirlərin missiyasını mənimsəsinlər. Təsadüfi deyil ki, ruha divan tutan, ruhu söndürən Türkmənbaşı vaxtilə "Ruhnamə" adlı əsərlə dövrünün misilsiz mütəfəkkiri roluna iddia etmişdir. Məmləkətdə özündən başqa heç kimi qüdrətli zəka sahibi saymayan başçı üçün digərləri yalnız onun şəninə şeirlər, poema və traktatlar yazmalı, təriflər yağdırmalı, bir sözlə, yalnız ifrata varmış saray adamları kimi fəaliyyət göstərməli idilər.

Bəli, müsəlman dünyasının indiki aciz, zəif vəziyyətə gəlib çıxmasında məhz bu qeyd etdiyim amilin rolu böyük olmuşdur. Yaltaqlığı, ləbbehliyi özlərinə rəva bilməyən nadir düşüncə sahibləri, təfəkkür generatorları hədəfə alınmış, təqib və basqılara məruz qoyulmuş, hətta fiziki olaraq məhv edilmişlər. Biri çarmıxa çəkilmiş, digərinin dili gəsilmiş, hansınınsa da dərisi soyulmuşdur. Zəka qüdrətinə görə başqalarından ciddi surətdə fərqlənənlər, dəyərli fikir istehsal etməyə qadir mütəfəkkirlər, ən yaxşı halda, yurd-yuvalarından didərgin salınmış, qovulmuş, sürgünlərdə çürümüşlər. Müsəlman idarəçiliyinin başlıca qanunu-idarəçiliyi bundan ibarət olmuşdur – başqalarından şox boy verən sünbülün başını vaxtında üzmək! Bu bədnam prinsip indiyə kimi gəzib-dolaşan rəvayətlərdə hətta müdriklik nümunəsi, şahlıq-prezidentlik institutunun möhtəşəmlik əlaməti sayılır.

Müsəlman məmləkətlərinə başçılıq edənlər, heç olmasa, indi düşünsünlər, ənənəviləşmiş bədnam üsul-idarəetmədən əl çəkməyin vacibliyini anlasınlar. Yəqin etsinlər ki, ölkəyə və xalqa xoşbəxtlik yalnız qüdrətli zəka, orijinal fikir, ideya və nəzəriyyələr vasitəsilə gəlir; mütəfəkkirlər milli səadətə aparan yolun bələdçiləridir. Unutmasınlar ki, Makedoniyalı İsgəndər misilsiz qələbələrinə görə Aristotel kimi filosoflara minnətdar olub, I Pyotr dəfələrlə Spinoza ilə görüşüb məsləhətləşməkdən çəkinməyib, Napoleon isə uğur qazanmaq üçün görkəmli riyaziyyatçılar Lejandr və Laqranjdan dərs alıb, feodal Yaponiyasını yeniləşdirmək istəyən cavan imperator Meydzi istedadlı sənayeçi-mütəfəkkir S. Eydzinin nəzəri-praktiki xəzinəsindən bəhrələnməyi vacib sayıb, böyük dövlət xadimi Den Syaopin Çində genişmiqyaslı, sistemli islahat keçirərkən, ilk növbədə, dahi Konfutsiyə müraciət edib. Düşünsünlər ki, nə üçün elə son vaxtlara kimi İngiltərənin kraliçası II Yelizavetanın baş məsləhətçisi Nobel mükafatçısı, fizik-nəzəriyyəçi, kvarklar nəzəriyyəsinin banisi Mürrey Gell-Mann olmuşdur? Yəqin ki, böyük alimi kral sarayının nüfuzlu üzvü etməkdə kra-

liçanın məqsədi heç də alim tərəfindən mədhlər-tariflər düzüb-qoşmaqdan ibarət olmayıb!

Pozitiv məqsədlərə xidmət edən ictimai rekonstruksiyalar, möhtəşəmliyə qadir islahatlar yalnız fundamental elmi biliklər, ciddi nəzəriyyələr, sistemli ideoloji təminatlar hesabına mümkün ola bilər. Bu, o deməkdir ki, alim və onun fikri ön planda olmalı, nadir şəxsiyyətlərə, orijinal zəka sahiblərinə missiyalarını həyata keçirmək üçün hər cür dəstək verilməlidir. Alimi arxa sırada duran cəmiyyət intellekyual potensialını, insan kapitalını artıra, tərəqqi əldə edə bilməz! "Təfəkkür iqtisadiyyatı" onun üçün həmişə bir xəyal olaraq qalar – o da sönük-salxaq mövcudluğunu saxlayarsa! Məhz intellektual sərvət, onun səviyyəsi və keyfiyyəti hər bir islahatın müqəddaratını həll edir.

**Ədəbiyyat**:


1. Клаус Шваб. Четвёртая промышленная революция /Пер. с англ. – М.: «Эксмо». 2016.
2. Джордж Фридман. Следующие 100 лет: Прогноз событий XXI века.— М.: Эксмо, 2010.— 336 с.
3. Məsələn: Abbasov Ə.F. Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə. Bakı: "Zərdabi LTD" MMC. 2017, s. 186-193; Abbasov Ə. F. Yeni dünya nizamı: siyasət və idarəetmə. Bakı: "Zərdabi Nəşr". 2019, s. 324- 355.
4. Джордж Фридман: после 2020 года Россия распадется (интервью «Polska Times», 2018) // https://inosmi.ru/20180615/242493738.html
5. Yenə orada.
6. Постнеоклассическая эпистемология осмысления поликультурной сложности и развития культуры мира // «Бильгамеш» (Международный альманах культурологических и социальных исследований). №10. Вызовы планетарного сознания: культура и осознанная взаимозависимость. – Алматы, 2022, с. 73-90.
7. Нейсбит Д. Мегатренды / Пер. с англ. М.Б. Левина. – М.: ООО «Издательство АСТ»: ЗАО НПП «Ермак». 2003.
8. Yenə orada, s. 29.
9. Yenə orada, s.32.
10. Тоффлер Э. Метаморфозы власти / - Пер. с англ./ М.: ООО «Издательство АСТ». 2004.
11. Фридман Т. Плоский мир: Краткая история XXI века /Пер. с англ./ - М.: ООО «Издательство АСТ». 2004.

12. Беккер Гери С. Человеческое поведение: Экономический подход / Пер. с англ./ - М.: ГУ ВШЭ. 2003.

13. Аббасов А.Ф. Соотношение категорий и принципов системно-целостной проблематики. Баку: «Элм». 1984.

14. Аббасов А.Ф. Демократия: наличная и должная. Баку: «Адилоглы». 2005.

15. Алфёров Ж. Эйнштейн, социализм и современный мир // Газета «За науку». 27. 05.2016.

16. Богданов А.А. Вопросы социализма (Сборник). Москва: Политиздат. 1990.

17. Гегель. Философия истории. Москва-Ленинград: Изд-во ПЭЛ, 1935, с. 94.

18. Левада-Центр: Сталин самая выдающаяся личность в истории. 28.06.2017 // https://www.youtube.com/watch?v=hJwS6aNgjsQ

19. Маркс К. и Энгельс Ф. Соч., т.II.

20. Маркс К. и Энгельс Ф. Соч., т.III.

21. Песков прокомментировал опрос "Левада-Центра" про выдающихся людей // РИА Новости https://ria.ru/society/20170628/1497448061.html

22. Эйнштейн А. Почему социализм? // «ЗА НАУКУ». Газета МФТИ. Выпуск № 33 (1656) – 06.11.2003.

23. Эйнштейн А. Почему социализм? // http://razumru.ru/science/authority/einstein.htm

**References**:

1. Klaus Shvab. Chetvertaya promyshlennaya revolyutsiya /Per. s angl. – M.: «Eksmo». 2016.

2. Dzhordzh Fridman. Sleduyushchiye 100 let: Prognoz sobytiy XXI veka.- M.: Eksmo. 2010.- 336 s.

3. Masalan: Abbasov A.F. Geosiyasi ve sosial falsafa: Adaletli nizam ve tereqqi namine. Baku: “Zardabi LTD” MMC. 2017. s. 186-193; Abbasov A. F. Yeni dunya nizami: siyasat ve idaraetma. Baku: “Zardabi Neshr”. 2019. s. 324- 355.

4. Dzhordzh Fridman: posle 2020 goda Rossiya raspadetsya (intervyu «Polska Times». 2018) // https://inosmi.ru/20180615/242493738.html

5. Yeni orada.

6. Postneoklassicheskaya epistemologiya osmysleniya polikulturnoy

slozhnosti i razvitiya kultury mira // «Bilgamesh» (Mezhdunarodnyy almanakh kulturologicheskikh i sotsialnykh issledovaniy). №10. Vyzovy planetarnogo soznaniya: kultura i osoznannaya vzaimozavisimost. – Almaty. 2022. s. 73-90.
7. Neysbit D. Megatrendy / Per. s angl. M.B. Levina. – M.: OOO «Izdatelstvo AST»: ZAO NPP «Ermak». 2003.
8. Yeni orada. s. 29.
9. Yeni orada. s.32.
10. Toffler E. Metamorfozy vlasti / - Per. s angl./ M.: OOO «Izdatelstvo AST». 2004.
11. Fridman T. Ploskiy mir: Kratkaya istoriya XXI veka /Per. s angl./ - M.: OOO «Izdatelstvo AST». 2004.
12. Bekker Geri S. Chelovecheskoye povedeniye: Ekonomicheskiy podkhod / Per. s angl./ - M.: GU VShE. 2003.
13. Abbasov A.F. Sootnosheniye kategoriy i printsipov sistemno-tselostnoy problematiki. Baku: «Elm». 1984.
14. Abbasov A.F. Demokratiya: nalichnaya i dolzhnaya. Baku: «Adilogly». 2005.
15. Alferov Zh. Eynshteyn. sotsializm i sovremennyy mir // Gazeta «Za nauku». 27. 05.2016.
16. Bogdanov A.A. Voprosy sotsializma (Sbornik). Moskva: Politizdat. 1990.
17. Gegel. Filosofiya istorii. Moskva-Leningrad: Izd-vo PEL. 1935. s. 94.
18. Levada-Tsentr: Stalin samaya vydayushchayasya lichnost v istorii. 28.06.2017 // https://www.youtube.com/watch?v=hJwS6aNgjsQ
19. Marks K. i Engels F. Soch.. t.II.
20. Marks K. i Engels F. Soch.. t.III.
21. Peskov prokommentiroval opros "Levada-Tsentra" pro vydayushchikhsya lyudey // RIA Novosti https://ria.ru/society/20170628/1497448061.html
22. Eynshteyn A. Pochemu sotsializm? // «ZA NAUKU». Gazeta MFTI. Vypusk № 33 (1656) – 06.11.2003.
23. Eynshteyn A. Pochemu sotsializm? // http://razumru.ru/science/authority/einstein.htm

**UOT- 327.2**

**Rəna Seyidrza qızı Mirzəzadə**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
Siyasətin fəlsəfəsi şöbəsinin müdiri,
fəlsəfə elmləri doktoru, professor
Ünvan: Az 1073, Azərbaycan Respublikası, Bakı, H.Cavid pr-ti 115
Tel: +994 649 47 95
e-mail: mirrena54@yahoo.com
https://orcid.org/:0000-0002-6250-1826

# HEYDƏR ƏLİYEV QAFQAZDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN STRATEQİ KİMİ

**Xülasə**

*Məqalənin məqsədi* ümummilli lider Heydər Əliyevin tarixi missiyasını təqdim etməkdir. 1990-cı illərdə Azərbaycan üçün son dərəcə çətin və mürəkkəb bir dövrdə ikinci dəfə hakimiyyətə gələn lider, həm ölkədaxili siyasətin xüsusiyyətlərini, həm də beynəlxalq sistemin qanunauyğunluqlarını nəzərə almağı bacaran milli dövlətçilik strategiyasının banisidir.

*Tədqiqat metodları və medologiyası.* Tədqiqat zamanı sistem yanaşma və müqayisəli təhlil metodlarından istifadə olunur.

*Problemin araşdırılma dərəcsi*. Ədəbiyyat siyahısına bax.

Elmi yenilik. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin təhlili əsasında belə nəticəyə gəlmək olar ki, keçid dövründə böyük siyasətçinin təklif etdiyi inkişaf modeli, ağır rəqabət və beynəlxalq sistemin ədalətsiz mübarizəsi şəraitində ölkədə siyasi, iqtisadi islahatlar həyata keçirməyə imkan verdi və daha sonrakı mərhələdə davamlı inkişafa əsas yaratdı.

**Nəticə**. Azərbaycanın sovet dövründə qərarlaşmış ölkələrarası və ölkədaxili münasibət və əlaqələrinin dağılması iqtisadi və xarici siyasətin köklü şəkidə dəyişməsini tələb edirdi. Heydər Əliyevin təklif etdiyi modelin iki vacib əsası vardı: iqtisadi sahədə yeni münasibətlərin formalaşmasına yönəli islahatlar və milli inkişafın əsasını təşkil edən yeni neft strategiyası. Ümummilli lider bu modelin ideya müəllifi olmaqla yanaşı, onun həyata keçirilməsinə də rəhbərlik etdi. Bu gün ölkə başçısı

tərəfindən Azərbaycanda həyata keçirilən bütün islahatlar, o cümlədən xarici siyasət də bu modelin həyata keçirilməsi yolunda ardıcıl addımlardır.
**Açar sözlər***:* lider, inteqrasiya, dövlətlərarası münasibətlər, Qafqaz, beynəlxalq birlik, beynəlxalq layihələr.

**УДК - 327.2**

**Рена Сеидрза гызы Мирзазаде**
Доктор философских наук, профессор,
зав. Отделом «Философия политики»
Института Философии и социологии НАНА
Адрес: Az 1073, Азербайджанская Республика, Баку, пр. Г. Джавида, 115
Tel: +994 649 47 95
e-mail: mirrena54@yahoo.com
https://orcid.org/:0000-0002-6250-1826

## ГЕЙДАР АЛИЕВ КАК СТРАТЕГ МЕЖГОСУДАР-СТВЕННЫХ ОТНОШЕНИЙ НА КАВКАЗЕ

**Резюме**

*Цель статьи* - представить историческую миссию общенационального лидера Гейдара Алиева. Лидер, во второй раз пришедший к власти в крайне сложный для Азербайджана период 1990-х годов, является основоположником стратегии национальной государственности, способной учитывать как особенности внутренней политики, так и законы международной системы.

*Методы и методология исследования.* В ходе исследования использовались методы системного подхода и сравнительного анализа.

*Степень изученности проблемы.* См. Библиографию в конце статьи.

*Научная новизна.* На основе анализа мероприятий, проведенных под руководством Гейдара Алиева в Азербайджане, можно сделать вывод, что модель развития, предложенная великим политиком в переходный период, позволила осуществить политические и экономические реформы в стране в условиях жесткой конкуренции и несправедливой борьбы с международной системой, и создали основу для устойчивого развития на более позднем этапе.

**Результат**. Развал межгосударственных и внутригосударственных отношений Азербайджана, установившихся в советское время, потребовал радикального изменения экономической и внешней политики. Модель, предложенная Гейдаром Алиевым, имела две важные основы: реформы, направленные на формирование новых отношений в экономической сфере, и новую нефтяную стратегию, составляющую основу национального развития. Помимо того, что он был автором идеи этой модели, общенациональный лидер также руководил ее реализацией. Сегодня все реформы, проводимые главой государства в Азербайджане, в том числе и внешнеполитические, являются последовательными шагами на пути к реализации этой модели.

**Ключевые слова**: лидер, интеграция, межгосударственные отношения, Кавказ, интернациональный союз, международные проекты.

**UDC - 327.2**

**Rena Mirzazadeh**
Doctor of Philosophical Sciences, Professor,
Head of the Department of Philosophy of the Politic, the Institute of Philosophy and Sociology of ANAS
Address: Az 1073, Republic of Azerbaijan, Baku, 115 G. Javid Ave.
Tel: +994 649 47 95
e-mail: mirrena54@yahoo.com
https://orcid.org/:0000-0002-6250-1826

# HAYDAR ALIEV AS THE STRATEGIST OF INTERSTATE RELATIONS IN CAUCASUS

## Abstract

*The article aims* to present the historical mission of national leader Heydar Aliyev. The leader, who came to power for the second time in the extremely difficult period for Azerbaijan in 1990s, is the founder of the strategy of national statehood, which is able to take into account both the peculiarities of domestic politics and the laws of the international system.

*Research methods and methodology*. The methods of systematic approach and comparative analysis were used during the research.

*Degree of study of the problem*. See the Bibliography at the end of the article.

*Scientific novelty*. On the basis of the analysis of the activities carried out under the leadership of Heydar Aliyev in Azerbaijan, we can conclude that the development model proposed by the great politician in the transition period, allowed the implementation of political and economic reforms in the country in a highly competitive and unfair fight with the international system, and created the basis for sustainable development at a later stage.

**The results**. The collapse of Azerbaijan's interstate and domestic relations established during the Soviet era required a radical change in economic and foreign policy. The model proposed by Heydar Aliyev had two important bases: reforms aimed at forming new relations in the economic sphere and a new oil strategy, which was the basis of national development. He was not only the author of this model, but also the national leader who led its implementation. Presently, all the reforms conducted by the head of the state in Azerbaijan, including foreign policy, are consecutive steps towards realization of this model.

**Keywords**: leader, integration, interstate relations, Caucasus, international alliance, international projects.

XX əsr Qafqazda dövlətlərarası münasibətlərin formalaşdırılması və qurulmasında, ən görkəmli simalardan biri Ulu Öndər Heydər Əliyevdir. Bu fenomen şəxsiyyətin həyatı, idarəçilik məharəti, siyasi fəaliyyəti bütövlükdə Umumqafqaz regionu və eləcə də Cənubi Qafqaz ölkəsi olaraq Azərbaycanın ikinci minillik dövrünün tam yarıməsri ilə bir yazılan tarixdır. ABŞ-ın keçmiş prezidenti Corc Buş dediyi kimi: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur...

Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsi ilə ədalətli və uzun müddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanılmasında mühüm əhəmiyyət kəsb etmişdir [11].Ulu Öndər Qafqaz regionunun bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici təsirlərin süni şəkildə və milli konfliktlərin qaynar ocağına dönən bu bölgədə sülhün və əməkdaşlığın təminatına çox diqqət verirdi. Belə ki, XX əsrin 90-cı illərin Ermənistanla davam edən müharibənin dayandırılması vacib idi. Çünki bu ədalətsiz müharibə haqqında dünyaya düzgün informasiya verilməsi önəmli idi və bu aspektdən atəşkəs rejiminə gedilməsi də zərurət oldu.

Nəzərə yetirək ki, Ulu Öndərin siyasi fəaliyyəti iki mərhələyə bölünür: sovet və postsovet dövrü. Bu baxımdan da Akademik İsa Həbibbəyli məntiqi ilə desək: “Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet dövrünün inkişafında olan dövr (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin siyasətdə keçdiyi yol ..... ibrətamiz məktəbdir... Heydər Əliyevin simasında böyük, əbədiyaşar siyasətin nəzəriyyəsi və təcrübəsi bütün zənginliyi ilə vahid məcrada birləşir”. [2] Məhz bu aspektdən də Rusiya Federasiyasının prezidenti Vladimir Putin  söylədiyi kimi: “uzun illər ərzində Heydər Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur”.[8] Və təsadüfi də deyildir ki, keçmiş Gürcüstan prezidenti E.Şevardnadze də söyləmişdir ki: “Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır”. [8]

Bu real gerçəklik, Qafqaz regionunda günümüzün siyasi fəlsəfəsidir. Ulu öndərin dövlət quruculuğu və siyasətdə keçdiyi yol “Heydər Əliyev məktəbi” adlanır. Bu yol hansı keçməkeşliklərdən, çətinliklərdən keçməyib ki... Bu yolda isə güclü və mətin, siyasi iradəli və ideyaları zəngin, Qafqaz xalqları arasında dostluğu və əməkdaşlığı təqdim edən, fəlsəfi-siyasi baxışlı, mükəmməl və kamil şəxsiyyət Heydər Əliyev xarizması var. Bu müsbət kefiyyətlər də Qafqaz bölgəsində Azərbaycanın tarixi-siyasi inkişaf dinamikasının ən mühüm komponentləridir. Bu mənada Heydər Əliyev Qafqazda kim olub?

Bu bir tarixi reallıqdır ki, Heydər Əliyev Qafqazda sülhün bərqərar olması fikri ilə çıxış etmiş və onun bilavasitə tövsiyyəsi ilə 1996-cı ildə “Qafqaz regionunda sülhün, sabitlik və təhlükəsizlik haqqında” Tbilisi Bəyannaməsi və 1999-cu ildə ATƏT-in İstanbul zirvə görüşündə “Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq pakti” bağlanmışdır. Məhz bu çox əhatəli və gələcək nəsillərin sabit firavan həyat tərzinə hesablanan siyasətə görə Qafqaz xalqları “Heydər Əliyevi Umumqafqaz evinin ağsaqqalı” adlandırmışlar.

- Heydər Əliyev dövlətçilik paradiqması – bu böyük dahinin Qafqazda da çoxistiqamətli fəaliyyətinin, zəngin dünyagörüşünün və çox cəhətli irsini əhatə edən siyasi-hüquqi təlimdir.

Heydər Əliyev siyasi məktəbi – bu məhz Qafqazşünaslıqda da qlobal yanaşma ilə milli dəyərlərin vəhdətini adaptasiya edən, lokal və regional xüsusiyyətləri nəzərə almaqla, düşünülmüş yetkin idarəetmə təlimidir.

Heydər Əliyev siyasi kursu – postsovet məkanı ölkələrinin əsasən də Qafqaz məkanında dövlət quruculuğunun inkişaf etdirilməsi və möhkəmləndirilməsində örnək bir nümunəvi modeldir.

Bu siyasi kurs həm MDB məkanı ölkələri üçün əsasən də Qafqazda nəinki nümunə, həm də dünya siyasət elmində öyrənilən bir məktəb oldu.

Bu konteksdə Qafqaz regionunda milli dövlətçilik institutunun formalaşmasında, onun inkişaf istiqamətində, dövləti maraqların praqmatikliyində, milli birliyin və milli həmrəyliyin təminatında Ulu öndər Heydər Əliyevin xidmətləri ölçüyə belə gəlmir.

Vaxtilə ABŞ prezidenti Bill Klinton (Heydər Əliyevə müraciətlə) söyləmişdir: "Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında sizin xidmətlərinizi yüksək qiymətləndiririk" [10] və Türkiyənin keçmiş rəhbərlərindən Əhmed Necdet Sezər "Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətində fəaliyyəti ilə də daim xatırlanacaq" [11] deyə söyləmişdir.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ulu öndər 1993-cü ildən başlayaraq Azərbaycanın xarici siyasətini yenidən qurdu. Azərbaycanın strateji maraqlarını bölgədəki dövlətlərin və Qafqazda təsir gücü olan hər bir ölkənin maraqlarını nəzərə alan adaptasiyalı siyasət yürütməyə başladı. 1993-cü ildə Milli Məclisə sədr seçilərkən demişdi: "Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə, İran, qonşu Gürcüstan, Rusiya, Amerika, Avropa dövlətləri ilə, Ərəbistan, müsəlman dövlətləri, türkdilli dövlətlər, Mərkəzi Asiya dövlətləri Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır"[11] Hakimiyyətinin ilk illərindən başlayaraq Heydər Əliyev dövlətçilik maraqlarını əsas tutaraq müxtəlif ölkələr, o cümlədən Qafqaz və Azərbaycana yönələn iqtisadi maraq və nüfuz savaşını nəzərə aldı və gənc müstəqil respublikanı dünya dövlətlər birliyində tanıtmağa istiqamət götürdü. Azərbaycanın MDB-yə, GUAM-a daxil olması ilk manevrlərdən oldu. Azərbaycan qonşu Rusiya və Gürcüstanla çox tərəfli əməkdaşlıq sazişləri bağladı. Ulu Öndər hesab edirdi ki, Gürcüstan yaxın qonşumuz, Avropaya çıxışımız, orada 500-minədək azərbaycanlının yaşaması və Qafqaz kimi regionda sülhün qorunması vacib məsələdir. Professor Əli Həsənov vurğulayır ki, "Heydər Əliyevin xalqı səfərbər edərək öz arxasınca apara bilən lider olması ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yaradıcı şəxsiyyət keyfiyyətləri yenidən bariz şəkildə təcəssüm olundu. Ümummilli lider mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya nizamının tələblərini və geosiyası reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin

Milli İnkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı." [4]

1993-cü ildə Azərbaycanın həm müstəqilliyi, həm də dövlət kimi ərazi bütövlüyü, bəlkə də politoloji anlamda desək, "vertikal" və "horizontal" siyasi bölünməyə məruz qala bilərdi. Yəni, ölkənin hüquqları və məsuliyyəti ayrı-ayrı dövlətlərin hökumətləri və müxtəlif tipli beynəlxalq qurumlar arasında bölünə bilərdi. Məhz Qafqaz ölkəsi olan qonşu Ermənistanın Azərbaycana elan olunmamış müharibə və işğal faktoru reallıq idi.

Bu yanaşmadan isə E.Toflerin milli dövlətlərin tədricən transmilli korporasiyaların təzyiqi ilə sıxışdırılıb "əriyib itəcəyi" ideyasının ölkədə proqnozlaşdırması da mümkün variant idi. Belə variantda isə ölkəni yalnız böyük dövlət strateqi Heydər Əliyev əzmi qurtardı... Müstəqillik qazandıqdan sonra qarşıda duran vəzifələr ən əsas vəzifə dövlətlərarası münasibətləri tənzimləmək idi və bu əsasda da - ölkənin demokratikləşdirilməsi; bazar iqtisadiyyatına keçidin formalaşdırılması; ictimai-siyasi sabitlik; idarəetmə və hakimyyətin, ən vacibi isə qanunvericilik bazasının yaradılması mexanizmi idi. Qafqazda dövlətlərarası münasibətlərin tənzimlənməsi eləcə də digər dövlətlərlə xarici siyasətin qurulması prosesi başlanıldı.

Beləliklə də, müstəqillik qazanan Qafqaz ölkəsi olan Azərbaycanda strateji prioritetlər müəyyənləşdirildi.

Ulu öndərin keçid mərhələsinin problemlərinin aradan qaldırılması ilə əlaqədar fəaliyyəti bu məsələlərin həlli ilə yanaşı, həm də dünyanın yeni nizamının dərki, onun gedişatı uyğun işin təşkil edilməsi metodologiyası idi. Fenomen strateq bu zaman həm beynəlxalq ölkələrin təcrübəsindən istifadə etməklə, eyni zamanda Qafqazda unikal Azərbaycan təcrübəsi yaradaraq, dövləti qurdu. Bu dövlətin idealoji sistemi Azərbaycan ərazisində yaşayan bütün həm qafqaz xalqlarına mənsub əhalinin minilliklərə gedən tarixinə və dövlətçilik ənənələrinə, müasir gerçəkliyə və sivilizasiyanın inkişaf istiqamətinə söykənir. Ulu Öndər Heydər Əliyev siyasətində xalqların bərabər hüquqluğu,onların etnik tərkibinə milli fərq qoyulmadan potensialından istifadə olunması, müxtəlif mədəniyyətlərinin uyğunlaşdırılmasına imkan verilmişdi.

Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze çox yerində demişdir ki: "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək..... O polad iradəyə malik nadir şəxsiyyətdir".[10]

Ulu Öndər Heydər Əliyev strategiyasında mənəviyyat amili də güclü idi. Azərbaycan ənənəvi islam ölkəsi olmasına rəğmən, başqa səmavi dinlərin də fəaliyyətinə şərait verdi. Hal-hazırda da Qafqaz ölkəsi olan Azərbaycanda Bakının mərkəzində erməni kilsəsi tarixi abidə kimi qorunur.

Daim milli dəyərlərə, mənəvi adət ənənələrə hörmət qoyan Ulu Öndər müsəlmanların müqəddəs Ramazan, Qurban bayramlarını dövlət səviyyəsi qeyd etdiyi kimi, eləcə də digər dinlərə aid bayramları qeyd edirdi. Bu islahatlar mili dirçəliş, milli oyanış,, milli özünüdərk fəlsəfəsinin azərbaycançılıq ideologiyası mətnində vəhdəti idi. Belə ki, Azərbaycan ərazisində bütün vətəndaşlar üçün bu ölkədə yaşamaq üçün münbit zəmin yarandı. Ulu öndərin Qafqazda siyasi və dövləti fəaliyyəti strategiyası çoxmillətli ölkənin xalqlarının milli dövlətçilik haqda istəklərini gerçəkləşdirdi. Bu zəmində də Heydər Əliyev Qafqazda dövlətlərarası münasibətlərdə Azərbaycan vətəndaşlarının, Azərbaycan xalqının və bu ərazidə yaşayan çoxsaylı etniklərin milli dirçəliş fəlsəfi konsepsiyasını formalaşdırıldı.

Ulu öndər Heydər Əliyev – milli dövlətçilik institutunun siyasi arxitekturasını, siyasi - hüquqi idarəçilik nəzəriyyəsini, dövlətiyaratma siyasi fəlsəfəsini, dünyaya inteqrasiya istiqamətlərinin beynəlxalq əlaqələr strategiyasını müəyyənləşdirdi. Akademik Ramiz Mehdiyevin yazdığı kimi: "... həyatda ən böyük nailiyyət kimi yeni dövlətçilik, müstəqil respublika, yeni Konstitutsiya, əvvəlki heç bir idarəçilik formasına bənzəməyən Milli quruculuq yolunun siyasi fəlsəfəsi sonrakı nəsillərə nemət və irs kimi qalır."(1) Bu mənada müstəqil Azərbaycan Ulu öndərin rəhbərliyi ilə modern, dünyəvi, dünya birliyi ilə ikitərəfli və çoxtərəfli beynəlxalq əməkdaşlığa inteqrasiya yolunu tutan suveren və demokratik prosesləri həyata keçirən respublika olaraq tanınmağa başladı.

Ulu Öndər 1994-cü il 20 sentyabrda Qafqaza "yeni neft siyasəti" modelini müstəqil Azərbaycanın ilk neft müqaviləsini – "Əsrin kontraktını" imzaladı. Bu müqavilə nəinki ölkədə, Qafqaz regionunda, hətta beynəlxalq enerji strategiyasında "yeni neft siyasətinə" rəvac verdi.

Qeyd edək ki, Xəzər hövzəsi dövlətlərin geoiqtisadi maraqlarının toqquşduğu məkandır. Ulu Öndər Heydər Əliyev o dövrdə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyevi də enerji layihələri ilə bağlı aparılan mürəkkəb müzakirələrə dəvət etdi. Burada əsas vacib məsələ Azərbaycanın milli mənafeyini qoruyaraq, milli və dövlətçilik baxımından bu saziş imzalanarkən, öz milli maraqlarını qoruyub saxlamaq prinsipi və əsasən də Qafqaz bölgəsində dövlətlərarası münasibətlərin yeni əməkdaşlığı idi. Gənc və çevik, diplomatik bacarıqlı İlham Əliyevin isə

problemə bələd olması bu əhəmiyyətli müqavilənin müvəffəqiyyətlə başa çatmasına kömək oldu.

Beləliklə də, Ulu Öndər Heydər Əliyev Qafqazda beynəlxalq dünya birliyinə inteqrasiyanın təməlini yaratdı. Belə ki, müstəqil Azərbaycan BMT kimi qurumdan sonra, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Davos İqtisadi Forumunun, İqtisadi Əməkdaşlıq Təşkilatının və s. nüfuzlu qurumların üzvlüyünə qəbul olundu.

- Ümummilli lider Ermənistanın torpaqlarımıza təcavüzünü Dünyaya bəyan edən, xarici ölkələrdə diaspor və lobbiçilik İnstitutunu formalaşdıran beynəlxalq səviyyəli rəhbər idi. Bu mənada Rusiya prezidenti Vladimir Putin onun haqqında söyləmişdir ki, "O, böyük dövlət xadimi idi... Siyasi nəhəng idi, mən ona sadəcə böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim" deyir, ABŞ-n sabiq Prezidenti –Bill Klinton isə: Heydər Əliyev haqqında "Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında xidmətləri yüksəkdir".[3] Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğan "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi.Bir millət iki dövlət tezisi ona məxsusdur" kimi qiymətləndirirdisə, Fransanın sabiq Prezidenti Jak Şirak "Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirəm. Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu Dövlət xadimi rəhbərlik edir" -deyə söyləmişdir.[3] Bu və digər çoxsaylı deyimlər də təsdiq edir ki, Ulu Öndər nəinki Qafqazda, həmçinin dünya səviyyəsində qəbul edilən dahi şəxsiyyət, dövlətlərarası münasibətlərdə böyük siyasi məntiqli strateq olmuşdur.

- Ulu Öndər milli liderliklə siyasi rəhbərliyi, siyasi liderliklə milli rəhbərliyi inteqrasiya edən fenomen Strateqdir. Başdan ayağa unikal siyasətçi, hər bir azərbaycanlının hamisi, dəstəkçisi, güvənən yeri, qüruru ölkə sərhədlərindən kənarda yaşayan hər bir azərbaycanlının doğması, əzizi idi. Bu onu əbədi dünyaya yola salan milyonların dəfn mərasimində iştirakında, Umumqafqazın, eləcə də Azərbaycanın hər bir kəndi, qəsəbəsi, rayonu, şəhərində onun adına verilən ehsan məclisləri və oxunan dualarda da özünü əks etdirdi. Ulu öndər ilahidən seçilmişlərin seçilmişi, qüdrətli, öz ölkəsini sevən və "Mən fəxr edirəm ki, azərbaycanlıyam" söyləyən uca insan, siyasi xadim, dövlət qurucusu, qurucu v ə yaradıcı prezident olmuşdur.

XX əsrin 70-cı illərindən Qafqaz ölkəsi olan Azərbaycanın dirçəlişi, qurtuluşu, intibahı məhz fenomenal şəxsiyyət Heydər Əliyevin böyüklüyünün məntiqi yekunudur.

Cənubi Qafqaz regionunda beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin şaxələndirilməsi və Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi respublikamızın iqtisadiyyatının gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının əsas göstəriciləridir. Bu kontekstdən, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat dəhlizi (TRASECA) lahiyəsi, habelə Şimali-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə aktiv diqqət yönəltmişdi. Həmçinin Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin qurulması da regional əməkdaşlıq formasıdır.

- XXI əsrin əvvəlindən isə Qafqazda dövlətlərarası münasibətlərdə qarşılıqlı əməkdaşlığı qoruyan Ulu öndər Heydər Əliyev siyasi kursunun, dövlətçilik İnstitutunun ən layiqli aparıcısı, Qafqaz regionunda Lider Azərbaycanın Prezidenti İlham Əliyevdir.

Fikrimizi Azərbaycanın I Vitse-Prezidenti Xanım Mehriban Əliyevanın fikirləri ilə bitirək: "Onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Heydər Əliyev – tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Liderdir... Vətənin – Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı"[6]

**Ədəbiyyat-References**:


1. Azertağ.az/xeber/ 94 99 19
2. Əli Həsənov, Azərbaycanda keçid dövrü başa çatıb, interaztv.com/poli-tics/24 36 39
3. (Femida.az/news/13907).
4. İsa Həbibbəyli, Heydər Əliyevin dövlətçilik təlimi və müasir dünya, Azərbaycan qəzeti, 05 may 2015 il

5. Ramiz Mehdiyev, Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan Ümummilli Lider

6. Rəna Mirzəzadə, Akademik R.Mehdiyevin "Yeni dünya nizamı və milli ideya" əsəri siyasi fəlsəfi paradiqmadır, "Elm və həyat" jurnalı, 2017, may

7.Rəna Mirzəzadə, Siyasət, İnsan Hüququ, Cəmiyyət, Gender, B., Adiloğlu, 2003
8. Sona Vəliyeva, Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi, B., 2011, 140 s.
9.https://azertag.az/xeber/
10. www/xalqqazet:com/az/new/politics/1356
11. www.heydaraliyevfondation.orq/az/content/index/84/

**References**:

1. Azertağ.az/xeber/ 94 99 19
2. Ali Hesenov, Azerbaycanda keçid dovru basa catıb, interaztv.com/poli-tics/24 36 39
3. Femida.az/news/13907.
4. İsa Hebibbeyli. Heyder Aliyevin dövlətçilik telimi ve muasir dunya. Azerbaycan qazeti, 05 may 2015- ci il

5. Ramiz Mehdiyev. Azerbaycanda musteqil dovletciliyi yaradan və yasadan Umummilli Lider
6. Rena Mirzezade. Akademik R.Mehdiyevin "Yeni dunya nizami və milli ideya" eseri siyasi felsefi paradiqmadir, "Elm ve heyat" jurnalı, 2017, may
7.Rena Mirzezade, Siyaset, İnsan Hüququ, Cemiyyet, Gender, B., Adiloglu, 2003
8. Sona Veliyeva, Azerbaycanciliq milli ideologiya ve edebi-estetik telim kimi, B., 2011, 140 s.
9. https://azertag.az/xeber/
10.www/xalqqazet:com/az/new/politics/1356
11. .www.heydaraliyevfondation.orq/az/content/index/84/

**UOT – 291.14 (075.8)**

**Rauf Tofiq oğlu Məmmədov**
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Ünvan: AZ1001, Azərbaycan Respublikası,
Bakı ş., İstiqlaliyyət küç., 30
e-mail: raufsalam1@rambler.ru
https://orcid.org/0000-0002-5136-677X
Tel: +994702502784

# DÜNYADA SİYASİ BÖHRAN VƏ İSLAHATLARIN FƏLSƏFƏSİ

**Xülasə**

*Tədqiqatın məqsədi* **-** Siyasi islahat fəlsəfəsi siyasət elminin ölkə və regionlarda siyasi böhranların və islahatların əsasını təşkil edən prinsipləri, dəyərləri və ideoloji münasibətləri öyrənən sahəsidir. Siyasi islahatların fəlsəfəsi siyasi sistemin daha ədalətli, səmərəli və cəmiyyət qarşısında məsuliyyətli olması üçün ona hansı dəyişikliklərin edilə biləcəyinin öyrənilməsi ilə məşğul olur. Bu fəlsəfə müxtəlif idarəetmə formalarını, idarəetmə prinsiplərini və siyasi sistemdə islahatların aparılması yollarını araşdırır. Siyasi islahatların məqsədi daha demokratik, açıq və şəffaf idarəetmə sisteminin yaradılması, insan hüquq və vətəndaş azadlıqlarının müdafiəsinin təkmilləşdirilməsi, dövlət və ya beynəlxalq institutların fəaliyyətinin səmərəliliyinin artırılması, iqtisadi və sosial inkişafın yüksəldilməsi, sosial ədalətin təmin olunması və konkret imkanlardan asılı olaraq digər məqsədlər ola bilər. Məqalədə qarşıya qoyulan əsas məqsəd və vəzifələr bəhs olunanların araşdırılmasından ibarət olmuşdur.

*Tədqiqatın metodları və metodologiyası.*

Siyasi böhranların tədqiqi: Metodologiya siyasi böhranları, onların səbəblərini, təzahürlərini və nəticələrini təsvir edir və təhlil edir. Buraya siyasi qeyri-sabitlik, münaqişələr, insan hüquqlarının pozulması, iqtisadi böhranlar və böhranlara səbəb ola biləcək digər amillərin öyrənilməsi daxildir.

Siyasi Sistemlərin Qiymətləndirilməsi: Metodologiya həmçinin siyasi böhranların mənbəyi və ya həlli ola biləcək siyasi sistemlərin və institutların təhlilini də əhatə edir. Tədqiqatçılar demokratik prosesləri,

qanun və qaydanı, siyasi partiya və hərəkatları, idarəetmə sistemlərini və siyasi təşkilatın digər aspektlərini təhlil edirlər.

Ümumiyyətlə, Azərbaycanda milli özünüdərk dili, mədəniyyəti, tarixi, dini və ərazi bütövlüyü şüurunu birləşdirən mürəkkəb və çoxsəviyyəli hadisədir və özünü Azərbaycanlılıq milli ideyasında tapır. Azərbaycanın milli kimliyinin və milli şüurunun əsas aspektləri aşağıdakılardır:

- *Azərbaycan dili* - türk dilləri ailəsinə aid olan və dövlət dili olan Azərbaycan dili, milli kimliyin formalaşmasında mühüm rol oynayır, azərbaycanlıların (Azərbaycan vətəndaşlarının) birliyinə, yaxınlaşmasına və sosial-iqtisadi inkişafına töhfə verir.
- *İslam dini* - Azərbaycan milli kimliyinin mühüm aspektidir. Azərbaycan əhalisinin əksəriyyəti (96%) İslam dininə etiqad edir və bu dini amil milli kimliyin mədəni, sosial və siyasi aspektlərinə təsir göstərir.
- *Milli Dövlət* - Müsəlman Şərqində ilk cümhuriyyət dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, 1991-ci ildə Müstəqil Azərbaycan Dövlətinin elan olunması və 30 il erməni işğalında qalan Qarabağ ərazisinin azad olunması kimi tarixi hadisələr milli kimliyə mühüm təsir göstərir. Bu hadisələr Azərbaycan xalqının kollektiv yaddaşını formalaşdırıb, milli kimliyini və həmrəyliyini gücləndiribdir. Müstəqillik Günü, Şuşanın azad olunması, 20 yanvar kimi milli tarixi günlər Azərbaycan xalqının milli kimliyinin və birliyinin möhkəmlənməsinə, milli qürurun yüksəlməsinə xidmət edir.

- *Milli mədəniyyət* - adət-ənənələr, musiqi, rəqslər, mətbəx və milli bayramlar, milli kimliyi əks etdirir, Azərbaycan mədəniyyətinin qorunub saxlanmasına və inkişafına töhfə verir.
- *Tarixi keçmiş* - Azərbaycan xalqı əsrlər boyu öz tarixi vətənində Qafqazda yaşamış, öz mədəniyyətinə, dilinə, adət-ənənələrinə malik olmuşdur. Bu tarixi kontekst milli kimliyin formalaşmasında mühüm rol oynayır. Azərbaycanda milli özünüdərk Azərbaycan xalqının kimliyinin mühüm cəhətidir. O, zəngin tarixə və mədəni irsə malik olan Azərbaycanın tarixi təcrübəsi, mədəniyyəti, dili və sosial həyatı əsasında formalaşır.

Azərbaycanda milli kimlik inkişaf etməkdə və dəyişməkdə davam edən dinamik bir prosesdir. Bu gün Azərbaycanda milli kimlik mövzusunda yaranan diskurs eynilə XX əsrin əvvələrində də mövcud idi. Əslində, bu diskurs açıq və qapalı şəkildə 150 ildir ki davam edir. Vahid bir cəmiyyətdə bu diskursun müxtəlif tərəfləri olan türkçülər, islamçılar, liberallar, sosialistlər XX əsrin əvvəllərində əksər məqamlarda bir-biri ilə uzlaşmadıqları kimi, bu gün də uzlaşmırlar. Bu diskurs XX əsrin əvvəllərində olduğu kimi bu gün də yalnız Azərbaycan miqyasında deyil, İran, Orta Asiya, Qafqaz və Rusiya müsəlman intellektualları miqyasında gedən diskursdur. Hətta, bu ideoloji istiqamətləri təmsil edən qruplar da öz içində fərqli baxış və yanaşmalara malikdilər. Bu istiqamətlərin vahid bir ideologiyada uzlaşması üçün, onların semantikasında ortaq məqamlar bir-birini tamamlamalıdır. Bəlkə də 1920-ci ildə AXC-nin süqutu onunla bağlı idi ki, musavat hökuməti mövcud durumdan doğru yolu düzgün müəyyənləşdirə bilməmiş və ya müəyyən səhvlərə yol vermişdir. N. Nərimanovun da seçdiyi alternativ yol iflasa uğradı. Biz bu gün edilən səhvlərdən düzgün nəticə çıxarmalı və onları təkrar etməməliyik.

Qloballaşma, sosial və siyasi dəyişikliklər milli kimliyin formalaşmasına və ifadəsinə təsir göstərir. Dövlətçiliyin, xalqın milli kimliyinin və şüurunun inkişafı, Azərbaycan hakimiyyətinin qarşısında duran mühüm vəzifələrdəndir. Təbii ki, Azərbaycan bir dövlət olaraq öz vətəndaşlarının maksimum şəkildə vahid bir azərbaycançılıq milli ideologiyası ətrafında birləşdirməyə və müxtəif təbəqələri kimliyindən və mənsubiyyətindən asılı olmayaraq, strateji xarakterli azərbaycançılıq milli ideyasında bir araya gətirməyə səy göstərir. Lakin, ictimai şüurun xalq və onun ziyalıları səviyyələrində mövqeləri hər zaman üst-üstə düşmür. Bunun bir neçə səbəbi ola bilər (alternativ variantların olması, separatçılıq meyilləri, cahillik və s).

Son 200 ildə dünyada milli ideya və milli şüur dirkursu davam edir. Xüsusilə, son 50 ildə miqrasiya prosesləri ilə əlaqədar Avropada milli kimlik

məsələsi daha da aktuallaşmışdır. Solçular multikulturalizm siyasətini dəstəklədikləri halda, sağçılar bunu avropa və xristian kimliyinə təhdid olaraq görürlər. Çünki fransız, ingilis, alman kimliyi tədricən özündə müsəlman, ərəb, türk və digər kimlikləri daha qabarıq şəkildə biruzə verir. Vaxtilə milli dövlət ideologiyası çərçivəsində aparılan assimlyasiya siyasəti artıq səmərə vermir. Avropada tətbiq olunan multikulturalizm siyasəti isə, ənənəvi milli kimlik üzərində başqa kimliklərin dominant olmasına və individualizmə əsaslanan liberal sistemin tənəzzülünə və onun kollektiv dəyərlərə əsaslanan (etnik qruplar, dini icmalar, diasporalar və s) naməlum bir sistemlə əvəz olunmasına şərait yaradır.

Azərbaycan, Avropanın bu gün üzləşdiyi problemlərlə üzləşməyibdir. Lakin, Azərbaycanın qlobal "bir kəmər, bir yol" və müxtəlif enerji layihələrində tutduğu önəmli yeri nəzərə alsaq, yaxın gələcəkdə onun gəlirlərinin sürətlə artacağını söyləyə bilərik. Bu isə, öz növbəsində Azərbaycana əmək miqrasiyasının artacağını da göstərir. Yəni, Azərbaycan, 10-15 ildən sonra Avropanın qarşılaşdığı miqrant problemləri ilə üzləşə bilər. Türkiyədə Suriyadan gələn milyonlarla miqrant, artıq ölkədə müəyyən sosial-iqtisadi problemlərin yaranmasına və Cümhuriyyət dövründən aktuallaşan türk kimliğinin zəifləməsinə şərait yaradıbdır. Bu tendensiya daha da dərinləşsə, Türkiyə yenidən türkçülükdən osmançılığa (neoosmanizmə) doğru addımlaya bilər. Çünki Türkiyədə kürd məsələsi türklüyün bir vətəndaş deyil, irqi kimlik kimi səciyyələndirilməsinə səbəb olur.

Azərbaycanda da son dövrdə gedən geosiyasi proseslər, Azərbaycan-Türkiyə, Azərbaycan və TDT əməkdaşlığının hərtərəfli inkişafı kontekstində fərqli geosiyasi reallıqların ortaya çıxmasına səbəb olur. Bu proseslər, Azərbaycanın regional geosiyasi bir güc kimi güclənməsinə və onun tədricən siyasi baxımdan öz tarixi-mədəni sərhədlərinə doğru genişlənməsinə imkanlar açır. Bu isə, Qafqazda və Yaxın Şərqdə ənənəvi sistemin ortadan qalxması və yenilənməsi ilə müşayiət oluna bilər. Bu baxımdan, azərbaycançılıq ideyası gələcəkdə bölgədə özünü bu kimliyin bu və ya digər dərəcədə tərkib hissəsi bilənlərin ümumi kimliyinə çevrilə bilər. Buna görə də, azərbaycançılığın daha əhatəli və geniş olması zəruridir. Çünki qurulmaqda olan yeni dünya nizamı, S. Hantinqtonun proqnozlaşdırdığı kimi ortaq dini-mədəni dəyərlərin üzərində formalaşan sivilizasyon kimliklərin çoxqütblü nizamı olacaqdır. Azərbaycan bu baxımdan, Qafqazın və İran türklərinin, müsəlman əhalinin sivilizasyon mərkəzinə çevrilməsi imkanlarını əldən verməməli, qlobal iqtisadi layihələrdən öz böyük payını almalı, türkçülük və islam arasında sinkretik inkişaf yollarını müəyyənləşdirməlidir. Bunun üçün azərbaycançılıq milli ideyası daha məqsədəuyğun görünür.

5**. Azərbaycan və azərbaycanlı kimliyi**

Bəzi tədqiqatçılar hesab edirlər ki, Cənubi Qafqazda Azərbaycan anlayışı ilk dəfə 1918-ci ildə meydana çıxmış və bu, gələcəkdə şimal-qərbi İran ərazilərini ölkəyə birləşdirilməsi məqsədilə edilmişdir. Sonralar sovet dövründə də güya bu məqsədlə Azərbaycan Sovet Sosialist Respublikası adı saxlanılmışdır. Onların arqumentləri budur ki, qədim və orta əsr mənbələrində keçən Azərbaycan anlayışı İranın şimal-qərb bölgəsi (Atropatena) ilə əlaqədar olmuşdur. Bu fikir yanlışdır.

Azərbaycan bir coğrafi və siyasi anlayış kimi bölgənin son 2300 illik tarixində (Atropatena dan başlayaraq və ola bilsin ki, daha qədimdən) müxtəlif sülalələrin, tayfa ittifaqlarının, ictimai liderlərin qurduqları dövlətlərin adları ilə tanınsa da (Manna, Midiya, Atropatena, Albaniya, Şirvan, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi, Qacar), bu dövlətləri quranlar həmin ərazinin bir coğrafi və sosial-mədəni məkan kimi Azərbaycan olduğunu da bilirdilər.

Çoxsaylı orta əsr mənbələrinin Azərbaycan sərhədləri barədə verdikləri məlumatlar göstərir ki, Azərbaycan bəzən şimal-qərbi İran bölgəsini (Atrpatakan), bəzən də indiki Cənubi Qafqazın (Dərbənd də daxil olmaqla), şimal-qərbi və şimal-şərqi İranın böyük bir hissəsini əhatə edən böyük bir ərazi kimi təqdim olunur (Atrpatakan ərazisi də ona daxil olmaqla).

Ərəb hakimiyyəti dövründə üç tarixi-coğrafi ərazi – Azərbaycan, Arran və Ərməniyyə bir inzibati vahidə birləşdirilərək idarə olunmuş, sonrakı dövrlərin ərəb coğrafiyaçıları isə, bu səbəbdən bu inzibati vahidi və onun bütövlükdə əhatə etdiyi bölgəni bəzən "*əl-Cərbi*", bəzən "*ər-Rihab*", bəzən "*Ərməniyyə*", bəzən də ***"Azərbaycan"*** adlandırmışlar. XVII-XVIII əsrlərdən bölgəni ziyarət edən avropa səyyahları da onu "Azərbaycan" adlandırmışlar. Onlardan bir qismini misal göstərək:

- İbn Xordadbeh yazır: "*Əl-Cərbi*, bütöv məmləkətin dörddə bir hissəsini təşkil edən şimal ölkələridir, və şimal ispəhbədi farsların dövründə "*Azarbazkan ispəhbəd*" adlanırdı. Bunun tərkibinə daxildirlər: Ərməniyyə, Azərbaycan, ər-Rey və Dəmavənd." [3, 44].
- Təbəri yazır: "Azərbaycan böyük ölkə olub, cənubunda Həmədan, şimalında isə Dərbənd yerləşir." [1, 494].
- Hüseyn bin Xələf Təbrizi yazır (XVII əsr): "Arran - Azərbaycanın vilayətlərindən birinin adıdır." [2, 96].
- Jan Şarden yazır: "Dərbənd - Midiya Atropatenadadır." [4, 23].

İran tədqiqatçısı Həsən Raşidinin nəzərinə görə, Azərbaycanın adı "məmləkət" və "vilayət" olaraq işlənəndə iki fərqli coğrafi anlam daşıyır. "Məmləkət" qavramı işlənəndə Arran və Şirvan "vilayətləri" onun tərkib

hissələri olaraq hesab olunur, ancaq "vilayət" qavramı daşıyanda "Azərbaycan məmləkəti" içindəki Arran ilə qonşu sayılır [5].

Həsən Raşidinin sözündən belə çıxır ki, Azərbaycan siyasi anlayış kimi bir çox vilayətləri əhatə edir (həmçinin, Atrpatakan vilayətini). Bu ənənə, Sasanilər dövründə də eyni olmuşdur. Sasanilər dövründə Cənubi Qafqazın (Dərbənd də daxil olmaqla), şimal-qərbi və şimal-şərqi İranın böyük bir hissəsi Azərbaycan bölgəsi ("Kust-ī Ādūrbādagān") və ya Qafqaz bölgəsi (Kust-ī Kapkoh) kimi səciyyələndirilirdi.[22]

Əgər Sasani mənbələrində Atrpatakan böyük Azərbaycanın bir vilayəti idisə, o zaman siyasi mənada işlənən (məmləkət, dövlət) böyük Azərbaycan nə demək idi?

Təbii ki, bu sual mövcud araşdırmanın mövzusu ola bilməz. Lakin, bu sual gələcəkdə daha dərin araşdırmaların mövzusu olmalıdır.

1918-ci ildə yaradılan dövlətin Azərbaycan adlandırılması "Böyük Azərbaycan" gerçəkliyindən irəli gəlirdi. Çünki AXC-nin əsas qurucularından olan M.Ə.Rəsulzadə yazırdı: "*Rusiya idarəsindəki müsəlmanlara "türk" dedirtmək şimdi artıq qazanılmış bir davadır. Yalnız "türk" kəlməsi deyil, "Azərbaycan" adı da qazanılmışdır. Fəqət bu ismin (adın) əleyhinə dəxi, işarət etdiyimiz kibi, az mücadilə edilməmişdir."* .. "*Azərbaycan türklərinin yaşadıqları bir məmləkət olduğu üçün, burasına Azərbaycan deməkdə heç bir məhzur (qapadılmış, mühasirə edilmiş) görülməmişdir. Bu ismin yeni Türk Cümhuriyyətinə verilməsində ən mühüm amil şübhəsiz, bu qövmü ünsür olmuşdur.*" [6, 243-244].

M.Ə.Rəsulzadə yazırdı ki, yeni qurulan dövlətin Azərbaycan adlandırılması böyük müqavimətlə üzləşirdi və İran rəsmiləri, daxildəki Çar Rusiyasında müəlmanların birliyini müdafiə edən ittihadçılar, Azərbaycan istiqlalını önəmsəməyən yerli kommunist və sosialistlər buna qarşı çıxırdılar.

Cənubi Qafqaz, İraq, İran, Xorasan, Əfqanıstan, Türkiyə, Rusiya ərazisində özünü "azərbaycanlı" və ya "azərbaycan türkü" hesab edən, və yaxud

---

[22] Sasani mənbəsində (Šahrestānīhā-ī Ērānšahr) Azərbaycan bölgəsi ("**Kust-ī Ādūrbādagān**") və Qafqaz bölgəsi (**Kust-ī Kapkoh**) eyni inzibati bölgə kimi səciyyələndirilir. Bura daxildir: Atrpatakan (Atropatena), Armn, yəni Haik (Ərmən), Warğan, yəni Wirk (Gürcüstan), Ran, yəni Alvank (Albaniya), Balasakan (Biləscan - Muğan), Sisakan (hazırkı Sünik və ya Zəngəzur), Are (Rey), Gelan Şancan (Gilan - Zəncan), Dlmunk (Deyləman), Dmbavand (Dəmavənd), Taprstan (Təbəristan - hazırkı Mazandaran), Rvan (Royan-Xəzər dənizinin cənubunda), Aml (Amol-Mazandaranda bir şəhər). (Eranshahr nach der Geographie des Ps. Moses Xoranac'i, by Joseph Marquart/Markwart (Berlin, 1901) [Iran according to the Geography of Pseudo-Moses Xoranac'i]).

sosial-mədəni baxımdan özünü Azərbaycana daha yaxın hiss edən milyonlarla insan vardır. Çünki tarixən Azərbaycan, bir coğrafi-siyasi və sosial-mədəni məkan kimi bu əraziləri bir qismini əhatə etmiş və bu coğrafiyada yaşayan insanlar minillərlə sosial-mədəni baxımdan bir-biri ilə inteqrasiya olunmuşlar.

Bu gün, Azərbaycan 50 milyondan çox azərbaycanlının ata yurdu və dövləti sayılır. Azərbaycan yalnız türklərin deyil, minillərlə bu coğrafiyada yaşayan bir çox qafqazdilli və irandilli etnik qrupların da vətəni və dövləti hesab olunur. Son 44 günlük Vətən Müharibəsi sübut etdi ki, Azərbaycan, ərazisində əsrlərlə yaşayan bütün xalqların doğma vətənidir və onları bir araya gətirən "azərbaycanlılıq" ortaq milli kimlikdir.

Azərbaycanlı kimliyi dedikdə Azərbaycan xalqı və Azərbaycan dövləti çərçivəsində müəyyənləşən və formalaşan mədəni, tarixi və milli cəhətlər nəzərdə tutulur. Bu kimlik dil, din, mədəniyyət, adət-ənənələr və tarixi irs daxil olmaqla müxtəlif elementlərə əsaslanır:

- Dil - Azərbaycan dili Azərbaycan kimliyinin mühüm tərkib hissələrindən biridir. Azərbaycanda rəsmi dildir və ünsiyyətdə, təhsildə, mədəniyyətdə və KİV-də geniş istifadə olunur.
- Din - Azərbaycanlıların əksəriyyəti İslam dininə etiqad edir, şiələrdən və sünnilərdən təşkil olunubdur. Bununla yanaşı, azlıqda olan xristianlar, yəhudilər və digər dini qrupların nümayəndələri də var. İslam dininin Azərbaycan mədəniyyətinə, adət-ənənələrinə əhəmiyyətli təsiri var.
- Mədəniyyət və adət-ənənələr - Azərbaycan mədəniyyəti zəngin və çoxşaxəlidir. Buraya musiqi, rəqs, ədəbiyyat, incəsənət, kulinariya və xalq sənətkarlığı daxildir. Bu elementlərin çoxunun dərin tarixi kökləri var və nəsildən-nəslə ötürülür.
- Tarixi irs - Azərbaycan qədim və zəngin tarixə malikdir, onun azərbaycanlı kimliyinin formalaşmasına güclü təsiri vardır. Əsrlər boyu Azərbaycan müxtəlif sivilizasiyaların, imperiyaların və mədəni hərəkatların inkişaf məkanı olmuşdur.

Qeyd etmək lazımdır ki, azərbaycanlı kimliyi homogen deyil, Azərbaycan xalqının daxilində dil, dialekt, regional xüsusiyyətlər və sosial-mədəni ənənələrdə fərqliliklər mövcuddur. Lakin, onlar, azərbaycanlıların həmrəyliyinə mane olmur və əksinə, milli inkişafa mühüm töhvə verir.

**Ədəbiyyat**:

1. Chronique de Tabari..., Tome Troisième, 1871
2. Hüseyn bin Xələf Təbrizi, "Burhan-i qəti", 1/96).

3. İbni Xurdadbeh. Əl-məsalek əl-məmalek, H.Q, Liden. 1309.
4. Jean Chardin, Voyages du Chevalier Chardin, en Perse, et autres lieux de l'Orient. Tome premier. 1686
5. Raşidi Həsən. Türklər və İranda onların tarix, dil və varlığı haqda tədqiqat), "Əndişe-ye Nov" nəşriyyatı, Tehran, 1386 (h.ş.) / 2007 (m.) راشدی حسن، ترکان و بررسی تاریخ، زبان و هویت آنها در ایران، انتشارات اندیشه نو، تهران 1386 http://azoh.info/index2.php/index.php?option=com_jdownloads&Itemid=27&view=finish&cid=2119&catid=
6. Rəsulzadə M.Ə. Əsərləri, mühacirət dövrü, I cild, B. 2016. URL: https://musavat.com/news/azerbaycan-cumhuriyyeti-dovletimiz-niye-azerbaycan-adlanib-arasdirma_979016.html
7. Валлерстайн И. После либерализма / И. Валлерстайн; пер.с англ. М.М.Гурвица, П.М. Кудюкина, П.В. Феденко ; под ред. Б.Ю. Кагарлицкого. – Москва: Едиториал Урсс, 2003. – 253 с
8. Гюнтер Р. Кризис либерализма. Цит. по Антология мировой политической мысли в пяти томах. М., 1997. Т.2. Зарубежная политическая мысль. XX в. С. 750.
9. Кляйн Наоми. Доктрина шока. Расцвет капитализма катастроф. — М.: Добрая книга, 2009. — 656 с.
10. Консерватизм и либерализм: история и современные концепции: материалы междунар. науч. конф., 15 февраля 2002 г. / отв. ред. А.С. Карцов. – Санкт-Петербург: Изд-во С.-Петерб. ун-та, 2002. – 180 с
11. Кукатас Ч. Либеральный архипелаг = The Liberal Archipelago : теория разнообразия и свободы / Ч. Кукатас ; пер. с англ. Н. Эдельмана ; Фонд «Либеральная миссия». – Москва: Мысль, 2011. – 482 с.
12. Мелкевик Б. Хабермас и Ролз. Рассуждения о демократии / Б. Мелкевик; научный редактор И.Л. Честнов. – Москва: Проспект, 2021. – 136 с.
13. Мизес Л. фон Либерализм / Мизес Л. фон; пер. с англ. А.В. Куряева. – Челябинск: Социум, 2007. – 333 с.
14. Поппер К.Р. Открытое общество и его враги. В 2 т. Т. 1. Чары Платона / К.Р. Поппер; пер. с англ. В.Н. Садовского; Междунар. фонд «Культурная инициатива». – Москва: Феникс, 1992. – 448 с.

15. Ролз Д. Теория справедливости / Д. Ролз; пер. с англ., науч. ред. и предисл. В.В. Целищева. – 2-е изд. – Москва: Изд-во ЛКИ, 2010. – 535 с.
16. Сен А. Развитие как свобода / А. Сен; пер. с англ. под ред. Р.М. Нуреева; Фонд «Либеральная миссия». – Москва: Новое издательство, 2004. – 430 с.
17. Хантингтон С. Столкновение цивилизаций / Пер. с англ. Т. Велимеева. Ю. Новикова. — М.: ООО «Издательство АСТ», 2003. — С. 603.
18. Харрисон Л. Главная истина либерализма: как политика может изменить культуру и спасти ее от самой себя: пер. с англ. / Л. Харрисон; Фонд «Либеральная миссия». – Москва: Новое издательство, 2008. – 277 с.
19. Фукуяма Ф. Конец истории и последний человек: пер. с англ. / Ф. Фукуяма. – Москва: АСТ, 2007. – 588 с.
20. Фуллан Майкл. Новое понимание реформ в образовании. – М.: Просвещение, 2006

**References**:

1. Chronique de Tabari..., Tome Troisième, 1871.
2. Hüseyn bin Xələf Təbrizi, "Burhan-i qəti", 1/96).
3. İbni Xurdadbeh. Əl-məsalek əl-məmalek, H.Q, Liden. 1309.
4. Jean Chardin, Voyages du Chevalier Chardin, en Perse, et autres lieux de l'Orient. Tome premier. 1686
5. Raşidi Həsən. Türklər və İranda onların tarix, dil və varlığı haqda tədqiqat), "Əndişe-ye Nov" nəşriyyatı, Tehran, 1386 (h.ş.) / 2007 (m.) راشدی حسن، ترکان و بررسی تاریخ، زبان و هویت آنها در ایران، انتشارات اندیشه نو، تهران 1386 http://azoh.info/index2.php/index.php?option=com_jdownloads&Itemid=27&view=finish&cid=2119&catid=
6. Rəsulzadə M.Ə. Əsərləri, mühacirət dövrü, I cild, B. 2016. URL: https://musavat.com/news/azerbaycan-cumhuriyyeti-dovletimiz-niye-azerbaycan-adlanib-arasdirma_979016.html
7. Vallerstayn I. Posle liberalizma / I. Vallerstayn; per.s angl. M.M.Gurvitsa, P.M. Kudyukina, P.V. Fedenko ; pod red. B.YU. Kagarlitskogo. – Moskva: Yeditorial Urss, 2003. – 253 s

8. Gyunter R. Krizis liberalizma. Tsit. po Antologiya mirovoy politicheskoy mysli v pyati tomakh. M., 1997. T.2. Zarubezhnaya politicheskaya mysl'. KHKH v. S. 750.
9. Klyayn Naomi. Doktrina shoka. Rastsvet kapitalizma katastrof. — M.: Dobraya kniga, 2009. — 656 s.
10. Konservatizm i liberalizm: istoriya i sovremennyye kontseptsii: materialy mezhdunar. nauch. konf., 15 fevralya 2002 g. / otv. red. A.S. Kartsov. – Sankt-Peterburg: Izd-vo S.-Peterb. un-ta, 2002. – 180 s
11. Kukatas CH. Liberal'nyy arkhipelag = The Liberal Archipelago : teoriya raznoobraziya i svobody / CH. Kukatas ; per. s angl. N. Edel'mana ; Fond «Liberal'naya missiya». – Moskva: Mysl', 2011. – 482 s.
12. Melkevik B. Khabermas i Rolz. Rassuzhdeniya o demokratii / B. Melkevik; nauchnyy redaktor I.L. Chestnov. – Moskva: Prospekt, 2021. – 136 s.
13. Mizes L. fon Liberalizm / Mizes L. fon; per. s angl. A.V. Kurya-yeva. – Chelyabinsk: Sotsium, 2007. – 333 s.
14. Popper K.R. Otkrytoye obshchestvo i yego vragi. V 2 t. T. 1. Chary Platona / K.R. Popper; per. s angl. V.N. Sadovskogo; Mezhdunar. fond «Kul'turnaya initsiativa». – Moskva: Feniks, 1992. – 448 s.
15. Rolz D. Teoriya spravedlivosti / D. Rolz; per. s angl., nauch. red. i predisl. V.V. Tselishcheva. – 2-ye izd. – Moskva: Izd-vo LKI, 2010. – 535 s.
16. Sen A. Razvitiye kak svoboda / A. Sen; per. s angl. pod red. R.M. Nureyeva; Fond «Liberal'naya missiya». – Moskva: Novoye iz-datel'stvo, 2004. – 430 s.
17. Khantington S. Stolknoveniye tsivilizatsiy / Per. s angl. T. Velimeyeva. YU. Novikova. — M.: OOO «Izdatel'stvo AST», 2003. — S. 603.
18. Kharrison L. Glavnaya istina liberalizma: kak politika mozhet iz-menit' kul'turu i spasti yeye ot samoy sebya: per. s angl. / L. Khar-rison; Fond «Liberal'naya missiya». – Moskva: Novoye iz-datel'stvo, 2008. – 277 s.
19. Fukuyama F. Konets istorii i posledniy chelovek: per. s angl. / F. Fukuyama. – Moskva: AST, 2007. – 588 s.
20. Fullan Maykl. Novoye ponimaniye reform v obrazovanii. – M.: Prosveshcheniye, 2006

UOT - 1(091)

**Faiq Qəzənfər oğlu Ələkbərli**
dosent, fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
aparıcı elmi işçisi,
Azərbaycan, Bakı, H.Cavid prospekti,115
tel. :050 378 88 20
E-mail: faikalekperov@mail.ru)
https://science.academia.edu/FaiqElekberov
https://orcid.org/0000-0002-8865-568X

# TÜRK BİRİLİYİNİN GERÇƏKLƏŞMƏSİ YÖNÜNDƏ APARILAN SİYASİ-İDEOLOJİ İSLAHATLAR VƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI

**Xülasə**

*Məqalənin məqsədi***.** Türk birliyi mövzusu ilə bağlı apardığımız araşdırmalardan sonra gəldiyimiz nəticəyə görə, son illərdə Türk birliyi ideyasının reallaşması yolunda ciddi irəliləyişlər var. Türk xalqlarının bir-birlərini daha yaxından tanıması, ortaq köklərə qayıdış səbəbindən gələcəyin birgə inşası düşüncəsi artmaqdadır. Eyni zamanda, Türk elm adamlarının qatıldığı konfransların, simpoziumların keçirilməsi, texnologiyanın inkişafı, özəlliklə də Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və hərbi əməkdaşlıqların güclənməsi bu istiqamətdə mühüm rol oynamışdır. Türk birliyinin yaradılmasına gəldikdə isə, bu ideyanın reallaşması istiqamətində müxtəlif fərqli fikirlərdən ortaq nəticəyə gəlməyə çox az qalmışdır. Başqa sözlə, biz türklər, mövcud istər müstəqil, istərsə də yarımmüstəqil Türk dövlətlərinin vahid siyasi birliyinin yaranması istiqamətində çox böyük bir məsafə qət etmişik.

Həmçinin, Türk birlyinə gedən yolda Türk xalqlarının özünə inamı da bərpa olunmağa başlanmışdır. Bizim Türk xalqları olaraq yenidən dirilişimiz göz önündədir. Bizcə, bu milli diriliş Azərbaycan-Ermənistan arasındakı 44 günlük 2-ci Qarabağ müharibəsindən sonra özünü daha ciddi şəkildə ortaya qoymuşdur. Bu savaş yalnız Azərbaycan türklərini deyil, bütün Türk xalqlarını oyatmış, onlara yeni bir nəfəs vermişdir.

Doğrudur, son illərə qədər XXI yüzilin "Türk yüzili" olması şüarının fonunda baş verənlər heç də ürəkaçan olmamış, Türk birliyinin gerçəkləməsi məsələsi bir qədər arxa plana keçmişdir. Xüsusilə də, türkçülüyün, Türk

birliyinin əsas mərkəzləri olan Türkiyə, Azərbaycan və Türküstanda anti-türk dairələr tərəfindən türksüzləşdirmə prosesinin davam etməsi bəzi problemlərə yol açmışdır. Bu səbəbdəndir ki, ən ali səviyyədə - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın, Türk dünyasının ağsaqqalı Nursultan Nazarbayevin dilindən belə dəfələrlə Türk birliyi fikri səsləndirilsə də, Türk dövlətləri daxilində bunu qulaqardına vuranlar, görməzlikdən gələnlər olmuşdur. Ona görə də hesab edirik ki, son dövrə qədər XXI əsrin "Türk əsri" olmasına ciddi əngəllər olmuşdur. Ancaq qardaş Türk xalqlarının və onun dövlət başçılarının Türk Keneş, Türk Dövlətlərinin Əməkdaşlıq Şurası, TÜRKSOY, Türk Mədəniyyəti, Türk Akademiyası, Türk Dövlətləri Təşkilatı, Türk Sərmayə Fondu və digər sahələrlə bağlı apardığı əməli siyasət nəticəsində türkçülüyə münasibətdə qeyri-sağlam mövqe tutanlarlar geri çəkilməyə məcbur olmuşlar və artıq yeni bir mərhələnin balanmasına start verilmişdir.

*Mövzunun işlənmə dərəcəsi:* məqalənin sonunda təqdim olunmuş Ədəbiyyat siyahısına bax.

*Metod və metodologiya.* Məqalədə sistem yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

*Elmi yenilik.* Burada əsas elmi yenilik Türk Birliyi fəlsəfəsinin özünəməxsusluğunu tarixi-fəlsəfi və çağdaşlıq anlamda ifadə etməkdir. Eyni zamanda, məqalədə əsas elmi yeniliklərdən biri Türk birliyinin tarixinin qaynaqlarının və Tük Dövlətləri Təşkilatının dünyada yeni güc mərkəzlərindən birinə çevrilməsinin əhəmiyyətinin dəyərləndirilməsidir.

**Tədqiqatın nəticəsi**. Türk Dövlətləri Birliyi nümunəsində türk birlyinin mövcudluğunun zəruriliyi əsaslandırılır.

**Açar sözlər:** Türk Keneş, Türk Birliyi, Qərbçilik, Avropa Birliyi, İslamçılıq, Avrasiyaçılıq, Güney Azərbaycan, Türk Dövlətlər Təşkilatı

УДК - 1(091)

**Фаик Газанфар оглу Алекберли**
доцент, доктор философии по философии,
ведущий научный сотрудник Института Философии и Социологии НАНА
Азербайджан, Баку, проспект Г. Джавида, 31
tel. :050 378 88 20
E-mail: faikalekperov@mail.ru
https://science.academia.edu/FaiqElekberov
https://orcid.org/0000-0002-8865-568X

# ПОЛИТИКО-ИДЕОЛОГИЧЕСКИЕ РЕФОРМЫ И ОРГАНИЗАЦИЯ ТУРЕЦКИХ ГОСУДАРСТВ ДЛЯ РЕАЛИЗАЦИИ ТУРЕЦКОГО ЕДИНСТВА

**Резюме**

*Цель статьи.* В последние годы были достигнуты серьезные успехи в реализации идеи турецкого единства. Идея совместного строительства будущего возрастает благодаря тому, что тюркские народы ближе узнают друг друга и возвращаются к своим общим корням. В то же время важную роль в этом направлении сыграло проведение конференций и симпозиумов с участием тюркских ученых, развитие техники, особенно укрепление политического, экономического, культурного и военного сотрудничества между тюркскими государствами. Что же касается создания Тюркского союза, то из-за существования многочисленных точек зрения в отношении реализации этой идеи мало что оставалось для того, чтобы прийти к общему выводу. Другими словами, мы, тюрки, прошли большой путь до создания единого политического союза существующих независимых и полунезависимых тюркских государств.

На пути к Тюркскому союзу начала восстанавливаться уверенность тюркского народа в себе. Поэтому полное возрождение тюркских народов не за горами. На наш взгляд, это национальное возрождение еще более серьезно проявилось после 44-дневной 2-й Карабахской войны между Азербайджаном и Арменией. Эта война пробудила не только азербайджанских тюрок, но и все тюркские народы, придала им новое дыхание.

Правда, до последних лет то, что происходило на фоне лозунга XXI века как «тюркского века», совсем не радовало, а вопрос реализации турецкого единства отходил на второй план. В частности, к некоторым проблемам привело проведение процесса тюркизации антитюркскими кругами в Турции, Азербайджане и Туркестане, являющихся основными центрами тюркизма и тюркского единства. По этой причине, несмотря на то, что идея тюркского единства неоднократно озвучивалась на самом высоком уровне – Президентом Азербайджанской Республики Ильхамом Алиевым, Президентом Турецкой Республики Реджепом Тайипом Эрдоганом, старейшиной тюркского мира - Нурсултаном Назарбаевым, были те, кто игнорировал эту идею. Поэтому мы считаем, что до последнего периода существовали серьезные препятствия на пути становления «тюркского века». Однако в результате практической политики братских тюркских народов и глав их государств в отношении Турецкого Кенеша, Совета сотрудничества турецких государств, ТЮРКСОЙ, Турецкой культуры, Турецкой академии, Организации турецких государств, Турецкого Столичного фонда и других организаций, те, кто занимает нездоровую позицию по отношению к тюркизму, были вынуждены отступить, и начался новый этап объединения.

*Степень разработанности темы:* см. Библиографию, представленную в конце статьи.

*Метод и методология.* В статье использованы методы системного подхода и сравнительного анализа.

*Научная новизна.* Основная научная новизна заключается в том, что удалось выразить уникальность философии Тюркского Союза в исторических и современных философских терминах. При этом в статье одним из главных научных нововведений является оценка источников истории тюркского единства и значение превращения Организации тюркских государств в один из новых центров силы в мире.

**Результаты исследования**. Показана важность существования Тюркского союза и его яркого примера - Организации турецких государств - для настоящего и будущего человечества.

**Ключевые слова:** Турецкий совет, Турецкий союз, западничество, Евросоюз, исламизм, евразийство, Южный Азербайджан, Организация Тюркских Государств

**UDC- 1(091)**

**Faik Alakbarli**,
PhD in Philosopy, Asisstant Professor,
Senior Researcher at the Institute of Philosopy and Sociology
of ANAS.
31, H.Cavid Ave, Azerbaijan, Baku
Tel.: 050 378 88 20
E-mail: faikalekperov@mail.ru)
https://science.academia.edu/FaiqElekberov
https://orcid.org/0000-0002-8865-568X

# POLITICAL-IDEOLOGICAL REFORMS AND THE ORGANIZATION OF TURKIC STATES FOR THE REALIZATION OF TURKISH UNITY

**Abstract**

*Purpose of the article*. In recent years, serious progress has been made in the realization of the idea of Turkish unity. The idea of co-building of the future is increasing due to the Turkic peoples getting to know each other better and returning to their common roots. At the same time, conferences and symposia with the participation of Turkic scientists, the development of technology, especially the strengthening of political, economic, cultural and military cooperation between the Turkic states have played an important role in this direction. As for the establishment of the Turkic Union, there was little to come to a common conclusion due to the existence of numerous points of view concerning the realization of this idea. In other words, we, the Turks, have come a long way before the creation of a single political union of existing independent and semi-independent Turkic states.

On the way to the Turkic Union, the confidence of the Turkic people in themselves began to be restored. Therefore, the full revival of the Turkic peoples is not far off. In our opinion, this national revival has even more seriously manifested itself after the 44-day 2nd Karabakh war between Azerbaijan and Armenia. This war has awakened not only the Azerbaijani Turks, but all the Turkic peoples to give them a new breath.

True, until recent years what was happening against the background of the slogan of the XXI century as a "Turkic century" did not make us happy at all, and the question of the realization of Turkish unity receded into the background. In particular, some problems were caused by the conduct of the Turkization process by anti-Turkic circles in Turkey, Azerbaijan and Turkestan, which are the main centers of Turkism and Turkic unity. For this reason, despite the fact that the idea of Turkic unity has been repeatedly voiced at the highest level – by Ilham Aliyev, the President of the Republic of Azerbaijan, Recep Tayyip Erdogan, the President of the Republic of Turkey, the elder of the Turkic world - Nursultan Nazarbayev, there were those who ignored this idea. Therefore, we believe that until the last period, there were serious obstacles on the way of the establishment of the "Turkic century" formation. However, as a result of the practical policy of the brotherly Turkic peoples and heads of their states with regard to the Turkish Kenesh, Cooperation Council of Turkish States, TURKSOY, Turkish Culture, Turkish Academy, Organization of Turkish States, Turkish Capital Fund and other organizations, those who have an unhealthy attitude to Turkism were forced to retreat, and a new stage of the unification has begun.

*The degree of development of the topic*: See the bibliography at the end of the article.

*Method and methodology*. System approach and comparative analysis methods were used in the article.

*Scientific novelty*. The main scientific novelty is that it was possible to express a uniqueness of the philosophy of Turkic Union in historical and modern philosophical terms. One of the main scientific innovations of the article is the evaluation of the sources for the history of Turkic unity and the significance of the transformation of the Organization of Turkic States into one of the new centers of power in the world.

**Research Findings**. The importance of the existence of the Turkic Union and its vivid example - the Organization of Turkic States - for the present and future of humanity is shown.

**Keywords**: Turkish Council, Turkish Union, Westernism, European Union, Islamism, Eurasianism, South Azerbaijan, Organization of Turkic States.

**Giriş**

XX yüzilə qədər Türk dünyasının əsas problemi Türk dövlətlərinin bir araya gəlib ortaq birliklər yarada bilməməsi idi. Lakin son illərdə bu sahədə ciddi irəliləyişlər var. TürkPA-nın yaradılması, Türksoylu

dövlətlərin sammitinin keçirilməsi, Türk Keneşin varlığı, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun, digər qurumların yaradılması, müvafiq platformada bir çox QHT və KİV-in meydana çıxması bu sahədə atılan ciddi addımlar sırasındadır. Eyni zamanda 32 il ərzində ortaq keçmişdən ortaq gələcəyə gedən yolun bərpası yaxud yenidənqurulması istiqamətində ciddi uğurlar əldə olunub. Ümumiyyətlə, 32 il öncə ilə müqayisədə önəmli irəliləyişlər var. Bunu inkar etmək olmaz. Sevindirici haldır ki, Azərbaycanda bu istiqamətdə özünəməxsus öncüllüyə, lider mövqeyə malikdir. Dünyanın istənilən yerində Türk dünyasının bir problemi varsa, Azərbaycan ona şərik çıxır, bacardığı yardımları edir.

Beləliklə, gəldiyimiz nəticələrə görə, Türk birliyinin mövcudluğu ideyasının reallaşması yolunda irəliləyişlər var. Türk xalqlarının bir-birini tanıması, bir-birinə yaxınlaşması halları artıb. Bunun müxtəlif səbəbləri var. Konfransların, simpoziumların keçirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı insanların bir-birinə yaxınlaşmasında mühüm rol oynayır. Konkret siyasi bir birliyin yaradılmasına gəldikdə isə, bu gün üçün hələlik ən yaxşı yaxud uyğun model Avropa Birliyi modeli görünür.

**Türk dövlətlərində ideoloji savaşlar: milli və antimilli nəzəriyyələr**

XX yüzilin sonuna doğru müstəqil Türk dövlətlərinin sayının birdən (Türkiyə) altıya (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan) qədər yüksəlməsi, üstəlik digər yarımmüstəqil Türk dövlətlərinin (Tatarıstan, Başqırdıstan, Saxa, Uyğurustan və b.) də istqilal uğrunda mücadiləyə davam etmələri yeni bir mərhələnin başlanğıcı olmuşdur. Özəlliklə, Sovetlər birliyinin dağılması ilə birdən birə beş müstəqil Türk dövlətinin meydana çıxması yalnız Rusiya Federasiyasını, İran İslam Respublikasını deyil, bəzi Qərb dövlətlərini də ciddi şəkildə narahat etmişdir.

Hazırda Türk birliyinin gerçəkləşməməsi üçün antitütürk dairələr "Avrasiyasılıq", Qərb demokratiyası, "İslam birliyi" və digər ideolojilər adı altında Türk dövlətlərində müxtəlif oyunlar oynamağa davam edirlər. Məsələn, Rusiya Federasiyası dünənə qədər Sovetlər Birliyinin tərkibində olan beş müstəqil Türk dövlətini öz təsiri altında saxlamaq üçün bir tərəfdən ideoloji cəbhədə, digər tərəfdən isə hərbi cəbhədə savaş verməkdədir. Şübhəsiz, rəsmi Moskva hər iki cəbhədə də birbaşa gücündən daha çox maşalarından və 5-ci kolonlarından istifadə etməkdədir. Belə ki, vaxtilə param-parça olmuş Türk xalqlarını hərbi güclə işğal edən Rusiya hazırda isə, daha çoxhərbi gücdən istifadə etmədən ideoloji oyunlarla imperiya maraqlarını

həyata keçirməyə çalışır. Bu zaman rus ideoloqları Sovetlər Birliyi dövrünün nostalgiyası ilə yaşayan Türk xalqlarının içindəki yaşlı "sovet nəsli"ndən maksimum faydalanır. Çünki azad-milli ruhlu gənc nəsil milli demokratiyaya, Türk birliyinə çox meyil etdiyi halda, "sovet nəsli"nin böyük əksəriyyəti bunu qəbul etmir, yaxud da etmək istəmir. Şübhəsiz, bunlar ilk növbədə ictimai şüurla, ictimai psixologiya ilə bağlıdır. Məsələn, "sovet nəsli"nin xeyli bir qisminin milli demokratiyaya, türklüyə, Türk birliyinə antisimpatiyası əvəzində "rus kommunizm"inə müsbət münasibətinin əsasında Sovetlər Birliyi dövrü və şəraiti, onun imperialist ideologiyası dayanır.

Xüsusilə, Türk dövlətlərindəki yaşlı "sovet nəsli"nin böyük bir qisminin kommunizm dedikdə, marksizm banilərinin kommunizminə deyil, "rus kommunizmi"nə tapınmaları ideyaya bağlılıqdan daha çox, dövrün reallıqları və gerçəklikləri ilə bağlıdır. Bu, artıq ideyaya olan könüllü sevginin təzahürü ola bilməz. Burada zorakılıq və həmin zorakılığın "sevgiyə" çevrilməsi prosesi açıq şəkildə özünü büruzə verir. Bunun da nəticəsidir ki, sovet nəslinin xeyli qismi faktiki olaraq "rus kommunizmi"ni unuda bilmir, unuda bilmədiyi üçün də milli demokratiyaya da kapitalizmin ünsürü kimi yanaşır. Onların fikrincə, demokratiya anarxiya, özbaşınalıq deməkdir. Bütün bunlar "sovet nəsli"nin əksəriyyəti üçün yalnız mənfi amillərdir. Bu mənada, Rusiyadan əsən "zəhərli yellər" belə cəlbedici görünür.

Ancaq yeni nəslin, yəni "sovet mühiti" ilə ya çox az bağlı olanlar, ya da ümumiyyətlə bağlı olmayanların milli demokratiyaya, Türk birliyinə münasibəti xeyli dərəcədə fərqlidir. Bunun da başlıca iki səbəbi var: 1. "Rus kommunizmi" ideologiyasından, "sovet mühiti"ndən xeyli fərqli bir şəraitdə yetişmələri və milli demokratiyaya keçid, yaxud da Türk dövlətlərinin inteqrasiyası dövründə yaşamaları; 2. Türk adət-ənənələri, xüsusilə Sovetlər Birliyi dövründən öncəki Türk dövlətçilik ənənləri ilə tanışlıq.

Birincisi, fikrimizcə, "rus kommunizmi" (sovet) ideologiyası mühitində yetişməyən, onu görməyən, ya da çox az görən faktiki olaraq təsir dairəsi az olan yeni nəslin "rus kommunizmi" və "Yeni Rus İmperializmi"nə münasibəti yaşlı "sovet nəsli"ndən xeyli dərəcə də fərqlidir. Ən azı yeni dövr nəslinin böyük çoxluğunun düşüncəsində pis və yaxşı fərq etməz, "rus kommunizmi" və "Yeni Rus İmperializmi" xülyası yoxdur. Digər tərəfdən hər bir gənc pis və yaxşı yaşadığı dövrün, mühitin, təhsilin və mədəniyyətin yetişdirməsidir. Doğrudur, yeni nəslin arasında da elələri var ki, sözün həqiqi mənasında demokratiya, milli demokratiya anlayışlarını dərk etmirlər. Ancaq belə gənclərin "rus kommunizmi" haqqında da müsbət təsəvvürləri demək olar ki, yox dərəcəsindədir. Bu mənada, həmin gənclərin

də təsəvvürlərinin demokratiya, milli demokratiya lehinə yönəlməsi ümidi daha çoxdur, nəinki hər hansı imperalizm təfəkkürünə. Üstəlik, Türk dövlətlərinin yeni nəsilləri Türk xalqları ilə inteqrasiya içində böyümüşlər. Artıq onlar biri-birlərini rus dili, inglis dili ilə deyil, yenidən ortaq Türk dili tanımağa başlamışlar.

İkincisi, müstəqil-milli ruhlu gənc nəslin yaşlı "sovet nəsli"ndən fərqli olaraq orta məktəbdən başlayaraq ümumi şəkildə də olsa, Türk adət-ənənələrini, Türk dövlətçilik anlayışlarını mənimsəmək şansları olmuşdur. Özləlliklə, bir tərəfdən "Azərbaycan tarixi", "Özbəkistan tarixi", "Qazaxıstan tarixi", "Türkmənistan tarixi", "Qırğızıstan tarixi" fənləri, digər tərəfdən "Ortaq Türk tarixi" fənni ilə bir çox məsələləri daha aydın şəkildə qavrayırlar. Eyni zamanda, azad-milli ruhlu gənc nəslin imperiya müstəmləkəçilik mühitində və təhsilində deyil, müstəqil Türk dövlətləri mühitində və təhsilində bu anlayışları mənimsəməsi də vacib amillərdəndir. Məsələn, Sovetlər Birliyinə qədərki müstəqil Türk dövlətləri dövründəki milli ideyalarıa tanışlıq, onların ideyalarının öyrənilməsi yeni nəslin şüurunun formalaşmasında xeyli dərəcədə müsbət təsir göstərir. Müstəqil ruhlu yeni nəsil anlayır ki (hamısı olmasa da), yaxın tarixdə milli demokratiyaya, milli adət-ənənələrə, o cümlədən "rus kommunizmi"nə münasibətdə onların ata-babaları hansı yolu tutmuşlar! Deməli, "sovet nəsli"ndən fərqli olaraq azad-milli ruhlu yeni nəslin bu ideyaları müqayisə etmək şansları da var.

Gördüyümüz kimi, milli və imperialist ideya xətlərinə münasibətdə yaşlı "sovet" və müstəqil-milli ruhlu gənc nəsil arasında nə qədər ziddiyyətlər mövcuddur. Bu cür ziddiyyətlərin mövcudluğu, üstəlik modernəlşmə, postmodernləşmə və vətəndaş cəmiyyəti ideyalarının da yayıldığı bir dövrdə Türk xalqlarında milli şüurun asan şəkildə formalaşması prosesinin həyata keçirilməsi mümkün deyildir. Ən azı ona görə ki, Türk xalqları "rus kommunizmi"ndən tamamilə qurtulub milli demokratiyaya, Türk dövlətçilik ənənələrinə tamamilə uyğunlaşmadığı bir dövrdə, yenə də yad ideyaların təsirinə məruz qalır. Bu isə, istər-istəməz Türk xalqlarında milli şüurun formalaşması prosesinə əngəl olur.

Milli şüurun formalaşması prosesinin ləngiməsi fonunda, buna alternativ olaraq Türk xalqlarında yad ideyalar və ona uyğun qeyri-milli şüur formaları toplumun ayrı-ayrı təbəqələrinə bu və ya digər dərəcədə təsir göstərir. Çünki milli şüuru istənilən səviyyədə olmayan insanlar istər-istəməz alterantiv ideyaların ya təsirinə məruz qalır, ya da özləri yad ideyalara meyil göstərirlər. Bu, xüsusilə müstəqilliyini yenidən bərpa etmiş gənc Türk dövlətləri üçün çox təhlükəlidir. Milli şüuru normal səviyyədə formalaşmayan bir cəmiyyətdə kənar ideyalarla bağlı mövcud olan təsəvvürlərin özü də

yarımçıq olur. Bu yarımçıqlıqlar insanların ictimai şüurunda natamamlıq kompleksi yaradır.

Yaxın iki əsr ərzində milli yaddaşı dolaşdırılan bir cəmiyyətin bu problemi həll etmədən hər hansı bir modelə üz tutması asan deyildir. Öncə milli yaddaş şüuru bərpa olunmalı, daha sonra hansısa yeni bir modelin tətbiqinə cəhd göstərilməlidir. Əgər milli yaddaş şüuru bərpa olunmadan cəmiyyətə hər hansı bir model ("Yeni Rus İmperializmi", "Türk Birliyi", "Avropa Birliyi" və b.) təklif olunarsa, cəmiyyətin müxtəlif təbəqələri ona fərqli təpkilər verəcəklər. Çünki cəmiyyətin əksəriyyətinin vahid milli şüuru formalaşmamışdır. Bu proses hələ, getməkdədir. Bir sıra obyektiv və subyektiv səbəblərdən dolayı uzun müddət idi ki, Türk dövlətlərində milli şüurun, milli mənliyin formalaşması da ləng gedirdi.

Ona görə də Avropadan, İslam və Türk dünyasından, Rusiyadan gələn "yeni modellər"ə münasibət birmənalı deyildir. Amma bu modellər arasında Türk birliyi və Avrasiyaçılıq ("Yeni Rus İmperializmi") Türk cəmiyyətlərini daha çox cəlb edir. Əgər Türk birliyi daha çox azad-milli ruhlu gənc nəslin maraq dairəsindədirsə, "Yeni Rus İmperializmi" isə yaşlı kommunist təfəkkürlü "sovet" nəsli üçün aktuallığını qoruyub saxlayır. Dünənə qədər formal da olsa, Türk dövlətlərinin müstəqilliyindən ağızdolusu danışan "sovet" nəslinin çoxu zamanla Rusiyayanlı olduğunu gizlətmirlər. Bu bir acı həqiqətdir ki, müstəqillik sözlə və formallıqla ola bilməz. Müstəqillik-bağımsızlıq millətin ruhunda, şüurunda olmalıdır. Müstəqillik vəzifə və maddiyyatla heç ölçülə bilməz. O, bir şərəf və namus məsələsidir.

"Yeni Rus İmperializmi"nə, "Avropa Birliyi"nə qarşı yeganə xilas yolumuz Türkçülük, Türk birliyi ideyasıdır. Türk birliyinin strateji bir hədəfə çevrilməsinin zamanı çoxdan gəlmişdir. Rusiya, Çin, bəziu Qərb dövlətləri və başqaları qarşısında güclü və hədəfi bəlli bir Türk Birliyini görərsə onunla hesablaşmaq məcburiyyətində qalacaqdır.

Hər halda, Rusiya Federasiyası, Çin, Avropa Birliyi və başqalarının güclü bir Türk Birliyinə qarşı çıxaraq Türkiyə, Azərbaycana, Qazaxıstana, Özbəkistana, Türkmənistana, Qırığızıstana əl belə sürə bilməz. Əgər belə bir niyyətə düşərsə belə artıq qarşısında bir yox, bir neçə Türk dövlətini görməli olacağını, üstəlik Rusiya Federasiyasının tərkibindəki Türk muxtar respublikalarının da yer dəyişdirə biləcəyini nəzərə almaq zorunda qalacaqdır. Artıq nəinki müstəqil Türk dövlətləri, hətta Rusiya Federasiyasının tərkibindəki Türk muxtar respublikalarında (Tatarıstan, Saxa, Kalmıkya, Altay vəb.) da Türk-Turan ruhu yüksələn xətlə davam etməkdədir. Eyni proses, Çin, İran İslam Respublikası və digərlərində də getməkdədir.

**Türk-İslam məfkurəli birlik.**

Ümumiyyətlə, Türk xalqlaırının ya da Türk dövlətlərinin birliyinin yaranması barədə zaman-zaman ən azə dörd müxtəlif istiqamət mövcud olub.

Bunlardan birincisi, Türk-islam məfkurəsi əsasında Türk dövlətləri birliyinin yaradılmasıdır. XX yüzilin əvvəllərində Azərbaycan Türk mütəfəkkiri, filosofu Əli bəy Hüseynzadə həmin fikirlə çıxış edib (Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007; **30**). Ancaq Ə.Hüseynzadə Türk-İslam birliyi tərəfdarı olmaqla yanaşı, daha çox Turançılığın ideoloqu idi; o, Turançılıqda yalnız müsəlman Türk xalqlarını deyil, qeyri-müsəlman Türk topluluqlarını da görürdü [Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007; **32**] .

Həmin dövrdə Əli bəy Hüseynzadə ilə yanaşı Türk-İslam məfkurəli "İslam millətçiliyi"nin əsas ideoloqu isə başqa bir Azərbaycan Türk mütəfəkkiri Əhməd bəy Ağaoğlu olmuşdur.Uzun müddət "İslam millətçiliyn"nin təbliğ edən Ə.Ağaolğu hesab edirdi ki, Türk-İslam dünyasının qurtulu yalnız buna bağlıdır [Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007; **333**]. Ancaq sonralar Ağaoğlu bu nəzəriyyədən imtina edərək daha çox Türk dünyanın Qərb mədəniyyəti ilə inteqrasiyasını müdafiə etmişdir ki [Ağaoğlu Əhməd. Üç mədəniyyət. Bakı: Mütərcim, 2006; **30-31**], bu da bir çox Türkiyə aydınlarının tənqidinə səbəb olmuşdur [Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, "Elm və təhsil", 2020; **201-218**].

Ümumiyyətlə, Türk xalqlarının (Türkiyə, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Tatarıstan, Başqırdıstan, Krım, İraq türkmənləri, Suriya türkmənləri, Uygurustan və b.) özləri üçün aydınlaşdırmalı olduğu ilk məsələ Türklüyün, Türkçülüyün İslam dini, İslam mədəniyyəti bir sözlə İslam dünyasıyla hansı anlamda, mahiyyətdə bütövlük təşkil etməsidir. Əslində bu gün Türk müsəlman xalqları özünü əsasən İslam dünyasında görürsə (hər halda xristian, buddizm, şamançı və digər dini inanclı türklər də vardır), o zaman bütün problemlərinə də ilk növbədə bu yöndən yanaşmaq, eyni zamanda İslam dünyasının bütün məsələlərini də öz məsələləri kimi dəyərləndirmək və həll etmək məcburiyyətindədir. Bu heç də göründüyü qədər sadə deyildir. Ona görə də, bütün Türk aydınları İslam dünyasının məsələlərinə mürəkkəbdən sadəyə doğru deyil, tam əksinə sadədən mürəkkəbə doğru cavab verməlidir. Türk aydınları ilk öncə, İslam dini inanclı Türk xalqlarının çağırışlarına cavab verməli, problemlərinə həll yolları göstərməli, amma müsəlman olmayan digər dini inanclı Türk-Turan xalqları (qaqa-

uzlar, macarlar, bolqarlar, yakutlar, tuvalılar və b.) da unutmamalıdırlar. Ancaq bundan sonra İslam dünyası xalqlarının, dünya xalqlarının problemləri və həll yolları gündəmə gələ bilər. Atalarımız demişkən, "öncə evin içi, sonra çölü" [Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017; **457**].

Konkret olaraq Türkiyə Cümhuriyyəti nümunəsində, burada yaşayan Türk aydınları birinci növbədə "evin içi" olan Türk toplumunun ya da Türk-Müsəlman toplumunun, daha sonra Türkiyə xaricindəki Türk-Müsəlman toplumlarının (Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, İran İslam Respublikası, İraq, Suriya və b.) və qeyri-müsəlman toplumlarının problemləriylə bağlı araşdırmalar aparmalı, bu Türk toplumlarının birlik və bərabərliyini əngəlləyən amilləri aradan qaldıraraq onu gücləndirəcək həll yolları göstərməlidir. Yəni Türkiyəni təmsil edən bir Türk aydını ölkəsinin yalnız İslam dünyasının bir parçası deyil, eyni zamanda Türk dünyasının da bir parçası olduğunu unutmamalıdır. Bu anlamda Türkiyənin problemlərini İslam dünyasının deyil, ən azından başlanğıc olaraq Türk dünyasının problemləri olaraq görməli, daha sonra İslam dünyası çərçivəsində Türk-İslam xalqları və onların problemləriylə maraqlanmalıdır. Ancaq bir Türk aydını bunun etmək əvəzinə, daha çox İslam dünyası düşüncəsiylə türk, qeyri-türk bütün müsəlman xalqlarının problemlərini həll etməyi üstünə götrürsə, o zaman işini çox qəlizləşdirmiş olur [Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017; **457-458**].

Öncəlliklə, müsəlman Türk xalqlarının problemlərinin ələ alınması məsələsini ortaya atmaqla İslam dünyasını hansısa hissələrə bölmək fikrimiz yoxdur. Sadəcə, məqsədimiz odur ki, İslam dünyasının istər-istəməz parçaları olanlar arasında məntiqə və məqsədəuyğun olaraq daha ağıllı, soyuqqanlı bütövləşmə baş versin. Şübhəsiz, bu gün İslam dünyasının önəmli birisi olan, bəlkə də mərkəzini təkşil edən bir qüvvət varsa o da müsəlman türklərdir. Hər halda ərəblərin, farsların, pakistanlıların və digər müsəlman xalqlarının İslam dünyasının mərkəzi olması istəyi olsa da, faktiki olaraq bu gün onların arzuları gerçəkçi görünmür. Bunu, zaman zaman bütün müsəlman xalqlarını incələyən Qərb institutları və onların alimləri də yaxşı bilirlər. Əslində son iki əsrə yaxındır ki, Avropada Qərb-Xristian dünyasına İslam dünyasının alternativliyi daim diqqət mərkəzində olmuşdur. Ancaq Qərb-Xristian dünyasına alternativ olmaq üçün İslam dünyasına aid dövlətlərdən ya da millətlərdən biri avanqard rolunu oynamalıdır. Qərb də həm keçimş tarixdən, həm də bugünkü vəziyyətdən nəticə çıxararaq İslam dünyasında avanqard, super güc olacaq bir dövlətin-xalqın ortaya çıxmasına

yol vermək istəmir. Biz bu kimi nümunələri bir qədər fərqli formada 150-100 il bundan öncə İslam dünyasına aid Osmanlının, Qacarların çöküşü və həmin çöküşdən sonra yeni yaranan dövlətlərin (Türkiyə, “İran”, Suriya, İrak və b.) Qərb ideyalarına yoluxdurulmasında görmüşük.

Bu baxımdan son iki əsrdə Qərbdən müsəlman Şərqinə gələn ideyalar geniş anlamda “məzhəbçilik” və “milliyyətçilik” olmuşdur. Bununla da uzun müddət Şərq, o cümlədən İslam şərqi dünyasının lideri olmuş müsəlman türkləri və onların dövlətlərini-imperiyalarını çökdürdükdən sonra Qərb siyasətində hər hansı müsəlman xalqının İslam dünyasında yeni bir gücə çevrilməməsi məsələsinin həlli də iki əsas üzərində qurulmuşdur: 1) İslam dünyasını Qərbin ixrac etdiyi demokratiya, kommunuzm, tolerantlıq, vətəndaş cəmiyyəti, multikulturalizm kimi ideyalarla əsas yolundan uzaqlaşdırmaq; 2) İslam dünyası xalqaları arasında super güc olmaq istəyən dövlətləri ya da millətləri daima birbirinə qarşı qoymaq, bunun üçün milliyyətçilik və dini məzhəbçilik hisslərindən maksimum istifadə etmək.

Hesab edirik ki, bu gün Türkiyə Türk Dünyasının sözün həqiqi mənasında aparıcı dövləti olub dünyanın da super güclərindən biri olmaq istəyirsə, hədəfini dörd mərhələdən ibarət olaraq müəyyənləşdirməlidir: 1) Türkiyə daxilində islamlıq və türklük ideyaları dəqiqləşməli; 2) Müsəlman və qeyri-müsəlman Türk Dünyasına hesablanmış hədəflər müəyyənləşməli; 3) İslam dünyasındakı hədəflər bəlirlənməli; 4) Dünyanın hansı simada super güclərindən biri olmaq istəyi konkretləşməli. Biz eyni sözləri Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Azərbaycan haqqında da deyə bilərik. Ancaq bu günün gerçəkliyi daha çox Türkiyənin üzərində dayanmağımızı ortaya qoyur. Təbii ki, bu günün Qazaxıstanı da sabah Orta Asiya və Qafqazda güclü bir dövlətə çevrildiyi halda, təxminən 20-30 ildən sonra Türk dünyasının, ardınca da İslam dünyasının da lideri ola bilər. Yaxud da iki əsr bundan öncə (1828-ci il) bir hissəsi çar Rusiyası tərəfindən işğal olunan və yenicə müstəqilliyini qazanan Quzey Azərbaycan, digər hissəsi isə bir əsr bundan öncə sözdə “İran İslam Cümhuriyyəti” adlanan molla-fars rejiminin hakimiyyəti altında qalan Güney Azərbaycan bir-vahid Azərbaycan olacağı təqdirdə Türk dünyasının və İslam dünyasının lider dövləti olmaq gücündədir. Sadəcə, bu günün gerçəklikləri Qazaxıstanın, Azərbaycanın ya da digər bir müsəlman Türk dövlətinin deyil, daha çox Türkiyənin Türk dünyası və İslam dünyasının lideri olmasını önə çıxarır.

Ancaq bu gün Türkiyənin özü də müsəlman türklər olaraq təkbaşına İslam dünyasının yenidən mərkəzi olmaqda çətinlik çəkir. Çünki Osmanlı yerinə qurulan Türkiyə Cümhuriyyətinin (1923) İslam dünyasının, Türk dünyasının belə öncülü olması məsələsində doğru yol xəritəsi cıza bil-

məmişdir, ya da belə bir yolu cızmağa imkan verməyən iç və xarici qüvvələr olmuşdur. Bu baxımdan təxminən son bir əsrdə Türkiyənin digər Türk-İslam xalqlarıyla istənilən münasibətləri qura bilməməsi təsadüfi deyildir. Osmanlını İslam dünyasından, Türkiyəni isə Türk dünyasından uzaqlaşdırılması üçün antitürk qüvvələr nə lazımdırsa etməyə çalışmışlar. Hələ, antitürk qüvvələr 1920-ci illərdə Türkiyə türklərinə yalnız Cümhuriyyət daxilində türkçülük və islamçılıqla məşğul ola biləcəklərini açıqca ifadə etmişlər. Bunun nəticəsi olaraq da Atatürklər, Ziya Gökalplar, Xalidə Ədib Adıvarlar Turançılıq məfkurəsini Türkiyəçiliklə məhdudlaşdırmaq zorunda qalıblar. Xüsusilə,1923-cü ildə yazdığı "Türkçülüyün əsasları" kitabında Ziya Gökalp Türkçülük (Türk Birliyi) və Turan ülküsünü yenidən dəyərləndirmişdir. Ziya Gökalp yazırdı ki, artıq Türkiyə üçün utopik türkçülük, turançılıq deyil, real olaraq Türkiyəçilik önəmlidir. Ona görə, Türkçülük-oğuzçuluq və Turancılıq isə bütün Türklərin gələcək idealları idi [Gökalp Ziya. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991; **38**]. Əslində bütün bunları Gökalpın Türk birliyi, Turançılıq ideyasından vaz keçməsi kimi anlaşılması qətiyyən doğru deyildir. Bütün ruhu və varlığıyla Turan ülküsünə bağlı olan Gökalp, Türkiyə Cümhuriyyətinin tək müstəqil bir dövlət olaraq mövcudluğu naminə türkçülük fikirlərində bəzi dəyişikliklər etmişdir. Aşağı-yuxarı bu proses Türkiyənin dövlət siyasəti olaraq 20-ci əsrin sonlarına qədər davam etmiş, hətta, son zamanlara qədər Türkiyənin dövlət başçıları, bir çox bilginləri Türkiyəçilkdən qurtula bilməmişlər. Yalnız 1960-cı illərdən başlayaraq Alparslan Türkeş yenidən bütün türklər üçün keçərli olan Türk birliyini irəli sürmüşdür ki, onun bu Türk birliyi ideyası da Türk-İslam məfkurəsinə əsaslanmışdır [Türkeş Alparslan. Bunalımdan çıkış yolu. İstanbul, "Emek Matbaacılık ve ilancılık", 1980; **30-31**] .

Ancaq 1990-cı illərdə yüni Türk dövlətləri meydana çıxdıqda məlum oldu ki, Türkiyədə Türk-İslam məfkurəli Türk birliyinin özündə də konkretlik yoxdur. Hər halda Türkiyə Türk aydınları, Türk liderləri İslam dini və Türklük məsələsində hansı yol xəritəsini cızıblar, bütün bunlara aydınlıq gətirilməsi əsas məsələ olaraq qalmaqdadır. Yəni Türkiyə öncəlliklə, İslam dünyası adı altında Türk müsəlman xalqlarınmı, yoxsa bütün İslam xaqlarınınmı ya da bir bölgəninmi super gücü olmaq niyyətindədir?! Bizcə, Türkiyə öncə qeyri-müsəlman türk xalqlarını da gözardı etmədən, hər şeyi Türk müsəlman xalqlarıyla əməkdaşlıqdan başlamalıdır. Bu zaman da Türkiyə ilk növbədə, öz içindəki islamlıq və türklük ya da Türk-İslam ideolojisinə aydınlıq gətirməlidir ki, Türkiyə xaricindəki türk-müsəlman xalqlarıyla münasibətdə də hədəflərini doğru müəyyənləşdirə bilsin. Başqa sözlə, Türkiyə daxilində dövlət siyasəti olaraq türklük və islamlıq ya da Türk-İslam

məfkurəsi aydınlığa qovuşmadan, bu ölkənin digər Türk müsləman xalqları ya da dövlətləriylə münasibətləri dostluqdan vahid birliyə doğru yüksəlişini gözləmək mənasızdır. Bu baxımdan Türkiyə dövlətinin islamlıq və türklük məsələsində dəqiq, aydın hədəfi olmalıdır.

Demək istədiyimiz odur ki, Türk-Turan xalqlarının Tanrı yolunda yürüməkləri (yəni Türk əxlaqı, estetikası, adət-ənənələri, törələri, həyat tərzi, dövlətçiliyi və s.) İslamlıqla başlamadığı üçün, onu həddən artıq ideallaşdırıb Türk kimliyini arxa plana keçirmək doğru deyildir. Doğrudur ki, Şamançılıq, Xirstianlıq, Buddizm, Yəhudiliklə müqayisədə Türklər özlərini daha çox İslamlıqda tapmışlar. Məhz Türk özünü İslamlıqda daha çox tapdığı üçün də Tanrıya gedən yolda 13 əsrdir İslamla birlikdədir. Bununla yanaşı onu da idrak etməliyik ki, Türklərin İslam dinini qəbul etməyi sadəcə, Tanrı yolunda yürüməyin ən uğurlu davamıdır. Ancaq bu heç də İslamdan kənarda başqa yollarla (xristianlıq, buddizm, şamançılıq, yəhudilik və b.) Tanrı yolunda yürüməyə davam edən Türk soydaşlarımızı inkar etmək anlamına gəlməməlidir.

Ona görə də, burada diqqət etməli olduğumuz əsas məsələ yalnız müəyyən bir dinin daşıyıcısı olan millətin, həmin dinə tapınmış olan digər xalqlarla birlikdə mövcud problemləri və onun həlli yollarını düşünməsi deyil, eyni zamanda dini həssaslıqlarını qorumaqla yanaşı digər ideyalara (dini, ya da siyasi-ideoloji) tapınan daxildəki soydaşlarıyla da bu və ya başqa məsələlərin həllində bir araya gələ bilməsidir. Bir toplum daxilindəki dini birlik inam və inanc birliyidirsə, milli birlik isə milli qədər və milli dövlət yaratmaq, inkişaf etdirmək, yaşatmaq yoludur.  Bu məsələnin çox sadə həll yolu var. Belə ki, milliyyətçiliyimizə Qərb milliyyətçiliyi, İslamçılığa isə Sami dinçiliyi mövqeyindən yanaşmaqdan əl çəkməliyik. Hər halda, biz belə hesab edirik ki, Qərb (ingilis, fransız, alman və b.) milliyyətçiliyi Türk milliyyətçiliyini, Sami-Yəhidi dinçiliyi isə İslamçılığı olduğu kimi ifadə etmir. Ona görə də, Türk-İslam dünyası məsələləri adına hər iki məsələnin ciddi şəkildə izahlarına ehtiyac vardır.

Bizcə, bu anlamda Türk xalqlarının həyatında mühüm rol oynamış, həmin rolu oynamağa davam edən istər İslamçılığa, istərsə də türkçülüyə münasibət ilk növbədə, bir Türk dini-fəlsəfi dünyagörüşünün və Türk milliyyətçiliyininçərçivəsində olmalıdır. Əlbəttə, bu o anlama gəlmir ki, hər bir millət İslam dininə öz kimliyindən yanaşaraq onun əsil mahiyyətindən uzaqlaşmalıdır. Ancaq eyni şəkildə öz milli dəyərlərini, adət-ənənələrini, mədəniyyətini tamamilə dinin, konkret İslam mədəniyyətinin içində əritməyi də doğru hesab etmirik. Hər bir şey ölçüsündə, əndazəsində və qədərində olmalıdır. Bir din hər hansı millətin dəyərləri içində assimliyasiya olunanda

zahiri xarakter daşıdığı kimi, bir millət də hər hansı dinin içində əriyəndə millətin yalnız adı qalır, özü və özülü isə məhv olur.

Ona görə də, Türk-İslam məfkurəli birlikdən bəhs ediriksə, ilk növbədə Türk xalqlarının burada maraqları nəzərə alınmaldır. Əgər bu gün dünyada 7 müstəqil Türk dövləti varsa, onların hamısı da müsəlman ölkələridirlərsə, o zaman türklüyün və islamlığın bir-birini tamamladığını düşünə bilərik. Ancaq bütün hallarda 7 Türk dövlətinin birliyi birinci türklüklərinə, ikinci müsəlmanlıqlarına əsaslanmalıdır. Çünki milli birlik qədərimiz, dini birlik seçimimizdir.

**"Türk-Avropa" ya da "Türk-Qərb" birliyi...**

İkinci istiqamət Türk birliyini daha çox Qərbə, Avopaya inteqrasiya şəkilində görənlərin baxışlarını ehtiva edir.Son iki əsrdə "Qərb mədəniyyəti", "Qərb milliyyətçiliyi", "Qərb demokratiyası" yenidən bərpa etmək istədiyimiz Türklük ruhumuzu zədələməklə, yaralamaqla qalmamış, onların yerinə bizlərə öz ideyalarını (praqmatizm, marksizm, həyat fəlsəfəsi, freydizm, ekzistensializm vəb.) aşılamışdır. Bizlər də bu yad ideyalara qapılaraq istənilən məsələyə "Qərb mədəniyyəti"nin, "Qərb fəlsəfəsi"nin, "Qərb demokratiyası"nın gözü ilə görməyə, anlamağa və yaşamağa başlamışıq. Bizim şüurumuza zor-xoş yeridiblər ki, dünyanı yalnız "demokratik və sivil Qərb"dən idarə etmək mümkündür, çünki yalnız onlar buna qadir və layiqdirlər. Maraqlıdır ki, biz Türk dünyasının insanları bunu vaxtilə şüurumuza yeridənlərə də, bu gün yeritməyə davam edənlərə də az qala büt kimi sitayiş edirik.

Biz də o fikirə qatılırıq ki, inkişaf yolunu tutan, ayaq üstə qalmaq istəyən hər hansı toplum tərəqqi dövrünü yaşayan millətin mədəniyyətindən yararlana bilər. Bu Avropa da, Asiya da, Amerika da ola bilər. Əgər onların inkişafında müsbət cəhətlər varsa bu hökmən dəyərləndirilməlidir. Ancaq burada önəmli olan kənar toplumların ideyalarından yalnız yararlanmaq olmalıdır, onları yamsılamaq yox. Yəni toplumun inkişafının nüvəsində öz düşüncəsi, öz fəlsəfəsi önəmli olmalıdır. O, kənar ideyalardan yalnız "öz"ü gücləndirmək üçün istifadə etməlidir. Məsələn, ağacın nüvəsi var və onun əsasında boy atır, qollu-budaqlı olur. Amma onun bu inkişafında kənar amillər də (suvarma, budaqlama, gübrələmə vəs.) mühüm rol oynayır. Deməli, istənilən cəmiyyətin də əsasında "öz" olmaldır.

Örnəyi qərblilər bunu 17-18-ci əsrlərdə, yaponlar 19-cu əsrdə, Güney Koreya və Çin 20-ci əsrdə çox yaxşı şəkildə həyata keçirərək yeni bir dönəmə qədəm qoydular. Türklər, ərəblər, farslar bu məsələdə başarlı ola-

madılar. Ərəblər və farslar gah “Qərb”, gah da ənənəvi yolayrıcında çırpındılar. Hələ də, bunun ikisi arasında qalıblar. Türklər isə Türkiyənin və Azərbaycanın (zorla sovetləşdirmə dövrünü nəzərə almasaq) timsalında bir əsrdir “Qərb”, Avropaya inteqrasiya yolunu tutmaqla müəyyən uğurlar əldə etsələr də, amma onlar da “öz”ə əsaslanmadıqları üçün ciddi problemlərlə üz-üzədirlər. Çünki başqasının “öz”ü bizim “öz” ola bilməz. Biz türklər heç vaxt romalı, yunan, ingilis, amerikalı ola bilmərik. Bu analmda Toynbilərin, Fukuyamaların, Hantiqtonların türklərlə bağlı nədən ziddiyyətli mövqe nümayiş etdirmələrini anlayır, bunu məntiqsizlik kimi qiymətləndirmirik. Çünki onlar hansı xətti, yəni “Qərb” yolunu, yoxsa ənənəvi yolu tumasından asılı olmayaraq türklərdən ehtiyat edirlər.

Hesab edirik ki, “Qərb mədəniyyəti”, “Qərb liberal-demokratizm”i və “Qərb millətçiliyi” sözün həqiqi mənasında “qərblilərin” boynuna biçilmişdirsə, o zaman “Qərb sivilizasiyası”nın qeyri-qərblilərə heç bir aidiyyəti yoxdur. Sadəcə qeyri-qərblilər “Qərb sivilizasiyası”nın basqısından dolayı onunla təmas halındadır. İki əsrdən çox çəkən bu təmas İslam-Türk dünyası üçün bir təhdid yaratmaqla yanaşı, yeni bir sivilizasiyanın yaranmasını da sürətləndirmişir. Artıq bizlər “Qərb” mədəniyyəti, “Qərb” liberal-demokratizmi, “Qərb millətçiliyi”nə Əli bəy Hüseynzadələrdən, Ziya Gökalplardan, Əhməd Ağaoğlulardan, Məhəmməd Əmin Rəsulzadələrdən, Nəriman Nərimanovlardanbir qədər fərqli və diqqətli yanaşmaq zorundayıq. İslam-Türk mədəniyyətinin “Qərb mədəniyyəti”, “Qərb liberal-demokratizmi”, “Qərb millətçiliyi”nə qovuşması ilə qurtulduğumuz düşünmək çox yanlışdır. Əksinə, öz milli kültürünə, milli mədəniyyətinə, özgürlüklərinə, hürriyyətinə, ulusalığına əsaslanmayan heç bir millət tarix səhnəsində qalmamışdır. Başqa sözlə, öz kültürü, öz mədəniyyəti, öz vicdanı, öz fəlsəfəsi, öz aydınları, öz özgürlükləri, öz hürriyyəti olmayan istənilən millət, cəmiyyət məhvə məhkumdur.

Xüsusilə, Qərb ziyalılarının 1923-cü ildən sonrakı Türkiyə haqqındakı fikirləri ilk baxışda Türk milləti üçün xoş təsir bağışlasa da [Toynbee Arnold J. Uygarlık yarğılanıyor. İstanbul, Örgün, 2011; **62**] , əslində onları zorla “Qərb”ə yönəltmə və “Qərb”i daima ideal görmə istəyi var [Fukuyama Frankis. Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014; **302**]. Çünki vaxtilə dünyaya meydan oxuyan türklər “Qərb”ə üz tutmaqdan başqa çarə görmürdülərsə, bu “qərblilər”cə böyük bir uğur idi. Bu anlamda hərb savaşlarında əsasən türklərə yenilən Xristian-Qərb dünyasının, amma düşüncə dünyasında Türkləri yenməsi onlar üçün böyük bir qələbə idi. Halbuku vaxtilə böyük turançı ideoloq Əli bəy Hüseynzadə yazırdı ki, bir türkün avropalaşması artıq onun türklükdən uzaqlaşması, deməkdir: “Türkün irtidad

edib firəngləşməsi, firənglərin ya mürtədlərin tərəqqisi deməkdir, yoxsa türk, ya müsəlman tərəqqisi demək deyildir!" [Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007; **35**]. Gökalp da "Türk mədəniyyəti tarixi" əsərində yazırdı ki, vaxtilə Çin mədəniyyətini mənimsəyən türklər bunun nəticəsində məhv olmaqla üzbəüz qalmış, bundan qurtulmaq üçün başqa torpaqlara köç etməli olmuşlar: "Türklər nə zaman milli kültürə önəm verməyərək yabançı kültürə önəm vermişlərsə və öz millətlərini bəyənməyib başqa millətlərin təqlidçisi və taparcasına sevəni olmuşlarsa, belə bir köç fəlakətinə uğramışlardır" [Gökalp Ziya. Türk medeniyeti tarihi. Istanbul, Bilgeoğuz, 2013; **73**].

Bir məqamla razıyıq ki, türklərin "qərbləşmə" yolunda gəldiyi nəticələr Türk aydınları qədər Qərb aydınlarını da maraqlandırır. Necə ki, Qərb bir vaxtlar Rusiyaya marksizmi qəbul etdirərək sonra nəticəni gözləyirdilər. Eyni məsələ bir qədər fərqli şəkildə Türkiyədə də baş verir. "Qərb" Rusiyadan umduğunu bulmasa da, ən azından marksizmin nələrə yol açacağnı əyani şəkildə gördü. İndi də Qərb müsəlman olan, vaxtilə dəfələrlə avropalıların ayaqlarını titrədən türklərin "Qərb liberal-demokratiyası" və "Qərb mədəniyyəti" ilə hansı şəkilə girəcəyinə, hansı nəticəyə gəlinəcəyinə çox maraq edirlər. Yəni türklər sona qədər "qərbləşmə"yə davam edəcəklərmi? Əgər davam edərsə nələr baş verəcəkdir? Yoxsa, türklər "qərbləşmə"yə "dur" deyəcəkdir? Əgər "dur" deyərsə nələr olacaqdır? Bunu yaxşı anladıqları üçün qərblilər bir tərəfdən türkləri ənənəvi milli-dini yola qayıtmasını istəmirlər, digər tərəfdən "qərbləşmə" yolundakı hər addımına da nəzarət edirlər [Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017; **448**].

Bizcə, "qərblilər"in türklərə qarşı bu cür davranışları əsassız deyildir. Qərblilər rusları nə qədər sevməsələr də, amma ən azı xristian olduqları üçün dünya hökmranlığını onlarla paylaşmaqdan son dərəcədə rahatsız deyillər. Bunu, 20-ci əsrdə baş verənlər, bu gün də davam edənlər açıq şəkildə ortaya qoyur. Bəlkə də, bu sözləri buddist çinlilərə də aid etmək olar. Amma iş türklərə, özəlliklə müsəlman türklərər gəlincə vəziyyət xeyli dərəcədə dəyişir. Qərblilər dünyanı türklərlə paylaşmaq istəmirlər. Burada da iki önəmli faktor var: 1) İslam dini; 2) Türklər. Xristian-Qərb dünyası üçün ikisi də qəbuledilməzdir. Onlar üçün İslam dünyası fərqli bir sivilizasiya, türklər də həmin sivilizasiyanın öncülləridir. Bu iki amil bir-birini tamamladığı üçün "qərblilər" onu yaxına buraxmaq istəmirlər. Ancaq yalnız istəməməklə iş bitmir. "Qərblilər" onlar üçün təhlükə mənbəyi olan İslamlıq və Türklük məfkurəsini bir-birindən ayırmağa da çalışırlar.

Çünki “Qərb” aydınlarının əksəriyyətinin fikrincə, dünyanın tamamının qərbləşəcəyi təqdirdə qlobal problemlər həll edilə bilər ki, amma bu gün dünyanın qərbləşdirilməsi prosesində əsas əngəllərdən biri müsəlman türklərdirlər. Başqa sözlə, yalnız İslam dini intellektual ruh, Türklük isə insanlıq dəyəriylə bir güc olaraq “Qərb sivilizasiyası”na alternativ olmaq gücündədir. Bu baxımdan vaxtilə Avropanı bir neçə dəfə fəth etmiş türklərin İslam-Türk sivilizasiyası öncüllüyündə yenidən dirçəlişi “Qərb”ə əl vermir. “Qərb” çalışır ki, son iki əsrdə kölgədə buraxdığı İslam-Türk sivilizasiyasını tamamilə yenərək liderliyini davam etdirsin.

“Qərb”in İslam və Türklüyü bir-birindən ayırmaq istəyi Orta Çağa gedib çıxsa da, bunun bir proqram halına gəlməsi və sürətləndirilməsi son əsrlərin planıdır. Özəlliklə, 19-20-ci əsrlərdə Türklüyü “Qərb”ə yönəltmə ciddi şəkildə gündəmə gətirilmişdir. Bunun nəticəsidir ki, bu günün özündə belə Azərbaycanda və Türkiyədə Avropasayağı demokratik dövlət qurmağımızı fəxrlə yazır və dilə gətiririk. Yəni “qərbləşmə” İslamlıq və Türklük kimi, bizim əsas idealımıza çevrilmişdir. Hətta, ötən yüz ildə bəzi aydınlarımız bu və ya digər formada İslamdan imtina edərək daha çox türklük və “qərbləşmə”nin sintezindən çıxış etmişlər, bu gün də belələri az deyildir.

Bu fikri madafiə edənlərin əsas tezisi də odur ki, türklərin inkişafdan qalmasına səbəb İslam dini olmuşdur. Bu anlamda “qərbləşmə” yolunu tutmuş türklər üçün İslam dini bir əngəl təşkil edir vəs. Bu cür düşünənlər yeri gəldikcə, eyni müddəanı dəstəkləyən fukuyamalardan, toynbilərdən də örnəklər gətirirlər. Əslində bu fikrin ilk qaynağı “Qərb” aydınları olduğu üçün burada təəccüblü heç nə yoxdur. Biz yuxarıda da göstərdik ki, “Qərb” aydınlarının əsas hədəfləri Türklük və İslam dinini aradan qaldırmaqdır. Bu o anlama gəlmir ki, Qərb üçün İslam dininin zəifləməsi və bunun fonunda türklüyün güclənməsi, ya da əks prosesin baş verməsi olduqca nisbidir. Sadəcə, Qərb üçün birinci mərhələdə İslamı kənarlaşdırmaq üçün Türk milliyyətçiliyinin qalxınması önəmlidir. Zatən, türklər əksəriyyətlə İslamdan üz döndərərlərsə, Qərb ikinci mərhələdə Türklüyü sıradan çıxaracaqdır.

Bu baxımdan Qərb aydınları birinci mərhəldə türkləri, onların təbrincə desək “mühafizəkar İslamdan”, “İslam fundamentalizmindən” ayırmağa çalışırlar. Bunu gerçəkləşdirmək üçün indiyə qədər müxtəlif nəzəriyyələr də irəli sürülmüşdür və sürülməyə də davam edir. Toynbilər, Fukuyamalar, Habermaslar, Hantinqtonlar və b. Qərb aydınları Türklüklə İslam arasında ayrılıq toxumu səpmək üçün əllərindən gələni edirlər. Onların apardığı bu ideolojinin müəyyən nəticələr verdiyini də etiraf etməliyik. Hər halda, Qərbin 17-18-ci əsrlərdən bu yöndə apardığı siyasət 20-ci əsrin əvvəllərində öz bəhrəsini verdi. Əvvəlcə İslam dünyasının dirəyi olan Osman-

lı imperatorluğu çökdü, Osmanlının yerində yaranan Türkiyə isə ilk dövrlərdə xeyli dərəcədə İslami dəyərlərdən, müəyyən qədər isə milli adət-ənənələrdən imtina etdi. Bunun əvəzində Türkiyə Yunan-Roma və Xristian mədəniyyətinə əsaslanan "Qərbləşmə"yi, onların adət-ənənələrini özünə rəhbər tutdu.

Beləliklə, İslam-Türk sivilizasiyası bir tərəfdən sözdə bütün dinlərin əleyhdarı olan marksizmin, digər tərəfdən xristian əsaslı liberal-demokratizmin böyük ölçüdə təsirinə məruz qaldı. Bütün bunlar müsəlman türklərin şüurlarına xeyli dərcədə təsir göstərdi. Dinmi-İslammı, yoxsa millətmi-türklükmü önəmlidir məsələsi gündəmə gəldi. Bununla da, dünənə qədər milli və dini kimliyini bütöv bir şəkildə dərk edən türklər "Qərb milliyyətçiliyi"nə yoluxdular. Başqa sözlə, dünənə qədər türklüyünü və müsəlmanlığını müqayisə və müzakirə etməyi ağlına belə gətirməyən, türklük və İslam üçün canını eyni dərcədə fəda etməyə hazır olan bizlər "Qərb milliyyətçiliyi"nin gəlişindən sonra bütün birləşdirici cəhətləri bir kənara qoyub fərqləri axtarmağa başladıq. "Qərb milliyyətçiliyi"nə əsaslanan fərqlər çoxaldıqca millət və din bütövlüyünün pozulması daha da dərinləşdi.

Qeyd edək ki, "Qərb milliyyətçiliyi"ni ruslar daha çox marksizm şəklində Azərbaycanda, Türkistanda yaydıqları halda, avropalılar Türkiyədə bunu həm liberal-demokratizm, həm də marksizm ideolojisi ilə şüurlara yeritdilər. Hər iki halda əsas məqsəd birinci olaraq türkülük və islamlıq arasında bağları qırmaq idi. Hətta, bunu reallaşdırmaq naminə bəzi marksist və liberal ideoloqlar yeri gələndə Türklüyü tərif və məhd belə etdilər. Onlar "Qərb milliyyətçiliyi"ni türklərin üstələnməsini gah olagaünüstü hal, ən ilginc olay, gah da "gerçəktə, milliyyətçilik müsəlmanların içinə düşdükləri bir oyun. Müsəlmanların böyük bir çoxu üçün milliyyətçiliyin sonucu, Qərb dünyasının proletar qələbəliyi içində ərimək olacaqdır", kimi yozdular [Toynbee Arnold J. Uygarlık yargılanıyor. İstanbul, Örgün, 2011; **178-179**].

Türklərin "qərbləşmə" xətti altında "Qərb milliyyətçiliyi"nə müraciət etmələri başdan yanlış idi. Bu, türk olmayan müsəlmanlarla türk müsəlmanlar arasında ziddiyyətlərə gətirib çıxartdı. Bu ziddiyyətlər zaman ötdükcə daha da kəskinləşdi. Çünki Qərb millətləri dini və milli kimlikləri formalaşdırarkən buna hazır idilər. Türklər isə sadəcə "Qərb milliyyətçiliyi"nin kopyasını dövlətə tətbiq etməklə işin bitəcəyini sanmaqla səhvə yol verdilər. Bunu yaxşı dərk edən prof. Erol Güngör "Kültür Değişmesi ve Milliyetçilik" əsərində yazırdı ki, bütün yad ideyalara qarşı dayanmaq üçün Türk milliyyətçiliyini Milli xarakter halına gətirmək lazımdır. Bu zaman milli və dini kimlik milli xarakterin bütövlüyü olmalıdır [Güngör Erol. Kültür De-

ğişmesi ve Milliyetçilik. İstanbul. Ötüken. 2007; **125-127].** Hilmi Ziya Ülken isə "Türkiyede Çağdaş Düşünce Tarihi" əsərində bu məsələləri geniş şəkildə ələ almış, Türk düşüncəsinin Qərb düşüncəsi içində əriməsi təhlükəsindən bəhs etmişdir [Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul. Ülken. 2013; **728-730**].

*Beləliklə, biz türklər bir vaxtlar Çin mədəniyyətinə, İran mədəniyyətinə, Ərəb mədəniyatinə yenildiyimiz kimi, bu dəfə də Qərb mədəniyyətinə yenilməyə üz qoymuşuq. Biz türklər Çin mədəniyyətindən köç etməklə, İran mədəniyyətindən hakimiyyəti ələ keçirməklə qurtulduqsa, Qərb mədəniyyətindən xilas olmağımız hələ mümkün olmamışdır. Bunun yollarını hələ də aramaqdayıq. Ancaq bu günə qədər doğru bir təsbit yox kimidir. Əgər varsa da belə, həmin təsbit ciddiyə alınmır və yox kimi qəbul edilir. Belə bir durumda "Qərb" əngəlini aşmağın yollarını aramaqda davam edirik. Təbii ki, nicat yolları aranarkən "Qərb sivilizasiyası"nın, "Qərb demokratiyası"nın bugünkü durumu da bizi çox maraqlandırır. Özəllilkə, "Qərb" aydınlarının "Qərb sivilizasiyası", "Qərb demokratiyası", "Qərb millətçiliyi" barəsində fikirləri də bizlərin şüurlarını çox işğal edir. Şübhəsiz, bunun müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətləri də az deyildir.*

*Bizcə, yeni bir sivilizasiyaya qədəm qoymaq istəyən millət və ya millətlərin aydınları bunların hər ikisini ələ almalıdır. Başqa sözlə, bir tərəfdən daima "Qərb" aydınlarının düşüncələrini, özəlliklə bizi maraqlandıran fikirlərini təqib edəcəyiz, digər tərəfdən yalnız onların fikirlərini aşağı-yuxarı dəyərləndirməklə qalmayacağız. Özümüz fikir yürüdəcək, tezislər irəli sürəcək, bir anlamda özümüzü daima inkişaf etdirəcəyiz. Əks təqdirdə "Qərb"in və onların aydınlarının arxasınca sürünməklə, onları təqlid etməklə, onlardan mövzular alıb doktorluq dissertasiyaları yazmaqla heç bir şeyə nail olmayacağıq. Örnəyi Qazaxıstan, Türkmənistan, Azərbaycan, Türkiyə vəb. Türk cümhuriyyətləri araşdırmaçıları "Qərb fəlsəfəsi"ndən, "Qərb" filosoflarından doktorluq dissertasiyaları, kitablar yazmağa hələ də davam edirlər. Artıq iki əsrdən çoxdur ki, Qərb düşüncəsninin əsrinə çevrilmişik, bir cür bundan qurtula bilmirik. Hətta, bundan qurtulmağa və öz yolumuzu şeçməyə cəhd edən düşünürlərimizi bu günə qədər ciddiyə almamışıq da. Bu günə qədər bizim üçün ciddi və elmi dəyəri olanlar yalnız "Qərb sivilizasiyası" və "Qərb demokratiyası"nı müdafiə edən aydınlarımız olmuşdur.*

Bu anlamda Türkçülüyü də yalnız "İslamçı Türklük" ya da "Qərbçi Türklük" kimi ifadə etmək də bizə doğru yol göstərə bilməz. Zatən, bir çox Türk aydınlarınını düşüncələrinin əsasında da,"İslamçı Türklük" ya da "Qərbçi Türklük" deyil, məhz milli və özə əsaslanan bir Türklük olmuşdur.

Bu o demək deyildir ki, bununla da biz Türklərin çoxunun müsəlman olmasını, yaxud da Qərb mədəniyyətinə bağlılığını inkar edirik. Sadəcə, Türkçülük düşüncələrimizi yeri gəldi-gəlmədi mütləq islamçılıqla qərbçiliklə bağlamağımızı doğru görmürük. Doğrudur, bu günün özündə də Türkçülük üzərində İslamçılıqla Qərbçiliyin böyük təsiri vardır. Amma bizim gedəcəyimiz yolda Türkçülüyümüz, Turan ülkümüz heç də İslamçılığın və Qərbçiliyin yedəyində olmamalıdır. Hesab edirik ki, əksinə Türkçülük yolumuzda bizlər istər İslam dinindən, istərsə də Qərb mədəniyyətindən faydalana bilərik. Yəni burada öncüllük Türkçülük məfkurəsi və Turan ülküsü olmalı, özəlliklə İslamçılıq da bizlərə bu yolda yürüməkdə əsas dayaq nöqtələrindən biri olmalıdır.

### “Türk-Rus” ya da Türk-Slavyan birliyi (Avrasiyaçılıq)....

Üçüncü istiqaməti Türk-Slavyan xalqlarının birliyi ideyası təşkil edir.Türk dövlətləri müstəqilliyini bərpa edəndən sonra Rusiyanın imperalizm ənənələrini davam etdirən dairələr indi də “avrasiyaçılığı” müdafiə edirlər. Şübhəsiz, işğalçı mahiyyət daşıyan avrasiyaçılıq Rus avrasiyaçılığıdır və bolşevizmdən əsasən çox da fərqlənmir. Ancaq Avrasiyaçılığı türklüyə zidd hesab etməyən Türk aydınları da var ki, belələrinə görə, burada heç bir işağlıçılıq niyyəti yoxdur. Başqa sözlə, avrasiyaçılığı bolşevizm kimi qiymətləndirmək doğru deyildir. Halbuki vaxtilə bolşeviklər də, kommunizm adı altında “xeyirxah” görünsələr də, Türk xalqlarına əsarət gətirmişdir. İndi eyni şeyin təkrarlanıb ya da təkrarlanmayacağına heç kəs zəmanət verə bilməz! Hər halda vaxtilə Türk xalqlarının böyük çoxluğu “rus kommunizmi” ideyasının nəticəsi olaraq belə bir təhlükəni yaşamış və Sovet Rusiyasının müstəmləkə halına gətirilmişdir. Bizcə, həmin dövrdə baş verənlərlə indi baş verənləri diqqətlə təhlil edilməidir. Yəni avrasiyaçılıq kommunizm kimi rusların əlində bir bəhanəyə çevrilib, Türk xalqlarına bəla gətirəcək mi, yoxsa bu dəfə vəziyyət başqa cür olacaqdır?!

Qeyd edək ki, rus bolşevikləri 1917-ci ildə Rusiyada hakimiyyəti ələ aldıqdan sonra əvvəlcə bütün millətlərə azadlıq vəd etdiyi, hətta bunu yazılı şəkildə bəyan etdiyi halda, çox keçmədi ki, kommunizm məfkurəsindən işğalçılıq siyasəti kimi istifadə etməyə başladılar. Ancaq bunun yalnız birtərəfli, yəni beynəlmiləl formada həyata keçirilməsinin mümkünsüzlüyünü anlayan rus bolşevikləri kommunizmə “milli forma” da verməyə başladılar. Başqa sözlə, onlar Marks və Engelsin kommunizm məfkurəsini rus milli maraqlarına uyğun şəkildə digər millətlərin şüurlarına yeritmək üçün sosializm ideyasına “milli” don geyindirməyə çalışdılar. Rus bolşevikləri

kommunizm məfkurəsinin “milli” mahiyyətini belə izah edirdilər: formaca milli, məzmunca sosialist [Əfəndiyev S.M. Seçilmiş əsərləri. İki cilddə. 2-ci cild. Bakı, 1990; **325**].

Kommunizm ideyasına “milli” don geyindirməkdə onların məqsədi qeyri-rus millətlərinin özəlliklə də Türk xalqlarınını şüurunu dolaşdırmaq və müstəmləkə halına gətirmək idi. Başqa sözlə, rus bolşevikəri qeyri-rus millətlərini, özəlliklə türk xalqlarını zor-xoş inandırmaq istəyirdilər ki, yalnız ruslar arasında deyil, guya Azərbaycan türkləri, Türküstan türkləri və başqa xalqların həyatında da sosializm inqilabı baş vermişdir. Sadəcə, Rusiyada sosializm inqilabı bir, Azərbaycanda digər, Türküstanda isə ondan bir qədər fərqli formada baş vermişdir. Beləliklə, Türk xalqları zor-xoş “rus kommunizmi”nin oyununun qurbanına çevrildilər. Çox təəssüf ki, həmin dövrdə sosial-demokratizm əqidəsinə həddən artıq səmimi bağlılıqdan dolayı “rus kommunizmi”nə inanalrdan biri də Azərbaycan Türk mütəfəkkiri Nəriman Nərimanov olmuşdur [Nərimanov N. Məqalələr və nitqlər. I c, II cilddə, Bakı: Azərnəşr, 1977; **190**]. O, “rus kommunizmi”nin əsil mahiyyətini yalnız pmrünün son illərində dərindən anlamış və bunu V.İ.Leninə ünvanladığı məktublarında açız şəkildə ifadə etmişdir [Nərimanov N. Seçilmiş əsərləri. Bakı, “Lider nəşriyyat”, 2004; **466**].

*Yeri gəlmişkən, Sovet Rusiyası yeni qurulduğu ilk dövrlərdə Sultan Qaliyev kimi turançılar onun bir Turan Sosialist Federativ Resublikası olmasına cəhd göstərmişlər. Belə ki, Q*aliyev, 1919- 1923-cü illə arasında, dünya sosialist inqilabı üçün Şərq strategiyasını və “Müstəmləkələr İnternasionalizmi” ideyasını ortaya atarkən, sosialist sistem içərisində “Böyük Rusiya”nın təkrar qurulduğunu görərək, buna qarşı Turan Sosialist Federativ Respublikası hədəfini gerçəkləşdirməyə çalışmışdır. Onun nəzərdə tutduğu Turan dövləti əsasən Orta Asiya mərkəzli olub, əhalsinin yüzdə səksəni Türk-Müsəlman əhali təşkil edəcəkdi. Turan dövlətində əsas partiyalar da “Şərq İşçiləri və Kəndliləri Sosialist Partiyası” və “Şərqli Sosialistlər Partiyası” olmalı idi. Eyni zamanda, Qaliyev tərəfindən bu ölkə Çin və Hindistanla SSRİ arasında tampon bölgə kimi düşünülmüşdü [Galiyev, Sultan. Bütün Eserleri. Yay. Haz. Özgür Erdem. İstanbul: İleri Yayınları, 2006; **767**]. Ona görə, Qərb imperializminə qarşı mübarizədə ən doğru yol belə bir dövlətin yaradılması və inkişaf etdirilməsi idi. Onun fikrincə, Türk xalqarına kommunizmi aşılamağa çox ehtiyac yoxdur, çünki Türk xalqları əzəldən bəri humanist və icmaçı olublar.

*Sultan Qaliyevlə yanaşı Turar Rıskılov, Nəriman Nərimanov, Mustafa Sübhi və başqaları da təxminən belə bir arzuda olmuşlar. Onlar da hesab edirdilər ki, Turan Federativ Sosialist Respublikası yaranarsa bu, Qərb*

*imperializminin qaşrısının alınmasında və dünyada sosializmin yayılmasında mühüm rol oynayacaqdır.*

Həmin turançılardan biri olan Turar Rıskulovun 1920-ci ildə Sovet Rusiyası rəhbərliyinə Orta Asiya Müsəlman Komuunist Partiyası təşkilatları adından təqdim etdiyi sənəddə yazılırdı: 1. Türkistan Sovet Respublikasının adı Türk Respublikası olmalıdır. 2. Türkistan Kommunist Partiyası, "Türk Kommunist Partiyası" olaraq dəyişdirilməlidir. 3. Türkistan əhalisinə Türk adı verilməlidir. 4. Dil, türk dili olmalıdır. 5. Müsəlman Qızılordu qurulmalı və Müsəlman olmayan əsgərlər Türkistandan çıxmalıdır. 6. Türkistan dövlətinin müstəqil Anayasası olmalıdır.

Ancaq onların bu fikirləri Stalin və ətrafı tərəfindən birmənalı olaraq qəbul edilməmiş, özləri də repressiya qurbanı olunmuşlar.

Beləliklə, keçmiş SSRİ dövründə Türküstanda, Azərbaycanda, Tatarıstanda və başqa türk ölkələrində "milli" xüsusiyyətli sosializm adı altında, sözün həqiqi mənasında marksizmin dövlətsiz kommunist cəmiyyəti deyil, rus bolşeviklərinin "rus kommunizmi" quruldu. Bununla da, keçmiş SSRİ xalqlarının şüurlarında kommunizmə münasibətdə yeni bir ictimai şüur formalaşdırıldı. Elə bir şüur ki, orada vətəndaş nə özünü kommunist, nə də milli mənada dərk edə bilirdi. Bununla da, Türk xalqları "sovet vətəndaşı cəmiyyəti" və "kommunizm" adı altında daha çox ruslaşdırılırdı. Bu, artıq idarəedənlər (rus bolşevikləri) üçün asan idarəolunan cəmiyyətlər (ukraynalı, azərbaycanlı, gürcü, qazax və b.) demək idi. Burada əsas məqam odur ki, idarəedənlər (rus bolşevikləri) özlərindən əvvəlki imperiya sələflərinin yolunu (çar Rusiyası dövründəki rus mütləqiyyətçiləri) davam etdirməklə yanaşı, özlərindən sonrakı xələflərini də düşünürdülər. Belə ki, bir gün SSRİ-nin dağılmasının mümkünlüyünü nəzərə alaraq, gələcəkdə imperiya təfəkkürünü davam etdirənlər üçün (məsələn, indi buna "rus avrasiyaçılığı" nümunə ola bilər), sovet dövründə idarəolunan millətlər halına gətirilmiş cəmiyyətləri daim təzyiq altında saxlamağın planlarını da cızmışlar. Fikrimizcə, keçmiş SSRİ-nin tərkibindəki xalqların marksizmin banilərinin kommunizmini deyil, rus imperiya təfəkkürünün daşıyıcıları olan bolşeviklərin "rus kommunizmi"nin psixoloji təzyiqi altında olduğu bir dövrdə "rus avrasiyaçılığı"nın postsovet məkanında yayılması çox ağıllı düşünülmüş bir ideyadır. Çünki Rusiyada yaxşı anlayırlar ki, keçmiş SSRİ xalqları hər il sovet ideologiyasından uzaqlaşır və bu uzaqlaşma yeni nəsil və yeni təfəkkür deməkdir. Yeni nəsilin sovet nəslini get-gedə inkar etməsi isə, rus imperiyası təfəkkürünə daban-dabana ziddir.

Ona görə də, yeni rus ideoloqları keçmiş SSRİ xalqları arasında imperiya təfəkkürünə cavab verən sovet nəsli tarix səhnəsindən getmədən "rus

avrasiyaçılığı"nı həyata keçirməyə çalışırlar. Onlar yaxşı anlayırlar ki, ötən 25 ilin üzərinə bir 10, yaxud 20 il gələrsə, keçmiş SSRİ xalqlarını yeni nəsli rus imperiya təfəkkürünü yaxına belə buraxmayacaqlar. Bu baxımdan rus ideoloqları üçün avrasiyaçılıq imperiya təfəkkürünü davam etdirməyin bir vasitəsidir. "Avrasiyaçılıq" kimi imperialist ideyaya qarşı milli şüur formalaşdırıb milli ideya ilə çıxış etmək isə ona alternativlikdir. Fikrimizcə, bu prosesin imperialistlərin, yoxsa millilik tərəfdarlarının qalib çıxmasında ictimai şüurun hansı istiqamətdə – imperiya təfəkkürünə, yoxsa milli şüura doğru inkişaf etməsindən çox şey asılı olacaqdır.

Ona görə də Avropa kimi Rusiyadan gələn "yeni modellər" də Türk dövlətlərində münasibət birmənalı deyildir. Əgər Avropa birliyi daha çox gənc nəslin maraq dairəsindədirsə, "avrasiyaçılıq" isə yaşlı "sovet" nəsli üçün aktuallığını qoruyub saxlayır. Əgər hesab etmək mümkündürsə avrasiyaçılıq Türk xalqlarının müstəqilliyinin, milli dəyərlərinin əleyhinə çevrilməyib, başqa sözlə rus avrasiyaçılığı deyildir, o zaman onu da dəyərləndirmək mümkündür. Ancaq burada bir şeyi də açıq dərk edirik ki, avrasiyaçılıq müəyyən anlamda Türk Birliyinə alterantivdir, hətta, onu öz içində məhdudlaşdırmaq niyyəti vardır. Bir sözlə, əgər avrasiyaçılıqda rus-slavyan ideolojisi ağır basırsa, o zaman Türk birliyi məsələsi də, onların nəzarəti altında ortaya çıxa biləcəkdir. Eyni sözləri Avropa Birliyi haqqında da deyə bilərik ki, burada da Avropa düşüncəsi əsas rol oynayır.

Bu o deməkdir ki, rus-slavyan ideoloqları Türk Birliyi məsələsinin ciddiliyini görür və onu öz nəzarəti altında saxlamağa çalışır. Əgər nəzərə alsaq ki, son iki əsrə yaxındır Türk birliyinin zəifləməsində Rusiya faktoru Qərb faktorundan az rol oynamamışdır, rus-slavyan ideoloqları başa düşmək olar. Rus avrasiyaçıları başa düşürlər ki, əgər müstəqil, heç bir kənar qüvvədən asılı olmayan Türk Birliyi gerçəkləşərsə, o zaman Rusiya Federasiyasının parçalanması daha real olacaqdır. Hər halda, müstəqil bir Türk Birliyi ortaya çıxarsa Rusiya nəinki Azərbaycana, Qazaxıstana, Özbəkistana, Türkmənistana, Qırığızıstana əl sürə biləcək, üstəlik belə bir niyyətə düşərsə artıq qarşısında bir yox, bir neçə Türk dövlətini görməli olacaq hətta, öz tərkibindəki Türk muxtar respublikalarının da milli varlıqlarını tanımaq zorunda qalacaqdır.

Çünki bu gün nəinki müstəqil Türk dövlətləri, hətta Rusiya Federasiyasının tərkibindəki Türk muxtar respublikalarında (Tatarıstan, Saxa, Kalmıkya, Altay vəb.) da Türk Birliyi ruhu yüksələn xətlə davam etməkdədir. Ona görə də hesab edirik ki, Rusiya Federasiyası Türk Dünyasına münasibətini tamamilə dəyişib onunla səmimi şəkildə əməkdaşlıq etməli, bu anlamda Rusiya "avrasiyaçılıq" ideolojisindən türklərin əleyhinə istifadə et-

mək niyyətindən əl çəkməlidir. Bizcə, Rusiya Federasiyası Qərbəbənzər imperalist niyyətlərdən əl çəkib, Türk Dünyasıyla bolşevizmin təkrarı ola biləcək rus avrasiyaçılıqdan deyil, səmimi şəkildə əməkdaşlıq edərsə bəlkə də bu sahədə hər hansı uğur əldə etmək mümkündür.

Özəlliklə, Rusiya İslam dinini ikinci rəsmi din, Türk dilini ikinici rəsmi dil elan etməklə "Avrasiyaçılıq" məsələsində Qərbəbənzər imperalist deyil, qərblilərlə qarşı mübarizədə bərabər və ədalətli formada bir olduğunu ortaya qoya bilər. Eyni zamanda, Rusiya Avrasiyaçılığın İslam-Türk Dünyasının əleyhinə deyil, Qərbdən özünümüdafiə xarakterli olduğunu inandırmaq üçün Türk dili və İslam diniylə bağlı qəti bir qərara gəlməlidir. Artıq Moskva yönətimi Rusiya Federasiyası tərkibindəki, ondan kənardakı müsəlmanlara və türklərə Qərbin gözü ilə baxmaqdan əl çəkməlidir. Qərbin vaxtilə uğradığı "marksizm" kimi ideoloji oyunlardan uzaq durmalı, ortaq mədəniyyət və ortaq tarixi keçmişdən çıxış etməlidir. Hər halda rusların, ukraynalıların, bolqarların və başqa slavyan millətlərinin keçmişi avropalılardan çox türklərlə bağlıdır.

### Türkçülükdən qaynaqlanan Türk Birliyi...

Dördüncü istiqamət isə sırf türklüklə bağlı Türk dövlətlərinin birliyi ideyasıdır. Bu gün ən az gerçəkçi görünən, ancaq daha çox arzulanan müstəqil Türk Birliyidir. Ancaq dəqiqləşdirmək lazımdır ki, Türk birliyi dedikdə konkret nəyi nəzərdə tuturuq. Çünki bu, bir qədər geniş anlamdır. Burada söhbət konkret milli kimliyini, milli dilini, milli dövlətini türk olaraq qəbul edən toplumlardan gedə bilər. Ancaq bu məsələlərdə də bir qədər obyektiv və subyektiv səbəblərdən dolayı problemlər var. Məsələn, "Türk birliyi"nin içərisində nəzərdə tutulan ölkələrin (Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan və b.) bir yerə toplanması Türkdilli dövlətlərin sammiti adlandığı halda, orada bir araya gələnlərin əksəriyyəti rus dilində danışırlar. Əlbəttə, problem yalnız sammitin adı, yaxud da oraya toplaşanların hansı dildə danışmaları ilə bağlı deyildir. Əsas problem bu Türk dövlətlərinin hakimiyyətlərindən daha çox ayrı-ayrı müstəqil ölkələrdə yaşayan, ancaq əsasən eyni soyu, dili, mədəniyyəti və tarixi paylaşan türk xalqlarının bir-birlərini hansı şəkildə dərk etmələri, qəbul etmələri ilə bağlıdır.

Sovetlər birliyi dövründə bu imperiyanın tərkibində yaşamağa məcbur olan Orta Asiya, Krım, Tatarıstan, Qafqaz, Sibir və başqa türk toplumları arasında iqtisadi, mədəni və s. əlaqələr heç də pis deyildi. Sadəcə, həmin dövrdə türk toplumlarının əsas əlaqə vasitəsi rus mədəniyyəti, rus dili, rus ədəbiyyatı idi. Qırğız, özbək, qazax, türk (Azərbaycan), türkmən, tatar və başqaları məhz məcbur olaraq rus dili və mədəniyyəti vasitəsilə bir-biri ilə əlaqə saxlayırdılar. Şübhəsiz,

bütün bunlar nə qədər müstəmləkəçiliyə xidmət etsə də, müəyyən qədər onlar bir-biri ilə təmas yarada bilirdilər. Ancaq bu ölkələr müstəqil olduqdan sonra həmin səviyyədə eyni təmasları yarada bilməmişlər. Yalnız son zamanlarda bu istiqamətdə müəyyən addımlar atılmışdır ki, bəzi türk ölkələri heç də ortaq türk mədəniyyəti, ortaq türk dili əsasında əlaqələrin yaradılmasında maraqlı görünmür. Bu, nə deməkdir? Bu onun göstəricisidir ki, SSRİ dövründə Mərkəz, yəni Moskva türk toplumlarını kölə halına gətirmək üçün türk dilini, türk mədəniyyətini, türk ədəbiyyatını və s. assimilyasiya etmiş və onun əvəzinə həmin xalqların şüuruna rus dili, rus mədəniyyəti və s. yürütmüşdür (Halbuki, rus mədəniyyətinin, rus ədəbiyyatının və sairənin əsas yaradıcılarından biri də elə türklərin özüdür). Bu gün isə biz könüllü şəkildə türk mədəniyyətinə, türk dilinə, türk ədəbiyatına, türk fəlsəfəsinə sahib çıxmaq istəmirik.

Üstəlik, Türkçülüyün əsas mərkəzi olan Türkiyə və Azərbaycanda son əsrdə Türk birliyinin baş tutmaması üçün əlindən gələni edən antitürk qüvvələr var. Bu antitürk qüvvələr özəlliklə, Türk dövlətlərində yaşayan azsaylı etnik qrupları türklərə qarşı qoymaqdadırlar. Bu anlamda Azərbaycanda və Türkiyədə türkçülüyün ümumtürk mənafeyini ifadə etməsi, ən önəmlisi siyası birliyin ortaya çıxması yolunda ciddi problemlərdən biri də azsaylı etnik qruplarla türklər arasındakı münasibətlərdir. Antitürk qüvvələr Türkçülüyü, Türk birliyini yalnız Türklərin maraqlarına hesablanmış siyasi ideya kimi qələmə verməklə azsaylı etnik qruplarda sepratist meyillər yaratmağa çalışırlar. Bunun nəticəsidir ki, Türkiyədə və Azərbaycanda türklər dövlətin əsas sütunu olsalar da, bu gün həmin ölkələrdə türkçülük aparıcı ideyaya çevrilə bilmir. Üstəlik, türkçülük tərəfdarları türkçülük ideyasının bu gün Türkiyədə və Azərbaycanda hakim ideya olmasından çox, həmin ideyanın bu və ya digər formada qorunub yaşadılması uğrunda mücadilə aparırlar. Bütün bunların fonunda türkiyəçilik, azərbaycançılıq, yurddaşlıq, vətəndaşlıq, dövlətçilik önə çəkilir ki, soucda Türk birliyi ideyası da arxa plana keçmiş olur.

Bələlikllə, türkçülüyün ideyadan siyasi gerçəkliyə çevrilə bilməməsinin əsas faktorlarından biri də, türklərlə türk olmayan azsaylı etnik qruplar arasında antitürk qüvvələrin əliylə ortaya atılmış "ziddiyyətlərin" öz həllini tapmamasıdır. Maraqlıdır ki, azsaylı etnik qruplar (kürdlər, lazlar, çərkəzlər, talışlar, ləzgilər və b.) Türk dövlətləri daxilində "milliyyətçilik" etdikdə o, şovinizm deyil, milli haqlar kimi qələmə verildiyi halda, türklərin Türk birliyi uğrunda mübarizəsi isə irqçilik olaraq göstərilir. Bizə elə gəlir ki, burada problem yalnız türkçülüyün digər etnosların maraqları ilə uzlaşıb-uzlaşmaması ilə deyil, həm də qeyri-türk etnosların özlərinin buna hansı münasibət bəsləməsi ilə bağlıdır. Yəni türk olmayan etnik qruplar antitürk

qüvvələrin oyununa gəlməkdənsə, türklərlə birlikdə yeni birliyin, Türk birliyinin yaranmasında fəal iştirak eməlidirlər. Başqa sözlə, tarixin əsas mərhələlərində türklərlə birgə yaşamış, birgə dövlət quruculuğunda iştirak etmiş azsaylı etnik qruplar, antitürk qüvvələrin "müstəqillik" oyununa gəlməməli birliyimizi, dirliyimizi davam etdirməlidirlər. Hər halda bu bir həqiqətdir ki, türklər almanlar, fransızlar, ingilislərdən fərqli olaraq heç bir zaman azsaylı etnik qrupları assimilyasiya siyasəti yürütməyiblər. Buna bariz nümunə kimi Türkiyə və Azərbaycanda yaşayan azsaylı etnik qrupları göstərə bilərik. Bu günün özündə də həmin etnik qruplar (kürdlər, ləzgilər, ermənilər, lazlar, talışlar və b.) həm milli kimliyini, həm də dini inanclarını qoruyub saxlamışlar. Bununla da etnik azlıqlar nəinki Türkiyə və Azərbaycanda assimilyasiya olunmuş, əksinə heç bir ayrı-seçkilik qoyulmadığı üçün həmin Türk dövlətlərində yüksək vəzifələr tutmuşlar.

Ancaq etnik azlıqlardan ermənilər və kürdlər türklərin bu xoşgörü, heç bir irqi ayrı-seçkiliyin qoyulmaması siyasətindən nəticə çıxarmaq əvəzinə tarixdə bir neçə dəfə "müstəqil Ermənistan", "müstəqil Kürdüstan" dövlətləri yaratmağa cəhd göstərmişlər. Xüsusilə, ermənilərin milli kimliklə yanaşı, dini kimliyi də irəli sürməsi, 20-ci əsrin əvvəllərində tarixi Türk torpaqlarında "Ermənistan dövləti" yaratması ilə nəticələnmişdir. Halbuki ermənilər Rusiyanın və başqa böyük xristian inanclı dövlətlərin dəstəyi ilə "müstəqil dövlət" yaradana qədər Osmanlı imperiyasında müxtəlif yüksək vəzifələr tuturdular. Türklər isə bu məsələyə milli və dini kimlik deyil, dövlətçilik, yəni bilik və bacarıqlı insanların layiq olduğu vəzifəni tutması baxımından yanaşdıqları üçün, buna heç bir etiraz etməmişlər. Hətta, türk imperiyası olmasına baxmayaraq, Osmanlıda bir çox hallarda haqsızlıqla üzləşənlər türklər özləri olmuşlar.

Bütün bunlar o deməkdir ki, XX əsrin əvvəllərində bəzi etnik qrupların, xüsusilə də ermənilərin və kürdlərin fəallaşaraq müstəqil dövlət yaratmaları fikrinə düşmələri, onların Osmanlıda milli və yaxud da dini kimliklərindəki hər hansı ayrı-seçkiliklə deyil, Türk ruhunu qəbul etməyən xarici qüvvələrin də təhriki ilə əsrlərboyu barış içində yaşadıqları türklərə xəyanət etmələri ilə bağlı olmuşdur. Bu xəyanətin nəticəsi olaraq da ermənilər XX əsrin əvvəllərində himayədarlarının birbaşa yardımı ilə "müstəqil dövlət"lərini yarada bildikləri halda, kürdlər buna nail ola bilməmişlər. Deməli, XXI əsrin əvvəllərində növbəti hədəf Türk torpaqlarının hesabına "müstəqil Kürdüstan"ın yaradılmasıdır.

Bu baxımdan türklərin milli mənlik şüurunun zədələnməsi (türk dilinin sıxışdırılması, türk kimliyinin dolaşdırılması, türk tarixinin saxtalaşdırılması və s.), əvəzində etnik qrupların "milli şüurunun oyadılması" ssenari-

sini Qərb və Avropanın antitürk ruhlu qüvvələri Türkiyədə uyğulamağa sonralar da davam etmişlər və edirlər də. Türkiyə alimi Oktay Sinanoğlu qeyd edir ki, ötən əsrlərdə çar Rusiyası və Sovet Rusiyası Orta Asiya (Azərbaycan da buraya aiddir) türk dövlətlərində möhtəşəm türk mədəniyyətini, türk tarixini, türk dilini bir sözlə, türk ruhunu necə sıxışdırıb çıxartmaq siyasəti yürütmüşdürsə, eyni siyasəti ABŞ və Avropanın aparıcı ölkələri Türkiyədə həyata keçirməyə çalışmışdır: "Türk və İslam düşməni olan, hələ də xaçlı səfəri mentalitetini davam etdirən təəssübkeş qərblilər türklərin bu böyük töhfələrini əvvəlcə İslam dünyasında, sonra Qərbdə və nəhayət Türkiyə içində unutdurmaq və inkar etdirməklə işə başladılar. Sonra növbə (düz 40 il əvvəl) tarixin, mədəniyyətin, milli hiss və bütövlüyün və adət-ənənənin yaşaması üçün əsas fundament olan türk dilinin yox edilməsinə gəlib çatdı. Kağız üzərində rəsmi dili Türk dili olan Türkiyənin təhsil dili tamamilə ingiliscə olmağa başladı" [Xəlilov Səlahəddin. Elm adamları elm haqqında. Professor Səlahəddin Xəlilovun təqdimatında. Bakı, «Çaşıoğlu», 2010; **178**].

Bütün bunlar o deməkdir, XXI əsrin Türk əsri olmasını istəməyən kifayət qədər xarici qüvvələr var ki, onlar Türk dövlətlərinin güclənməsini və birləşməsini (yəni hər hansı birlikdə birgə hərəkət etməsini) istəmirlər. Bunun üçün də, Türkiyəyə münasibətdə klassik forma kimi "parçala və hökm sür!" ideolojisini həyata keçirməyə çalışırlar. Hər halda, ötən əsrin əvvələrində olduğu kimi, XXI əsrin əvvəllərində də türk dövlətlərində baş verən prosesləri təsadüfi saymaq mümkün deyildir. Əksinə bu proseslər müəyyən bir ssenari üzrə davam etdirilməkdədir.

Özəlliklə, XXI əsrin "Türk əsri" olması şüarının fonunda baş verənlər heç də ürəkaçan deyildir. Belə ki, türkçülüyün dayaq mərkəzləri olan Türkiyə və Azərbaycanda üzdə türksevərlik, ancaq mahiyyət etibarilə türksüzləşdirmə prosesinin getdiyi bir dövrdə bu şüar öz mənasını və əhəmiyyətini itirir. Çünki Türkiyə və Azərbaycanda baş verən türksüzləşdirmə prosesi fonunda bu şüardan əleyhimzə istifadə edirlər. Ona görə də hesab edirik ki, hazırda sözün həqiqi mənasında XXI əsrin "Türk əsri" olmasından çox türksüz "Türk əsri"nin reallaşması meyli özünü açıq şəkildə büruzə verir.

Bizə elə gəlir ki, antitürk dairələrin Azərbaycanda, Türkiyədə, Türküstanda (Qazaxıstan, Özbəkistan, Qırığızıstan, Türkmənistan) türksüz "Türk əsri" ssenarisini pozmaq üçün milli şüurumuza yeridilən və indinin özündə də bu və ya digər formada yaşadılan saxtalaşdırılmış tarixdən, ədəbiyyatdan, qeyri-milli ideyadan deyil, vahid bir millətin neçə min illiklər boyu qoruyub saxladığı və yaşatdığı milli tarixdən, milli fəlsəfi fikirdən,

milli ədəbiyyatdan, milli ideyadan çıxış etməliyik. Çünki vahid türk fəlsəfəsini, türk tarixini, türk dini-fəlsəfi düşüncə sistemini, türk ədəbiyyatını və s. mənimsəmədən, onun tarixi-fəlsəfi mahiyyətinə varmadan heç vaxt türkçülüyün bütün türklər üçün hansı əhəmiyyət kəsb etməsini də, dərk edə bilmərik. Başqa sözlə, ayrıca götürülmüş bir ölkənin (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Tatarıstan və b.) fəlsəfəsi, tarixi, ədəbiyyatı, mədəniyyəti ilə yanaşı, ümumtürk fəlsəfəsi, türk dini-fəlsəfi dünyagörüşü, türk mədəniyyəti, türk ədəbiyyatı, türk tarixindən də bəhs olunmalı, tədris edilməlidir. Ancaq bu halda türk dövlətlərində, o cümlədən ötən əsrin sonlarında keçmiş SSRİ-nin tərkibindən çıxaraq yenicə müstəqillik əldə edən ölkələrin gənc nəsilləri, sözün həqiqi mənasında, türkçülüyü – türk kimliyini, türk mədəniyyətini, türk fəlsəfəsini, türk tarixini daha dərindən və yaxından anlamış olacaqlar. Məhz bütün bunların gerçəkləşəcəyi təqdirdə Türk əsrindən, Türk birliyindən bəhs etmək olar.

Hesab edirik ki, Türk Birliyinin Quzey və Güney Azərbaycan türklüyünün birləşməsindən sonra gerçəkləşə bilməsi də ən ciddi məsələlərdən biridir. Çünki yalnız Azərbaycan türkləri mənəvi-psixoloji və fiziki anlamda birləşdikdən sonra Türklük yeni bir güc əldə edəcəkdir. Hesab edirik ki, Azərbaycan türklüyünün bütövləşməsi bütün Türk Dünyasına ciddi bir güc qatacaqdır. Çünki Azərbaycan türklüyünün yerləşdiyi coğrafi və strateji mövqe Türklük üçün son dərəcə önəmlidir. Eyni zamanda, Azərbaycan türklüyü tarixən Türklük və Turançılıq ideyasını özündə yaşadan və yaşada biləcək ən əsas mərkəzlərdən biridir. Bunu, Qərb dünyası da, eyni zamanda onların sayəsində Qacarları devirərək hakimiyyətə gələn farsçı-irançı qüvvələr də yaxşı bilirlər. Bu anlamda Azərbaycanın bir hissəsində müstəqil Türkçülüyün olması irançıları və havadarlarını çox narahat edir.

Bu gün Quzey Azərbaycanın müstəqilliyi Güney Azərbaycanın müstəqilliyi üçün əsas prinsiplərdən biri olmaqla yanaşı, Türk birliyinə doğru gedən yolda bir mayakdır. Bu anlamda, Azərbaycan türkləri arasında yalnız Azərbaycana deyil, bütövlükdə əski Turana sahib çıxmaqla bağlı da ideya vardır. Təbii ki, əski Turana sahib çıxmaq üçün də öncə güclü, bütöv və yenilikçi Azərbaycan olmalıdır! Yəni bütün hallarda Azərbaycan bir olmalıdır ki, ondan sonra digər ideyalarımızı, özəlliklə də Türk birliyini həyata keçirək. Vaxtilə milli aydınımız, Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə də Türk birliyinin gerçəkləşməsi yolu kimi Azərbaycanı göstərmişdir. Rəsulzadə yazırdı ki, Türklərin öndərliyi ilə "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur []

(Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1990; **35**).

Eyni zamanda milli aydınımız onu da qeyd edirdi ki, Azərbaycan türkləri yalnız türkçü və demokrat deyil, həm də Türk birliyi tərəfdarıdırlar– gələcəkdə Türk Federasiyasının yaranmasını istəyirlər: "Bizim federalist, türkçü və demokratizm məsləkimiz milli-demokrat məsələsidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər vardır. Millətin qüvvətli bir birləşdirici ümumi cəhətini yalnız dinə deyil, xalqın "dili dilimdən, dini dinimdən" deyə özünəməxsus sağlam hisslə dərk elədiyi düsturda görürüz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük bir türk millətinin bir gün gəlib də bir Türk Federasyonu qurmaqla bütün görmək istəriz! Bu ittihadın bəşər mədəniyyəti sərgisinə qiymətli bir milli kültür bəxş edəcəyinə əminiz!" [] (Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998; **51**). Beləliklə, Azərbaycan Cümhuriyyət dövründə M.Ə.Rəsulzadə milli-demokratik cərəyanın əsasını təşkil edən türkçülük, islamçılıq, müasirləşmək ideyalarına sadiq qalmaqla yanaşı, gələcəkdə türk millətlərinin Türk Federasiyası yarada bilməsinin mümkünlüyünü də irəli sürürdü. Bu gün mən də bir Azərbaycan türkü olaraq hesab edirəm ki, Türk-İslam birliyi adı altında müsəlman olmayan digər türklərin, yəni xristian türklərin, buddist türklərin, şamanist türklərin Türk Birliyindən kənarda tutulması da qətiyyən doğru deyildir [Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, "Elm və təhsil", 2020; **255-267**].

Akademik elmi yanaşmalar, irəligörüşlü aydınların fikirləri ən ümumi şəkildə məhz Avropa Birliyi modelli Türk birliyini məqbul qılır. İdeya, ideologiya məsələsinə gəldikdə, burada hər türk dövlətinin öz müstəqilliyini qoruyub saxlaması və özünəməxsus ideoloji-siyasi sistemində sərbəst olması ən uyğun variant kimi diqqəti cəlb edir, deyə düşünürük.

Həmçinin, türk xalqlarının özünə inamı bərpa olunmalıdır. Bizim türk xalqları olaraq yenidən dirilişə ehtiyacımız var. 44 günlük Azərbaycan Vətən Müharibəsi, bu müharibədə qardaş Türkiyənin Azərbaycana verdiyi siyasi-dplomatik və mənəvi dəstək həmin inama, dirçəlişə xidmət etməkdədir.

Biz antitürk dairələrin Azərbaycanda, Türkiyədə, Türküstanda zaman-zaman yaradılmasına cəhd göstərdiyi saxta tarixdən, fake folklordan, ciddiyyətsiz yaxud ədəbsiz ədəbiyyatdan, qeyri-milli ideyadan deyil, millətin min illər boyu qoruyub saxladığı və yaşatdığı milli tarixdən, milli fəlsəfi fikirdən, milli ədəbiyyatdan, milli ideyadan çıxış etməliyik. Çünki vahid türk fəlsəfəsini, türk tarixini, türk dini-fəlsəfi düşüncə sistemini, türk ədəbiyyatını və s. mənimsəmədən, onun tarixi-fəlsəfi mahiyyətinə varmadan

heç vaxt türkçülüyün bütün türklər üçün hansı önəmi daşıdığını da, dərk edə bilmərik. Başqa sözlə, ayrıca götürülmüş bir ölkənin (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan) fəlsəfəsi, tarixi, ədəbiyyatı, mədəniyyəti və s. ilə yanaşı, ümumi türk fəlsəfəsi, türk dini-fəlsəfi dünyagörüşü, türk mədəniyyəti, türk ədəbiy-yatı, türk tarixindən də bəhs olunmalı, tədris edilməlidir. Türk Akademiyasının "Ortaq türk tarixi" dərsliyi, o dərsliyin pilot layihə olaraq, bir çox məktəblərimizdə tətbiqi bu sahədə olumlu addımlardandır. Ancaq bu halda türk dövlətlərində, o cümlədən ötən yüzilin sonlarında keçmiş SSRİ-nin tərkibindən çıxaraq müstəqillik əldə edən ölkələrin gənc nəsilləri, sözün həqiqi anlamında türk kimliyini, türk mədəniyyətini, türk fəlsəfəsini, türk tarixini daha dərindən və yaxından anlamış olacaq. Bütün bunların gerçəkləşəcəyi təqdirdə Türk birliyi ideyası daha real müstəvi üzərində maddiləşmiş olacaq.

Türk birliyinin tələb etdiyi ən ümdə məsələlərdən biri ortaq əlifba, ortaq dil arayışlarının davam və inkişaf etdirilməsidir. Türkiyə onilliklər boyu, Azərbaycan, Türkmənistan bir neçə ildən bəri latın qrafikalı əlifbadan istifadə edir. Qazaxıstan və Özbəkistanda latın qrafikalı əlifbaya qəti və birmənalı keçidlə bağlı işlər görülməkdədir; qardaş Qırğızıstanın da belə bir addım atacağına inanırıq.

Azərbaycan Türk dövlətlərinin birliyinin yaranmasında öz aktiv iştirakını hər zaman əməli şəkildə ortaya qoyub. Bu baxımdan hələ, Azərbaycan Cümhuriyyəti (1918-1920) dövründə irəli sürülmüş Türk Federasiyası ideyasını xatırlada bilərik.

Türk birliyinin Azərbaycan Respublikası və onun xalqı üçün önəmini, dəyərini dövlət başçısı İlham Əliyev də dəfələrlə bəyan etmişdir. 2013-cü ilin avqustun 16-da Azərbaycanın Qəbələ şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyev bildirmişdir ki, bu təşkilatda təmsil olunan xalqları ortaq milli-mənəvi dəyərlər birləşdirir: "Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət və müştərək dəyərlər birləşdirir. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşdur, əməkdaşlıq etmişik, bir yerdə yaşamışıq, bir-birimizə dayaq, arxa olmuşuq. Bu gün isə müstəqil dövlətlər kimi, biz bütün məsələlərdə bir yerdəyik, bir yerdə olmalıyıq. Hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının başlıca vəzifəsi xalqlar və ölkələr arasındakı birliyi daha da möhkəmləndirməkdir" [Əliyev İlham. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyevin nitqi. "Azərbaycan" qəz., 17 avqust 2013-cü ilhttp://president.az/articles/9059]. İ.Əliyev daha sonra bildirmişdir ki, türkdilli dövlətlər arasında türk mədəniyyətinin birliyi vacib məsələlərdən biridir. Prezidentin fikrincə, türk mədəniyyətinin də

əsas-ın-da ortaq köklərimiz, ortaq bayramlarımız və ortaq dillərimiz çıxış edir: “Bizim mədəniyyətimiz bir-birinə çox bağlıdır. Bizim köklərimiz də, bayramlarımız da eynidir, dillərimiz də bir-birinə oxşayır. Yəni, humanitar sahə əməkdaşlığımız üçün əsasdır. Yəni, əgər bu olmasaydı yəqin ki, əməkdaşlıq bu dərəcədə inkişaf etməzdi. Ona görə əlbəttə ki, humanitar sahələrdə aparılan işlərə çox böyük diqqət göstərilməlidir. Mən TÜRKSOY-un fəaliyyətini xüsusi vurğulamaq istəyirəm. TÜRKSOY nəinki türkdilli dövlətlərdə, bütün türk diyarların-da fəal iş aparır və beləliklə, türk dünyasının birləşməsinə xidmət göstərir” ( [Əliyev İlham. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyevin nitqi. “Azərbaycan” qəz., 17 avqust 2013-cü il - http://president.az/articles/9059].

Hazırda dünyanın bir çox bölgələrində ciddi problemlərin yaşandığı bir dövrdə Türk dünyasında sabitlik və inkişafın hökm sürdüyünü bildirən İ.Əliyev qeyd etmişdir ki, bu uğurlar Türk dünyasının bütövlüyünü daha da gücləndirəcəkdir: “Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən əfsuslar olsun ki, İslam dünyasında proseslər müxtəlif istiqamətdə gedir, qarşıdurmalar, vətəndaş müharibələri, digər xoşagəlməz hallar baş verir. Bizim diyarlarımızda, türk diyarında isə sabitlik, inkişaf hökm sürür Bu, böyük nailiyyətdir, böyük sərvətdir. Xüsusilə nəzərə alsaq ki, dünyada hələ də maliyyə və iqtisadi böhran davam edir, bizim ölkələrimizin uğurlu inkişafı, ölkələrdə mövcud olan sabitlik və tərəqqi hesab edirəm ki, xalqlarımızın böyük nailiyyətidir, dövlətlərimizin böyük sərvətidir. Biz bu sərvəti qorumalıyıq, birgə səylərlə qorumalıyıq, inkişaf etdirməliyik. XXI əsr türk dünyasının əsri olmalıdır” [Əliyev İlham. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyevin nitqi. “Azərbaycan” qəz., 17 avqust 2013-cü il - http://president.az/articles/9059].

2013-cü ilin noyabrın 13-14-də Türkiyədə səfərdə olan dövlət başçısı İlham Əliyev burada bir daha bəyan etmişdir ki, 70 il ərzində Azərbaycan və Türkiyə xalqları bir-birindən ayrı düşsələr də, xalqlarımızın qəlbində olan sevgini o ayrılıq söndürə bilməmişdir: “Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə ilə əlaqə qurdu. Türkiyə müstəqilliyimizi tanıyan ilk ölkə olmuşdur və o gündən bu günə qədər biz daim Türkiyənin dəstəyini hiss edirik. Bu, bizə əlavə güc verir” [Əliyev İ.Ə. İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat üçün birgə bəyanatları. “Azərbaycan” qəz., 14 noyabr 2013-cü il -http://president.az/ articles/10203]. İ.Əliyev daha sonra bildirmişdir ki, bu münasibətlərin təməlində türklük dayanır: “Qardaşlıq, dostluq əbədidir, əbədi olacaqdır. XXI əsr Türk dünyasının əsri olacaqdır. Türkiyə və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və əminəm ki, biz birgə səylərlə

gələcəkdə də böyük uğurlara imza atacağıq" [Əliyev İ.Ə. İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat üçün birgə bəyanatları. "Azərbaycan" qəz., 14 noyabr 2013-cü il - http://president.az/ articles/10203].

Hazırda dünyanın bir çox bölgələrində ciddi problemlər yaşanır. Türk dünyasında sabitlik və inkişafın hökm sürməsi hər birimizin ən ümdə qazancıdır. Hər bir türk ölkəsinin çiçəklənməsi ümumtürk qüdrətinə xidmət edir. 70 il içində Azərbaycan və Orta Asiya Türkiyədən ayrı düşsə də, xalqlarımızın qəlbində olan sevgi dəmir sınırları, sərt qadağaları aşıb, qardaşlıq duyğusu ölməyib. Azərbaycan və Orta Asiya türk dövlətləri müstəqillik əldə etdikdən sonra dərhal Türkiyə ilə əlaqə quruldu – bizim dövlət müstəqilliyimizi tanıyan ilk ölkə Türkiyə oldu. O vaxtdan indiyədək biz Türkiyənin güclü qardaşlıq dəstəyini hiss edirik. Son illər daha da güclənən Türkiyə qardaşlarının da gücünə güc qatır. 27 sentyabr – 10 noyabr 2020-ci il tarixindəki II Qarabağ müharibəsi Türkiyənin dəstəyinin nə qədər böyük önəm daşıdığını bütün dünyaya nümayiş etdirdi.Əlbəttə, Vətən müharibəsində tək millət (TÜRK) iki dövlət (Azərbaycan+Türkiyə) kimi qəbul etdiyimiz Türkiyənin yanımızda olması təbii idi: Azərbaycan Türkiyə, Türkiyə Azərbaycan deməkdir! Bu gerçəyi, heç bir qüvvə dəyişə bilməzdi! Müharibə başlayan ilk gündən son günədək ilk növbədə, Azərbaycanı birmənalı şəkildə dəstəkləyən Türkiyə oldu. Türkiyə Cümhuriyyətinin dövlət başçısı Rəcəb Tayyip Erdoğan bütün çıxışlarında Azərbaycana hər cür siyasi-mənəvi dəstək verdiklərini, hətta lazım gəldiyi anda, Azərbaycan hərbi dəstək verməyə də hazır olduğunu dəfələrlə bəyan etdi. Eyni zamanda, Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlüd Çavuşoğlu 44 günlük Vətən müharibəsi dövründə bir neçə dəfə Azərbaycana səfər edərək Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşdü.  Bu onu göstəriridi ki, Azərbaycana siyasi-mənəvi dəstək verən Türkiyə ən yüksək səviyyədə Qarabağın işğaldan azad olunmasına bizimlə eyni dərəcədə maraqlı və istəklidir.

44 günlük Vətən müharibəsindən bir müddət sonra, yəni 2021-ci ilin iyununda Azərbaycan və Türkiyə arasında Şuşada bağlanan Şuşa Bəyannaməsi hər iki dövlətin birliyinin yeni bir mərhələyə qədəm qoyması anlamda çox mühüm rol oynamışdır. Artıq siyasi, iqtisadi, mədəni birliklərini hərbi anlamda da möhkəmləndirən hər iki Türk dövlətinin bu addımı Türk birliyi yönündə də çox önəmli hadisə idi. Məhz Azərbaycan və Türkiyə birliyinin yeni bir mərhələyə qədəm qoyması ilə Türk dövlətləri arasında münasibətlər daha da yaxınlaşmış, sıxlaşmış oldu.

Məhz bunun nəticəsidir ki, 2021-ci ilin noyabrın 12-də İstanbulda keçirilən Türk Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə

Türk Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında qərar qəbul edilib. Bu, təkcə ad dəyişikliyi deyil, həm də yeni baxışın və yeni inkişaf vektorunun göstəricisi idi. Hazırda Türk Dövlətləri Təşkilatının Baş katibi qazaxıstanlı Bağdad Amreyevdir ki, təşkilatın katibliyi də İstanbulda yerləşməkdədir.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv və üç müşahidəçi ölkə var. Belə ki, Özbəkistan 2019-cu ildə TDT-yə üzv olduğu halda Türkmənistan, Kuzey Kıbrıs Türk Cümhuriyyəti və Macarısatan müşahidəçi statusuna malikdirlər. Macarıstanın bu təşkilata qoşulması, eləcə də onlarla digər ölkənin müşahidəçi statusu almaq istəyi TDT-nin çəkisini və perspektivini ortaya qoymaqdadır.

Onu da qeyd edək ki, Türk Dövlətləri Təşkilatına bağlı olan bir sıra orqan və təşkilatlar da var. Bunlardan Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) katibliyi və Türk Mədəniyyəti və İrsi Fondunun katibliyi Azərbaycanda yerləşir. Beynəlxalq Türk Akademiyasi isə Qazaxıstanda fəaliyyət göstərməkdədir.

Qeyd etmək lazımdır ki, vaxtil Azərbaycan Türk dünyası birliyinin güclənməsi üçün Türk İnvestisiya Fondunun yaradılması təşəbbüsü ilə çıxış etmişdir ki, bu günlərdə bu məsələ artıq gerçəkləşmişdir. Yəni yaxın dövrdə Türk dövlətlərinin öz milli pullarını dövriyyəyə daxil etməsi gözlənilməkdədir.

Çağdaş mərhələdə həm ortaq Türk əlifbası yolunda digər Türk xalqlarının, xüsusilə Rusiya Federasiyasının tərkibində muxtariyyətə malik Türk xalqlarının da bu və ya digər dərəcədə latın qrafikalı əlifbaya keçməsi işi sürətlənəcək, həm də ortaq Türk əlifbası daha da təkmilləşdiriləcəkdir. Eyni zamanda, ikinci mərhələdə ortaq Türk əlifbasının təkmilləşdirilməsi yolunda Türk Runik əlifbasından da faydalanıla bilər.Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr vahid əlifba yaradılmasını da ciddi şəkildə həll etməyə çalışırlar.  Bununla bağlı 2022-ci ilin payızında TDT-nin Bursada keçirdiyi tədbirdə qurumun üzv olduğu dövlətlərin alimləri öz ölkələrində baş verən əlifba və tarixi dil prosesləri haqqında məlumat vermiş, vahid əlifbaya keçid prosesinin sürətləndirlməsi məqsədilə “Ortaq əlifba komissiyası” yaradıblar.  Həmin komissiyanın əsas işi ortaq əlifbanın və onun əsasında formalaşıdrılacaq milli əlifbaların yaranması olacaqdır. Ümid edirik ki, bu il Türk dünyasının ortaq əlifba, yəni milli əlifbalar məsələsi öz həllini tapacaqdır.

Türk dövlətlərinin güclənməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı bir sıra xarici qüvvələri qıcıqlandırmaqdaır. Bu-

nunn fonunda daahazırda dünyanın bəzi ölkələrində türkofobiyanın artmasını da müşahidə etməkdəyik. Bunun ən bariz nümunəsi Ermənistan və İran adlanan ölkədə hökm sürən türkofobiyadır. İran adlanan ölkədə azərbaycanlıların yaşadığı ərazilər də Türk dünyasının ayrılmaz bir parçası kimi qəbul edilməkdədir. Yeri gəlmişkən, bu məsələ ilə bağlı, TDT-nin Baş katibi Bağdad Amreyev 2022-ci ilin oktyabrın 21-də Bakıda səfardə olarkən onunla görüş zamanı dövlət başçısı İlham Əliyev bəyan edib ki, Türk dünyası yalnız Türk dövlətlərindən ibarət deyil və Türk dövlətlərindən kənarda yaşayan türk mənşəli insanların hüquqları, təhlükəsizliyi qorunmalıdır. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycandan kənarda yaşayan soydaşlarımızın hüquq və azadlıqları ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir (Azərbaycan Türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır [https://azertag.az/xeber/ Azerbaycan_ turk_dovletleri_arasinda_munasibetlerin_ inkisafinda muhum_rol_oynayir-2370239].

Güney Azərbaycan məsələsini Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin noyabrında Səmərqənddə keçirilən doqquzuncu Zirvə görüşündə isə açıq şəkildə bəyan etmişdi, O, həmin toplantıda bildirib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir: “Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir. Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq. Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır. Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımı-

zın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır" [Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib. https://president.az/az/articles/view/57816].

Məlum olduğu kimi, Türk Dövlətləri Təşkilatı yarandıqdan sonra Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana, Çolpan-Ata, Bakı, İstanbul, Səmərqənd və Ankarada olmaqla cəmi on Zirvə görüşü keçirilib. 2023-cü ili martın 16-da Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının onuncu Fövqəladə Zirvə görüşü keçirilib. Qeyd edək ki, bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin 2023-cü ilin fevralın əvvəllərində Türkiyədə baş vermiş dəhşətli zəlzələlər ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.Azərbaycan Prezidenti İlham Əliyev toplantıda bir daha bəyan edib ki, Türk dünyası Türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır (TDT Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib, İlham Əliyev tədbirdə iştirak edib [https://report.az/xarici-siyaset/ankarada-tdt-nin-fovqelade-zirve-gorusu-baslayib].

Son zamanlar dünyada baş verən geosiyasi proseslər fonunda Türk dövlətləri öz əməkdaşlıq sahələrini daha da genişləndirmək istiqamətində səyləri artırmaqdadır. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə təşkilatda əməkdaşlığın mahiyyətcə yeni mərhələyə keçidi başlayıb. Cənubi Qafqazda yeni reallıqların yaranması Mərkəzi Asiya ilə əməkdaşlığın formatına da öz təsirini göstərib. Zəngəzur dəhlizinin açılması ilə Türk dövlətləri ilə tranzit əlaqələrinin inkişafına şərait yaradacaq, nəqliyyat sahəsində yeni layihələrin həyata keçirilməsinə imkan verəcək.

Qeyd edək ki, 2023-cü ilin mayında Türkiyədə keçirilən parlament və prezident sekiçlərinin hər ikisində Rəcəb Tayyib Ərdoğanın lideri olduğu Cümhur İttifaqının qalib gəlməsi Türk Dövlətləri Təşkilatının bugünü və gələcəyi baxımndan müsbət dəyərləndirilməkdədir. Bu birlik özünü Rəcəb Tayyib Ərdoğanın yenidən prezident olması münasibətilə 2023-cü il iyunun 3-də Ankarada "Külliyyə", yəni Prezident Sarayında keçirilən inaqurasiya mərasimində də özünü ortaya qoydu (Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimi başa çatdı [https://qafqazinfo.az/news/detail/erdoganin-

selahiyyetlerinin-icrasina-baslama-merasimi-basa-catdi-bundan-sonra-402507https://qafqazinfo.az/news/detail/erdoganin-selahiyyetlerinin-icrasina-baslama-merasimi-basa-catdi-bundan-sonra-402507].

Həmin inaqurasiya mərasimində R.T.Ərdoğan Türk Dövlətlərinin başçılarına, O cümlədən Azərbaycan Respublikadının Prezidenti İlham Əliyevə, Özbəkistan Respublikasının Prezidenti Şövkət Mirzoyevə, Qazaxıstan Respublikasının Prezidenti Qasım Çomart-Tokayevə, KKTC Prezidenti Ersin Tatara və digərlərinə yüksək diqqət yetirdi. Xüsusilə də, R.T.Ərdoğanın Azərbaycanın dövlət başçısı İlham Əliyevə verdiyi dəyər mərasim işktirakçıları tərəfindən də böyük alqışlarla qarşılandı. Ümumilikdə R.T.Ərdoğanın Ankarada keçirilən andiçmə mərasimi Türk Dövlətləri Təşkilatının, yəni Türk birliyinin də dünyada yeni bir güc kimi ortaya çıxmaq nümayişi idi. Demək olar ki, əksər politoloqlar, siyasi şərhçilər bu mərasimi öncəlliklə "Türk düyünü" kimi qiymətləndirdilər.

**Nəticə**

Türk dövlərlərinin birliyi məsələsində, daha doğrusu bu birliyin hansı formada gerçəkləşə bilməsi üçün ən mühüm iki taktiki seçim: 1) Rusiya-Çin və 2) NATO, vardır. Şübhəsiz, Rusiya-Çin, yoxsa NATO ilə əməkdaşlıq məsələsinin başında Türk dövlətləri arasında Türkiyə gəlməkdədir. Ötən XX yüzildə Türkiyənin müstəqilliyini qoruyub saxlaması, güclü orduya sahib olması baxımından müstəqil digər beş Türk dövlətindən fərqlənməkdədir. Bu baxımdan Türkiyənin Rusiya-Çinlə, ya da NATO ilə münasibətlərinin hansı istiqmətdə inkişaf etməsi, istər-istəməz digər beş Türk dövlətinin, müəyyən anlamda KKTC və digər yarımmüstəqil (Tataristan, Başqırdısta Uyğurustan və b.) Türk dövlətlərinin də siyasi, iqtisadi, hərbi, mədəni həyatına təsir göstərir. Məsələn, 7-8 il bundan öncə Rusiya ilə Türkiyə arasında yaşanan gərginliyin fonunda, 32 il öncə Sovetlər Birliyindən ayrılaraq müstəqilliyini qazanmış Türk Cümhuriyyətləri (Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan) zor bir dönəmə qədəm qoymuşdular. Belə ki, Rusiya-Türkiyə gərginliyi davam etdiyi bir dövrdə beş müstəqil Türk dövlətlərində rusçuların, rusiyayanlıların fəallaşması birbaşa Kremlin nəzarəti və dəstəyi ilə baş vermişdi.

Çünki Sovetlər Birliyinin tərkibindən ayrılaraq istiqlal elan etmiş Türk dövlətlərinə imperiya duyğusuyla hələ də "özününkü" kimi yanaşan rəsmi Moskva Türk dövlətlərinin hökumətlərini bu və ya digər formada tamamilə özündən asılı vəziyyətə düşürərək keçmiş Sovetlər Birliyinə yeni bir şəkil vermək niyyətini bir çox hallarda gizlətmir də. Belə olduğu təqdir-

də, zamanla Rusiyanın “yeni Sovetlər Birliyi”, “Yeni SSRİ” ideyasını qarşı çıxan Türk dövlətlərində hakimiyyət dəyişikliyinin olması da gözlənilləndir. Başqa sözlə desək, əgər Türk Cümhuriyyəti dövlətlərindən hər hansı biri Rusiyanın “yeni Sovetlər Birliyi” ideyasına qarşı qoyarsa, o zaman rəsmi Moskva öncədən planlaşdırıdığı üzrə yetişdirdiyi kadrların əli və rusiyayanlı “xalqın dəstəyi” ilə həmin ölkədə çevriliş belə etməyə hazırdır.

Görünür, məhz bu təhlükənin yaxınlaşmasının nəticəsidir ki, vaxtilə Rusiya-Türkiyə gərginliyi dönəmində Türk dövlətləri tərəf tutmaqda ciddi tərəddüd yaşamışdılar. Bizcə, ümumiyyətlə o dövrdə Azərbaycan, qismən də Qzaxıstan istisna olmaqla digər Türk Cümhuriyyətləri, bu məsələdə daha çox Rusiyaya meylililik nümayiş etdirdilər. Belə ki, ozamankı Qazaxıstanın dövlət başçısı Nursultan Nazarbayev Rusiya və Türkiyə arasında yaşanan böhrandan dolayl təəssüfedici mövqeyini ortaya qoymaqla yanaşı, hər iki dövlətin bundan zərərli çıxa biləcəyinə işarə etmişdi. Əslində Qazaxıstanı uzun müddət idarə edən Nazarbayevin Rusiya və Türkiyə arasındakı böhranla bağlı rahatsız olması təsadüfi deyildi. O, Qazaxıstanın Türkiyənin yanında yer alması təqdirdə ölkədə hakimiyyət çevrilişinin olmasından da rahatsız idi. Çünki bu gün Qazxıstan əhalisinin bir qismi rus və ya da rusdillidir. Belə bir durumda Qazaxıstanın siyasi-iqtisadi mütəfiqi olan Rusiyaya qarşı çıxması da, eyni zamanda Türk-Turan kimliyi ilə rusçuluğa qarşı dirəndiyi bir zamanda Türkiyəni gözardı etməsi də çox zor idi. Nazarbayev daha çox diplomatik əndişəsini dilə gətirdiyi bir zamanda, amma həmin dövrdə Qırığızıstanın dövlət başçısı olmuş Arslanbek Atambayevin açıq şəkildə Türkiyənin Rusiyadan üzr istəməli olduğunu söyləməsi də acı bir həqiqət idi. Rusiya açıq şəkildə Türk dövlətlərini, onun başçılarını rəsmi Ankaranın yanında yer almamssı ilə bağlı təhdid edirdi ki, bunun örnəyi Atambayevin Rusiyayanlı açıqlama verməsi olmuşdu. Ancaq Nazarbayevlə müqayisədə siyasi-diplomatik təcrübəsinin az olduğu Atambayevi bundan dolayı çox qınamaq da doğru olmazdı.

Həmin dövrdə Türk dövlətləri arasında Rusiyanın təhdidinin artdığı ölkələr arasında Azərbaycan mühüm yer tutmuşdu. Çünki Türk dövlətləri arasında Türkiyəylə ən yaxın və qardaş olan dövlət Azərbaysan Respublikasıdır. Bunu, Rusiyayla Türkiyə arasında yaşanan son böhranda bir daha göstərdi. Yəni Azərbaycan bu olayda mümkün olduğu dərəcədə Türkiyənin yanında yer aldı. Şübhəsiz, Azərbaycanın bu cür mövqeyi Rusiyanı qətiyyən qane etmirdi. Həmin dövrə qədər Türk dövlətlərində  antitürkçülük düşüncənin inkişafı istiqamətində ciddi işlər görən rəsmi Moskva Türkiyə ilə münasibətlər yaxşılaşana qədər təzyiqlərini davam etdirmişdir. Xüsusilə də, rəsmi Moskva hərəkətə keçər-keçməz öncə, Türk dövlətlərindəki türkçülə-

ri-turançıları hədəf almış, Türk Birliyinə qarşı bir para işlər görmüşdür. Çünki Türk Cümhuriyyətlərində milli və müstəqil dövlətdən yana olanların və Türk birliyinin gerçəkləşməsi işinin başında türkçülər-turançılar gəlirdi. Məhz türkçülər-turançılar daima Türk dövlətlərinin müstəqilliyi, eyni zamanda həmin müstəqil Türk Cümhuriyyətlərinin Türk Birliyinin gerçəkləşməsindən yana olmuşlar. Belə olduğu təqdirdə, Türk Cümhuriyyətləri açıq şəkildə "yeni Sovetlər Birliyi" çatısı altına düşürülmüş olsa, ilk zərbəni turançılar, türkçülər almış olacaq idi.

Həmin dövrdə Türkiyə özünü müdafiə üçün yenidən Qərb-NATO ilə əməkdaşlığını yaxşılaşdırmaq məcburiyyətində qaldığı halda, müstəqil beş Türk Cümhuriyyətlərinin isə belə bir şansı çox az, ya da yox dərəcəsində idi. Məhz belə zor günlərdə, xüsusilə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türk dünyasının ağsaqqalı Nursultan Nazarbayevin Rusiya Federasiyasnın rəhbərliyi ilə apardığı danışıqlar vəziyyəti normallaşdırdı, Rusiya-Türkiyə gərginliyi aradan qaldırılmış oldu.

Məhz Türkiyə-Rusiya gərginliyinin aradan qaldırılmasından sonra Orta Asiya Türk dövlətlərinin Türk birliyinin qurulmasında rolu da müsbətə doğru xeyli dəyişdi. Bizcə, Orta Asiya türkləri türklüyü ifadə edən kimlikləri və dilləri ilə türk mədəniyyətinə daha çox yaxınlaşırlar. Məsələn, bu gün Qazaxıstanın Türk birliyi çərçivəsində müəyyən işlər görməsi, Türk xalqlarının inteqrasiyası baxımından təqdirəlayiqdir. Çünki Qazaxıstanda əhalinin üçdə bir hissəsini, bəlkə də ondan da çoxunu ruslar və başqa millətlər təşkil edir. Bütün bunlara baxmayaraq, Qazaxıstanda milli kimliyin dərki, mili ədəbiyyatın, milli tarixin yaranması və s. ilə yanaşı, Türk birliyinin yaradılması istiqamətində də müəyyən işlər görülür. Zənnimizcə, Türk dövlətləri arasında ən böyük əraziyə malik olan Qazaxıstan Türk Dövlətləri Təşkilatında mühüm mövqeyə malikdir.

Son zamanlar Türk birliyinə doğru ciddi addımlar atmaq niyyətində olan Orta Asiya ölkələrindən biri də Özbəkistandır. Özbəkistannın yeni prezidentinin türk ruhlu bəyanatları göstərir ki, Türk Dövlətləri Təşkilatının dünyanın güc mərkəzlərindən birinə çevrilməsi realdır. Sadəcə olaraq, Özbəkistanda olduğu kimi, başqa Türk ölkələrində də müəyyən türkçü ruhlu islahtaların olması vacibdir. Artıq türklərin neçə min illərdən bəri zəngin təcrübəyə malik olan dünyanın ən böyük millətlərindən biri kimi öz sözünü deməyin vaxtı çatmışdır. Tarixi bizə göstərir ki, türklər dünyaya ağalıq etdikləri zamanı əsasən, ədalət və qayda-qanunlar hökm sürmüşdür. Əlbəttə, savaş olan yerdə müəyyən istisnalar ola bilər, ancaq bütövlükdə türkün mədəniyyəti və ədaləti bütün dünya xalqlarına bəllidir.

Türk birliyinə meyil edən ölkələr arasdında Türkmənistanən yanı sıra Macarıstan da yer almaqdadır. Bu isə o deməkdir ki, yaxın zamanlarda qurulacaq Türk birliyinə yalnız müsəlman Türk dövlətləri deyil, xristian və digər inanclı Türk dövlətləri də daxil ola biləcəklər.

**Ədəbiyyat:**


1. Ağaoğlu Əhməd bəy. Üç mədəniyyət. Bakı: Mütərcim, 2006
2. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998
4. Azərbaycan türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır.https://azertag.az/xeber/Azerbaycan_turk_dovletleri_ arasinda_munasibetlerin_inkisafinda_muhum_rol_oynayir-2370239
5. Əliyev İ.H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyevin nitqi. "Azərbaycan" qəz., 17 avqust 2013-cü il, http://president.az/articles/9059
6. Əliyev İ.H. İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat üçün birgə bəyanatları. "Azərbaycan" qəz., 14 noyabr 2013-cü il. http://president.az/ articles/10203
7. Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017
8. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, "Elm və təhsil", 2020
9. Əfəndiyev S.M. Seçilmiş əsərləri. İki cilddə. 2-ci cild. Bakı, 1990
10. Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimi başa çatdı. https://qafqazinfo.az/news/detail/erdoganin-selahiyyetlerinin-icrasina-baslama-merasimi-basa-catdi-bundan-sonra-402507.
11. Fukuyama Frankis. Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014
12. Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı, Maarif, 1991
13. Gökalp Ziya. Türk medeniyeti tarihi. Istanbul, Bilgeoğuz, 2013
14. Güngör Erol. Kültür Değişmesi ve Milliyetçilik. İstanbul. Ötüken. 2007
15. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
16. Nərimanov Nəriman. Məqalələr və nitqlər. I c, II cilddə, Bakı: Azərnəşr, 1977
17. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004
18. Türkeş Alparslan. Bunalımdan çıkış yolu. İstanbul, "Emek Matbaacılık ve ilancılık", 1980
19. Toynbee Arnold J. Uygarlık yarğılanıyor. İstanbul, Örgün, 2011

20. TDT Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib, İlham Əliyev tədbirdə iştirak edib. https://report.az/xarici-siyaset/ankarada-tdt-nin-fovqelade-zirve-gorusu-baslayib/
21. Xəlilov S.S. Elm adamları elm haqqında. Professor Səlahəddin Xəlilovun təqdimatında. Bakı, "Çaşışoğlu", 2010
22. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1990
23. Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib. https://president.az/az/articles/view/57816
24. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul. Ülken. 2013

UOT - 316

**Zeynəddin Müsənnif oğlu Şabanov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
aparıcı elmi işçisi, f.f.d., dosent
Bakı, Azərbaycan, H.Cavid,115
zeynaddin.shabanov@gmail.com
https//orcid.orq/0000-0003-412-6250

# İDARƏETMƏ MƏQSƏDƏÇATMA YOLUNDA MÜKƏMMƏL PROSES KİMİ

**Xülasə**

Məqalədə idarəetmənin məzmunu, prosesi, mexanizmi, funksiyaları, makro və mikro proseslər və əsas metodları ətraflı təhlil olunur. İdarəetmə sistemi bütöv bir sistem kimi yarımsistemlərdən ibarətdir və onlara arasında qarşılıqlı əlaqə vardır. Hadisə və proseslərin başvermə adrıcıllığı idarəetmədən asılıdır. Bildirilir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün idarəetmə prosesinin düzgün və obyektiv aparılması zəruridir.

*Məqsəd və mövzunun işlənmə səviyyəsi*. Məqalədə əsas məqsəd müasir dövrdə idarəetmə prosesinə elmi yanaşmanı təhlil etməkdir. Bildirilir ki, idarəetmə prosesi və onun məzmunu barədə həm yerli, həm də xarici ədəbiyyatlarda müəyyən məlumatlar verilib, sanballı tədqiqatlar aparılıb. Bu sahədə tanınmış alimlərdən Ə.Abbasov, T.Quliyev, S.Quliyeva, S.Məmmədov, M.Axundov, M.Mahmudov, Ə.Ələkbərov, F.İbrahimov, M. Atakişiyev, Q. Süleymanov, T.Əliyev, Q.Popov, A.Qodunov, Q.Şlezinqer, O. Bobrov, P.Veyll, S.Batçikov və Y. Qlazyev və başqalarının professional səviyyədə elmi əsərləri vardır ki, onlara yeri gəldikcə münasibət bildirilmişdir.

*Elmi yenilik*. İdarəetmə prosesinin məzmunu yeni baxış bucağından təhlil olunmuşdur. İdarəetmə fəaliyyətinin yeni səviyyədə təşkil olunması və idarəetmə mədəniyyətinin yüksəldilməsi,makro və mikro idarəetmənin vacibliyi elmi dəlillərlə əsaslandırılmışdır.

*Metodologiya*. Məqalədə sistem yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Nəticə**

Cəmiyyətin, ictimai həyatın bütün sahələrinin reallığı nəzərə alaraq idarə olunması vacibdir və ancaq bu zaman məqsədə çatmaq mümkündür.

**Açar sözlər**: cəmiyyət, idarəetmə prosesi, idarəetmə mexanizmi,

funksiyalar, metodlar

**УДК - 316**

**Зейнаддин Мусанниф оглу Шабанов,**
доктор философии по философии, доцент,
ведущий научный сотрудник,
Институт философии и социологии НАНА,
пр. Г.Джавида, 115, Баку, Азербайджан
E-mail: zeynaddin.shabanov@gmail.com
https//orcid.orq/0000-0003-412-6250

# УПРАВЛЕНИЕ КАК СОВЕРШЕННЫЙ ПРОЦЕСС ДОСТИЖЕНИЯ ЦЕЛИ

**Резюме**

В статье подробно анализируются содержание, процесс, механизм, функции, макро- и микропроцессы и основные методы управления. Система управления, как и система в целом, состоит из подсистем, и между ними существует взаимодействие. Констатируется, что для достижения поставленной цели необходимо правильно и объективно проводить процесс управления.

*Цель статьи и степень разработанности темы*. Основная цель статьи - проанализировать научный подход к процессу управления в современное время. Отмечается, что были представлены определенные сведения о процессе управления и его содержании как в отечественной, так и в зарубежной литературе, и были проведены соответствующие исследования известными учеными в этой области. А.Аббасов, Т.Гулиев, С.Гулиева, С.Мамедов, М.Ахундов, М.Махмудов, А.Алекперов, Ф.Ибрагимов, М.Атакишиев, Г.Сулейманов, Т.Алиев, Г. Попов, А. Годунов, Г. Шлезингер, О. Бобров, П. Вайль, С. Батчиков и Ю. Глазьев и другие имеют научные труды по проблемам управления профессионального уровня, к которым следует отнестись соответствующим образом.

*Научная новизна*. В статье содержание управленческого процесса проанализировано с новой точки зрения. Так, организация управленческой деятельности на новом уровне и повышение культуры управления, важность макро- и микроменеджмента обоснованы соответствующими научными данными.

*Методология*. В статье использованы методы системного подхода и сравнительного анализа.

**Выводы.** Управлять обществом, всеми сферами общественной жизни необходимо с учетом действительности, и только тогда возможно достижение поставленной цели.

**Ключевые слова**: общество, процесс управления, механизм управления, функции, методы.

**UDC - 316**

**Zeynaddin Shabanov**
PhD. in Philosophy, Assistant Professor, Leading Researcher,
Institute of Philosophy and Sosiology of ANAS
H.Javid,155, Baku,Azerbaijan
E-mail: zeynaddin.shabanov@gmail.com
https//orcid.orq/0000-0003-412-6250

# MANAGEMENT AS A PERFECT PROCESS TOWARDS GOAL ACHIEVEMENT

**Abstract**

The article analyzes in detail the content, process, mechanism, function, macro and micro processes and main methods of management. The management system, like a whole system, consists of subsystems and there is an interaction between them. The timing of events and processes depends on management. It is stated that in order to achieve the set goal, it is necessary to conduct the management process correctly and objectively.

*Purpose and the degree of development of the topic*. The main goal of the article is to analyze the scientific approach to the management process in modern times. It is reported that certain information was given about the management process and its content in both local and foreign literature, and relevant studies were conducted. Famous scientists in this field include A. Abbasov, T. Guliyev, S. Guliyeva, S. Mammadov, M. Akhundov, M. Mahmudov, A. Alekbarov, F. Ibrahimov, M. Atakishiyev, G. Suleymanov, T. Aliyev, G. Popov, A. Godunov, G. Shlesinger, O. Bobrov, P. Weill, S. Batchikov, Y. Glazyev and others who have scientific works at a professional level which have been treated as appropriate.

*Scientific novelty*. The content of the management process was analyzed from a new point of view. Organization of management activity at a

new level and improvement of management culture, the importance of macro and micro management are based on scientific evidence.

*Methodology*. System approach and comparative analysis methods were used in the article.

**Conclusions**

It is important to manage society, all areas of public life, taking into account reality and only in this case it is possible to achieve the goal.

**Keywords:** society, management process, management mechanism, functions, methods

**Giriş.** Daim yeniləşən, dinamik inkişaf edən cəmiyyət düzgün və obyektiv qaydalara, qanunlara, normalara söykənərək idarə olunmalıdır. Əlbəttə, bəşəri dəyərlərə hörmət etməklə milli davranış, qaydaların və normaların gözlənilməsi zəruridir. Düşünülmüş və dəmir məntiqə əsaslanan idarəetmə cəmiyyəti irəli aparar, staqnasiya və problemlərdən uzaq olar. Dövlət idarəçiliyində, onun ayrı-ayrı bölmələrində və idarəetmə orqanlarında baş verən idarəetmə prosesləri müxtəlif olur. Ona görə də hər hansı bir sosial-iqtisadi sistemdə baş verən idarəetmə prosesləri məhdud çərçivə daxilində olmur. O, məzmunca bir çox proseslərin məcmusundan ibarətdir. İdarəetmənin başlıca mahiyyəti onun statik vəziyyətdə olması ilə deyil, dinamik vəziyyəti ilə müəyyən edilir. Əks təqdirdə idarəetmə prosesi həyata keçməz. Bu, birinci növbədə, idarəetmə sisteminin vəhdətliyi və idarəetmə sahəsində olan əmək bölgüsü və kooperasiyası ilə şərtlənir. İdarəetmə işləri özbaşına həyata keçirilmir. İdarəetmə işləri idarəetmə vəzifələrindən irəli gəlir, müəyyən funksiyaların icra edilməsi, idarəedən sistemin təşkili ilə bağlıdır. Hər bir hadisə və prosesin, sistemin olduğu kimi idarəetmə sisteminin də öz mexanizmi vardır. İdarəetmə elminə aid ədəbiyyatlarda idarəetmə sisteminin idarəetmə mexanizmi, idarəetmə strukturu, idarəetmə prosesi, idarəetmə sisteminin inkişaf mexanizmi kimi komponentlərdən ibarət olması göstərilir.

## İdarəetmə mexanizmi və idarəetmə prosesləri

İdarəetmə mexanizmi idarəetmə sisteminin komponentlərindən birini təşkil edir.İdarəetmə mexanizmi özü isə aşağıdakı tərkibdən ibarətdir:

-İdarəetmənin ümumi prinsipləri

-İdarəetmənin müxtəlif funksiyaları

-İdarəetmə sistemi qarşısında qoyulan məqsədlər

-İdarəetmə sisteminin müvafiq metodları [Axundov M.Ə. Strateji idarəetmə. Bakı, 2001,s.78].

İdarəetmə mexanizminin bu həlqələri arasında üzvü əlaqə vardır. Bu mexanizmlərin mövcudluğu tamamilə obyektiv xarakter daşıyır. Belə ki, prinsipsiz idarəetmə olmaz. İdarəetmə prosesi isə heç bir sosial-iqtisadi məqsəd olmadan həyata keçirilə bilməz. Məqsədlər idarəetmədən kənar baş vermir, deməli, həmin proseslərin ardıcıl və normal gedişi üçün idarəedici təsir vasitələri lazımdır. Bu, idarəedici təsir idarəedən subyekt tərəfindən müxtəlif metodlardan istifadə edilərək həyata keçirilir.

İdarəetmə prosesi idarəetmə sisteminin və onu əmələ gətirən ünsürlərin fəaliyyət göstərməsi prosesidir. Bu isə bilavafsitə müxtəlif idarəetmə orqanlarının mövcudluğu və fəaliyyət forması ilə bağlıdır. İdarəetmə prosesinə müxtəlif baxımdan yanaşmaq olar:

-İdarəetmə prosesinin funksionallığı;

-İdarəetmə əməyinin təşkili;

-İdarəetmə sisteminin strukturu;

-İdarəetmə orqanlarının sahə və sahələrarası fəaliyyətinin təşkili;

-İdarəetmə prosesinin məzmunu [Ələkbərov Ə., İbrahimov F. Menecment. Bakı, Çaşıoğlu, 2004].

İdarəetmə proseslərinə bu cür yanaşma bir tərəfdən həmin proseslərin məzmununun aydın dərk olunmasına, digər tərəfdən isə həmin proseslərin gündəlik həyatda təşkili məsələlərini həll etməyə imkan verir.

İdarəetmə prosesləri, birinci növbədə, öz funksional məzmununa görə fərqlənirlər. Məsələn, operativ rəhbərlik, planlaşdırma, nəzarətetmə proseslərini, habelə müxtəlif xidmət funksiyalarını buna misal gətirmək olar. Bu funksiyalar əsas və xüsusi hal kimi olan funksiyalara, əlavə funksiyalara bölünürlər. Həmin funksiyaların həyata keçirilməsinin maddi-təşkilati əsasını əmək bölgüsü, birinci növbədə, funksional əmək bölgüsü təşkil etsə də, onun zəruriliyi idarəetmə məqsədləri ilə müəyyən olunur, bu məqsədlərdən irəli gəlir. Müəssisələrdə ümumi funksiyalarla yanaşı, texniki, maliyyə, kommersiya (satış və təchizat) və inzibati funksiyalar da həyata keçirilir. Həmin funksiyalar müəyyən xidmət növləri və strukturları tərəfindən həyata keçirilir. Ona görə müəssisələrdə, məsələn, texniki, kommersiya əməliyyatları müəyyən xidmət vəsilələri vasitəsilə icra olunur. Əslində müəssisələrdə bilavasitə istehsal prosesini həyata keçirən xidmət-funksional bölmənin fəaliyyəti də dəqiqləşdirilməli və sistemləşdirilməlidir. İstehsal xidməti yalnız texniki xidmətlə məhdudlaşmamalıdır. O, istehsalın hazırlığı, planlaşdırılması, proqramlaşdırılması, təşkilati metodları, dispetçer xidmətlərini və digər istehsal fəaliyyətinin sistem halında təşkilini

əhatə etməlidir. Məsələyə bu cür yanaşma istehsal məsələləri üzrə fəaliyyət xarakterində yeni keyfiyyətin formalaşmasına müsbət təsir edər, istehsal xidməti ilə əlaqədar olan bütün fəaliyyət növlərinin inteqrasiyası və koordinasiyasını həyata keçirirlər. Bu istehsalata rəhbərlikdə keyfiyyətcə yeni dəyişikliklərə səbəb ola bilər. İdarəetmə prosesi əsas ünsür olmaq etibarilə idarəetmə aparatı işçilərinin konkret fəaliyyətini, həmin fəaliyyətin hüdudunu və idarəetmə əməyinin təşkili məsələlərini əhatə edir.

İdarəetmə prosesi fasiləsiz bir prosesdir. O, idarəetmə sistemlərinin strukturu, onun həlqələri arasındakı əlaqələri göstərir. Bu isə idarəetmə prosesinin dinamik xarakterindən irəli gəlir. Ona görə də idarəetmə prosesi həm də təsiredici bir prosesdir. Həmin təsir, birinci növbədə idarəetmənin idarəolunan obyektə təsiri, habelə eyni səviyyəsi yarımsistemlərin bir-birinə təsiri formalarında olur. İdarəedici təsir isə öz növbəsində daimi və dövri xaraktier daşıyır. İstehsalın hərtərəfli intensivləşdirilməsi şəraitində idarəetmə prosesinin sürətləndirilməsi, onun səmərəsinin artırılması ümumi səmərəliliyin artırılması sistemində mühüm rol oynamalıdır [Вейлл П. Искусство менеджмента. Пер. с англ. М.: Новости, 2013,c.395]. Lakin bir çox hallarda istehsalın intensivləşdirilməsi idarəetmə prosesinin intensivləşdirilməsi ilə uzlaşdırılır. İdarəetmə proseslərinin ardıcıllığını, dinamikliyini təmin etmədən istehsalın hərtərəfli intensivləşdirilməsini, elmi-texniki tərəqqisini və digər problemləri müvəffəqiyyətlə həll etmək olmaz. İdarəetmə prosesinin dinamikliyinin təmin edilməsi, birinci növbədə idarəetmə fəaliyyətinin keyfiyyətcə yeni, elmi səviyyədə təşkil olunmasını, idarəetmə mədəniyyətinin yüksəldilməsini tələb edir. Bu, konkret idarəetmə fəaliyyətini bilməkdən, bacarmaqdan başqa həm də idarəetməyə ciddi bir proses, bir elm sahəsi kimi yanaşmağı tələb edir. Elmi səviyyədə duran problemlərin özü də elmi səviyyədə həll olunmalıdır. İdarəetmə prosesinin səmərəliliyinin artırılması, həmçinin idarəetmə strukturunun təkmilləşdirilməsini, onun operativliyinin, çevikliyinin və məhsuldarlığının artırılması ilə əlaqədardır.

İdarəetmə prosesləri idarəetmə strukturu ilə bağlıdır və ondan irəli gəlir. İdarəetmə proseslərinin idarəetmə strukturu ilə əlaqədar olması həmin proseslərin ierarxiyalı, çoxpilləli xarakterini müəyyən edir. Bu baxımdan idarəetmə prosesləri aşağı, yuxarı və orta səviyyəli idarəetmə proseslərinə ayrılır. Bunu aşağıdakı cədvəldə göstərmək olar.

**Cədvəl 1. İdarəetmə prosesinin səviyyəsi**

| İdarəetmə prosesinin ierarxiyası | Funksional idarəetmə prosesi | İdarəetmə orqanları |
|---|---|---|
| İqtisadiyyatın idarə edilməsindəki proseslər | Sahələrarası funksion-al idarəetmə prosesi | İdarəetmə proseslərinn ayrı-ayrı müvafiq orqan-larda həyata keçirilməsi, onların xüsusiyyətləri və subordinasiya tipli əlaqələndirilməsi. |
| İqtisadiyyatın ayrı-ayrı sahələrinin idarə edilməsindəki proseslər. | Ərazi və regionların idarə edilməsi prosesi. | |
| İstehsal birliklərinin idarə edilməsi pros-esi. | Elmi-texniki tərəqqinin idarə edilməsi prosesi. | |
| Müəssələrin idarə edilməsi prosesi. | Digər yarımfunksional proseslərin, sistem-lərin idarə edioməsi prosesi. | |

Yuxarıdakı cədvəldən göründüyü kimi idarəetmə prosesləri müxtəlif səviyyəli əlamətlərinə görə makroprosesləri və mikroprosesləri əhatə edir. Bu, əslində idarəetmə sisteminin özündə makro və mikro sistemlərin mövcudluğundan irəli gəlir. Cədvəldən aydın olur ki, idarəetmə prosesləri idarəetmə orqanlarında cərəyan edən proseslərdir, funksional və sahə təsərrüfat orqanlarının qarşılıqlı təsirindən irəli gələn proseslərdir. Burada, ölkə iqtisadiyyatı miqyasında idarəetmə prosesləri makroproseslər, idarəetmə orqanları daxilində baş verən proseslər, hər bir işçinin fəaliyyəti mikroproseslərdir. Proseslərin makro və mikro proseslərə ayrılması başlıca olaraq idarəetmə iyerarxiyası ilə əlaqədardır. Bütövlükdə ölkə iqtisadiyyatı miqyaslı proseslər aparıcı proseslərdir. Çünki bu proseslər nəticə etibarilə mikroprosesləri, onun xarakterini müəyyən edir.

Makro və mikroproseslərin tənsifatı, onların məzmunu və xarakterinin

öyrənilməsi öz-özünə məqsəd deyildir. Burada ən başlıca məqsəd həmin proseslər arasındakı qarşılıqlı əlaqənin və qarşılıqlı təsirin öyrənilməsidir. Bu baxımdan bu səviyyəli proseslərə uyğun gələn idarəetmə orqanları arasındakı bir-birinə qarşılıqlı təsirin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Həmin qarşılıqlı təsir adətən aşağıdakı kimi olur: a) funksional ümumdövlət orqanlarının qarşılıqlı təsiri; b) funksional və sahə orqanlarının qarşılıqlı təsiri; c) funksional sahə orqanlarının qarşılıqlı təsiri. İdarəetmə proseslərinin, idarəetmə orqanları ilə qarşılıqlı əlaqədə olması həmin proseslərə sistem halında yanaşılmağı tələb edir. Çünki proseslərin sistem xarakteristikası onların məzmunu ilə yanaşı, iyerarxiya halında qurulmasından, sistemlilik təbiətindən irəli gəlir. Müxtəlif səviyyəli idarəetmə prosesləri, başqa cür desək, iqtisadiyyatın müxtəlif idarəetmə səviyyəli prosesləri bir-birilə əlaqədə olmaqla yanaşı, həm də məzmunca fərqlənir. Bunu biz aşağıdakı cədvəldən görə bilərik.

**Cədvəl 2. Müxtəlif səviyyəli idarəetmə proseslərinin qısa səciyyəsi**

| Ölkə iqtisadiyyatı səviyyəli proseslərin məzmunu | Sahələrarası proseslərin məzmunu | Sahə idarəetmə proseslərinin məzmunu | Ərazi idarəetmənin məzmunu | Müəssisə idarəetmə proseslərinin məzmunu |
|---|---|---|---|---|
| Ali və mərkəzi orqanların fəaliyyət orqanları | Sahələrarası, funksional or-qanların qar-şılıqlı təsiri prosesi | Əsas idarəetmə funksiyalarının ardıcıl icrası prosesi | Ərazi səviyyəli problemlərin həlli prosesləri | İstehsal mərhələləri üzrə idarəetmə prosesi |
| Sahələrarası və funksional idarəetmə prosesi | Sahələrarası orqanların qarşılıqlı təsirinin təşkili | İdarəetmə prosesinin məzmunca konkretləşdirilməsi | Regional kom-pleks planlaşdırılması prosesi. | Bilavasitə istehsalın təşkili prosesi. |
| Ölkə iqtisadiyyatı səviyyəli proseslərin istiqamətləri | Sahələrin sahələrarası koordinasiya edilməsi prosesi | İdarəetmə prosesinin təşkili | Yerli orqanlarda sahə orqanlarının fəaliyyətinin qarşılıqlı | Müəsisənin idarəedilməsi prosesi. |

| | | | | |
|---|---|---|---|---|
| | | | təsiri pro-sesi | |
| Ölkə iqtisadiyyatı ayrı-ayrı proseslərinin məzmunu | Sahələrarası kom-plekslərin idarə edilməsi prosesi | Kompleks ida-rəetmə və plan-laşdırma işlərin-in təşkili prosesi | | Maddi və digər resurs-ların idarə edilməsi |
| Kompleks proqram-ların for-malaşması və problem-lərin həlli prosesi. | | | | Oprerativ istehsal idarəedilməsi, operativ təqvim |

İdarəetmə proseslərini məzmunca aşağıdakı kimi (cədvəl 3) təsnifat-landırmaq olar:

**Cədvəl 3. İdarəetmə proseslərinin məzmunu**

| Texniki məzmunu | İstehsal məzmunu | İqtisadi məzmunu | Sosial məzmunu |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Texniki-texnoloji proseslərin idarə edilməsi | İstehsal sa-hələrinin və müəssənin istehsal fəaliyyətinin təşkil edilməsi | Əsas və dö-vriyyə fondlarının, işçi qüvvəsinin idarə edilməsi prosesi | Müəssisədaxili münasibətlərin idarə edilməsi prosesi |
| Texniki sistemlərin idarə edilməsi | Müəssədaxili idarəetmə tsiklinin ardıcıl təmin edilməsi | İqtisadi münasibətlərin idarəedilməsi prosesi | Əməyə yeni münasibətin tərbiyə edilməsi prosesi |
| Texniki-texnoloji | Operativ idarəetmənin | Təsərrüfat əlaqələrinin | Qrup daxili və qruplararası |

| | | | |
|---|---|---|---|
| proseslərin intensivliyinin təmin edilməsi | təşkili | idarəedilməsi prosesi | sosioloji-psixoloji münasibətlərin tənzim edilməsi prosesləri |

Ölkə səviyyəsində idarəetmə prosesinin təşkili, birinci növbədə dövlət orqanlarının, ali idarəedici, sərəncamverici oraqanlarla onlara tabe olan funksional sahələrarası və sahə orqanları, habelə ərazi orqanları arasındakı qarşılıqlı əlaqənin və təsirin təmin edilməsini nəzərdə tutur. Burada sahələrarası funksional orqanlar sistemi daxilində, sahələrarası orqanlarla funksional orqanların öz arasında sahə orqanları ilə ərazi orqanları arasındakı qarşılıqlı təsirin öyrənilməsi də mühüm əhəmiyyətə malikdir. Bu tipli qarşılıqlı təsiretmə prosesi idarəetmənin təşkili quruluşundan xeyli dərəcədə asılıdır. Müasir dövrdə ümumdövlət orqanları, sahə və ərazi orqanları arasındakı qarşılıqlı təsirin daha da təkmilləşdirilməsi zəruridir. Sahələrarası idarəetmə idarəetmənin xüsusi bir növü olmaq etibarilə qarşısına aşağıdakı vəzifələri qoyur: iqtisadiyyatın inkişaf sürəti və proporsiyasının əlaqələndirilməsi, istehsalın maddi, əmək və maliyyə resursları ilə uzlaşdırılması; məhsul istehsalının onlara olan tələbatla əlaqələndirilməsi, idarəetməyə elm və texniki nailiyyətlərin təbiq edilməsi, planlaşdırma, uçot, təhlil və nəzarətin, habelə iqtisadi normativlərin əlaqələndirilməsi.

Dövlətin ayrı-ayrı sahələrinin idarə edilməsi problemlərinin həlli xeyli dərəcədə bu sahədə sahə nazirliklərinin də fəal iştirakını tələb edir. Ona görə də sahə nazirlikləri arasında da elmi-texniki tərəqqi, planlaşdırma və s. məsələlər üzrə qarşılıqlı təsir mövcuddur. Bu qarşılıqlı təsir istehsal sahələri bir-birilə əlaqədar olan, bir-birinin fəaliyyətini tamamlayan sahələrdə daha çox olur.

Ərazi idarəetmə proseslərinin təşkili həmin ərazinin sosial-iqtisadi inkişafının kompleksliliyinin təmin edilməsi, təbii və əmək resurslarından səmərəli istifadə olunması ilə əlaqədar olaraq yerli idarəetmə orqanlarının, icmaların fəaliyyətinin ümumrespublika idarəetmə və təsərrüfatçılıq orqanlarının fəaliyyəti ilə düzgün əlaqələndirilməsini tələb edir.

**İdarəetmə funksiyaları və onun təsnifatı**

İdarəetmə funksiyası idarəetmənin fəaliyyət dairəsi növləri ilə əlaqə-

dardır. İdarəetmə funksiyası obyektiv məqsəd və nəticələrin ümumiliyi ilə xarakterizə olunur ki, bu da göstərdiyimiz kimi, funksional əmək bölgüsündən irəli gəlir. Buna uyğun olaraq idarə aparatı təşkil olunur. Onun hər bir bölməsi və hər bir işçisi müəyyən funksiyaların içrası üzrə ixtisaslaşırlar. İnzibati-təsərrüfat fəaliyyətinin səmərəliliyi xeyli dərəcədə idarəetmə funksiyalarının hansı səviyyədə yerinə yetirilməsindən asılıdır.

İdarəetmə funksiyaları öz məzmununu, struktur və təzahür formalarına görə müxtəlif mənalarda işlənilir. Elmi ədəbiyyatda ***«funksiya»*** anlayışı bir neçə mənada - «idarəetmə orqanlarının funksiyası», «dövlət funksiyası», «idarəetmə funksiyası», «dövlət orqanlarının funksiyası» və s. işlənir. Bundan başqa «funksiya» anlayışı müxtəlif məzmunda hər hansı bir təşkilat və prosesin rolu, təyinatı, iş, vəzifə və s. mənalarda da işlənilir. Tədqiqatçılar funksiya dedikdə, həm də idarəedici, sərəncamverici, idarə, dövlət orqanının fəaliyyətini nəzərdə tuturlar. «Funksiya» anlayışı hər hansı bir prosesin məzmunu və xarakterindən asılı olaraq müəyyən məna kəsb edir. Ona görə də bu anlayış bəzən «prinsip», «hüquq», «səlahiyyət», «fəaliyyət», «əməliyyat», «rəhbərlik» mənalarında işlənir. Beləliklə, «funksiyanın» tətbiqi sahəsi istər-istəməz onun məzmununa təsir göstərmiş olur. Bəzi müəlliflər «funksiya» anlayışını bir az da konkretləşdirirlər. Məsələn, A.S.Petrov sahə idarəetmə sistemində üç növ funksiyanın - təşkiletmə, istehsalat-təsərrüfat və idarəetmə funksiyalarının mövcudluğunu göstərir. lakin yaddan çıxarmaq olmaz ki, əvvəlki iki funksiyalar da idarəetmə funksiyasının tərkib hissəsidir. Ona görə də «idarəetmə funksiyasını» onlardan təcrid olunmuş halda, ayrıca bir funksiya kimi göstərmək metodoloji cəhətdən düzgün deyildir. Çünki «idarəetmə funksiyası» anlayışının özü idarəetmə və idarəolunan sistemlərin bütün funksiyalar məcmusunu əhatə edir [Şabanov Z.M. Cəmiyyətin idarə olunmasında sosial idrakın spesifikliyi/Fəls. dok diss. Bakı, 2004,s. 34].

İdarəetmənin həmçinin bir növ ixtisaslaşmış funksiyaları da vardır: istehsala texniki rəhbərlik, maddi-texniki təchizat və s.

İdarəetmə fəaliyyətinin növləri obyektiv bir prosesdir. O, özbaşına meydana çıxmır. Bu, cəmiyyətin ayrı-ayrı dövrlərdəki inkişaf xüsusiyyətlərindən, idarəedilən sistemin ictimai istehsalın bir obyekt olmaq etibarilə öz məzmunundan və onun qarşısında qoyulan vəzifələrdən irəli gəlir. Ona görə də ictimai istehsal proseslərini idarə etmək, qaydaya salmaq, vəzifələrini yerinə yetirmək üsulları və vasitələrinin məcmusu idarəetmə funksiyası adlanır. Həmin funksiyalar müəyyən təşkilati formada həyata keçirilir. Bunun üçün hər bir müəssisə və təşkilatda, yuxarı idarəetmə pillələrində idarəetmə aparatları yaradılır. Onların struktur bölmələrindən hər biri spesifik idarəet-

mə vəzifələrini icra etmək üçün ixtisaslaşır, ümumi, iqtisadi, texnoloji və s. istiqamətlərdən rəhbərliyi həyata keçirirlər.

İdarəetmə funksiyaları idarəetmə fəaliyyəti, konkret idarəetmə orqanının vəzifələri, mürəkkəb münasibətlər sistemi, fəaliyyətin məzmunu (sosial-iqtisadi) ilə də əlaqədardır. İdarəetmə funksiyaları idarəetmə fəaliyyətinin xüsusi növüdür, idarəetmə sahəsində əmək bölgüsünün təzahür formasıdır.

İdarəetmə funksiyaları müxtəlif ədəbiyyatlarda müxtəlif formalarda təsnifata ayrılır. Lakin ən əlverişli təsnifat aşağıdakıları hesab etmək olar: birincisi, idarəetmə proseslərinin məzmununu əks etdirən funksiyalar qrupu; ikincisi, icra olunan işin məzmununu əks etdirən funksiyalar qrupu; üçüncüsü, fəaliyyətin məzmununu əks etdirən funksiyalar qrupu [Quliyev T. İdarəetmənin əsasları.Bakı,2009, s.78].

İdarəetmə prosesini əks etdirən funksiyalar qrupu məzmununa görə müəyyən mərhələlərə, tsiklə və fazalara bölünür. Bu baxımdan idarəetmə funksiyası universal, yaxud əsas (ümumi) funksiyalardan ibarətdir. Universal funksiyalara planlaşdırma, təşkiletmə, tənzimetmə, koordinasiya (əlaqələndirmə), operativ rəhbərlik, nəzarət və uçot funksiyaları aiddir.

Bəzi ədəbiyyatlarda informasiyanın toplanması, qərarların qəbul edilməsini müstəqil funksiya kimi də qiymətləndirirlər. Əlbəttə, idarəetmə prosesində informasiya və qərarların hazırlanması müstəsna rola malikdir. Lakin informasiya və qərar mövcud funksiyaların hamısında iştirak edir. Məsələn, istər tənzimetmədə, istərsə də planlaşdırma və təşkiletmədə informasiyasız, qərar olmadan keçinmək olmaz. Ona görə də informasiyanın işlənməsi və qərarların hazırlanmasını müstəqil funksiya adlandlırmaq olmaz [Афанасьев В.Г. Научное управление обществом. М.: Политиздат, 2003].

İcra olunan işlərin məzmununa görə idarəetmə funksiyaları da müxtəlif olur. Belə ki, onlar istehsal sisteminin inkişafı ilə əlaqədar, ümumi funksiyalara, idarəetmənin xüsusi funksiyalarına və köməkçi funksiyalara ayrılırlar. Məlumdur ki, istehsal prosesi bir sıra ünsürlərin birləşməsindən və onların qarşılıqlı təsirindən ibarətdir. Ona görə də idarəetmə funksiyaları istehsal proseslərinin ünsürlərini və paramertlərini əks etdirməli, həm də bu funksiyalar inteqrativ xassələrdən başqa müəyyən iş prosesləri üzrə ixtisaslaşmalıdır.

İdarəetmə funksiyaları müəyyən fəaliyyəti ifadə edir. Bu cəhətdən idarəetmə funksiyaları ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif formalarda təsnifata ayrılır. Məsələn, Q.E.Şlezinqer burada inzibati, texniki, istehsal, iqtisadi və təsərrüfatçsılıq funksiyalarını irəli sürür. Əslində isə bu təsnifat

şərtidir. Məsələn, istehsal funksiyası iqtisadi, iqtisadi funksiya isə təsərrüfat funksiyası ilə bağlıdır [Atakişiyev M.S., Süleymanov Q.S. İnnovasiya menecmenti. Bakı: Təfəkkür, 2004, s13].

İdarəetməyə və iqtisadi məsələlərə həsr edilmiş ədəbiyyatlarda başqa təsnifat da vardır. O.M.Bobrov idarəetmə funksiyalarını belə təsnif edir: istehsalın mərhələləri üzrə; icra olunan işlərin məzmununa görə; məhsuldar və qeyri-məhsuldar əmək baxımından; funksional əlamətlərə görə. Q.X.Popov idarəetmə funksiyalarını üç böyük qrupa və onların tərkib hissələrinə ayırır:

1. İdarəetmə funksiyalarının idarəetmə obyekti baxımından təsnifatı: a) sənayenin sahələr və yarımsahələr üzrə strukturu; b) istehsalın səviyyəsinə görə; c) istehsal prosesinin mərhələləri üzrə; d) istehsal prosesinin ünsürləri və parametrləri üzrə.

2. İstehsal prosesinin idarəedilməsi xüsusiyyətlərini əks etdirən funksiyalar: a) idarəetmə mərhələlərini əks etdirən funksiyalar; b) idarəetmə subyektinin strukturunu əks etdirən funksiyalar.

3. İdarəetmənin rəhbərlik və ixtisaslaşmış funksiyaları. Burada rəhbərlik funksiyası dedikdə sintez və inteqrasiya səpkili idarəetmə fəaliyyəti başa düşülür [Quliyev T. İdarəetmənin əsasları.Bakı,2009, s.91].

İdarəetmənin funksiyaları başqa bir səpkidə də öyrənilir. Məsələn, A.A.Qodunov idarəetmə funksiyalarını iki yerə ayırır: a) idarəetmə sisteminin təşkili funksiyası; b) istehsal proseslərinin idarəedilməsi funksiyası. O, istehsal proseslərinin idarəedilməsi funksiyasına istehsal-iqtisadi, sosial-siyası funksiyaları aid edir. Lakin yuxarıda göstərilən təsnifatların müəyyən elmi cəhəti ilə yanaşı, bir sıra çatışmazlıqları da vardır. Belə ki, istehsal prosesinin idarəedilməsinin məzmunu və əmək bölgüsünün xarakterinə görə həmin təsnifatlara müəyyən dərəcədə tənqidi yanaşmaq lazımdır. Məsələn, burada texniki rəhbərlik funksiyasını xüsulə qeyd etmək lazımdır. Texniki rəhbərlik funksiyası müəssisəni texniki xidmət fəaliyyəti ilə əlaqədar olduğuna görə onun özü bir sıra yarımfunksiyalar sistemini əhatə edir. Bunu eyni ilə istehsal rəhbərliyi funksiyası haqqında da demək olar. Bu özü də isehsalın və əməyin elmi təşkili, operativ istehsalda planlaşdırmanı, dispetçerləşməni, müxtəlif istehsal vahidlərinin fəaliyyətinin kooperasiyasını və s. təmin edən müxtəlif tipli fəaliyyət növündən ibarətdir. Belə bir inteqrativ xassəyə iqtisadi rəhbərlik fuknsiyasını (Baş İqtisadçı) da aid etmək olar. Bu, müəssisələrin iqtisadi fəaliyyəti, elmi-texniki tərəqqi, planlaşdırma, maliyyələşdirmə, uçot və təhlil, iqtisadi hesablamalar və s. ilə əlaqədar olan idarəetmə fəaliyyətini əhatə edir, xeyli dərəcədə nəinki funksional, həmçinin peşə,əmək bölgüsü ilə əlaqədardır. Çünki funksonal əmək bölgüsü əsa-

sında sənaye-istehsal heyətinin müəyyən funksional qruplara (mühəndis-texniki işçilər, qulluqçular, fəhlələr və s.) bölünməsi ilə məhdudlaşmır. Funksonal əmək bölgüsü həmin qruplar daxilində icra olunan işlərin xarakteri, həcmi və mürəkkəbliyinə görə də fərqlənirlər. Bundan başqa idarəetmə aparatı işçiləri aşağıdakı funksional qruplara ayrılır: rəhbər işçilər, mütəxəssislər və texniki işçilər [Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment.Bakı: Təhsil, 2005, s. 98].

Qrup idarəetmə funksiyaları, habelə qrupdaxili hər bir funksiya müəyyən müstəqil məzmuna malikdir. Məsələn, idarəetmə funksiyalarının idarəetmə obyekti baxımından təsnifatında iqtisadiyyatın sətrukturunu əks etdirən funksiyaların özü idarəetmə fəaliyyətinin ixtisaslaşması üçün geniş əhatəli məsələlərlə bağlıdır. Burada deyək ki, sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, tikintinin, səhiyyənin, təhsilin, mədəniyyətin, elmin və s. idarə edilməsinin xüsusi məzmunlu funksiyaları meydana çıxır. İdarəetmə mərhələlərini əks etdirən funksiyalara aşağıdakı idarəedici təsir qaydası daxildir: uzaqgörənlik, təşkiletmə, sərəncam, əlaqələndirmə və nəzarət.

**Uzaqgörənlik.** Uzaqgörənlik mühüm qneseoloji və metodoloji problemdir. Elmi uzaqgörənliyin qneseoloji cəhəti onun obyektiv əsaslarının, həqiqiliyin, dəqiqliyinin və düzgünlüyünün əsaslarının araşdırılması ilə bağlıdır. Uzaqgörənlilik hər bir elmi səviyyəli fəaliyyətin başlıca funksiyası və meyarıdır. Bu, birinci növbədə mövcud anlayışların dəqiqləşdirilməsi, biliklərin təkmilləşdirilməsi və inkişafı dərketmə, təsviretmə, ekstrapolyativ proqnozlaşdırma, elmi hipotezalar və fərziyyələr, məqsəd və təşkiletmə ilə əlaqədardır. Uzaqgörənlilik bütövlükdə insan şüurunun, insan təfəkkürünün - insanın əqli qabiliyyətinin səviyyəsini, hadisələrin dərk edilməsinin, neqativ nəticələrin əvvəlcədən qabaqlanmasını göstərir. Bu isə asanlıqla olmur, mövcud vəziyyətlərin, hadisələrin, proseslərin və qanunauyğunluqların analitk və sintetik təhlili əsasında baş verir. Hələlik mövcud və məlum olmayan proses və hadisələr haqqında dəqiq fikir yürütmək üçün əsas verir. Əlbəttə, uzaqgörənlik böyük tədqiqat işləri, intuitiv, mücərrəd təfəkkürlə, məntiqi mühakimələrlə, dərin müşahidə qabiliyyəti, riyazi hesablamalarla və əlavə informasiyalarla da bağlıdır. Elmi izahetmə elmi uzaqgörənliyin əsasını təşkil edir, izahetmənin dəqiqliyi olmadan gələcəyin elmi proqnozunu vermək olmaz. Hadisələrin, proseslərin dəqiqliyi, adekvatlığı və tamlığı isə xeyli dərəcədə elmi, nəzəri biliklər sisteminin inkişaf səviyyəsindən asılıdır.

Bəzi müəlliflər idarəetmə mərhələsini əks etdirən funksiyalara daha geniş mövqedən yanaşır, onu aşağıdakı üç mərhələyə bölürlər:

-İlkin idarəetmə mərhələsi (məqsədyönlülük, proqnozlaşdırma, plan-

laşdırma)

-Operativ idarəetmə, təşkiletmə, koordinasiya, sərəncam, motivlər

-Son idarəetmə mərhələsi (uçot, təhlil, nəzarət) [Əliyev T.Ə. Menecment. Bakı, 1998, s. 97].

İdarəetmənin ilkin mərhələsi müəyyən məqsəd, plan və proqnozla başlayır və əsasən, 3 cəhəti əhatə edir:

-Perspektiv inkişafı müəyən etmək.

-Qarşıya qoyulmuş məqsədlərə nail olmanın yolları və metodlarını müəyyənləşdirmək.

-Tədbirlərin həyata keçirilməsinin nəticələrini əvvəlcədən görmək, beləliklə də hadisələrə sistem halında yanaşmaq [Məmmədov S., Abutalıbov R. və b. İdarəetmənin əsasları. Bakı: Nurlar MM,2009, s.144].

Göründüyü kimi, burada idarəetmə proseslərinin universal və digər funksiyaları bir təsnifat halında verilmişdir və bunlar heç də, sözün əsl mənasında, idarəetmə mərhələlərinin tam ardıcıllığını ifadə etmir.

**Planlaşdırma.** Planlaşdırma idarəetmənin başlıca funksiyasıdır. Hər bir istehsal prosesi və istehsal vəzifələri əmək proseslərinin əmək alətləri, bütövlükdə, xalq təsərrüfatının inkişaf meyllərində müəyyən proporsiyaların gözlənilməsini tələb edir. Planlaşdırma əslində bir fəaliyyət növü olmaqla, idarəetmə prosesinin başlıca cəhəti və fəal idarəetmə prosesidir. Bu idarəetmə (idarəedici) təsiri nəticəsində nəticə etibarilə istehsalın inkişaf sürəti, bu artımın mənbələri, amilləri, bütün xalq təsərrüfatı orqanizminin, kompleksinin təşkili formaları və metodları formalaşır. İctimai istehsal proseslərinin həyata keçirilməsinin «tələbat-resurs-vəzifə-funksiya-qərar» sistemində planlaşdırma başlıca rola malikdir. Planlaşdırma işləri və prosesləri idarəetmənin bütün ierarxiya mərhələlərində - Dövlət rəhbərliyindən tutmuş yerli idarəetmə orqanlarına, təsərrüfat subyektlərinə qədər olan vəsilələrdə həyata keçirilir. Ona görə də planlaşdırma prosesləri xalq təsərrüfatının bütün idarəetmə mərhələlərində eyni dərəcədə elmi səviyyədə həyata keçirilməlidir. Bundan başqa illik və uzunmüddətli planlar bir-birini əvvəldən müəyyən olunmuş idarəetmə məqsədləri əsas götürülməklə əlaqələndirilməlidir. Burada düzgün proqnozlaşdırma, modelləşdirmə və proqramlaşdırma böyük əhəmiyyətə malikdir. Çünki elmi idarəetmə istehsal sahələrinin inkişaf meyllərinin, qanunauyğunluqlarını görməyi tələb edir. Bu zaman proqnozlaşdırma planlaşdırmanın bir funksiyası kimi mühüm əhəmiyyətə malikdir. Ona görə də sosial-iqtisadi inkişaf planlarının işlənib hazırlanmasında, elmi-texniki tərəqqinin planlaşdırılmasında proqnozlaşdırma metodlarından geniş istifadə edilməsi zəruridir [Атаманчук Г. В. Общая теория управления. М.: 1994, с.55].

İstər proqnozlaşdırma, istərsə də modelləşdirmə idarəetmə sistemlərinin uzunmüddətli inkişaf perspektivilə bağlıdır. Proqramlaşdırma isə plan-proqnoz və plan-modellər əsasında sosial-iqtisadi sistemlərin daimi olaraq bir vəziyyətdən digər vəziyyətə keçirilməsilə əlaqədardır. Deməli, plan özü də sosial-iqtisadi sistem çərçivəsində proqramlaşdırılır. Plan, proqramlaşdırma sayəsində plan proqram xassəsi və forması alır [Афанасьев В.Г. Научное управление обществом. М.: Политиздат, 2003, с.283].

Çünki proqramla planda sosial-iqtisadi sistemlərin bütün tərəfləri məqsədəuyğun halda əsaslandırılır və burada həmin sistemin kompleks qaydalı inkişafı müəyyən edilir. Proqramlı plan istər illik, istərsə də çoxillik plan forması üçün əsas şərtdir və uzunmüddətli planların yerinə yetirilməsində mühüm rol oynayır. Burada proqnozlaşdırma və modelləşdirmə planların təşkil oluması, tətbiq edilməsinin təşkilati əsasını müəyyən edir.

S.Batçikov və Y. Qlazyev idarəetmə zamanı planlaşdırma dövrünün mərhələləri belə müəyyən edirlər: 1. Məqsədin təyini; 2. İmkanların tədqiqi; 3. Alternativlərin müəyyən edilməsi və qarışdırılması; 4. Ən uyğun variantın təyini; 5. Plan hədəflərinin təyini; 6. Planın yoxlanılması. Onların fikrincə, planın növlərinə aiddir: 1. Əhatəsinə, təşkilati ierarxiya içərisindəki yerinə görə: strateji, taktiki, əməliyyat planları. 2. Müddətinə görə: uzun, orta, qısa dövrlü planları. 3. Müəssisədə istifadəsinə görə: tək istifadəlik (proqram, proyekt, büdcə) və davamlı planlar (siyasət, proses və qayda). 4. Mövzularına görə: ümumi planlar və xüsusi planlar. 5. Forma cəhətinə görə (yazılı, yazısız) [Батчиков С. А. и Глазьев Ю. С. Эффективность государственного управления. М., 1998].

**Təşkiletmə.** İdarəetmənin funksiyaları arasında təşkiletmə funksiyası xüsusilə diqqəti cəlb edir. Təşkiletmə bütövlükdə idarəedən və idarəolunan sistemlərarası, sistemlərdaxili münasibətlərin, əlaqələrin və proseslərin təşkili sistemidir. Bu funksiya müəssisənin fəaliyyət proseslərinin həyata keçirilməsi istiqamətlərinin təşkilində mühüm rol oynayır. Təşkiletmənin vəzifəsi müəssisədə ayrı-ayrı fəaliyyət növlərinə, şəxslərə və maddi vasitələrə münasibətlərin elə formalaşdırılmasından ibarətdir ki, burada qarşıya qoyulmuş məqsədlərə çatmaq ən az xərclə mümkün olsun. Təşkiletmə bir müəssisənin məqsədlərinə çata bilməsi üçün zəruri işlərin təyin olunması və qruplaşdırılması, işləri yerinə yetirəcək şəxslərin səlahiyyət və məsuliyyət əlaqələrinin təyin olunması, məhsuldar bir fəaliyyət mühiti yaradılması üçün zəruri fiziki mühitin hazırlanması prosesidir.

Təşkiletmə dövrünün mərhələləri aşağıdakılardır:

-Plan və məqsədlərin tədqiqi

-Məqsədlərə aparan fəaliyyətlərin təyini

-Fəaliyyətlərin qruplaşdırılması

-Fəaliyyətləri həyata keçirəcək işçi qüvvəsinin təyin olunması

-Vəzifə və məsuliyyətlərin təşkil edilməsi

-Yer, texnika və metodların təyin olunması. [Гончаров В.В. В поисках совершенного управления: Руководство для высшего управленческого персонала. Опыт лучших промышленных фирм США, Японии и стран Западной Европы.М.: МП "Сувенир", БГ. 2003, с.128]

**Əlaqələndirmə** funksiyası bütöv bir tamın ayrı-ayrı komponentlərinin əlaqəli fəaliyyəti, qarşılıqlı təsiri və onun bir sistem kimi dinamik, tarazlı inkişafını təmin edir.

**Nəzarətetmə** idarəolunan sistemlərin fəaliyyətini qaydaya salmaq üçün mühüm əhəmiyyətə malikdir. Nəzarətin başlıca məqsədi qərarların qəbulu ilə icrası arasındakı, əlaqəni təmin etməkdən, ayrı-ayrı nöqsanları aradan qaldırmaqdan ibarətdir. Nəzarət müəssisənin məqsədinə çatması üçün bütün resurslara nəzarət edilməsiidir. Nəzarət prosesi müəssisənin təyin etdiyi standartlardan qaçmamağı araşdıran və bu kənarlaşmaları azaltmağı və ya ortadan qaldırmağı məqsəd qoyan bir prosesdir. İdarəedicilər nəzarət funksiyasını gerçəkləşdirərkən 4 mərhələ qət edirlər:

-Standartların müəyyən edilməsi.

-Performansın ölçülməsi.

-Performansların standartlarla qarşılaşdırılması.

-Fəaliyyətə keçmək. [Гурней Б. Введение в науку управления.Прогресс, Москва, 1999]

Nəzarətin mülkiyyət formalarına görə növləri aşağıdakılardır: şəxsi nəzarət, dövlət nəzarəti, ictimai nəzarət.

Həyata keçirilmə vaxtına görə nəzarət aşağıdakılara bölünür: ilkin nəzarət, cari nəzarət, sonradan nəzarət.

Təsirli nəzarət sistemində olması vacib olan xüsusiyyətlər aşağıdakılardır:

-Arzulanan məqsədlərlə əlaqəli olmaq

-Obyektivlik

-Tam zamanlılıq

-Qəbul ediləbilənlik [Quliyev T. İdarəetmənin əsasları.Bakı,2009, s.102].

Nəzarət kəmiyyət və keyfiyyət metodlarına bölünür. Keyfiyyətə nəzarət dedikdə aşağıdakı xüsusiyyətlər nəzərə alınır: etibarlılıq, texnoloji göstərici, ekonomik göstərici, standartlaşdırma, patent-hüquq, iqtisadi göstəricilər.

**Tənzimetmə** funksiyasında başlıca məsələ idarəetmə prosesinin, idarəetmə fəaliyyətinin normativlərindən kənarlaşma hallarının aradan qaldırılmasıdır.

İdarəetmədə operativ rəhbərlik ilk növbədə, təşkiletmə, əlaqələndirmə, sərəncamedici və s. qaydada həyata keçirilir.

**İdarəetmənin ümumi və xüsusi metodları.**

İdarəetmə münasibətlərinin təhlili öncə olaraq idarəetmənin bir sıra metodoloji məsələlərinin işlənib hazırlanmasını tələb edir. ***Metod*** dərketmə yolu və tədqiqat vasitəsidir. ***Metod*** yunan sözü olub üsul, vasitə deməkdir. Obyekti dərk etmək üçün ayrı-ayrı insanların, qrupların praktiki və nəzəri fəaliyyət bacarığı, hərəkət tərzidir. Metodun əsasını elmi nəzəriyyə təşkil edir. Elmi nəzəriyyə olmadan seçilmiş hər-hansı bir metod lazımi səmərə verə bilməz. Metodun özü də müəyyən bir metodologiyaya, elmi dünyagörüşünə əsaslanmalıdır. Metodologiya intellektual bir vasitədir. Müəyyən metodlar sisteminə əsaslanmadan idarəetmə münasibətləri, habelə müəssisə və cəmiyyətdə baş verən sosial-iqtisadi proseslər haqqında dəqiq, elmi fikir yürütmək olmaz. Başqa elmi sahələr kimi idarəetmə elminin də istifadə etdiyi metodlar da çoxcəhətlidir. Lakin, bununla yanaşı idarəetmə sahəsində istifadə olunan metodları iki yerə - ümumi və xüsusi metodlar sisteminə ayırmaq olar. Ümumi metodlar bütün elmlər tərəfindən - istər tibbi, istərsə də ictimai elmlər olsun - istifadə olunan metodlardır, bunu universal metodlar qrupu da adlanldırmaq olar. Bu ümumilik metodu elmi biliklərin və ictimai həyatın bütün sahələrinə tətbiq edilir. Lakin, bu eynilik həmin metoddan konkret hadisə və proseslərin öyrənilməsindəki xüsusiyyətləri heç də inkar etmir. Belə ümumi metodlar həmçinin, məntiqi metodlar qrupu da adlanır. Ümumi metodlara kompleks halında yanaşma metodunu, sosial qruplararası mövqeyindən yanaşma metodunu, optimallaşdırma metodunu, müşahidə, təhlil, ümumiləşdirmə, tarixi yanaşma, deduksiya və induksiya, mücərrəd təfəkkür metodunu aid etmək olar [Quliyeva Ş.T. İdarəetmə psixologiyasi və sosiologiyasi.Bakı:İqtisad Universiteti, 2018, s.173].

İdarəetmə məsələlərinə sistem halında yanaşmaqla əlaqədar olaraq son vaxtlar elmi məqalə və kitablarda müxtəlif ifadələr işlədilir. Məsələn, «sistem», «sistemlilik», «sistem halında yanaşma», «sistemli təhlil», «ümumi sistem nəzəriyyəsi» və s. Əvvəllər sistemlilik anlayışı bütöv, vəhdət, kombinə edilmiş, kompleks yanaşma sözləri kimi işlənilirdi. Lakin bunu heç də idarəetmə sistemində meydana gələn terminlər dəbi kimi qiymətləndirmək düzgün olmazdı. Bu ifadələr arxasında obyektiv proseslərin baş

məzmunu gizlənir və bu, obyektiv dünyanın mühüm parametri, real həqiqətin yüksək səviyyədə dərk edilməsi, müəyyən edilməsi, məntiqi qaydada ölçülməsi üçün əsas verir. «Sistemliliyin» özü də çoxcəhətli, çoxplanlıdır. Bu anlayışın metodoloji, tətbiqi, dünyagörüşü və s. səpkili cəhətləri vardır.

Sistem halında yanaşma idarəetmənin məqsədlərinin, funksiyalarının, metodlarının tam vəhdət halında qarşılıqlı olaraq əlaqələndirilməsini nəzərdə tutur. Kompleks halında yanaşma isə idarəetmənin təşkilati-texniki və sosial-iqtisadi aspektlərinin vəhdətliyinin təmin edilməsidir. Ona görə də burada yalnız idarəetmə elminin deyil, başqa elmlərin də, məsələn, siyasi-iqtisadın, statistikanın, əməyin iqtisadiyyatının, psixologiyanın, fəlsəfənin və s. müddəalarından da istifadə edilir. Sistem halında yanaşmada iqtisadi sistemlərdə baş verən və davam edən proseslərin kəmiyyət-keyfiyyət qanunauyğunluqları öyrənilir. Burada iqtisadi kibernetikanın, riyazi və iqtisadi modelləşdirmənin, xətti dinamik proqramlaşdırma və nəzəri statistikanın metodlarından geniş istifadə olunur. Kompleks, sistem halında yanaşmanı yalnız metod deyil, prinsip də adlandırmaq olar. Çünki idarəetmə prosesində idarəetmə obyektinin bütöv vəhdət halında öyrənilməsi bütün mühüm amillərin, idarəetmə ünsürlərinin nəzərə alınmasını tələb edir. Bu o deməkdir ki, təsərrüfat rəhbəri konkret vəziyyəti yalnız bütün prosesləri əlaqəli şəkildə öyrəndiyi tərzdə düzgün qiymətləndirə və optimal qərar qəbul edə bilər. Bu hər hansı qərarların qəbul edilməsində birtərəfli yanaşma meyillərinin aradan qaldırılması üçün başlıca təminatdır [Şabanov Z. İdarəetmə təfəkkürü: tarix və müasirlik.Bakı, Təhsil işçisi, 2010, s.128]

Sistemlilik prinsipi ümumi halda götürüldükdə obyektiv həqiqətin sistem bütövlüyü və onların daxilindəki ünsürlərin qarşılıqlı təsiri mexanizmindən ibarətdir. Bu, reallığın xüsusi qnoseoloji prizmasını, ölçüsünü müəyyən edir. Başqa sözlə, burada bir-birilə qarşılıqlı əlaqədə olan ünsürlərin çoxluğu və vəhdətliyi nəzərdə tutulur. Bu ünsürlər çoxluğu bütöv bir möhkəm sistemi əmələ gətirməklə, aralarında inteqral xassəli qanunauyğunluqlar yaradır. Ona görə də iqtisadi və digər sistemləri tədqiq edən zaman ən başlıca məsələ ünsürlərin yenidən sistemə çevrilməsinə səbəb olan determinantları aşkara çıxarmaq və müəyyən etmək lazımdır. Burada həmçinin sistemlərdə spesifik əlaqələrin, əsasların və münasibətlərin aşkar edilməsi, onların keyfiyyətcə fərqli cəhətlərinin ayrılması, həmin sistemlərin strukturunun, fəaliyyət göstərməsinin və inkişaf etməsinin qanunauyğunluqlarının öyrənilməsi də mühüm əhəmiyyətə malikdir. Beləliklə, məsələ yalnız hadisələrə sistem halında yanaşmaqla bitmir. Ən başlıca məsələlərdən biri sistem münasibətlərinin özünün düzgün dərk edilməsidir. Çağdaş elm və təcrübənin sistemli ideyalara və prinsiplərə böyük ehtiyacı vardır. Sistemli bi-

lik digər dərketmə formaları içərisində mühüm yer tutur. Çünki sistemli münasibətləri sistemli bilik vasitəsilə dərk etmək olar. Sistemli bilik dərketmənin mühüm məntiqi formaları olan ayrıca ümumi, mahiyyət, hadisə və s. ilə əlaqədardır. Sistem halında yanaşmada bütün bunlar obyektin sistem özəlliyinin müəyyən edilməsi vəzifələrinə tabe etdirilir. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, sistemlilik heç zaman obyektlərin ayrı-ayrı cəhətlərinin ixtisaslaşmış halda öyrənilməsini inkar etmir. Ayrı-ayrı bilik formalarının vəhdətliyi sistemi biliklərin və faktların ümumi və xüsusi cəhətlərini dərindən dərk etməyə kömək edir. Bəzi alimlər Hegeldən fərqli olaraq mütləq ideyaları deyil, obyektiv reallığı və onun inkişaf qanunlarını əsas götürürdü. Bununla yanaşı Hegel hadisələri özü-özlüyündə izah etməklə yanaşı, onlara müəyyən qanunlara tabe olan bir sistem halında yanaşırdı. [Əliyev T.O. Menecment. Bakı, 1998, s.52]. Hadisələrin məcmu halda götürülməsi məcmu sistem keyfiyyətini verir. Hər hansı bir obyektin sistem halında öyrənilməsi müxtəlif formalarda həyata keçirilir:

-Hadisələrin, predmetlərin real əlaqələrinin aşkara çıxarılması formasında-burada hadisələrə təsir edən iki və ya bir çox amillərin mühüm əlaqələrinin müəyyən edilməsi mühüm əhəmiyyətə malikdir;

-Hadisələrin real ümumiliyinin, ümumi keyfiyyətinin aşkara çıxarılması. Burada hadisələrin və proseslərin eynicinsliliyi prinsipi mühüm rol oynayır;

-Hadisələr sistemin hərtərəfli öyrənilməsinə böyük imkanlar yaradır. Məcmu sistem keyfiyyətinin öyrənilməsi işində dəqiq elmi müddəaların böyük metodoloji əhəmiyyəti vardır.

İdarəetmənin ümumi, universal metodları ilə yanaşı, konkret elmi metodları da vardır. Buna müxtəlif informasiyaların toplanması, işlənib hazırlanması metodlarını, müxtəlif təhlil metodlarını, iqtisadi-nəzəri modelləşdirməni, ekspert qiymətləndirilməsi, anket sorğusu metodunu və s.-ləri aid etmək olar. Həmin metodlardan istifadə, ilk növbədə, idarəetmə kadrlarının mütəxəssis kimi hazırlıq səviyyəsindən, onların işə münasibətindən asılıdır.

**Nəticə**

Əslində idarəetmə sisteminin özündə makro və mikro sistemlər mövcuddur. İdarəetmə prosesləri idarəetmə orqanlarında cərəyan edən proseslərdir, funksional və sahə təsərrüfat orqanlarının qarşılıqlı təsirindən irəli gələn proseslərdir. Burada, ölkə iqtisadiyyatı miqyasında idarəetmə prosesləri makroproseslər, idarəetmə orqanları daxilində baş verən proseslər, hər bir işçinin fəaliyyəti mikroproseslərdir. Proseslərin makro və mikro proses-

lərə ayrılması başlıca olaraq idarəetmə ierarxiyası ilə əlaqədardır. Bu proseslər nəticə etibarilə mikroprosesləri, onun xarakterini müəyyən edir.

Makro və mikroproseslərin tənsifatı, onların məzmunu və xarakterinin öyrənilməsi öz-özünə məqsəd deyildir. Burada ən başlıca məqsəd həmin proseslər arasındakı qarşılıqlı əlaqənin və qarşılıqlı təsirin öyrənilməsidir. Bu baxımdan bu səviyyəli proseslərə uyğun gələn idarəetmə orqanları arasındakı bir-birinə qarşılıqlı təsirin öyrənilməsinin böyük əhəmiyyəti olması qeyd olundu.

İdarəetmə proseslərinin, idarəetmə orqanları ilə qarşılıqlı əlaqədə olması həmin proseslərə sistem halında yanaşılmağı tələb edir. Çünki proseslərin sistem xarakteristikası onların məzmunu ilə yanaşı, ierarxiya halında qurulmasından, sistemlilik təbiətindən irəli gəlir.

Ölkə səviyyəsində idarəetmə prosesinin təşkili, ilk növbədə dövlət orqanlarının, ali idarəedici, sərəncamverici oraqanlarla onlara tabe olan funksional sahələrarası və sahə orqanları, habelə ərazi orqanları arasındakı qarşılıqlı əlaqənin və təsirin təmin edilməsini nəzərdə tutur. Burada sahələrarası funksional orqanlar sistemi daxilində, sahələrarası orqanlarla funksional orqanların öz arasında, sahə orqanları ilə ərazi orqanları arasındakı qarşılıqlı təsirin öyrənilməsi də mühüm əhəmiyyətə malikdir.

**Ədəbiyyat**:


1. Abbasov Ə. F. Yeni metodoloji paradiqma. Bakı, Adiloğlu, 2003.
2. Abbasov Ə. F. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. Bakı, MBM MM, 2006.
3. Axundov M.Ə. Strateji idarəetmə. Bakı, 2001.
4. Atakişiyev M.S., Süleymanov Q.S. İnnovasiya menecmenti. Bakı: Təfəkkür, 2004.
5. Ələkbərov Ə., İbrahimov F. Menecment, Bakı, Çaşıoğlu, 2004.
6. Əliyev T.Ə. Menecment. Bakı, 1998.
7. Quliyev T.Q. İdarəetmənin əsasları. Bakı, Nagıl evi, 2001.
8. Quliyeva Ş.T. İdarəetmə psixologiyası və sosiologiyası. Bakı: İqtisad Universiteti, 2018.
9. Şabanov Z.M. Cəmiyyətin idarə olunmasında sosial idrakın spesifikliyi/ Fəls. dok diss. Bakı, 2004.
10. Şabanov Z.M. İdarəetmə təfəkkürü: tarix və müasirlik.Bakı: Təhsil işçisi, 2010.
11. Şahbazov K.A.,Məmmədov M.H., Həsənov H.S.Menecment. Dərslik.Bakı:Təhsil,2005.

12. Атаманчук Г. В. Общая теория управления. М.: 1994.
13. Афанасьев В.Г. Научное управление обществом. М.: Политиздат, 2003.
14. Батчиков С. А., Глазьев Ю. С. Эффективность государственного управления. М., 2009.
15. Вейлл Питер. Искусство менеджмента. Пер. с англ. М.: Новости, 2013.
16. Гончаров В.В. В поисках совершенного управления: Руководство для высшего управленческого персонала. Опыт лучших промышленных фирм США, Японии и стран Западной Европы.М.: МП "Сувенир", БГ. 2003.
17. Гурней Б. Введение в науку управления. Прогресс, Москва, 1999.

**References**:

18. Abbasov A. F. Yeni metodoloji paradiqma. Baki, Adiloglu, 2003.
19. Abbasov A. F. İdareetmenin sinergetik felsefesi: yeni dialoq namine. Baki, MBM MM, 2006.
20. Axundov M.A. Strateji idareetme. Baki, 2001.
21. Atakisiyev M.S., Suleymanov Q.S. İnnovasiya menecmenti. Baki: Tefekkur, 2004.
22. Alekberov A., İbrahimov F. Menecment. Baki, Casıoglu, 2004.
23. Aliyev T.E. Menecment. Baki, 1998.
24. Quliyev T.Q. İdareetmenin esaslari. Baki, Nagil evi, 2001.
25. Quliyeva S.T. İdareetme psixologiyasi və sosiologiyasi.Bakı:İqtisad Universiteti, 2018.
26. Sabanov Z.M. Cemiyyetin idare olunmasında sosial idrakın spesifikliyi/Fels. dok diss. Baki, 2004.
27. Sabanov Z.M. İdareetmə tefekkuru: tarix və muasirlik.Baki: Tehsil iscisi, 2010.
28. Sahbazov K.A., Memmedov M.H., Hesenov H.S.Menecment. Derslik.Baki:Tehsil,2005.
29. Atamanchuk Q.V. Obshaya teoriya upravleniya. M:1994.
30. Afanasyev V.Q. Nauchnoye upravleniye obshestvom. M: Politizdat, 2003.
31. Batchikov S.A., Qlazyev Y.S. Effektivnost qosudarstvennoqo upravleniya. M:2009.
32. Veyll Piter. İsskustvo menecmenta. Per. s anq. M:Novosti, 2013.

33. Qoncharov V.V. V poiskax sovershennoqo upravleniya: rukovodstvo dlya vıssheqo upravleneckoqo personala.Opit luchix promishlennix firm SSHA, Yaponii i stran Zapadnoy Evropi.M: MP Suvenir, BQ, 2003.
34. Qurney B. Vvedeniye v nauku upravleniya. Proqress, Moskva, 1999.

**UOT - 321**

**Mahrux Abbas**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
Müasir fəlsəfə problemləri şöbəsinin böyük elmi işçisi, fəl.f.d.
Azərbaycan, Bakı, H.Cavid pr-ti 115, AZ1073
Tel: (+99450)3381428
mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

# POSTSOVET ÖLKƏLƏRİNDƏ SİYASİ İNSTİTUTLARIN YENİDƏN ŞƏKİLLƏNMƏSİ

**Xülasə**

*Məqalənin məqsəd və vəzifələri.* Postsovet ölkələrdə siyasi institutların yenidən formalaşmasının araşdırılması sovet imperiyasının dağılmasından 30 ildən çox vaxt keçməsinə baxmayaraq aktual olaraq qalır. Xüsusən, Qərb araşdırmaçılar arasında bəzi mövzular qızğın müzakirə obyektidir. Məqalənin məqsədi postsovet ölkələrdə siyasi institutlaşmanı bütöv proses olaraq nəzərdən keçirmək, onun spesifik cəhətlərini üzə çıxarmaqdır.

*Mövzunun işlənmə dərəcəsi:* məqalənin sonunda təqdim olunmuş Ədəbiyyat siyahısı-na bax.

*Tədqiqat metodları və metodologiyası.* Məqalədə komparativ təhlil, tarixi və məntiqi yanaşmaların vəhdəti, sistem, fənlərarası və inteqrativ yanaşmalardan istifadə olunur.

*Tədqiqatın yeniliyi* problemin araşdırılmasından irəli gələn nəticələrlə bağlıdır. Post-sovet ölkələrdə siyasi institutların yenidən şəkillənməsi məsələsinə fərqli yanaşmalar müqayisə olunur və nəticə çıxarılır ki, bu prosesin əsas nəticəsi yeni, reallığa adekvat institutların formalaşmasından çox, onlar arasında tarazlığın formalaşmasıdır. Siyasi sistemlərin dayanıqlığını təmin edən də bu balansdır.

**Çıxarışlar**.

Mövzunun geniş spektrdə araşdırılması bəzi sualların artıq köhnəlməsindən xəbər verir. Misalçün, sovetlər imperiyasının çöküş səbəbi yox, bu prosesin mərhələli şəkildə necə baş verməsi, sosial kəsimlərin bu proses gedişatında davranışı, ayrı-ayrı institutların fəaliyyətində dəyişmələr, institutlararası balans indi daha aktual görünür. Siyasi institutların formalaşma istiqaməti qədər bu prosesin dinamizmi də önəmli məsələdir.

Bütün bu proseslərdə milli identiklik, siyasi mədəniyyətin rolunun öyrənilməsi də bir başqa aktual məsələdir.

**Açar sözlər**: postsovet ölkələri, siyasi institutlar, demokratikləşmə, siyasi partiyalar, Azərbaycan, inkişaf layihələri, ağıllı kənd

**УДК- 321**

**Махрух Аббас**
доктор философии по философии
Институт философии и социологии НАНА
Старший научный сотрудник отдела
современных философских проблем,
Азербайджан, Баку, пр-т Г.Джавида 115, AZ1073
Телефон: (+99450)3381428
E-mail: mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

## РЕФОРМИРОВАНИЕ ПОЛИТИЧЕСКИХ ИНСТИТУТОВ В ПОСТСОВЕТСКИХ СТРАНАХ

**Резюме**

*Цели и задачи статьи*. Изучение перестройки политических институтов в постсоветских странах остается актуальным и спустя более 30 лет после распада советской империи. В частности, некоторые темы являются предметом горячих дискуссий среди западных исследователей. Цель статьи - рассмотреть процесс политической институционализации в постсоветских странах как целостный процесс, выявить его отдельные аспекты.

*Степень разработанности темы*: см. список литературы, представленный в конце статьи.

*Методы и методология исследования*. В статье используются сравнительный анализ, единство исторического и логического подходов, системный, междисциплинарный и интегративный подходы.

*Новизна исследования* связана с результатами, полученными в в ходе исследования проблемы. Сравниваются разные подходы к вопросу перестройки политических институтов в постсоветских странах и делается вывод о том, что главным результатом этого процесса является формирование баланса между ними, а не формирование новых

институтов, адекватных действительности. Именно этот баланс обеспечивает стабильность политических систем.

**Выводы**.

Изучение темы в широком диапазоне свидетельствует о том, что некоторые вопросы уже устарели. Например, не причина распада советской империи, а то, как этот процесс происходил поэтапно, поведение социальных групп в ходе этого процесса, изменения в деятельности отдельных институтов, баланс между институтами кажутся сейчас более актуальными. Динамизм этого процесса так же важен, как и направленность формирования политических институтов. Изучение роли национального самосознания и политической культуры во всех этих процессах является еще одним актуальным вопросом.

**Ключевые сл**ова: постсоветские страны, политические институты, демократизация, политические партии, Азербайджан, проекты развития, умная деревня.

**UDC - 321**

**Mahrukh Abbas**
Ph.D in Philosophy
Senior Researcher in the Department of
Modern Philosophical Problems,
Institute of Philosophy and Sociology, ANAS
115, G. Javid ave., Baku, AZ1073
Phone: (+99450)3381428
E-mail: mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

## REFORMING POLITICAL INSTITUTIONS IN POST-SOVIET COUNTRIES

### Abstract

*Aims and purposes of the article*. The study of the restructuring of political institutions in post-Soviet countries remains relevant more than 30 years after the collapse of the Soviet empire. In particular, some topics are the subject of heated debate among Western scholars. The aim of the article

is to examine the process of political institutionalisation in the post-Soviet countries as a holistic process and to identify its individual aspects.

*The extent to which the topic has been developed*: see the list of references at the end of the article.

*Research methods and methodology*. The article uses comparative analysis, unity of historical and logical approaches, systemic, interdisciplinary and integrative approaches.

*The novelty of the research* is related to a result of the research. Different approaches to the issue of restructuring of political institutions in post-Soviet countries are compared and the conclusion is made that the main result of this process is the formation of balance between them, rather than the formation of new institutions adequate to reality. It is this balance that ensures the stability of political systems.

**Conclusions**.

A wide-ranging study of the topic suggests that some issues are already outdated. For example, it is not the cause of the collapse of the Soviet empire, but how this process took place in stages, the behaviour of social groups during this process, changes in the activities of various institutions and the balance between institutions that seem to be more relevant now. The dynamism of the process is as important as the direction in which the political institutions were formed. The study of the role of national consciousness and political culture in all these processes is another topical issue.

**Keywords**: post-Soviet countries, political institutions, democratisation, political parties, Azerbaijan, development projects, smart village.

***Giriş***

Siyasət elmi üçün sovetlərin sonrakı dövrü maraqlı araşdırmalar zamanı oldu. Belə ki geniş bir coğrafiyada- keçmiş SSRİ respublikalarından tutmuş, sosialist düşərgəsi ölkələri, üstəgəl Çində baş verən siyasi yeniliklərin öyrənilməsi siyasət elmi sahəsindəki mövcud nəzəriyyələri yenidən nəzərdən keçirmək, düzəlişlər etməyə imkan verdi. Post-sovet dövrü araşdırmaları birbaşa siyasət elmi sahəsindəki trendlərə işarət edir və onların ümumiləşdirmələri maraqlı nəticələr üzə çıxarır. Qərb tədqiqatçıları birbaşa empirik tədqiqatlar apararaq mövcud nəzəriyyələri yoxlamaq, eləcə də yeni müzakirələr aparmaq üçün material əldə etmiş oldular. Xüsusən, post-sovet ölkələrindən Rusiyada aparılan tədqiqatlar ciddi diskussiyalarla müşayiət olundu. Misalçün, Gibson əyalətlərdə keçirilən geniş miqyaslı intervüləri

təhlil əsasında maraqlı nəticələr çıxarır. Tədqiqat nəticəsində aydın olur ki, Rusiyanın kiçik şəhərləri kommunistlərə ehtimal edildiyindən çox səs verir. Başqa bir maraqlı məqam Rusiyanın sosioiqtisadi statusu yüksək olan bölgələrinin Qərbi Rusiyayla müqayisədə seçkilərdə daha az fəal olması ilə bağlıdır. Gibsonun 1997-ci ildə keçirdiyi sorğu Rusiya əhalisi arasında anti-liberal meyllərdən xəbər verir ki, bu da Qərb seçiciləri ilə müqayisədə anti-demokratik cəhdlərə daha açıq olmaları anlamına gəlir **[**Gibson 1997**]**.
Post-sovet ölkələrində siyasi institutların yenidən şəkillənməsini öyrənən araşdırmaraların mərkəzində duran suallar *dövlət və inqilab, demokratiya, demokratiyaya keçid, demokratikləşmə və vətəndaş cəmiyyəti institutları arasında əlaqə, post-sovet ölkələrdə seçki, siyasi partiyalar sistemi* kimi məsələlərdir.

SSRİ-nin çökməsi ilə politoloqlar arasında ən çox sual doğuran məsələlərdən biri bu böyük imperiyada inqilabın olub-olmaması məsələsidir. Suala cavabda fikirlər haçalanır. Məsələn, MakAuleyin [McAuley 1997] fikrincə, heç bir inqilab olmamışdı, MakFaul [McFaul 1996:170] belə hesab edirdi ki, xüsusi növ- sülh yolu ilə inqilab gerçəkləşmişdi, Houfa görə [Hough 1997], bu, ən böyük  modern inqilablardan biri idi. Skopolun fikrincə [1979] bütün sosial inqilablar dövləti gücləndirir. Burda MakFolun sualı aktual görünür: “1991-ci ildə Sovet İttifaqında baş verənlər hansı ölçüdə inqilab idi və niyə dövləti bariz şəkildə çökdürdü?” Bu sualın cavabı əslində tək sovetlərlə bağlı deyil. Sualın bu çərçivədə qoyulmasının sərhədlərini aşır və inqilabi yolla inkişaf imkanının aydınlaşdırılması məsələsini gündəmə gətirir.

### *Sovetlər Birliyinin çökməsində milli azadlıq hərəkatlarının rolu*

Postsovet dövrü araşdırmaçılarından Sani [Suny: 1993] belə hesab edir ki, SSRİ-nin çökməsində milli şüurun oyanmasının mühüm rolu olub. Millətçilik toxumları hələ sovet dövründə səpilmişdi, amma zamanında nəzarət altına alına bilmədi. Roder [Roeder: 1993] bunu Lenin dövlətlərinin sərtləşdirilmiş institusional mexanizmləri ilə əlaqələndirir. Houfun [Hough: 1997] fikrincə, sovet intelligensiyası son dərəcə ağır siyasi, iqtisadi keçidə rəhbərlik etmək iradəsini itirmişdi. Solnik [Solnick: 1998] dövlət agentlərinə güvənin itməsi və sovet liderlərinin cəmiyyətdə və dövlətdə hakimiyyət iradəsini itirmələrini səbəb kimi göstərir. Roderin [Roeder: 1993] və Solnikin [Solnick: 1998] araşdırmaları siyasət elmi çərçivəsində birbaşa neoinstitusional modelləri araşdırmağa və institusional dəyişimin ümumi problemlərini öyrənməyə imkan verir. Roder seçilmiş vəzifəli şəxslər üçün vəkalət məsələlərini araşdırır, Solnik çöküşü mərhələli, yavaş-yavaş gerçəklə-

şən proses olaraq görür. Əlbətə, bu yanaşmaların hər biri özlüyündə araşdırılmağa dəyər.

Mülkiyyət hüquqlarının qorunmasında, əhalinin sağlamlığının təminində, hərbi missiyanın həyata keçirilməsində, qaçaqmalçılıqla mübarizədə meydana çıxan problemlər, ictimai müqavilələrin xüsusi müqavilələrlə əvəzlənməsi dövlət institutlarının  zəif düşməsindən xəbər verirdi. Hərçənd bu məsələyə münasibətdə tədqiqatçılar arasında fikir ayrılığı var. Misalçün, Veqren [Wegren: 1998] və Hauf [Hough: 2000] kənd həyatında yoxsullaşma, vergilərin ödənməsində axsamaları dövlətin gücdən düşməsi əlaməti kimi qiymətləndirmənin yanlış ola biləcəyi qənaətindədirlər. Bu, dövlətin öz maraqlarını təmin etmə üsulunun göstəricisi ola bilər. Misalçün, məqsəd şəhər mərkəzlərini ucuz ərzaqla təmin, işsizliyi aşağı səviyyədə saxlamaq ola bilər. Əlbəttə, bu məsələyə münasibət də fərqlidir. Bəzi analitiklər bunu güclü yox, zəif dövlətin göstəricisi hesab edə bilər. Hansısa məqsədlərə nail olmaq üçün belə güzəştlər güclü dövlət olmaq göstəricisi hesab edilməməlidir.

Sözsüz ki əsas məsələ yeni dövlət institutları yaratmaq cəhdləri, bu sahədəki uğurlarla bağlıdır. Bu kimi problemlərə həsr olunmuş bir neçə məqaləyə göz ataq. Adams [Adams: 1996] Rusiya Milli Təhlükəsizlik Şurasının, Hendley [Hendley: 1997] arbitraj məhkəmələrinin işi ilə bağlı araşdırma aparmışlar. Vodruf [Woodruff: 1999] "pul üzərində suvernlik üçün mübarizə"də milli valyutanı açar analyış olaraq güclü dövlətin göstəricisi qəbul edir. Post-sovet ölkələrdə dövlət institutları hələ də diqqətli araşdırma predmeti olaraq qalmaqdadır. Hələ ki önəmli data toplanması davam edir və bu gələcək nəzəriyyələr, siyasət elmi üçün meynstrimlərdən xəbər verir.

***Demokratiyaya keçid***

Bu məsələ ilə bağlı Deyvid Laitin [David D. Laitin: 2000] 5 sual qoyur:

1. Gerçəkdən keçmiş Sovet ölkələri demokratiyaya keçid təcrübəsi yaşayırmı?
2. Uğurlu demokratikləşmə və vətəndaş cəmiyyətinin mövcudluğu arasında bir əlaqə varmı?
3. Demokratikləşmənin təmin olunduğu ölçüdə hansı demokratik institutlar seçilməlidir və nə səbəbə?
4. Post-sovet seçicinin əsas xarakteristikası nədir?
5. Hansı növ partiya sistemləri formalaşmaqdadır?

Həqiqətən demokratiyaya keçid oldumu, - sualına cavabda tranzitologistlər çox qızğın müzakirələr aparırlar. Keçmiş SSRİ ölkələri, 1970, 1980-ci illərin Latın Amerikası və Cənubi Avropa ilə müqayisə olunur [Schmitter &Karl: 1994]. Buns demokratikləşmə və kommunist rejimin çöküşünü qar-

şılaşdırmağı düzgün hesab etmir [Bunce: 1995]. Müzakirələrə qoşulan MakFol [McFaul: 1996] sülh şəraitində gerçəkləşən inqilabla elitaların sövdələşmə modellərini eyni tərəziyə qoymağı doğru saymır. Roder [Roeder: 1994] bu prosesi sadəcə demokratikləşmə ilə eyniləşdirməyə qarşı çıxanlardandır. Avtokratik və oliqarxik meyllər nəzərə alınmalıdır. Onun fikrincə, bəzi post-sovet ölkələrdə demokratiya üzə çıxa bilər. Amma bunun səbəbi tranzitoloqların iddia etdiyi kimi elitalararası sövdələşmə yox, avtokratik və oliqarxik meyllər arasında çıxılmaz vəziyyətdir. Hauf [Hough: 2000] oxuculara xatırladır ki, ABŞ, Böyük Britaniya kimi müasir demokratiyaların ilkin konstitusion dəyişmələrdən sonra demokratriya yolunda irəliləmələri ciddi vaxt və enerji hesabına başa gəlmişdir. Hauf 1990-cı illərdən sonra Rusiyada baş verənləri demokratiyanın qısa şölələnməsi ola biləcəyinin siqnalını verirdi. Yəni, avtoritar idarəetmə öncəsi qısa bir ara.

***Vətəndaş cəmiyyəti və demokratikləşmə arasında əlaqə***

Post-sovet dövrü araşdırmaşılarını ən çox məşğul edən sualdır. Vətəndaş cəmiyyətinin mövcudluğu, yenidən üzə çıxması demokratikləşməyə hansı ölçüdə dəstək ola bilər? Hokinq [Hosking: 1990] jurnalist olaraq tədqiqatçıların diqqətini Qorbaçov dövründə vətəndaş cəmiyyəti ünsürlərinə yönəldir. Stoner-Veis [Stoner-Weiss: 1997] erkən post-sovet dövründə biznes şəbəkələrinin yerli idarəçiliyin səmərəliliyində roluna diqqət cəlb edir. Hahn [Hahn: 1993] Yaroslavlda rus siyasi mədəniyyətinin dəyişməsi haqda data təqdim edərək, vətəndaş mədəniyyətindən söz açır. Amma qeyd edək ki, keçmiş sovet olkələrində vətəndaş cəmiyyətinin inkişafını ölçmək üçün dəqiq alətlər və demokratik institutların səmərəlilik əsaslarını təyin etmək vasitələri hələ də yoxdur.

***Hansı demokratik institutlar***

Bu sahədə empirik ədəbiyyatın əsas kriteriyaları ədalətlilik və səmərəlilikdir. Səs vermə qaydaları ən çox müzakirə olunan məsələlərdəndir. Amma icraedici və qanunverici hakimiyyət qolları arasında münasibət məsələsinin müzakirəsi də aktualdır (Linz & Stepan: 1996). İsterin fikrincə, parlamentarizmin daha təhlükəsiz demokratikləşmə vəd etməsi (Linz & Stepan: 1996) tezisini şübhə altına almaq olar. Parlamentarizmin demokratiyanı daha stabil etməsi fikri mübahisəlidir. İster köhnə rejimin elitasının strukturunu araşdırır. Bu struktur islahata məruz qalmasından asılı olmayaraq konsolidasiyaya nail olmuşsa, yeni elita prezident üsuli-idarəsini seçir. Əgər onlar öz daxilində parçalanmış və fraqmentar xarakterlidirlərsə, yeni elita gücü öz aralarında bölüşmək üçün parlamentarizmi seçir. Eyni faktor, yəni gücün paylanması demokratiyanın uğurunu da izah edə bilər. Parla-

mentarizm deyil, elita arasında güc, hakimiyyət bölgüsü demokratiyanı şərtləndirir.

Geddes də [Geddes: 1996] bənzər mühakimə yürüdür. Onun fikrincə, siyasətçilər öz güclərini qoruyacaq siyasi sistemi seçirər. Onun araşdırmaları Şərqi Avropa ölkələrini əhatə etsə də, keçmiş sovet ölkələrinə də şamil oluna bilər.

***Post-sovet seçicinin xarakteristikası***

Bu sənaye siyasət elmində yeni sahəyə çevrilib. Alimlər intervü və anketlərə [Brady & Kaplan: 1997], elektoral datanı analizə yeni standartlar və üsullar tətbiq edirlər [Myagkov: 1997]. "Nəsillərin yolu" layihəsi ilə assosiasiya olunan lonqitudinal tədqiqatlar [Titma: 1998] ilk olaraq Estoniyada həyata keçirilib və sovetlərin dağılma dövrünə təsadüf etdiyindən çox dəyərlidir.

Digər tərəfdən, anketlər post-sovet seçicilərinin səbəb və motivasiyalarını müəyyənləşdirmək məqsədi daşıyırdı. Misalşün, Hauf Rusiyada keçirilmiş geniş intervü materiallarının təhlili əsasında seçici davranışının şəkillənməsi ilə bağlı maraqlı  fakt üzə çıxarır- Rusiya əyalətlərində əvvəllər bilinməyən meyl.

***Emercent partiya sistemi***

Modern partiyalar ictimai iş üçün namizədlər seçilib yoxlanması, hazırlanması funksiyasını yerinə yetirir. Partiyalar şəbəkəsi istənilən ölkənin partiyalar sistemini formalaşdırır. Araşdırmaçılar post-sovet ölkələrində meydana çıxan partiyalar və partiya sistemini öyrənmək üçün ciddi iş aparırlar. Fiş qeyd edir ki [Fish: 1994], Rusiyada siyasi partiyalar fraksiyalardan və dezertirərdən ibarətdir. Burda kütləvi üzvlük və loyal tərəfdarlıqdan söhbət gedə bilməz. Onlar büsbütün ideologiyaya bürünüblər, proqramlarında fərq yoxdur və bu partiyalar eyniməqsədli partiyalardan yer qopara bilmirlər. Nəticədə çoxsaylı zəif partiya ordusu meydana çıxıb ki, onu partiya sistemi yox, "hərəkat cəmiyyəti"(movement society) adlandırmaq daha doğru olar.

Rusiyada siyasi partiyaların ilkin institutlaşa bilməməsinin səbəbini izah etməyə çalışan bir neçə nəzəriyyə var. Fişin fikrincə, ələ düşmüş seçki qəfil baş vermişdi və nümayəndə təyin etməyə imkan olmamışdı. Üstəlik, sovet və post-sovet ölkələri əvvəlcə uzlaşa bimədikləri üçün daha sonra dağıldıqları üçün təşkilatların tələblərini icra etmədilər. Partiyaların maliyyələşməsi məsələsi də açıq qalmışdı. Partiyalar yaxşı təşkil olunmuş qrupların maraqlarını birləşdirə bilmədi. Mozer [Moser: 1999] iddia edir ki, Rusiyada partiyaların institutlaşa bilməməsinin səbəbi elitanın hansısa aşkar sosial baza ilə əlaqəsinin olmamasıdır. Bu durumda yaxşı təşkil olunmuş partiya-

nın irəli sürəcəyi namizəd olmaqdansa seçkilərə müstəqil çıxmaq daha əlverişli idi. Smit [Smyth: 1998] partiyalar sisteminin institutlaşa bilməməsini proporsional seçki sistemində fərdi stimulun yoxluğu ilə də əlaqələndirir.

***Milli oyanış və sovetlərin çökməsi***

1980-ci illərdə sovet dövlətlərində üzə çıxan milli hərəkatlar bu sahə mütəxəssisləri üçün maraqlı araşdırma predmetinə çevrildi. Əvvəla, bu hərəkatlar sovet sistemini çökdürdü, bu başqaldırmaların səbəbi məsələsini gündəmə gətirdi. Araşdırmaçılar üçün maraq doğuran məsələlərdən biri də bu milli-azadlıq hərəkatlarının liberalizmə təhdid olub-olmamasını öyrəmək idi. Millətçiliyi kəskinləşdirən faktorları öyrənmək üçün də meydan açılmışdı.

Araşdırmaçıların çoxu belə hesab edir ki, Baltikyanı respublikalarda meydana çıxan milli oyanış başqa ittifaq respublikalarına da yayılaraq SSRİ-nin çöküşünü sürətləndirdi. Bubakerin fikrincə, sovetlərin daha əvvəllərdən yürütdüyü millət siyasəti buna zəmin hazırlamışdı.

Postsovet dövrü araşdırmaçılarından Sani [Suny: 1993] belə hesab edir ki, SSRİ-nin çökməsində milli şüurun oyanmasının mühüm rolu olub. Millətçilik toxumları hələ sovet dövründə səpilmişdi, amma zamanında nəzarət altına alına bilmədi. Roder [Roeder: 1993] bunu Lenin dövlətlərinin sərtləşdirilmiş institusional mexanizmləri ilə əlaqələndirir. Houfun (Hough: 1997) fikrincə, sovet intelligensiyası son dərəcə ağır siyasi, iqtisadi keçidə rəhbərlik etmək iradəsini itirmişdi. Solnik [Solnick: 1998] dövlət agentlərinə güvənin itməsi və sovet liderlərinin cəmiyyətdə və dövlətdə hakimiyyət iradəsini itirmələrini səbəb kimi göstərir. Roderin (Roeder: 1993) və Solnikin [Solnick: 1998] araşdırmaları siyasət elmi çərçivəsində birbaşa neoinstitusional modelləri araşdırmağa və institusional çöküşün ümumi problemlərini öyrənməyə imkan verir. Roder seçilmiş vəzifəli şəxslər üçün vəkalət məsələlərini, Solnik çöküşü mərhələli, yavaş-yavaş gerçəkləşən proses olaraq görür. Əlbəttə, bu yanaşmaların hər biri özlüyündə araşdırılmağa dəyər.

Qeyd etdiyimiz kimi araşdırmaraların mərkəzində duran suallar- dövlət və inqilab, demokratiya, demokratiyaya keçid, demokratikləşmə və vətəndaş cəmiyyəti institutları arasında əlaqə, post-sovet ölkələrdə seçki, siyasi partiyalar sistemi kimi məsələlər bir-biri ilə əlaqəlidir. Bu məsələlərin Qərb mənbələrində araşdırılmasından belə nəticə çıxarmaq olar ki, bu proseslərin post-sovet ölkələrində öz spesifik əlamətləri var, bəzən proseslər Qərbdəkindən fərqli məcrada inkişaf edə bilir.

***Azərbaycanda institusional reformlar və inkişaf proyektləri***

Müstəqilliyin əldə edilməsi ilə Azərbaycan uyğun iqtisadi islahatlara başladı. Ən böyük addım Mərkəzi Bankın yaradılması və milli pul vahidi-

nin- manatın dövriyyəyə buraxılması idi. Proqramın əsas komponentləri makroiqtisadi stabillik, struktur və sosial ehtiyacları hədəfləyən islahatlar oldu. 1990-cı illərin əvvəllərində Azərbaycan sadəcə iqtisadi sahədə yox, səhiyyə və təhsil sahəsində də keçid dövrü yaşadı.Vəziyyəti dəyişmək üçün bu sahələrin hər birində islahatlar qaçılmaz oldu.

İslahatların həyata keçirilməsində xarici dəstəyin böyük rolu var. Xüsusən, USAID və Dünya Bankının təşəbbüsləri, gördükləri işlər əhəmiyyətlidir.

***USAID dəstəkli islahatlar***

Əvvəla qeyd edək ki, USAID-in Azərbaycana bu sahədə dəstəyi stabil olmayıb. Xüsusən, qonşu Ermənistan və Gürcüstanla müqayisədə bu, aydın görünür. Amma bununla belə zamanla dəyişmə müşahidə olunur- neft istehsalı və nəqlinin təhlükəsizliyindən sosial-iqtisadi islahatlar məsələsinə doğru. Ən azından bu istiqamətdə diskursun izlənməsi bundan xəbər verir.

USAID-in 2011-2020-ci illər üçün Ölkə İnkişaf Əməkdaşlıq strategiyası 3 sahəni əhatə edir- təhlükəsizlik, enerji, daxili islahatlar. Bütövlükdə məqsəd islahat prosesində ölkəyə dəstək və daha dayanıqlı bazar əsaslı demokratiya üçün rəqabət və plüralizm istəklərini gücləndirməkdir. Bu hədəfə çatmaq 3 məqsədə nail olmaqdan keçir- yaxşılaşdırılmış investisiya mühiti, demokratik prosesdə fərqli aktor və institutların iştirakı, keyfiyyətli tibbi xidmət və sosial dəstəyə nail olmaq.

2011-ci iləd 32 mln ABŞ dolları həcmində maddi dəstək göstərilib. 9,9 mln Ticarət və Rəqabət mühitinin yaxşılaşdırılması, 5,9 mln Azərbaycan Səhiyyə sisteminə, 5,76 mln dollar sosial-iqtisadi inkişafı dəstəkləmək üçün. Müqayisə üçün deyək ki, 2020-ci ildə ayrılmış 18 mln ABŞ dolları məbləğdən 5,76 mln dollar Özəl Sektorun inkişafı fəaliyyətinə, 1,8 mln vətəndaş cəmiyyəti, ümumi əməliyyat xərcləri isə 4,5 mln təşkil etmişdir [US Foregn Assistance 2022] .

2011-2020-ci illər üçün strategiyayla bağlı məqalədə göstərilir ki, Azərbaycan hökuməti ilə əməkdaşlıq əsasən pozitiv qiymətləndirilir. Strategiyada qeyd olunur ki, yerli hökumətlə birgə layihələrin maliyyələşdirilməsi (hardasa yarıbayarı)2009-cu ildən bəri USAID-in bu sahədə təsirinin artmasına səbəb olub.

Ancaq bir məsələni xüsusi qeyd etmək lazımdır ki, ABŞ-ın istənilən maliyyə dəstəyi, o cümlədən USAID yolu ilə yardımı daha çox enerji təhlükəsizliyi ilə bağlıdır. Bura fiziki resurs və vasitələrin qorunması [US Foregn Assistance 2022] aiddir. 2011-ci ildə  yardım öz rekord səviyyəsində olub- 79 mln ABŞ dolları. Bu məbləğin 57 mln-u idarəçiliklə bağlı işlərə ayrılmışdı. ABŞ xarici yardımın 50%-dən çoxunu təhlükəsizlik  məsələləri-

nə sərf etmişdi. Bura təhlükəni azaltmaq üçün hərbi treyninqlər və lazımi avadanlığın satın alınması daxildir. 2020-ci ildə ayrılmış 32 mln ABŞ dolları həcmində yardım isə daha fərqli layihələri əhatə edir- münaqişə, sülh, təhlükəsizlik məsələləri (17 mln ABŞ dolları) və vətəndaş cəmiyyəti fəaliyyətinin gücləndirilməsinə (5,8 mln).

ABŞ-ın xarici yardım büdcəsi enerji təhlükəsizliyi və terrorizmlə mübarizə məsələlərinə yönəlidir və ölkə iqtisadiyyatının neftdən asılılığının iqtisadi sabitliyə təsiri diqqətdən yayınır.Bununla belə bu sahələrdə pozitiv irəliləyişlər müşahidə olunur. Bu haqda Dünya Bankı xəbər verir [World Bank 2022b]. Amma qeyd etməliyik ki, bu nəticələr məhduddur və ölkə iqtisadiyyatında təbii resurslar hələ də dominantdır. [IEA 2021]

***Dünya Bankı və Avropa İttifaqı dəstəkli layihələr***

22 fevral 2022 tarixdə Dünya Bankı və Avropa İttifaqı Azərbaycan hökuməti ilə 5,25 milyon ABŞ$-ı həcmində maddi yardım nəzərdə tutan Azərbaycan Sürətli Texniki Dəstək Mərkəzi [Azerbaijan Rapid Technical Assistance Facility- AZTAF] yaratmaq haqda müqavilə bağladı. Üç illik proqram "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun "məsləhət və analitik dəstək, eləcə də potensialın gücləndirilməsini" [World Bank 2022] nəzərdə tutur. Layihənin əsas gözləntilərindən biri kənd yerlərində yaradılacaq"ağıllı kəndlər"in yaradılması və inkişaf etdirilməsidir. "Ağıllı kəndlər" yüksək texnologiya istifadəsini, özəl sektor inkişafı, yaxşı idarəçilik nəzərdə tutur ki, bu da yerli icmaya ehtiyaclara uyğun imkan və həllər yaratmağa kömək edir. Bu məqsədlərə nail olmaq mərhələli iş olub, bəzi məqsədləri ehtiva edir. Rəqəmsal inkişaf və rəqabətə dayanıqlıq, genişlənmiş enerji səmərəliliyi siyasəti, hüquqi baza, kənd yerlərində innovasiyaların tətbiqinin genişləndirilməsi bu sahədə görüləcək işlər sırasındadır. Avropa İttifaqının 2 mlrd ABŞ dolları həcmində Azərbaycan üçün xarici yardımı nəzərdə tutan İqtisadi və İnvestisiya Planı (2021) da bu layihəylə bənzər hədəflərə hesablanmışdı [EBRD 2022].

***Ağıllı kənd layihəsi islahat üsulu kimi***

Ağıllı-kənd inkişaf planı 2021-ci ilin oktyabrında Dünya Bankı tərəfindən təklif olunub. Dünya Bankının "ağıllı kənd" layihəsindən ən çox faydalanacaq regionlar üçün sadaladığı 7 kriteriya bunlardır:

1. Ümumi əhali sayı;
2. əhatə etdiyi ərazi kvadrat kilometrlə;
3. kənd əhalisi faizi;
4. kənd təsərrüfatı sahəsində iş imkanı;
5. orta gəlir;
6. kiçik və orta biznes müəssisələrinin sayı;

7. regionda maliyyə institutlarının sayı.

Dünya Bankının hesabatında ağıllı kənd layihəsinin uğuru icmalar, yerli sahibkarlıq, rəqəmsal və sosial innovasiyalar, kənd-şəhər əaqələri, sahələrarası həllər, müxtəlif aktorlar arasında əməkdaşlıq, rəqəmsal savadlılıq, data idarəçiliyi, hökumətdən yaxşı maliyyələşmə kimi faktorlardan asılı hesab edilir. Bununla belə qeyd etməliyik ki, ağıllı kənd layihəsi "son dərəcə xüsusi və sadələşdirilmiş islahat"[Matt Andrews]dır.

Ağıllı kənd layihəsinin uğuru maddi yetərlilik, rəqəmsal savadlılıq, internetə bağlantı imkanı, davamlı enerjinin əlçatan olması kimi faktorlardan da asılıdır. Azərbaycan hökuməti bu məsələni 2020-ci il Qarabağ müharibəsinin nəticələri kontekstində həll etməyə meyllidir. Milli diskurs ağıllı kəndləri Qarabağa qayıdışın başlıca həll yolu ideyası ətrafında həll etməyə çalışır. Azərbaycan prezidentinin Zəngilan rayonunda ilk belə ağıllı kəndin açılışında nitqi də buna misaldır. İ.Əliyev qaçqınların öz vətənlərinə qayıtmaq istəyi və bu işdə ağıllı kəndlərin nə dərəcədə önəmli olması haqda bəyanatı bu istəkdən xəbər verir [Azərtac 2022].

Qeyd edək ki, bu sahədə dünya Bankı və Azərbaycan hökuməti arasında fikir ayrılıqları olan sahələr var. Dünya Bankının hesabatında Azərbaycanda ağıllı kənd layihəsinin həyata keçirilməsində bəzi problemlər, o cümlədən rəqəmsal və maddi çətinliklər, səmərəsiz mərkəzləşmiş idarəçilik vurğulanır. İxtisaslaşmış kadr çatışmazlığı məsələsi ayrıca qeyd olunur. Dünya Bankı ağılı kənd layihəsinin Qarabağa qayıdış planı ilə birgə həyata keçirilməsinə öz şübhələrini dilə gətirir. Bu, yuxarıda irəli sürülən tələbləri qarşılaya bilməməklə əlaqədardır.

Prezident İ.Əliyev hər fürsətdə daxili və xarici siyasətdə ölkənin regional liderliyini möhkəmlətmə tədbirlərindən söz açır. Ölkədə həyata keçirilən iqtisadi layihələr siyasi institutlar sahəsində islahatları da zəruri edir və Azərbaycan bu yolda irəliləyir.

**Nəticə**

İnstitusional islahatlar və inkişaf layihələri məsələsi post-sovet ölkələri üçün öz aktuallığını qorumaqdadır. Azərbaycan mürəkkəb geosiyasi reallıq, Ermənistanla davam edən regional konflikt və ümumiyyətlə dünyada baş verən siyasi-iqtisadi proseslər fonunda bu islahatların önəminin fərqindədir. Ölkənin gələcək inkişafı böyük ölçüdə bu islahatların istiqaməti, səmərəliliyindən asılı olacaq.

**Ədəbiyyat - References**:


1. Adams J.S. 1996. The Russian National Security Council. Probl.Post-Communism 43 (1) :35-42.
2. Bouchkin AA. 1995. Russia’s far easteren policy in the 1990s: priorities and prospects. See Dawisha &Dawisha 1995, pp.66-83.
3. Brady HE, Kaplan C. 1998. The development of electoral participation and party attachmentin estonia from 1988 to 1993. Poster presented at annu. Meet.am. Polit.Sci. Assoc., Boston.
4. Bunce V. 1995. Should transitologistsbe grounded? Slavic Rev.54 (1):111-27.
5. David D. Latin. 2000. Post-Soviet Politics. Annu. Rev. PolitSci. 2000, 3:117-48.
6. Easter GM.1996. Personal networks and post-revolutionary state-building: post-Soviet Russia reexamined. World Polit.48(4):551-78.
7. Fish MS. 1994. Democracy from scratch. Princeton Univ. Press.
8. Geddes B. 1996. Initation of new democratic institutions in Easteren Europe and Latin America. İn Institutional Design in New Democracies, ed. A.Lijphart C Waisman, pp15-41. Boulder, CO: Westview.
9. Gibson JL. 1997. The struggle between order and libertyin Contemporary Russian political culture. Aust J. PolitSci 32 (2):271-90.
10. Hahn J. 1993.Continuity and change in Russian political culture. İn Post-Communist Studies and Political Science:Methodology and Empirical Theory in Sovietology, ed. FJ Fleron, EP Hoffmann, pp.299-330.
11. Hendley K. 1997. Leqal Development in post-Soviet Russia. Post-Sov. Aff. 13 (3): 228-51.
12. Hosking G. 1990. The Awakening of Soviet Union . Cambridge, MA: Harvard Univ. Press.
13. Hough JF. 1997. Democratization and Revolution in the USSR 1985-1991. Washington, DC: Brookings Inst.
14. Hough JF. 2000. The Logic of Economic Reform in Russia. Washington, DC: Brookings Inst.
15. Matt. Andrews. 2013. The Limits of Institutional reforms in development. Changing rules for realistic solutions. Cambridge Univ. Press.

16. Mc Auley m. 1997. Russia’s politics of Ukraine and Russia. Comp Polit. 29 (4): 433-47
17. Myagkov M, Ordeshook P, Sobyanin A. 1997. The Russian electorate: 1991-1996. Post. Sov. Aff. 13(2): 134-66.
18. McFaul M. 1996. Revolutionary transformation in comparative perspective: defining a post-communist research agenda. See Holloway and Naimark 1996, pp. 167-96.
19. Moser R.G.1999. Independence and party formation: elite partisanship as an interventing variable in Russian politics. Comp. Polit. 31 (2):147-65.
20. Smyth R. 1998. The political implications of mixed electoral systems: explaining the evolution of Russian parties. Presented at MidwestPolit. Sci. Assoc. , Chikago.
21. Snyder J. 1993. Nationalism and crisis of the post-soviet states. In the sourses of Russian Foreign PolicyAfter the Cold War, pp. 21-40.
22. Solnick SL.1995. Federal bargaining in Russia. E. Eur. Cons. Rev. 4(4):52-58.
23. Suny R.G. 1993 *The Revenge of the Past*. Stanford, CA: Stanford Univ. Press.
24. Stonen-Weiss K. 1997. Local Heroes. Princeton, NJ: Princeton Univ. Press.
25. Roeder PG. 1993. Red Sunset. Princeton, NJ: Princeton Univ. Press.
26. Roeder PG. 1994. Post-Soviet institutions and ethnopolitics. Presented at Annu. Meet. Am. Polit. Sci. Assoc., New York.
27. Titma M, Tuma NB, silver BD. 1998. Winners and losersin the post-communist transition; new evidence from Estonia. Post-Sov. Aff. 14(2):212-49
28. Wegren SK. 1998. Agriculture and The state in Soviet and Post-soviet russia. Pittsburgh, PA:Univ. Pittsburg Press.
29. Woodruff D. 1999. Money Unmade. Ithaca, NY:Cornell Univ. Press.
30. EBRD. (2022) EBRD, EU, AZPROMO help attract foreign investment to Azerbaijan. Available online: https://www.ebrd.com/news/2022/ebrd-eu-azpromo-help-attract-foreign-investment-to-azerbaijan-.html
31. IEA. (2021) Energy Policy Review. International Energy Agency. Available online: https://www.iea.org/reports/azerbaijan-2021

32. OECD. (2022a) Public Governance. . Available online: https://www.oecd.org/governance/
33. OECD. (2022b) Official Development Assistance (ODA). Availble online: https://www.oecd.org/dac/financing-sustainable-development/development-finance-standards/official-development-assistance.htm#:~:text=Constant%202020%20USD.-,Preliminary%20data%20for%202021.,with%20the%20COVID-19%20crisis
34. OHCHR. (2022) About good governance. Available online: https://www.ohchr.org/en/good-governance/about-good-governance
35. USAID. (2010) USAID/Azerbaijan Country Development Cooperation Strategy 2011-2020. Available online: https://www.usaid.gov/sites/default/files/documents/1863/Azerbaijan_CDCS_public_version_updated20202.pdf
36. USAID. (2018) USAID/Azerbaijan Country Development Cooperation Strategy 2018-2022. Available online: https://www.usaid.gov/sites/default/files/documents/CDCS-Azerbaijan-May-2025.pdf
37. USAID. (2021) Democracy, Human Rights, and Governance.. Available online: https://www.usaid.gov/democracy
38. USAID. (2022) Political Economy Analysis of the Health System in Azerbaijan: A Literature Review. Revised Draft. Available online: https://pdf.usaid.gov/pdf_docs/PA00ZB6Q.pdf
39. US Foreign Assistance. (2022) U.S. Foreign Assistance By Country: Azerbaijan 2001-2022. Available Online: https://www.foreignassistance.gov/cd/azerbaijan/2011/obligations/0
40. Valiyev, Anar. (2021) Building Smart Cities and Villages in Azerbaijan: Challenges and Opportunities. Baku Research Institute. Available online: https://bakuresearchinstitute.org/en/building-smart-cities-and-villages-in-azerbaijan-challenges-and-opportunities/
41. World Bank. (2021a) Worldwide Governance Indicators. Available online: http://info.worldbank.org/governance/wgi/
42. World Bank. (2021b) Doing Business Legacy. Available online: https://www.worldbank.org/en/programs/business-enabling-environment/doing-business-legacy

43. World Bank. (2021c) A Framework for Developing Smart Villages in Azerbaijan. Available online: https://www.worldbank.org/en/country/azerbaijan/publication/a-framework-for-developing-smart-villages-in-azerbaijan
44. World Bank. (2022a) A New Program to Support Reforms in Azerbaijan to Benefit from European Union and World Bank Support. Available online: https://www.worldbank.org/en/news/press-release/2022/02/16/a-new-program-to-support-reforms-in-azerbaijan-to-benefit-from-european-union-and-world-bank-support

UOT - 101. 01

**Şölət Zeynalov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi
AZ 1073, Azərbaycan Respublikası, Bakı, H. Cavid pr.115
E-mail: sholet@mail.ru
https://orcid.orq/ 0000–0003–2509–1159

# DİALOQ MÜHİTİ VƏ GEOSTRATEJİ PERSPEKTİV PROBLEMİ

**Xülasə**

Məqalədə dialoq və dialoq mədəniyyəti kontekstində postkonflikt dövrünün reallıqlarına nəzəri baxış əks olunur. İşdə qeyd edilir ki, hazırda müharibə fiziki anlamda bitsə də Ermənistanın "sülh oyunları" hesabına bölgəyə Böyük sülhün gəlməsi problematika olaraq qalır. Bu gecikmənin səbəbləri bilavasitə Ermənistanın destruktiv siyasətiylə bağlıdır. Lakin coxaspektli üstünlüklərə baxmayaraq elmi analizlər və praktiki fəaliyyət sübut edir ki, Azərbaycan tarixən olduğu kimi əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş regional münasibətlərdə dialoqa açıq, Böyük sülh proqramına sadiqdir.

Tədqiqatda həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində apardığı quruculuq işlərindən, o cümlədən Türkiyə–Azərbaycan əməkdaşlığındakı konstruktivizmdən bəhs olunur. İşdə qeyd edilir ki, Azərbaycan Respublikası faktiki olaraq indi bölgənin əsas aktor dövləti kimi geniş potensiala malikdir və hazırda o, ciddi şəkildə Asiya və Avropa arasında tarixi "ticarət yolları" layihəsinin inkişafına əvəzsiz təkan verməkdədir.

*Məqsəd*: Müasir geostrateji problematikaların həll olunmasında əvəzsiz kommunikativ alət olan dialoq və dialoq mədəniyyəti probleminə diqqəti çəkmək.

*Metodologiya*: Məqalə - müqayisəli təhlil, elmi, emprik, tarixi metodlar ilə təhlil olunur.

*Elmi yenilik*: Postmünaqişə dövrünün gerçəkliklərinə və sülh probleminə dialoq fəlsəfəsi müstəvisindən yanaşma

**Nəticə**. Dünyada sülhü təşviq edən qüvvələr müxtəlif münaqişələrin və müharibələrin aradan qaldırılması üçün öz işlərində koordinasiya

olunmur. Tarixən dünya ənənəvi olaraq “dostlar”, “düşmənlər” və “yadlar” adlanan qruplara bölünərək, şüurda formalaşmış tarixi arxetipləri dərinləşdirərək, onu müasir səviyyəyə qaldırıb. Bu onu göstərir ki, böyük dialoq asan məsələ deyil. Ona görə də müasir dünyanın digər problemlərini də buraya əlavə etdikdə aydın olur ki, bəzi cəmiyyətlərdə birgəyaşayış dəyərləri hansısa yolla öz mənəvi əsaslarını itirir. Bu səbəbdən də, münaqişənin həlli və münaqişədən sonrakı dövrün çağırışlarına gəldikdə, yeni paradiqmaya ehtiyac aydın görünür. Bu paradiqma aqressiyadan kənara çıxan və dialoq mədəniyyətinə inamı təsdiq edən aydın səbəb və xoş niyyət fəlsəfəsindən irəli gələ bilər. Dialoq amili istənilən müharibələri, münaqişələri və ziddiyyətləri həll etmək üçün insan ehtiyacı kimi çıxış edir. Azərbaycan dialoqun tərəfdarıdır və onun siyasi rəhbərliyinin yürütdüyü strateji xətt sübut edir ki, regionun və dünyanın gələcəyi dialoqa açıqlıqdan asılıdır.

**Açar sözlər**: Azərbaycan, Türkiyə, Ermənistan, dialoq, “üçüncü tərəf”, əxlaqi dəyərlər, sülh.

**УДК - 101. 01**

**Шолат Зейналов**
Доктор философии по философии, доцент,
Институт философии и социологии НАНА,
Адрес: проспект Г. Джавида 115, Баку, AZ 1073,
Азербайджанская Республика
E-mail: sholet@mail.ru
https://orcid.org/ 0000–0003–2509–1159

# СРЕДА ДИАЛОГА И ПРОБЛЕМА ГЕОСТРАТЕГИЧЕСКОЙ ПЕРСПЕКТИВЫ

**Резюме**

В статье отражен теоретический взгляд на реалии пост-конфликтного периода в контексте диалога и культуры диалога. Отмечается, что хотя война в физическом смысле закончилась, Великий мир остается проблематичным в регионе «мирных игр» Армении. Причины такой задержки напрямую связаны с деструктивной политикой Армении. Однако, несмотря на многогранные преимущества, научный анализ и практическая деятельность показывают, что

Азербайджан открыт для диалога в региональных отношениях, основы которого были заложены великим лидером Гейдаром Алиевым, и верен Великой программе мира.

В исследовании также говорится о строительных работах, проводимых Азербайджаном на освобожденных от оккупации территориях, в том числе о конструктивизме турецко-азербайджанского сотрудничества. Отмечается, что Азербайджанская Республика действительно обладает широким потенциалом как главный актор региона и в настоящее время придает серьезный неоценимый импульс интеграции проекта «торговые пути» между Азией и Европой.

*Цель*: привлечь внимание к проблеме диалога и диалоговой культуры, которая является незаменимым коммуникативным инструментом в решении современных геостратегических задач.

*Методология*: в статье используются научные, эмпирические, исторические методы.

*Научная новизна*: подход к постконфликтным реалиям и проблеме мира с позиции философии диалога.

**Выводы**. Силы, способствующие миру во всем мире, не скоординированы в работе по преодолению различных конфликтов и войн. Исторически мир традиционно делился на группы, называемые «свои», «враги» и «чужие»; стереть сформировавшиеся в сознании исторические архетипы и направить сложившуюся ситуацию в позитивное русло, поднять на уровень большого диалога - задача не из легких. С учетом также других проблем современного мира становится понятно, что ценности сосуществования каким-то образом теряют свою моральную основу в некоторых обществах. Поэтому, когда речь идет о разрешении конфликтов и вызовах постконфликтного периода, очевидна необходимость новой парадигмы. Эта парадигма может исходить из философии ясного разума и доброй воли, выходящей за пределы агрессии и утверждающей веру в культуру диалога. Фактор диалога выступает потребностью человека в разрешении любых войн, конфликтов и противоречий. Азербайджан является сторонником диалога, и реализуемая его политическим руководством стратегическая линия доказывает, что будущее региона и мира зависит от открытости к диалогу.

**Ключевые слова:** Азербайджан, Турция, Армения, диалог, «третья сторона», моральные ценности, мир.

**UDC-101. 01**

**Sholat Zeynalov**
PhD in Philosophy, Associate Professor.
Institute of Philosophy and Sociology, ANAS,
Address: 115 G. Javid Avenue, Baku, AZ 1073, Azerbaijan Republic
E-mail: sholet@mail.ru
https://orcid.org/ 0000–0003–2509–1159

# THE DIALOGUE ENVIRONMENT AND THE PROBLEM OF GEOSTRATEGIC PERSPECTIVE

## Abstract

The article reflects a theoretical perspective on the realities of the post-conflict period in the context of dialogue and a culture of dialogue. It is pointed out that although the war has physically ended, the Great Peace remains problematic in the region of Armenia's "peace games". The reasons for this delay are directly linked to Armenia's destructive policies. However, despite the multifaceted advantages, scientific analysis and practical activities show that Azerbaijan is open to dialogue in regional relations, the foundations of which were laid by the great leader Heydar Aliyev, and is committed to the Great Peace Programme.

The study also speaks of the construction work carried out by Azerbaijan in the territories freed from occupation, including the constructivism of Turkish-Azerbaijani cooperation. It is noted that the Republic of Azerbaijan does have a great potential as a major actor in the region and is currently giving a major, valuable impetus to the integration of the Asia-Europe trade routes project.

*Purpose*: to draw attention to the problem of dialogue and dialogue culture which is an indispensable communicative tool in addressing contemporary geostrategic challenges.

*Methodology*: In the article, scientific, empirical and historical methods are used.

*Scientific novelty*: an approach to post-conflict realities and the problem of peace from the standpoint of the philosophy of dialogue.

**Conclusions**. The forces promoting world peace are uncoordinated in dealing with the various conflicts and wars. Historically, the world has traditionally been divided into groups called "insiders", "enemies" and "outsiders"; erasing the historical archetypes formed in the consciousness and channeling the current situation in a positive direction and raising it to

the level of a great dialogue is not an easy task. Taking other problems of the contemporary world into account, it becomes clear that the values of coexistence are somehow losing their moral basis in some societies. Therefore, when it comes to conflict resolution and post-conflict challenges, the need for a new paradigm is evident. This paradigm can come from a philosophy of pure reason and goodwill that goes beyond aggression and affirms faith in a culture of dialogue. The dialogue factor is the human need for resolving all wars, conflicts and contradictions. Azerbaijan is a supporter of the dialogue, and the strategic line pursued by its political leadership proves that the future of the region and the world depends on the openness to dialogue.
**Keywords**: Azerbaijan, Turkey, Armenia, dialogue, "third party", moral values, peace.

## Giriş

Müasir dövrdə Cənubi Qafqazda ciddi situasiya formalaşmaqdadır. Uzun müddət siyasi leksikonda problematika obyekti olan "Etmənistan-Azərbaycan Dağlıq Qarabağ" münaqişəsi Ermənistan tərəfinin işğalı və destruktivizmi dəstəkləməsinə baxmayaraq fiziki anlamda tarixin arxivinə göndərildi. Biz burada "fiziki anlam" ifadəsini ona görə işlədirik ki, müharibə ideoloji, siyasi, geopolitik kontekstdə hələ bitməmişdir və onun təfəkkürlərdə bitməsi üçün uzunmüddətli ciddi həm nəzəri, həm də praktiki işlər aparılmalıdır. Ancaq təssüf doğuran məqam ondadır ki, bu uzunmüddətli münaqişə Azərbaycanın ciddi səylərinə – humanitar və sülh siyasətinə baxmayaraq Ermənistanın və "proksi" müharibələri dəstəkləyən havadarlarının məkirli siyasəti üzündən müharibəylə başa çatdı. Fakt odur ki, dialoq platformalarında Ermənistan mütəmadi olaraq ortaq məxrəc tapmaq əvəzinə, həmçinin mütəmadi olaraq ölkəmizə qarşı yeni müharibə təhrikləri Ordumuzu hərəkətə keçməyə vadar etdi və qısa bir zaman kəsimində Azərbaycan tərəfi beynəlxalq hüquqa söykənərək öz tarixi ərazilərini işğaldan azad etdi. Lakin hazırda hərbi, siyasi, iqtisadi, mənəvi və s. üstünlüklərinə baxmayaraq Azərbaycan yenə də əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş regional münasibətlərdə Sülh siyasətinə sadiqdir və müxtəlif təzyiqlərə baxmayaraq bu istiqamətdə – Böyük sülh istiqamətində ciddi işlər aparır. Şübhəsiz bu paradiqmal strategiyanın humanist mahiyyətini anlayan istər regional, istərsə də qlobal güclər ölkəmizin sülh siyasətinə dəstək verirlər (hərgah bu dəstək yetərincə deyildir, onların öz aralarında

nüfuz uğurunda ciddi mübarizələri də mövcuddur). Lakin müharibənin yaratdığı yeni situasiyayla barışmayan bəzi destruktiv dövlətlər və Ermənistanın manupulyativ siyasi oyunları göstərir ki, Sülhün bölgəyə gəlişi ciddi mərhələlərdən keçəcəkdir.

Məsələnin digər müsbət tərəfi ondadır ki, siyasi, geostrategi, humanitar analizlər göstərir ki, qarşı tərəfin çoxkombinasiyalı “sülh oyununa” baxmayaraq Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin qazandığı bu Zəfər öz məntiqi sonluğuyla başa çatacaq: Zəngəzur dəhlizinin açılması və Böyük sülhün Cənubi Qafqaza gəlişi çətin mərhələlərdən keçsə də uzaqda deyildir. Bir məsələ xüsusi qeyd edilməlidir ki, müharibənin fiziki anlamda başa çatmasına baxmayaraq hazırda həm beynəlxalq, həm də regional miqyasda nüfuz uğrunda ciddi siyasət və diplomatiya müharibəsi davam etməkdədir. Ona görə də haqlı olaraq mütəxəssislər tərəfindən bütövlükdə region müasir qlobal geosiyasətin episentri kimi dəyərləndirilir. Bu baxımdan Böyük iqtisadi-ticari-tarixi yollar uğrunda (Cənub, Orta və Şimal Yol ) bölgədə qarşı-qarşı dayanan tərəflərin aktivləşməsi başa düşüləndir – böyük güclər yeni yaranan bu reallıqdan bəhrələnmək istəyirlər. Bütün bunlara baxmayaraq Azərbaycanın siyasi rəhbərliyi öz ənənəvi tarixi missiyasına sadiqdir: qlobal təhlükəsizliklər, birgəyaşayış Sülh, bəşəri və qonşuluq dəyərləri hər cür iqtisadi, siyasi və s. maraqlardan üstündür. Yəni söhbət ondan gedir ki, obrazlı desək, bölgədə bir növ “destruktivizm” və “konstruktivizmin” qarşılıqlı mübarizəsi indi məntiqi nəticəsinə yaxınlaşmaqdadır. Ancaq situasiyanın analizi sübut edir ki, qeyri-müəyyənlik uzun müddət davam edə bilməz. Azərbaycanın siyasi rəhbərliyinin dəfələrlə bəyan etdiyi kimi Azərbaycan Respublikası həm regional münasibətlərdə, həm də qlobal əməkdaşıqlarda sülh tərəfdarıdır və əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuimuş bu strategiya bütövlükdə regional sabitliyin, birlik və əməkdaşlığın, dialoq mühitinin yaradılması işində baza rolunu oynayır.

**1. Regional sülh problemi – yeni quruculuq çağırışları.** 2022-ci oktyabr ayının 20-də erməni terrorçların uzun müddət işğal altında saxladığ son daşına kimi dağıdılmış və 44 günlük Zəfər nəticəsində yenidən azadlığa qovuşan Zəngilanda hava limanının açılışı baş tutdu. Bu açılışda Azərbaycanın təbii müttəfiqi və və əvəzedilməz strateji partnyoru Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyıb Ərdoğan geniş tərkibli nümayəndə heyəti ilə iştirak etdi. Azərbaycan Prezidenti İ. Əliyevin təşəbbüsüylə baş tutan açılış mərasimində Türkiyə prezidenti R.T.Ərdoğan bu möhtəşəm tarixi hadisə ilə bağlı öz fikirlərini bildirərkən qeyd etdi ki, “əgər 2 il bun-

dan qabaq Azərbaycan və Türkiyə birlikdə Qarabağın işğaldan azad edilməsi dastanını yazırdısa bu gün Qarabağın inkişaf dastanını yazır".

Bu həqiqətən də fakt və tarixdir: Hazırda Azərbaycan və onun siyasi rəhbərliyi tariximizin heç bir dövrü ilə müqaisəolunmaz şəkildə Qarabağ və Zəngəzur bölgəsində quruculuq dastanlarını yazmaqdadır. Azərbaycan Zəngilan rayonu ərazisində 2021-ci ilin aprel ayında inşasına başlanan beynəlxalq hava limanının 2022-ci il oktyabrın 20-də möhtəşəm açılışı ilə tarixə düşdü. İndi Qarabağ və Şərqi Zəngəzur ərazisində gedən beynəlxalq əhəmiyyətli quruculuq və bərpa işləri haqqında hazırda faktlara əsaslanaraq geniş yazmaq olar. Lakin tədqiqatın həcmini nəzərə alaraq burada yalnız bir və ya bir neçə faktı qeyd edə bilərik ki, Azərbaycan prezidentinin həyata keçirdiyi strateji hədəflərin konseptual analizi göstərir ki, məhz Azərbaycan tarixi indi özünün qızıl dövrünü yaşayır. Faktların statistikasını sadalamaq fikrində olmasaq da, bir xüsusi məsələni vurğulayaq: Təkcə Qarabağda tikilən Füzuli və Zəngilan hava limanları Qarabağın bütövlükdə beynəlxalq logistika, turizm və s. mərkəzinə çevrilməsi üçün son dərəcə həyati əhəmiyyət daşıyan iqtisadi, sosial, geosiyasi hadisədir. Bölgədə aparılan tikinti və quruculuq işləri, yeni yolların, körpü və tunellərin çəkilişi, sosial obyektlərin sürətli inşası və yeni salınan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri göstərir ki, tezliklə Qarabağ özünün əvvəlki şöhrətini nəinki bərpa edəcək, hətta o dünya miqyaslı yeni bir modern yaşayış və turizm mərkəzi kimi regionun fovaritinə çeviriləcəkdir. Onu da qeyd edək ki, bu quruculuq işləri yalnız Qarabağla məhdudlaşmır. Azərbaycan Respublikası faktiki olara indi bölgənin lider dövləti kimi geniş potensiala malikdir o, ciddi şəkildə Asiya və Avropa arasında tarixi "İpək yolu" layihəsinin də inkişafına əvəzsiz təkan verməkdədir. Bu barədə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrinin 2022-ci ildə keçirilən növbəti Sammitində Prezident İlham Əliyev Azərbaycanın bütövlükdə tranzit logistika imkanlarının potensialı barədə bildirmişdir: "Mən həmkarlarıma Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları barədə məlumat vermək istərdim. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib. Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər" [2].

Lakin bir məsələni xüsusi vurğulamaq lazımdır ki, postmüharibə dövrünün reallıqlarından çıxış edərək, yeni çağırışlar kontekstində hazırda bölgədə dialoq mədəniyyətinin formalaşması istiqamətində Azərbaycan ciddi platformalar həyata keçirsə də, təəssüflə qeyd edək ki, bölgədə bəzi dövlətlər əzələ nümayişi göstərərək hərbi təlimlərin keçirilməsinə də start

verirlər. Bu isə şübhəsiz nəqliyyat dəhlizlərinin də taleyinə təsir edən amillərdən olsa da uzun illərin təcrübəsi göstərir ki, Azərbaycanı bu kimi təhdidlərlə özünün strateji hədəflərindən çəkindirmək mümkün deyildir. Bu işlərin ümumi dinamikası və Qarabağ və Şərqi Zəngəzur ərazilərindəki quruculuq işləri, strateji hədəfləri barədə ölkə başçısı qeyd etmişdir: "Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir" [2].

10 noyabr 2020-ci il ikinci Qarabağ savaşı 44 günlük müharibə ilə Azərbaycan Respublikasının birmənalı qələbəsi ilə nəticələndi. Aydındır ki, bu qələbənin başa gəlməsi asan olmadı və onun həyata keçirilməsi uzun müddət sülh dialoq danışıqlar yolu ilə aparılsa da, sonda qarşı tərəfin siyasi, ideologi, hərbi, humanitar destruktiv pozuculuq fəaliyyətinin sürəkliliyi nəticəsində müharibə ilə başa çatdı. Nəticə isə indi artıq hər kəsə bəllidir, yəni 10 Noyabr Bəyənnaməsi əslində Ermənistanın kaputulyasiya sənədidir. 20 mart 2021-ci il tarixində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Şuşa şəhərindən Azərbaycan xalqına müraciəti zamanı bildirmişdir: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cu ildən başlayaraq hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibəti ilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik" [1, s. 107]. İndi faktiki olaraq qalib tərəf kimi Azərbaycan həm müharibədə qələbə qazanmış, həm də öz doğma torpaqlarına qayıdaraq orada genişmiqyaslı bərpa işləri aparır. Problem ondadır ki, bu 28 ilik erməni faşist işğalın nəticələri o qədər qorxuludur ki, hətta xarci ölkələrdən bura gələn qonaqlar belə öz gözlərinə inanmadıqlarını bildirirlər. Ancaq bütün bunlar reallıqdır və Azərbaycan tərəfi tarixi ədaləti bərba etmək üçün müharibə məcburiyyətində qaldı və torpaqlarını güc yoluyla azad etdi. O cümlədən də 8 noyabr 2020-ci il tarixində Şuşa şəhəri də öz azadlığına qovuşdu. Ali Baş Komandan İlham Əliyev bu qələbənin – Şuşa həsrətinin bitməsi münasibətiylə Şuşa şəhərində 2021-ci ildə xalqa Növruz bayramı təbriki zamanıb ildirmişdir: "28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz Bayramını Cıdır düzündə qeyd edirik. Tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də (2020-ci il nəzərdə tutulur – Ş. Z.) Şuşanın Azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən

tərəfindən dağıdıldı, məhv edildi. Şuşanın tarixi siması dağıntılara məruz qaldı. Düşmən Şuşanı ermənileşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi" [1, s. 107]. Daha sonra Ali Baş Komandan tarixi ədalətin bərpasından və erməni alimlərinin, siyasətçiləri və beynəlxalq dairələrdə erməni mifinə dəstək verənləri fakt qarşısında qoyaraq Şuşanın əssını qoymuş Pənahəli xanı hörmətlə yad edərək çıxışında bildirmişdir: "Şuşa bizim qədim şəhərimizdir erməni təbliğatı, saxta alimlər, fırıldağçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də, xeyiri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmə nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib" [1, s. 110]. Yuxarıda qeyd edilənlər göstərir ki, Azərbaycan tərəfi Ermənistandan fərqli olaraq quruculuq, birgəyaşayış və sülh tərəfdarıdır və o öz praktik fəaliyyətiylə bunu bir daha sübut etdi. Qarabağ və Şərqi Zəngəzur əraziləri hazırda hərb meydançasından quruculuq meydanına çevrilmişdir. Bu onu sübut edir ki, ideologiyalar sülhə, quruculuq və birgəyaşayışa, multikulturalizm və birgəmövcudluq fəlsəfəsinə xidmət edərsə bölgədə sülhü bərba etmək olar. Lakin problem ondadır ki, Ermənistan və onu dəstəkləyən bəzi üçüncü qüvvələr sülh prosesində səmimi deyillər.

**2. Postkonflikt dövründə dialoq mədəniyyəti və ideoloji yansımalar.** Ekspertlərin qənaətinə görə indi Azərbaycan həqiqətən də ən yüksək şəkildə sülh danışıqlarına hazır olsa da, Ermənistan və şəri dəstəkləyən qüvvələr bu prosesə müxtəlif yollarla mane olur. Aydındır ki, biz burada problemə fəlsəfi anlamda yanaşdığımız üçün problemin deskriptiv şəkildə mənalandırılmasını deyil, onu fəlsəfi məzmununu interperetasiya etməyə cəhd edirik. Biz yuxarıdkı bölümlərdə sülhün, dialoq mədəniyyətinin, kommunikasiyanın, multikulturalizm və birgəyaşayış fəlsəfəsinin bəşəri mahiyyətindən onun sosial, coğrafi, tarixi, iqtisadi etnopsixoloji xüsusiyyətlərindən bəhs etdik. Analizlər sübut edir ki, müharibədən sonra Azərbaycan tərəfinin sülh tərəfdarı kimi təşəbbüsləri Ermənistanı dəstəkləyən qüvvələr istisna olmaqla həm beynəlxalq ictimayyət, həm də beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanır. Bu dəstəyin təməlində şübhəsiz Prezident İlham Əliyevin strategi siyasəti, onun şəxsi xarizması dayanmaqla yanaşı həm də, bilavasitə Azərbaycanın 30 il ərzində apardığı hümanitar proqramlar və sülhün müdafiəsi işinə strateji yanaşmalar, beynəlxalq proqram kimi qəbul edilən "Bakı prosesi"

və "Azərbaycan modeli"  cərçivəsində humanitar hərəkatla  bağlıdır. Ancaq görünən odur ki, Ermənistan tərəfi ya bunu anlamır, ya da bölgəyə uzunmüddətli sabutliyin gəlməsini istəməyən qüvvələrin təsiri ilə maneələr törədirlər. Məsələn, iki il ərzində baş vermiş regional faktların konstatasiyası göstərir ki, Ermənistan sülh prosesini ləngidir və bu fonda müharibə nəticəsində darmadağın edilmiş hərbi potensialını, daxili və xarixi imicini bərpa etməyə çalışır. 2022-ci  ilin 12-13 sentyabr tarixlərində sərhəddə törədilmiş təxribatlar da erməni revanşizminin  real nümunəsi kimi tarixə düşdü və Azərbaycan ordusunun qarşısında geri çəkilməyə məcbur edildikdən sonra susmağa məcbur oldu. Lakin bu da danılması mümkün olmayan həqiqətlərdəndir ki, bu "susmaq" da müvəqqətidir və sərti sərhəddə atəşkəsin uzunmüddətli olmasına qarantiya yoxdur.

Aydındır ki siyasət "oyundur", lakin siyasi nəzəriyyələr sübut edir ki, bu oyun qaydasız oyun yox, müəyyən qaydalar çərçivəsində həyata keçirilən maraqlar sistemidir.  Bu yanaşma həm də onu sübut edir ki, hazırda dünyada cəmiyyətlər "informasiya" və "modern" cəmiyyəti hesab olunduğundan, indi yalnız tarixin müəyyən dönəmini özündə yaşadan  ənənəvi dünya siyasətini  "köhnə qaydalarla" davam etdirmək mümkün deyildir; yəni faktların ifşası indi elə də çətin  məsələ deyildir. Məsələn hazırda Ermənistan bir tərəfdən sülhdən danışır, digər tərəfdənsə  sərhədlərə hərbi birləşmələr yığır, o biri tərəfdən də xarici dövlətlərdən yeni silah növlərinin almağa ciddi cəhdlə səy göstərir. Bu məqsədlə Ermənistan müdafiə nazirinin Hindistana səfəri və 250 milyon dollarlıq silahların alınması cəhdi göstərir ki, sülh həqiqətən də o qədər də yaxında deyildir**.** Bu isə onu göstərir ki, Ermənistan məğlub olmasına baxmayaraq, aqressiv hərəkətlərindən əl çəkməyəcəkdir; belə dinamika məhz aqressiv siyasət kimi postkonflikt dövrünün ən ciddi problemlərindəndir – Ermənistan alt yapıda Azərbaycana nifrəti dəf etmək iqtidarında deyildir və bu ideologiya, o cümlədən "üçüncü tərəf" problemidir. Başqa sözlə desək, üçüncü tərəflər əksər məqamlarda aqressiyanı dəstəklədiklərindən sülhün bağlanması uzanır.  Maraqlı bir faktı qeyd edək ki, məsələn,   destuktiv siyasət həyata keçirən Ermənistana hazırda Hindistanın  dəstək verməsi qətiyyən başa düşülən deyildir.  Yəni söhbət ondan gedir ki, modern dünyada qeyri-aqressivliyin təbliğatçılarından biri olan hind fəlsəfəsi nümayəndəsi və Hindistanın  təfəkkür qurucularından hesab edilən,  M. Qandi dünyada insanın, siyasətin, münasibətlər sisteminin  qeyri-aqressivliyini təbliğ edərkən vaxtilə, deyirdi: yer üzündə **"nifrətə qarşı nifrətlə cavab vermək nifrətin yayılmasına, dərinləşməsinə səbəb olacaqdır. Daha öncə**

**söylədiklərimi təkrar etdiyimi düşünürəm. Qeyri – aqressivlik dağlar qədər əsgidir”** [3, s. 150].

Təhlükəli məqamlardan biri də həm də ondadır ki, beynəlxalq sferada sülh yaratmaq işinə indi ciddi əngəl yartamağa çalışan qüvvələr həm Zəngəzur dəhlizinin açılmasına, həm də postmünaqişə dövründə sülh prosesinin bağlanılmasına mane olurlar. Konkret faktlara istinad edək: məsələn, Azərbaycan sülh müqaviləsnin konkret layihəsin Ermənistan tərəfinə göndərsə də, qarşı tərəfin sülhə münasibəti imitasiya xarakteri daşıyır. Yaxud, sərhədlərin dəqiqləşdirilməsi məsəsləsi ilə bağlı işçi qrupunun 2022-ci il avqustunda keçirilən Moskva görüşündən sonra hələ də ciddi irəlliləyişə nail olmaması buna əyani sübutdur. Başqa bir probelm ondadır ki, Brüssel prosesi tərəflərdə sülhə ümidləri artırsa da, sonrakı siyasi konyukturalar, o cümlədən, Praqada keçilən dördtərəfli görüşün nəticələinə müdxilələr göstərdi ki, sülhün praktiki qavramı ilə onun fəlsəfəsi arasında ciddi uçurum mövcuddur. Fransa prezidenti E.Makronun Azərbaycana qarşı irəli sürdüyü əsassız ittihamlar sübut etdi ki, Ermənistanla bərabər beynəlxalq sülh prosesinə havadarlıq iddiasında olanlar sülhün imitasiyası ilə məşğuldurlar – üçüncü tərəflər sülhü monopoliyaya almağa çalışırlar. Bəzən bu spekulyasiyanı mütəxəssislər siyasi, iqtisadi coğrafi maraqlarla bağlasalar da, fikrimizcə, bütün bunlar etika və dialoq mədəniyyəti çərçivəsindən kənarda dərk edilə bilməz. Başqa sözlə ifadə etsək, müasir elm və biliyin yaratdığı imkanlar göstərir ki, texnika, elm, hərb sənayesi, nonotexoloji və süni intellektin atılışı insanı tanrıya çevirsə belə onun əxlaq, etika, dəyərlər və mədəniyyətə ehtiyacı aradan qalxa bilməz. Ona görə də M. Qandini xatırlamaq bir daha vacibdır, o, izah edirdi ki, **“əxlaqi dəyərləri gözardı edən iqtisadi fəaliyyətlərin önəmi yoxdur”** [3, s. 191]. Siyasət də, geostrategiya da belədir, əxlaq, hüquq və birgəmövcudluq prinsiplərindən kənar fəaliyyət ideologiyanın əsası ola bilməz. Bu kimi ideologiyalar xalqları uçuruma aparır və biz bunun əyani timsalını Ermənistanın və onu dəstəkləyən qüvvələrin 30 ilə yaxın həyata keçirdidiyi geostrategiyada aydın şəkildə gördük.

Belə bir məqamda bizə aydın olur ki, tarixən “erməni mifinin” yaranmasına inamın arxasında həm də beynəlxalq qüvvələr dayanır, – həm də onların Cənubi Qafqaz uğrunda apardığı oyunların məkirli planları dayanır. Ona görə də burada belə bir sual yaranır: Fransa kimi aqressiv siyasət yürüdən bir ölkənin məhz bu prosesə hansı töhfəsi ola bilər? Praqa görüşünün nəticələrinə istinad edərək, Fransa sərhədlərin müəyyən edilməsi işinə “kömək” məqsədi il öz geniş tərkibli “tərəfsiz nümayəndə” heyətini

göndərmək istəyir ki, bu da aydındır ki, çox təhlükəli bir məqama çevirilə bilər və bu missiyanın şübhəsiz fəaliyyəti sülhü deyil, aqressiyanı dəstəkləmək olacaqdır. Məhz bu səbəblərdən və faktiki olaraq dördtərəfli Praqa görüşündən sonra Fransa prezidenti E. Makronun siyasi etikaya sığmayan Azərbaycana qarşı işlətdiyi ifadələrdən sonra Ali Baş Komandan İlham Əliyevin Fransanın Sülhyaratma prosesində iştirakının qeyri-mümkün olduğunu bildirdi.

Burada biz həqiqətən də bir haşiyə çıxmaı vacib hesab edirik. Fransanın son əsrlər xarici siyasətini analiz edərkən görürük ki, tarixən Fransa ədəbiyyatda kolonalizmə ciddi anlamda meyl edən dövlət kimi xarakterizə olunur. Əslində, burada Makronun erməni sevgisinin də arxasında köhnə kolonalizmə meyil – ideyalar dayanır. Lakin məsələ ondadır ki, Ermənistan tarixi tendensiyada süni şəkildə yaradılmış dövlət olduğundan onun dayanıqlı inkişaf dinamikasından bəhs etmək mümkün deyildir. Yəni burada söhbət ondan gedir ki, hər bir dövlətin yaranma, inkişaf, milli, mədəni, siyasi və s. xüsusiyyətlərində bir sıra ciddi atributları – birləşdirici elementləri olur. Problem ondadır ki, bu elementlər, prinsiplər Ermənistanın dövlətçilik tarixində, nə də ki xalq olaraq sivilizasion ruhunda çatışmır – bu ideologiya problemidir. Biz bu fikirləri burada verərkən qətiyən erməni xalqını aşağılamaq fikrindən uzağıq, əksinə bildirmək istəyirik ki, xalqın etno-psixologi yanılmalara total meyillənməsi onun ideologi kontekstdə yanlış idarə olunması, mifik keçmişə meyillən-dirilməri, xəstə prereoqotivlərin mütəmadi təbliği, irqi üstünlük kimi xəstəliklərə düçar edilməsi və s. amillər dayanır. Fransa kimi qüdrətli dövlətlər isə bu kimi tarixi məqamlardan yararlanmağa həmişə meylli olublar, səbəb kapitalizmin, daha doğrusu imperiya ruhunun həm də alt şurdan dövlət siyasətinə yansımasından gedir ki, biz bunlara əvvəlki tədqiqatlarda, xüsusilə, “Sivilizasiyalararası münasibətlər: problemlər perspektivlər” (2015), “Dialoq mədəniyyəti və müasirlik” (2020) adlı kitablarda ətraflı toxunduğunuzdan burada onları yenidən təkrar etmək istəməzdik. Lakin vurğulamaq istərdik ki, ingilis tarixçi-sosioloqu A. Toynbinin sivilizasiya nəzəriyyəsində irəli sürdüyü konsepsiya “döğulmayan xalqlar ideyası” **(6)** müasir erməni dövləti və xalq ideologiyasını bir növ tamamilə əhatə edir. Əks təqdirdə türklərə və qonşu xalqlara total və əbədi nifrətin biz heç cür mahiyyətini izah edə bilmirik. Məsələ ondadır ki, fransızlarla erməniləri müqayisə də etmək olmur. Məsələn, demokratiyanın beşiyi, marifçilik hərəkatının məhəg daşı, fəlsəfi, ədəbi, tarixi inqilabların və s. vətəni hesab olunan, Didronun (1713-1784), Volterin (1694-1778), M. Fuko (1926-1984) və digər filosofların mədəni

irsini erməni cəfəngiyatıyla paralelləşdirmək azından riyakarlıq olardı. Lakin problem həm də ondadır ki, moderin cəmiyyətlərdən bəhs olunarkən demokratiyanın beşiyindən təcavüzkara verilən dəstək anlaşılan deyildir; Yaxud analizlər sübut edir ki, dövlətçilik, qonşuluq, sülh, dinc yanaşı yaşama və s. məsələlər onsuz da Ermənistan cəmiyyəti və dövləti üçün yarandığı gündən problematika kimi dərk edilir. Bunun səbəbini biz etnopsixologiya və ən əsası ideologiyada axtarsaq da, modern dünyada birlik və bərəabərlik, hüquq və əqlaqi təntənədən, yüksək insani zəkadan bəhs edən "üçüncü qüvvələrin" bu kimi yanlış ideologiyalara dəstək verməsini də qəbul edə bilmirik.

Belə bir kontekstdə istənilən aqressor dövlətə dəstək vermək isə problemi daha da dərinləşdirir sülhün bağlanmasına əngəl olur. Bu isə onu sübut edir ki, dövlətçilik ənənəsinin olmaması, və dövlət anlayışının sütun paradiqmalarının çatışmazlıqları səbəbindən Ermənistanla əslində, sülh probleminin həll edilmə işi heç mümkün də deyildir. Yəni sülhün reallaşması problemi Paşinyan rejimindən, onun admnistrasiyasından tam asılı olmadığından, daha çox onların havadarlarına mədəni, siyasi, geopolitik və s. təsirlər daha effektli ola bilər. Yaxud, əgər Fransa Mokron siyasətindəki birxətli Ermənistan havadarlığını mütəmadi davam etdirərsə, Azərbaycan tərəfi də məcburən öz hərbi arsenalını daha da gücləndirmək məcburiyyətində qalacaqdır. Hər halda Ermənistanın yenidən silahlandırılması hazırda regional sülhün başlıca təhdidlərindəndir. Bu müharibənin yenidə alovlanmasına səbəb ola bilər ki, bu da Ermənistanın tamamilə iflası demək olardı. Ola bilsin ki, proses ona doğru gedir.

**3. Postmünaqişə dövründə geopolitik stuasiya – dialoq və "üçüncü qüvvə" problemi:** Bir daha qeyd edək ki, postkonflikt dövrünün yeni çağrışlarından biri həm də ən "vacibi" ənənəvi siyasətdən gəlir. Məsələnin ən vacib tərəflərindən biri böyük dövlətlərin regionda siyasi, iqtisadi, mədəni, geostrateji və s. maraqlarının həm toqquşması, həm də konyuktur xaraktrrli olması ilə bağlıdır. Başqa sözlə desək, son iki yüz ildə Qafqazın taleyi həmişə böyük imperiyaların maraqlarının kəsişmə nöqtəsi olduğundan bu məsələnin həlli hazırda ciddi aktorların problemə konstruktiv yanaşmasını tələb etsə də ciddi toqquşmalar da qaçılmazdır. Bu baxımdan Türkiyə, Rusiya və İranın, o cümlədən Qərbin də burada maraqlarının toqquması, həm də məcburi olsa da əməkdaşlıqları labüddür.

Bütün bunlar göstərir ki, geopolitik situasiyada hazırda Azərbaycan üçün ciddi üstünlük mövcud olsa da, ona qarşı dayanan təhdidlərin də dəf edilməsi elə də asan məsələ deyildir, lakin siyasi manevrlər və Azərbaycan dövlət başçısının ciddi strateji planları o cümlədən, ölkəmizə qarşı həqiqi

dost ölkələrinin dayanıqlı münasibətləri göstərir ki, qeyd olunan problem öz həllini bu və ya digər şəkildə tapacaqdır. Sülhyaratma işində hazırda Rusiyanın maraqları da ortadadır: *Birincisi*, Moskva Qərbin regiona gəlməsini istəmir, *ikincisi* Türkiyə və Rusiya münasibətlərindəki əməkdaşlıqlar və eyni zamanda rəqabətlilik göstərir ki, Qafqazda onların yaxın zamanlarda əməkdaşlığı yüksələ bilər. Bu amil isə erməni məkri və qərb siyasətinə cavab vermir, lakin Azərbaycan həm də bu əməkdaşlıqda maraqlıdı. Rusiyanın münaqişədən sonra prosesə moderatorluğu əslində başa düşüləndir. Söhbət ondan gedir ki, həqiqətən də 10 Noyabr Bəyənnaməsinin qəbul edilməsi işinin baş aktoru hərəkətverici qüvvəsi əgər Azərbaycan tərəfidirsə, onun həyata keşirilməsi işini də Rusiya təşkil etmişdir ki, bu da Moskva tərəflərin üzərinə həm də böyük bir tarixi məsuliyyət yükü qoymaqdadır. Problemin siyasi-fəlsəfi problematikası ondadır ki, yuxarıda qeyd olunduğu kimi, nə Avropa dövlətlərinin bir çoxu, nə ABŞ, nə də ki, Aİ sülhün bir dövlət tərəfindən "inhisara"- Rusiya tərəfindən alnımasını istəmirlər və onlar istənilən zaman bu məsələ də təpki göstərmək iqtidarındadırlar. Digər ümüdverici məqamlardan ikincisi odur ki, həm Türkiyə tərəfi, həm də Türk Dövlətləri Təşkilatları, o cümlədən BMT və Qoşulmama Təşkilatının əksər üzvləri sülhə tərəfdardırlar. Bu həm də Azərbaycanın mövqeyini möhkəmləndir. Üstəlik Zəngəzur dəhlizinin də iqtisadi əməkdaşlığa yaradacağı resursu nəzərə alaraq Asiya dövlətlərinin, xüsisilə Çini də bu işdə maraqlı edir. Digər bir problem ondadır ki, Qərb həm də Ermənistana "girməyə" israrlıdır. Bunun Fransa timsalında edilməsi isə sülhün taleyini sual altına qoya bilər. Yəni Zəngəzur dəhlizinin açılmaması yaxud onun uzadılması işi, Sülhün təmin edilməsi prosesinin digər məcraya yönəldilməsinə səbəb ola bilər ki, bu da regional təhlükəsizliyin yenidən pozulmasına gətirib çıxara bilər. Bu yolverilməzdir, hər halda Azərbaycan "dostlar" və "düşmənlərin" o cümlədən üçüncü tərəflərin də maraqlarını anlasa da, onun əsas hədəfi bölgədə Böyük sülhün qələbəsidir.

Yəni söhbət ondan gedir ki, insanın, cəmiyyət və dövlətlərin təbiəti elə qurulub ki, sosial, siyasi, mənəvi və s. olaraq "dostlar və düşmənlər bir-birlərinə qarşı olaraq dururlar. Bunların birinci ikinci olmayan, ikinci də birinci olmayandır" [5, s. 80]. Bütün bu müstəvidən kənarda qalanlar isə üçüncü qüvvələr kimi "dostlar" və "düşmənlər" arasında bəzən təsəlli, bəzən ümid yaratsa da onların (üçüncü qüvvələrin) sülhü, dirgəmövcudluq və bəşəri ənənələrdə dialoqu, birgəyaşayışı dəstəkləməsi vacibdir. Başqa formada desək, "orada, kənarda" olmaq, Derridanın dediyi kimi, düşmənləri dəf etmək və qorxutmaq üçün bir əlavədir; həm bu dostların,

hərarətli və təsəlliverici “buradalığına” əlavə, həm də burada olmağın yerindən tərpənməsidir” [5, s. 80]. Bu həm də onu sübut edir ki, dialoq və dialoq mədəniyyəti bəşəri kommunikativ təlabatdır, ziddiyyətlər, müharibə və münaqişələr ola bilsin ki, əbədi təkrarlanan cəmiyyət qanunlarıdır, lakin onların aradan qaldırılması, dialoq müstəvisində həll olunması da insan təfəkkürü üçün açıq bir prosesdir. İnsan, cəmiyyət, dövlət əbədi olaraq tirana çevrilə bilməz. Zəka qanunları bunu inkar deyil, təsdiq edir. Tarixin dinamikası sübut edir ki, əbədi müharibə və münaqişə variantı heç zaman heç bir xalqı xoşbəxt etməmişdir. İqtisadiyyat, siyasət, milli mənsubiyyət və etnik, sivilizasion, dini və s. mədəni irs vacibdir, lakin onların inkişafı və mədəni mübadilələri üçün sülh, əməkdaşlıq və bəşəri birlik də onlara bərabər şəkildə olmalıdır.

Nəticə olaraq yenidən nəzəri mülahizələrə müraciət etməyimiz də bununla bağlıdır: müasir tendensiyaya nəzəri yanaşmalar sübut edir ki, hazırda dünyada sülhü tərənnüm edən qüvvələr müxtəlif münaqişə və müharibələrin dəf edilməsi işində həmahəng deyillər. Ənənəvi “dostlar” və ənənəvi “düşmənlərin” qarşıdurması üçüncü tərəflər üçün bəzən “donor” rolunda iqtisadi atılışa, yeni resursların meydana gəlməsinə - inkişafa səbəb olur. Əlbəttə biz anlayırıq ki, bunun cidi tarixi, sivilizasion, iqtisadi, siyasi, milli, dini etnik və s. seriya mənbələri – səbəbləri mövcuddur. Yəni dünyada ənənəvi olaraq tarixən “dostlar”, “düşmənlar”, yabançılar adlanan bir ümumi qruplaşmalara bölünmüşdür və bu tendensiyanı müsbət məcraya, böyük dialoq müstəvisinə yönəltmək elə də asan məsələ deyildir. Başqa formada desək, şüurlarda formalaşan tarixi arxetipləri təfəkkür-lərdən silmək, aradan qaldırmaq elə də asan iş deyildir. Üstəlik buraya modern dünyanın digər problemlərini də əlavə edərkən **aydın olur ki, müasir** mədəniyyət, dəyərlər, birgəyaşayış və s. kimi anlayışlar bir növ bəzi cəmiyyətlərdə öz mənəvi əsaslarını itirməkdədir. Ona görə də, söhbət münaqişələrin həlli və postmünaqişə dövrünün çağırışlarından gedərkən yeni bir paradiqmanın zəruriliyi aydın görünür və düşüncəmizə görə bu paradiqma da məhz fəlsəfədən, aydın zəka və aqressivlikdən kənar xoş məramdan, dialoq mədəniyyətinə inamdan gələ bilər. Ona görə də məqalədə məhz dialoqun nəzəri- praktik təzahürlərindən – Azərbaycan paradiqmasının postmünaqişə dövründə həyata keçirilmə strategiyasından bəhs etməklə sübut etməyə çalışdıq ki, istənilən müharibə, münaqişə və ziddiyyətlərin həllində məhz dialoq amili bəşəri təlabat kimi çıxış edir. Azərbaycan dialoq tərəfdarıdır və onun siyasi rəhbərliyinin həyata keçirdiyi strategi xətt sübut edir ki, rügionun, dünyanın gələcəyi dialoqa açıqlıqla bağlıdır.

**Ədəbiyyat**

1. Böyük Qayıdış Prezident İlham Əliyevin İşğaldan azad edilmiş rayonlara tarixi səfərləri I kitab Şərq-Qərb nəşriyyatı 2021-ci il 332 səhifə

2. Əliyev İ. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/57276

3. Mahatma Q. "Bütün insanlar qardaşdır", Bakı, "Sivilizasiya və Marifçilik" İctimai Birliyi, 2011, 246, s.

4. Zeynalov Ş. Ə. Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər. Bakı: Oğuz Eli nəşriyyatı, 2014, 240 s.

5. Zygmunt Bauman "Moderinlik və Mübhemlik" (Ayrıntı yayınları. İstanbul Topkapı/Zeytinburnu) tərcümə-2020, 400 s.

6. Тойнби А.Дж. Цивилизация перед судом истории. Москва, 2003, 512 с.

UOT-32.308

**Elmira Əliseyran qızı Təhməzova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
böyük elmi işçisi,
Bakı, C.Xəndan küç., 14 a, mən. 4
ematahmazova@gmail.com
https//orcid.org000-oo2-8590-6711

# İSLAHAT – SOSİAL-SİYASİ NİZAMIN OPTİMALLAŞDIRILMASI VƏ MÖVCUDLUQ TƏLƏBİ KİMİ

**Xülasə**

*Məqaldə məqsəd* müasir cəmiyyətdə ictimai-siyasi həyatın bütün sahələrində islahatların həyata keçirilməsinin zəruriliyinin diqqətə çatdırılmasıdır.

*Tədqiqatın metodları və metodologiyası.*

Tədqiqat müqayisəli təhlil və sistem yanaşma metodlarına əsaslanaraq aparılmışdır.

*Problemin işlənmə dərəcəsi.*

Mövzuya dair islahatlar haqqında verilən qanun və fərmanlar, bir çox müəlliflərin məqalələri araşdırılır.

*Elmi yenilik.*

Məqalədə Azərbaycanda aparılan siyasi islahatların əsas mahiyyəti, ideya və prinsipləri, günümüzdə həllini tapan siyasi islahatların nəticələri ətraflı təhlil edilib. Azərbaycandakı siyasi islahatların strateji vəzifələri araşdırılıb.

**Nəticə:**

Azərbaycanda siyasi islahatlar həm iqtisadi, həm sosial-mədəni, həm də milli mənliyimizin qorunub inkişaf etməsi üçün mühüm şərtlərdən hesab olunur. Bu islahatların həyatımızda oynadığı rol 44 günlük Vətən Müharibəsinin qələbəsini şərtləndirən əsas amillərdən biri oldu. Siyasi islahatların nəticəsidir ki, ölkədə siyasi sabitlik əldə olunmuşdur. Bu da qələbəmizin əsas amillərindən hesab olunur.

**Açar sözlər:** islahat, siyasi, sabitlik, inkişaf, strateji, ictimai-siyasi.

**УДК-32.308**

**Эльмира Алисейран гызы Тахмазова**
доктор философии по философии,
старший научный сотрудник
Института философии и социологии НАНА
Баку, Бинагадинский р/н, ул. Хандана, ул. 14а, кв.4.
E-mail: ematahmazova@gmail.com
https://orcid.org000-oo2-8590-6711

# РЕФОРМА – КАК ОПТИМИЗАЦИЯ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОГО ПОРЯДКА И НАЛИЧНАЯ ПОТРЕБНОСТЬ

**Резюме**

*Цель статьи* - обратить внимание на необходимость проведения реформ во всех сферах общественно-политической жизни современного общества, поскольку роль реформ в развитии современного общества неоспорима.

*Методы и методология исследования.* Исследование проводилось на основе сравнительного анализа и методов системного подхода.

*Степень разработанности проблемы.* Рассматриваются законы и Указы о реформах, анализируются статьи многих авторов на эту тему (Абасов А., Аббасов А., Миркишили Т. и др. авторы указаны в списке литературы)

*Научная новизна*. В статье впервые рассмотрены основная сущность, идеи и принципы политических реформ в Азербайджане, а также представлены результаты политических реформ, которые были осуществлены на сегодняшний день. Эти результаты очевидно свидетельствуют в пользу постоянного проведения политических реформ. В статье также отмечена необходимость исследования принципов и стратегических задач политических реформ в Азербайджане.

**Результаты**.

Проведение политических реформ в Азербайджане считается одним из важнейших условий сохранения и развития нашей экономической, социокультурной и национальной идентичности. Роль, которую сыграли эти реформы в нашей жизни, являются одним из главных факторов, определивших победу в 44-дневной Отечественной войны. В результате всесторонней разработки и проведения многочисленных

политических реформ в стране достигнута устойчивая стабильность. И этот фактор стал одной из главных причин нашей победы.
**Ключевые слова**: политическая реформа, политическая стабильность, развитие, стратегия, общественно-политическая деятельность.

**UOT-32.308**

**Elmira Takhmazova**
PhD, Senior Researcher,
Institute of Philosophy and Sociology of ANAS
Baku, Binagadi district, Khandana St, 14a, m 4.
E-mail: ematahmazova@gmail.com
https://orcid.org000-oo2-8590-6711

## REFORM AS AN OPTIMIZATION OF SOCIO-POLITICAL ORDER AND A PRESENT NEED

**Abstract**

*The purpose of the article* is to draw attention to the need for reforms in all spheres of socio-political life of modern society, because the role of reforms in the development of modern society is undeniable.

*Research methods and methodology*. The study was conducted on the basis of comparative analysis and methods of systematic approach.

*The degree of development of the problem*. The laws and decrees on reforms are considered, the articles of many authors on this topic are analyzed (Abasov A., Abbasov A., Mirkishili T. and other authors are indicated in the list of literature)

*Scientific novelty*. In the article, for the first time the basic essence, ideas and principles of political reforms in Azerbaijan are considered, and also results of political reforms which have been carried out for today are presented. These results obviously testify in favor of the constant implementation of political reforms. The article also notes the need to study the principles and strategic objectives of political reforms in Azerbaijan.

**Results**.

The implementation of political reforms in Azerbaijan is considered one of the most important conditions for the preservation and development of our economic, sociocultural and national identity. The role played by these reforms in our life is one of the main factors that determined the vic-

tory in the 44-day Patriotic War. As a result of the comprehensive development and implementation of numerous political reforms, the country achieved sustained stability. And this factor was one of the main reasons for our victory.

**Keywords**: political reform, political stability, development, strategy, socio-political activity.

**Giriş**

O vaxt Azərbaycan Respublikasının Ali Sovetinin Sədri Heydər Əliyev Azərbaycan Respublikası Milli məclisinin 1993-cü il 15 iyun tarixli iclasında çıxış edərək demişdir:... "Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitutsiyanın pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdı." ["Heydər Əliyev irsi", Beynəlxalq Elektron kitabxana, Bakı, 2004. Səh 10].

Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətinin qorunması davamlı inkişafın təminatında əhəmiyyətli rol oynayır. Elə ölkələr var , iqtisadi inkişafı ilə diqqət çəkir, amma orada demokratik islahatlar aşağı səviyyədədir. Elə ölkələr də var ki, onlarda demokratik inkişaf geniş vüsət alsa da, iqtisadi tərəqqidən danışmaq qeyri-mümkündür. Həmin ölkələrdən fərqli olaraq Azərbaycanın bu vəhdəti qoruması beynəlxalq səviyyədə də təqdir olunur. Uğurlarımıza söykənərək bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dövlətimizin başçısının həyata keçirdiyi islahatlar kursu çərçivəsində siyasi sistemin yeni formalaşması xüsusi əhəmiyyət kəsb edir. Hakimiyyətin hər üç qolunda - qanunvericilik, icra və məhkəmə-hüquq sistemlərində islahatlar yeni hədəflərin gerçəkləşməsini şərtləndirir. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, Milli Məclisdə kadr islahatlarının həyata keçirilməsində, həmçinin bir sıra şöbələrin birləşdirilməsində, eyni zamanda, yenilərinin yaradılmasında məqsəd qarşıya qoyulan hədəflərə çatmaq, yeni prioritetlər müəyyənləşdirməkdir. Prezident Administrasiyasında həyata keçirilən dəyişiklik nəticəsində Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da hakimiyyətin siyasi islahatların daha da təkmilləşdirilməsində son dərəcə maraqlı olmasından xəbər verir.

Prof. Ə.Abasov "Dünyada və postsovet dövlətlərində islahatların fəlsəfəsi" məqaləsində onun mahiyyətini açıqlayaraq yazır: Müvəqqəti qar-

şılıqlı əlaqə nöqteyi-nəzərindən islahat məqsəd kimi qarşıya qoyulan gələcəyin vəziyyətinə nail olmaq üçün keçmişin təcrübəsinə əsaslanaraq indiki zamanda zəruri transformiyalar sistemidir. [Dünyada və postsovet dövlətlərin islahatların fəlsəfəsi" Müasir islahatlar: Ümumfəlsəfi əsaslar. Bakı, 2022, səh 29]. Deməkki, islahat cəmiyyətin yeniləşməsi tələbindən və prosesindən doğan reallıqdır. Milli məclisin üzvü Mirkişili isə islahatları belə izah etmişdir:

- İslahat dövlətin mövcud siyasi və iqtisadi strukturunun təkmilləşməsi, yenidən qurulması üçün kompleks tədbirlər məcmusudur. (T.Mirkişili. İslahat nədir? Modern.az)

Bu gün siyasi partiyalarla hakimiyyət arasında dialoqun formalaşması təqdirəlayiqdir, Azərbaycanın uğurlu inkişafı, beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmləndirilməsi üçün olduqca mühüm addımdır, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti parlamentdə təmsil olunan, həm də parlamentdən kənarda fəaliyyət göstərən siyasi partiya rəhbərləri ilə silsilə görüşləri Azərbaycan hakimiyyətinin iqtidarla siyasi partiyalar arasında dialoq mühitinin formalaşmasında və möhkəmləndirilməsində maraqlı olmasının əyani təzahürüdür.

1. Azərbaycanda siyasi islahatların vacibliyi məsələsi.

Hələ 2018-ci ilin prezident seçkilərindən öncə ölkə başçısı tərəfindən köklü siyasi islahatların həyata keçiriləcəyinə öz çıxışında söyləmişdi.

Prezident İlham Əliyev sosial-iqtisadi islahatlarla yanaşı siyasi islahatların da canlandırılmasının vacibliyini qeyd etmiş və seçkilərdən sonra dövlət quruculuğu sahəsində demokratik proseslərin dərinləşəcəyini vəd etmişdi. Həmin seçkilərdən sonra ölkəmizin həyatında baş verənlər ölkə başçısı tərəfindən aparılan siyasətin düşünülmüş və dəqiq nəticəyə hesablanmış layihələrə əsaslandığını və bu proseslərin hər bir vətəndaşın şəxsi həyatında öz müsbət təzahürünü tapdığını göstərir.

İqtisadi-sosial sahədə daha öncədən başladılmış geniş miqyaslı islahatlar bu illər ərzində bir sıra hökümət qurumlarının - nazirliklərin və komitələrin fəaliyyətində əsaslı dönüş yaratdı. Yüz minlərlə mövcud iş yerlərinin leqallaşdırılması və eyni zamanda yüz minlərlə yeni iş yerlərlərinin yaradılması dövlət büdcəsinə daxil olan vəsaitlərin həcmini əhəmiyyətli dərəcədə artırdı. Nəticə isə gözlənildiyi kimi xalqın mənafeyinə xidmət etdi: minimum əmək haqqı artırıldı, pensiyaların və aztəminatlı ailələrə göstərilən sosial yardımın həcmi artırıldı, bütün ölkə ərazisində icbari tibbi sığortaya keçid baş tutdu. Kənd təsərrüfatının, yol-nəqliyyat infrastrukturunun, dövlət xidmətləri sektorunun genişləndirilməsi və müasirləşdirilməsi əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Keçirilən parlament seçkiləri siyasi islahatların yeni mərhələsinə başlanğıc verdi. Ölkənin müxtəlif siyasi fikir cərəyanlarını təmsil edən çoxsaylı namizədlərin böyük həvəslə iştirak etdiyi parlament seçkiləri fəallıq şəraitində keçdi. Seçkilərin nəticələrinin təsdiq olunması prosesi də yeni metodologiyaların tətbiqi ilə yadda qaldı. Səsvermə və səslərin sayılması proseslərində seçki qanunlarının pozulması iddia olunan dairələrin nəticələri ləğv olundu və beləliklə, nəticəsi şübhə doğuran seçki dairələrində vətəndaşlara təkrar seçkilərdə iştirak edərək öz iradələrini tam azad və demokratik şəraitdə yenidən ifadə etmək üçün fürsət yaradıldı. Parlamentin yeni tərkibi əvvəlki illərdən fərqli bir reallığı ortaya çıxardı. Müstəqilliyimizin ilk illərindən başlayaraq formalaşmaqda və təkmilləşməkdə olan plüralist cəmiyyətin bütün siyasi palitrası öz əksini yeni parlamentdə tapdı. Belə bir parlamentin köhnə qaydalarla fəaliyyət göstərməsi artıq mümkün deyildi. Parlamentdə təmsil olunan bütün siyasi qüvvələr arasında aparılan dialoq parlament idarəçiliyində müsbət nəticələrə səbəb oldu. Hakim partiyanın təmsilçiləri ilə yanaşı müxalifət və müstəqillər bloklarını təmsil edən deputatlar da parlament komitələrinin idarə olunmasında və eləcə də Milli Məclisin rəhbərliyində yer aldılar. 6-cı çağırış Milli Məclisin ölkəmizin siyasi həyatına gətirdiyi ən önəmli yenilik isə müstəqilliyimizin bərpasından sonra ilk dəfə parlamentə xanım deputatın sədr seçilməsi oldu. Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququnu tanıyan Azərbaycan öz tarixi dövlətçilik ənənələrinə sadiqliyini bir daha nümayiş etdirdi. Ölkəmizdə çoxpartiyalı sistemin inkişafını və bütün siyasi partiyaların dövlət quruculuğu proseslərində eyni səviyyədə fəal iştirakını təmin etmək baxımından bütün baş verənləri inqilabi dəyişikliklər də adlandırmaq olar. Bu gün iqtidar və ya müxalif yönümlü olmasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öz fikirlərinin, düşüncə və istəklərinin təmsilçisini parlamentdə və onun idarəçiliyində görə bilir. Bu xalq-dövlət vəhdətinin ən mükəmməl ifadə forması olmaqla yanaşı həm də modern siyasi mədəniyyətin göstəricisidir.

İslahatlar bu gün də davam etdirilir. Parlament seçkilərindən sonra ölkə rəhbərinin təşəbbüsü ilə başlanan geniş siyasi dialoq mühiti cəmiyyət daxilində qarşılıqlı etimadın güclənməsinə xidmət etməklə bərabər həm də müxalifət və iqtidar qüvvələri arasında münasibətlərin qarşıdurma rejimindən əməkdaşlıq platformasına keçməsinə bir çağırışdır. Qərəzli qarşıdurmanın heç bir halda və cəmiyyətin heç bir təbəqəsinə fayda gətirməyəcəyini başa düşən siyasi qüvvələr bu çağırışa cavab olaraq ölkəmizin milli maraqlarına xidmətə köklənmiş əməkdaşlığa qoşulurlar.

Ölkənin siyasi mühitində baş verən dəyişikliklər hakimiyyətin bütün qollarının fəaliyyətinə də öz təsirini göstərməkdədir. Azərbaycana qarşı

qara piar kampaniyaları aparan xarici qüvvələrin təsirini də neytrallaşdırır və onları dövlətimizə təzyiq etmək üçün istinad etdiyi arqumentlərdən məhrum etmiş olur.

Ölkənin siyasi həyatında fəal rol oynamağa iddialı olan hər bir qurumla dialoq bu gün də davam etdirilməkdə və öz faydasını verməkdədir. Verilən məlumatlara görə artıq 50-ə yaxın siyasi partiya və təşkilatın rəhbərləri iqtidar təmsilçiləri ilə görüşüb və ölkədə ictimai-siyasi mühitin sağlamlaşdırılması üçün atılmalı addımları müzakirə ediblər. Bu hər şeydən əvvəl, ölkə rəhbərliyinin cəmiyyətdə qarşılıqlı anlaşmanın və ictimai-siyasi sabitliyin təmin olunması üçün siyasi dialoq ideyasına sadiqliyinin göstəricisidir. Bunu Prezident Ilham Əliyevin yeni Baş prokuroru qəbul etdiyi zaman dediyi sözlər də bir daha təsdiq edir: "Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır...Hakimiyyət tərəfindən təklif edilmiş dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir..."

"Radikal" və ya "mülayim" adlandırılmasından asılı olmayaraq bütün siyasi qüvvələrin bu fürsətdən yararlanaraq yeni siyasi barış mövqeyinə gəlməsi sözün əsl mənasında milli maraqlara xidmət nümunəsi oldu. Bütün siyasi qüvvələrin qarşılıqlı faydalı əməkdaşlığa doğru addımlar atması ən ümdə problemlərimizin həlli istiqamətində də dövlətimızin mövqeyini kifayət qədər möhkəmləndirmiş oldu.

Prof. Ə.Abbasov bu məqamda məqalələrinin birində demişdir: "Uğurlu nəticələrə səbəb olmuş islahatlar təcrübəsinəbir əlamətdar cəhət ondan ibarətdir ki, əksər hallarda biz onu ya görmürük, ya da görüb laiqincə anlamırıq. Söhbət islahatların milli səciyyəsindən gedir. Tarixi praktika əyani surətdə göstərir ki, milli səciyyədən kənar, ümumiyyətlə, heç bir ictimai layihə, nəzərdə tutulan modernləşmə özünü doğruldub reallaşa bilməz ". [Ə.Abbasov. Ön söz əvəzi: İslahatlar mövcudluq üsulu kimi. Müasir islahatlar: Ümumifəlsəfi əsaslar. Bakı, 2022, səh. 18].

Bütün ölkələr üçün gözlənilməz olan qlobal pandemiyanın ilk günlərindən başlayaraq Prezident İlham Əliyevin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans müşavirəsində dövlət başçımızın söylədiyi giriş nitqi təkcə mövcud vəziyyətin, əldə olunmuş nailiy-

yətlərin dilə gətirilməsi baxımından deyil, həm də qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi, perspektiv fəaliyyət istiqamətlərimizdə daha çox hansı məqamlara diqqət yönəltməli olduğumuzu göstərən tarixi sənəd kimi yaddaşlara yazıldı. Prezident xatırlatdı ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta inkişaf etmiş ölkələr koronavirus bəlası ilə bağlı böyük problemlərlə üzləşiblər. Ancaq ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Bu gün həm ölkəmizdə, həm də beynəlxalq aləmdə hamı yaxçı bilir ki, əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, indi ölkəmizdə xəstələrin sayı min yox, bəlkə də 10 min, 20 min ola bilərdi. Çünki heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilmir. Prezident bir daha xatırlatdı ki, bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır.

Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Siyasi islahatların aparılması bundan sonra da imkanlarımızı daha da genişləndirəcək. Bu islahatların gözəl nəticələrini görürük.

Pandemiya ölkə iqtisadiyyatına vurduğu ziyandan, həmin fəsadların aradan qaldırılması məqsədilə həyata keçirilən genişmiqyaslı tədbirlərdən, xüsusən, əhalinin sağlamlığının və sosial müdafiəsinin qorunması istiqamətində görülən işlərdən söz açan dövlət başçısı milyonlarla insanın sabaha olan inam və ümidini artıracaq nikbin məqamlara da diqqət yönəltmişdir. İslahatların böyük hissəsi icra edilmişdir. Əslində, islahatların yeni mərhələsinə start 2018-ci ilin prezident seçkilərindən sonra verilmişdir İ.H.Əliyev onuda qeyd etmişdir ki, mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır - həm siyasi müstəvidə, iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək" [Azərbaycan Respublikasının Prezidentiİlham Heydər oğlu Əliyevin Andiçmə Mərasimində nitqi. 31 oktyabr 2003-cü il – "Heydər Əliyev irsi" Beynəlxalq Elektron kitabxana. 2004, s. 61-69].

Azərbaycan bundan sonar da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Siyasi və iqtisadi islahatlar parallel aparılarkən, doğurdan da, böyük uğurlara imza atılacaq.

Məlum olduğu kimi, ölkəmizdə kifayət qədər struktur islahatları aparılıb və dövlət başçımızın fikrincə, struktur islatlarının davam etdirilməsi məsələlərinə yenə də baxılmalıdır. Siyasi və kadr islahatlarının nəticələrinin göz qabağında olduğunu söyləyən dövlət başçısı Prezident İ.Əliyev. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edildiyini xatırladaraq: “Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsəd güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin. Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə, biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır”.

Xatırladaq ki, parlament seçkisi Prezident İ.H.Əliyev də öz nitqində həmin məqama toxunaraq bildirib ki, parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır: “Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq müxalifət nümayəndəsi Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır. Eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək.

Yeri gəlmişkən, bir məqamı da xüsusilə vurğulayaq ki, bu gün Azərbaycanda siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, xalqımızın və dövlətimizin əsas məqsədidir. Fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bi amal müqəddəs olmalıdır. O da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunar.

Ölkədə aparılan siyasi islahatların mühüm nəticələrindən biri də məhz iqtidar partiyası ilə müxalif partiyalar arasında siyasi dialoqun başlan-

masıdır. Xalq əmindir ki, bu dialoq ölkəmizin bütün problemlərini həllinə öz müsbət təsirini göstərəcəkdir.

44-günlük Vətən müharibəsi zamanı vətənimizin torpaqlarının azad olunmasında gördüyümüz milli birlik bunun açıq bariz nümunəsidir.

**Nəticə**

Məqalədə qoyulan məsələlərdən belə nəticəyə gəlmək olar ki, bir proses kimi islahatların fundamental məqsədi sistemin əsasları dəyişdirilmədən bir qisminin transformiyasını nəzərdə tutaraq, cəmiyyətdəki mexanizmlərin səmərəli fəaliyyətini və bu cəmiyyətdə təmərküzləşən subyektlətin həyat şəraitinin yaxşılaşdırılmasını təmin etməkdir. Onu da qeyd etmək lazımdır ki, islahatlar gedişində siyasi sistemin əsasları dəyişilmədən bir hissəsi dəyişdirilir. 2020-ci ildə 44 günlük Vətən Müharibəsində əldə olunan qələbə həm də siyasi islahatların, yəni dövlət strukturunda, nazirliklərdə, hərbi dövlət strukturunda, nazirliklərdə, hərbi sahədə baş vermiş uğurlu yeniləşmənin bir nəticəsidir. Eyni zamanda bunlardan ən əsası isə sabitlik təhlükəsiz və müasir dünya miqyasında ölkəmizin beynəlxalq nüfuzunu-nartmasıdır.

**Ədəbiyyat**


1. H.Ə.Əliyev – Azərbaycan Respublikasının Ali Sovetinin Sədri H.Ə.Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasında çıxışı. “Heydər Əliyev irsi”. Beynəlxalq Elektron kitabxana. 2004. S.10
2. Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin Andiçmə Mərasimində nitqi. 31 oktyabr 2003-cü il “Heydər Əliyev irsi”. Beynəlxalq Elektron kitabxana. Səh 61-69.
3. Ə.Abasov – “Dünyada və postsovet dövlətlərində islahatların fəlsəfəsi”. “Müasir islahatlar: Ümumfəlsəfi əsaslar., AMEA Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, “Optimist MMC”, 2022. Səh.29
4. Ə.Abbasov – Ön söz əvəzi, İslahatlar mövcuddur üsulu kimi. Müasir islahatlar : Ümumfəlsəfi əsaslar, AMEA. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, “Optimist” MMC. 2022, səh.18.
5. T.Mirkişili. İslahat nədir? Bakı 2023. Modern.az


**References**


1. H.A.Aliyev – Azerbayjan Respublikasinin Ali Sovetinin Sedri H.A.Aliyevin Azerbayjan Respublikası Milli Mejlisinin 1993-jü il

15 iyun tarixli ijlasinda chixishi. “Heyder Aliyev irsi”. Beynelhalk Elektron kitabhane. 2004. S.10

**2.** Azerbayjan Respublikasinin Prezidenti İ.H.Aliyevin Andichme Merasiminde nitqi. 31 oktyabr 2003-jü il “Heyder Aliyev irsi”. Beynelhalk Elektron kitabhane. Seh 61-69.

**3.** A.Abasov – “Dunyada və postsovet dovletlerinde islahatlarin felsefesi”. “Muasir islahatlar: Umumfelsefi esaslar., AMEA Muasir felsefe problemleri shobesi. Bakı, “Optimist MMC”, 2022. Seh.29

**4.** A.Abbasov – On söz evezi, İslahatlar movjuddur usulu kimi. Muasir islahatlar : Umumfelsefi esaslar, AMEA. Muasir felsefe problemləri shobesi. Baki, “Optimist” MMC. 2022, seh.18.

**5.** T.Mirkishili. İslahat nedir? Baki 2023. Modern.az

**UOT – 316**

**Qüdsiyyə Nüsrət qızı Əliyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
Müasir fəlsəfə problemləri şöbəsinin böyük elmi işçisi, fəls.ü.f.d.
AZ 1073, Azərbaycan, Bakı, H.Cavid 115
Tel: +994505431377
e-mail: abbasliaysun9@gmail.com
https://orcid.org/0000-0002-9335-3491

# İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFI VƏ SOSİAL-SİYASİ İSLAHATLAR PROBLEMİ

**Xülasə**

İnformasiya cəmiyyətinin inkişaf fəlsəfəsi müxtəlif fəlsəfi, sosioloji nəzəriyyə və konsepsiyaları özündə birləşdirən mürəkkəb və çoxşaxəli məsələdir. Əsas ideyalardan biri ondan ibarətdir ki, informasiya cəmiyyəti iqtisadiyyatı, siyasəti, mədəniyyəti və bütövlükdə cəmiyyəti transformasiya etmək üçün böyük potensiala malik olan informasiya texnologiyalarının sürətli inkişafı ilə xarakterizə olunur. Bununla belə, informasiya cəmiyyətinin inkişafı onun tam inkişafına mane ola biləcək bir sıra problem və çağırışlarla da üzləşir. Biz məqalədə bu məsələləri araşdırdıq.

*Metodologiya*: statistik təhlil, ekspert mühakiməsi, ictimai rəyin öyrənilməsi, keys tədqiqatları, müqayisəli təhlil.

**Açar sözlər**: informasiya cəmiyyəti, inkişaf fəlsəfəsi, informasiya texnologiyaları, texnoloji tərəqqi, informasiya inqilabı

**УДК - 316**

**Гудсия Нусрет гызы Алиева**
доктор философии по философии, научный сотрудник
отдела Проблемы современной философии
Института флософии и социологии НАНА
Адрес: AZ1073,Азербайджан, Баку, просп. Г. Джавида, 31.
E-mail: abbasliaysun9@gmail.com
https://orcid.org/0000-0002-9335-3491

# РАЗВИТИЕ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА И ПРОБЛЕМА СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ РЕФОРМ

**Резюме**

Философия развития информационного общества является сложной и многогранной проблемой, которая включает в себя различные философские и социологические теории и концепции. Одна из основных идей заключена в том, что информационное общество характеризуется быстрым развитием технологий, которые имеют огромный потенциал для реформирования экономики, политики, культуры, государства и общества в целом. Однако трансформация информационного общества сталкивается с рядом проблем и вызовов, которые могут препятствовать его полноценному развитию.

*Цель и задачи статьи* - исследовать проблемы, препятствующие полноценному развитию информационного общества.

*Степень разработанности темы:* см. Библиографию, представленную в конце статьи.

*Методология*: статистический анализ, экспертные оценки, исследования общественного мнения, кейс-исследования, сравнительный анализ.

*Новизна исследования*. Представлен общий философский анализ проблем развития информационного общества. Рассмотрены и систематизированы основные философские принципы исследования информационного общества.

**Выводы**. В результате исследования представлены некоторые проблемы развития информационного общества:

1. Существует неравенство в доступе различных слоев общества к информационным технологиям.

2. Резкое снижение конфиденциальности данных и свободный доступ к ним становятся одной из главных проблем, приводящих к нарушению прав и свобод человека.

3. Неограниченные возможности распространения дезинформации, ложных и непроверенных данных может привести к панике, неправильным решениям и другим негативным последствиям.

4. Развитие информационных технологий требует определенного уровня цифровой грамотности, доступность к которой носит избирательный характер.

5. Чрезмерная зависимость от технологий может привести к проблемам со здоровьем и социальной изоляции.

Крупные технологические компании становятся все более могущественными и влиятельными, ставя под угрозу в своих целях характер и методы выражения свободы мнений в обществе.

**Ключевые слова:** информационное общество, философия развития, философия реформ, информационные технологии, технический прогресс, информационная революция.

**UDC- 316**

**Gudsiya Aliyeva**
PhD in Philosophy,
Researcher of the Department "Problems of Modern Philosophy",
Institute of Philosophy and Sociology of ANAS
Address: AZ1073, Azerbaijan Republic, Baku, H. Javid Ave, 31.
E-mail: abbasliaysun9@gmail.com
https://orcid.org/0000-0002-9335-3491

# THE DEVELOPMENT OF THE INFORMATION SOCIETY AND THE PROBLEM OF SOCIO-POLITICAL REFORMS

**Abstract**

The philosophy of the information society development is a complex and multifaceted problem, which includes various philosophical and sociological theories and conceptions. One of the main ideas is that the information society is characterized by the rapid development of technologies, which have enormous potential for reforming the economy, politics, culture, state and society as a whole. However, the transformation of the information society faces a number of problems and challenges that may hinder its full development.

*Purpose and objectives of the article* is to investigate the problems that hinder the full development of the information society.

*Degree of the development of the topic*: see the bibliography presented at the end of the article.

*Methodology*: statistical analysis, expert assessments, public opinion research, case studies, comparative analysis.

*Novelty of the research*. The article presents a general philosophical analysis of the problems of the information society development. Basic philosophical principles of the information society research are considered and systematized.

**Conclusions**. As a result of the study some problems of the development of the information society are presented:

1. There is an inequality in access of different strata of society to information technologies.

2. Sharp decrease in confidentiality of data and free access to them becomes one of the main problems leading to the violation of human rights and freedoms.

3. Unlimited possibilities of spreading misinformation, false and unverified data can lead to panic, wrong decisions and other negative consequences.

4. The development of information technologies requires a certain level of digital literacy, access to which is selective.

5. Over-dependence on technologies can lead to health problems and social exclusion.

Large technological companies are becoming increasingly powerful and influential, jeopardizing the nature and methods of freedom of expression in the society for their own purposes.

**Keywords**: information society, development philosophy, philosophy of reform, information technologies, technological progress, information revolution.

## Giriş

İnformasiya cəmiyyətinin inkişaf fəlsəfəsi informasiya və texnologiyanın bəşəriyyət üçün əhəmiyyətini dərk etməkdən ibarətdir. O, texnoloji tərəqqinin və informasiyanın yayılmasının cəmiyyətin inkişafına və dünya haqqında anlayışımıza necə təsir etdiyini təsvir edir.

İnformasiya cəmiyyətinin əsas problemlərindən biri informasiyanın həddən artıq yüklənməsi problemidir. Müasir dünya daim artan və dəyişən

informasiya ilə zəngindir. Bu, məlumatların işlənməsi üçün həddindən artıq yüklənməyə və vaxtın olmamasına səbəb ola bilər ki, bu da işin səmərəliliyini və keyfiyyətini azaldır.

İnformasiya cəmiyyətinin digər problemi məxfilik və informasiya təhlükəsizliyi problemidir. İnformasiyanın artması və internetin istifadəsi ilə kibertəhlükəsizliklə bağlı təhdidlərin sayı artır. Hakerlər və digər müdaxiləçilər şəxsi məlumatlara giriş əldə edə bilər ki, bu da insanlar və təşkilatlar üçün ciddi nəticələrə səbəb ola bilər.

İnformasiya və texnologiyaya çıxışın qeyri-bərabərliyi problemini də qeyd etmək lazımdır. Dünyanın bəzi insanları və regionları lazımi texnologiyalara və informasiyaya çıxışın olmaması səbəbindən informasiya cəmiyyətinin gətirə biləcəyi faydalardan kənarda qala bilər.

Ümumiyyətlə, informasiya cəmiyyətinin inkişaf fəlsəfəsi və onunla bağlı problemlər müasir həyatımızın cəmiyyətin inkişafı prosesində nəzərə alınmalı və həll edilməli olan mühüm cəhətləridir.

İnformasiya cəmiyyətinin inkişafını öyrənmək üçün bir çox metod və yanaşmalar mövcuddur. Onlardan bəziləri:

- Statistik təhlil: İnternet istifadəçilərinin sayı, şəbəkə üzərindən ötürülən məlumatların miqdarı, onlayn xidmətlərin sayı və digər göstəricilər üzrə statistik məlumatların öyrənilməsi;
- Sosiologiya və psixologiya sahəsində tədqiqatlar: informasiya texnologiyalarından istifadənin sosial və psixoloji aspektlərinin, habelə onların insanların davranışına və qarşılıqlı fəaliyyətinə təsirinin öyrənilməsi;
- İqtisadi Təhlil: İş yerlərinin yaradılması, dəyişən biznes modelləri və yeni bazarların formalaşması kimi informasiya cəmiyyətinin iqtisadiyyatını araşdırılması;
- Müxtəlif ölkələrin müqayisəli təhlili: dünyanın müxtəlif ölkələrində və regionlarında informasiya cəmiyyətinin inkişafının müqayisəsi, informasiya texnologiyalarından istifadəyə yanaşmaların oxşar və fərqli cəhətlərinin və onların cəmiyyətə təsirinin müəyyən edilməsi;
- İnformasiya təhlükəsizliyi sahəsində tədqiqatlar: informasiya cəmiyyətinin inkişafı kontekstində informasiya təhlükəsizliyi problemlərinin öyrənilməsi və informasiyanın qorunması yollarının tapılması;
- İnnovasiya sahəsində tədqiqatlar: yeni texnologiyaların və onların informasiya cəmiyyətinə təsirinin öyrənilməsi, həmçinin informasiya texnologiyalarından istifadəyə yeni yanaşmaların axtarışı [6, 180].

Bundan əlavə, informasiya cəmiyyətinin inkişafının öyrənilməsində müxtəlif bilik sahələrinin tədqiqat metodlarını birləşdirən fənlərarası yanaşmalardan istifadə olunur.

## 1. **İnformasiya cəmiyyətinin inkişaf problemlərinə fəlsəfi baxış**

İnformasiya cəmiyyətinin inkişafı problemlərinə fəlsəfi baxış bu problemin təhlilinə hansı fəlsəfi yanaşmanın tətbiq olunmasından asılı olaraq müxtəlif nöqteyi-nəzərdən təqdim edilə bilər.

İnformasiya cəmiyyətinin inkişafı problemlərini təhlil etmək üçün istifadə edilə bilən yanaşmalardan biri sosial konstruktivizmdir. Bu yanaşma texnologiyanın sosial cəhətdən neytral olmadığını, əksinə onların sosial və mədəni ehtiyaclara və dəyərlərə uyğun formalaşdığını iddia edir. Sosial konstruktivizm texnologiyanın sosial ədaləti nəzərə alaraq və cəmiyyətin bütün üzvlərinin ehtiyaclarını ödəmək üçün istifadə edilməsini təklif edir.

İnformasiya cəmiyyətinin inkişafı problemlərinin təhlilində istifadə oluna bilən digər fəlsəfi yanaşma fenomenologiyadır. Fenomenoloji yanaşma insanların dünya ilə öz təcrübələri və qavrayışları vasitəsilə qarşılıqlı əlaqədə olduğunu bildirir. Fenomenologiya nöqteyi-nəzərindən informasiya cəmiyyəti insanların bir-biri ilə və texnologiyalarla qarşılıqlı əlaqədə olduğu yeni mühit hesab oluna bilər. Fenomenologiya insanların informasiya cəmiyyətində texnologiyanı necə qavradığını və onunla necə qarşılıqlı əlaqədə olduğunu anlamağa kömək edə bilər.

İnformasiya cəmiyyətinin inkişafı problemlərinin təhlilində istifadə oluna bilən üçüncü fəlsəfi yanaşma tənqidi nəzəriyyədir. Tənqidi nəzəriyyə texnologiya və gücün bir-biri ilə sıx əlaqəli olduğunu və texnologiyanın status-kvonu saxlamaq və gücü saxlamaq üçün istifadə edildiyini iddia edir. Tənqidi nəzəriyyə sosial münasibətləri dəyişdirmək və daha ədalətli və bərabər cəmiyyət yaratmaq üçün texnologiyadan istifadə edilməsini təklif edir [4, 335-336].

İnformasiya cəmiyyətinin inkişafı problemlərinə fəlsəfi baxış müasir dünyada informasiya texnologiyalarının yayılması və informasiyadan istifadə prosesində etik, sosial, siyasi və mədəni məsələlərin ortaya çıxdığını nəzərə almağı nəzərdə tutur.

Əsas problemlərdən biri informasiya texnologiyalarından istifadənin artması şəraitində insan hüquqlarının şəxsi həyatın toxunulmazlığı və konfidensiallığının təmin edilməsi məsələsidir. Bu kontekstdə filosoflar şəxsi məlumatların dəyərini, məlumat əldə etmək və onları idarə etməkdə ədalət-

Today, Azerbaijan's rapid development and growing economic and military might makes  sympathetic countries happy, but seriously worries some foreign circles. Today, one of the most important issues for everyone is, of course, to strengthen the international positions of our country. To this end, as President Ilham Aliyev said, it is necessary to work more effectively with the organizations making groundless accusations against Azerbaijan. The positions of our country should be strengthened in those organizations that make biased allegations against our country.

**Keywords**: political reforms, development theory, world experience, sustainable development, social values, progress.

**Giriş**

Ulu öndər Heydər Əliyevin missiyasının və siyasətinin davamçısı, Dövlət başçımız İlham Əliyev Milli Məclisin  növbəti iclasındakı çıxışında bu sayılan məqamlara, Azərbaycanın müxtəlif sahələrdə qazanılmış uğurlarına diqqəti yönəldərək belə bir əminlik ifadə etdi ki, biz müstəqil ölkəyik, ölkəmizdə müstəqil siyasət aparırıq, imkan vermərik ki, işimizə xələl gətirən olsun. Gələcəyə müstəqil, möhkəm addımlarla gedəcəyik, bu sahədə hər zaman mükəmməl və fəal olacağıq. Gələcəkdə iqtisadiyyatın daha da

şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıda gələn illərdə daha da qüdrətli və mətin ölkə olacaq.

Azərbaycanda keçirilən son parlament seçkiləri demokratik inkişaf istiqamətində atılan növbəti mühüm addım idi. Qeyd etməliyik ki, demokratik keçirilən parlament seçkilərinin nəticələri xalqın iradəsinin bariz nümunəsidir. Cənab Prezidentin dediyi kimi, deputatlar seçildikləri dairələrdə fəallıq göstərməli və seçicilərin problemləri ilə tanış olmalıdırlar: "Qurulan yeni tərkibdə formalaşan Milli Məclis, aparılan islahatların mahiyyətinə görə mənəvi cəhətdən qüsursuz olmalıdır." Hal-hazırda Milli Məclis dövlət başçımızın verdiyi tövsiyələrə uyğun şəkildə ölkəmizin təkmilləşməsinə təkan verməklə, qəbul edilən qanun və müzakirələr ölkəmizin yenidən qurulması və canlanmasına gözəl imkanlar yaradır [1].

Azərbaycanda dayanıqlı iqtisadiyyat təmin edilib. Son illərdə də maaşlar və pensiyalar davamlı olaraq artırılır. Hazırda dünyada hökm sürən bahalaşmanın ağır nəticələrini güclü inkişaf etməkdə olan ölkəmiz minimuma endirməyə imkan verir. Bununla da yoxsulluğun azalması, yeni iş yerlərinin açılması, büdcə xərclərinin, hərbi xərclərin, valyuta ehtiyatlarının artması, sosial məsələlərin uğurlu icrası  iqtisadi inkişaf nümunəsidir.  Eyni zamanda, Prezident bildirmişdir ki, Milli Məclis tərəfindən atılan lazımi addımlar qanunvericiliyin inkişafında siyasi sistemin təkmilləşdirilməsi üçün yararlı olacaq. Ölkədə qurulacaq partiya sistemləri daha da möhkəm təməllər üzərində qurulacaq. Hətta bu sahədə partiya sisteminin inkişafında siyasi partiyaların fəaliyyəti üçün lazımi alətlərin spektri mövcud olmalıdır.

Azərbaycan yaxın onillikdə yüksək gəlirli ölkələr qrupuna daxil olacaq və respublikamız regionun ən inkişaf etmiş dövlətinə çevriləcək. Neft gəlirləri ilə bərabər, qeyri-neft bölməsindən əldə olunan gəlirlərin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsi davamlı inkişafı daha da stimullaşdıracaq. Nəqliyyat, tikinti, rabitə və informasiya texnologiyaları, xidmət, turizm və neft sahələri inkişaf etməkdədir və bu sahələr innovativ iqtisadiyyata keçidin təmin olunmasında başlıca vasitə olacaq. Reallıq budur ki, ölkəmizdə aparılan islahatlar həm konseptual, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. İslahatların dərinləşməsi prosesi parlamentdən yan keçə bilməzdi. Yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verir. Müxalifət partiyalarının nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunur. Sözügedən fakt Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün böyük əhəmiyyətə malikdir.

Reallıqlar yeni mütərəqqi qanunların hazırlanmasını və qəbulunu zə-

rurətə çevirir. Atılan bu kimi addımlar bir daha sübut edir ki, demokratikləşmə sadəcə bir niyyət, şüar deyil, Azərbaycanın hərtərəfli inkişafının əsasıdır.

Dövlət başçısı İlham Əliyev bu çağırışı edir ki, ölkəmizdə aparılan islahatlar siyasi müstəvidə sağlam əməkdaşlıq mühitinin bərqərar olmasını tələb edir.

Müstəqilliyin ikinci onilliyinə çatmış dövlət üçün səciyyəvi olan keyfiyyət xüsusiyyətləri burada yeni aspektdə təqdim edilir, yeni prioritetlərin hədəfə alınması səbəbi və onların fəth edilməsi zərurəti əsaslandırılır, dövrün əhatəli ictimai-siyasi mənzərəsi göz önündə canlandırılır [2].

Dövlət başçısının imzaladığı fərmanında, həmçinin nizamnaməmizdə "ölkədə aparılan strateji araşdırmaların koordinasiyası və siyasi analitikanın bir elm kimi formalaşması yönündə fəaliyyətin həyata keçirilməsi" vurğulanmışdır. Bu, dövlətçiliyimizin yüksəlişi naminə cəmiyyətin mükəmməliyinə yol açan strateji təfəkkür və ideya potensialını bir yerə cəmləməyə, kollektiv formada onun inkişafını dəstəkləməyə və stimullaşdırmağa yönümlü fəaliyyətdir. Az müddət keçməsinə baxmayaraq, bu istiqamətdə apardığımız fəaliyyət gerçəkdə əsl xaosun mövcudluğu qənaətinə gəlməyi şərtləndirmişdir. Özlərini hələ politoloq demirik, siyasi-analitik, strateji araşdırma yönümlü qurumlar kimi bəyan edən, qrantlar naminə Azərbaycan dövlətinin adına xələl gətirmək üçün çalışanlar, hətta dünya beyin mərkəzləri reytinqinə qondarma adlarını yazdıranlar haqqında faktlar var. Eyni zamanda, ədalət naminə bu sahədə əməkdaşlığın və inkişafın gələcək məsələlərini müzakirə etmək üçün konstruktiv təşəbbüslərə, birgə müzakirələrə dəvəti qəbul edən ayrı-ayrı tədqiqatçıların adlarını da çəkə bilərik [3].

Həyata keçirilən islahatlar ölkəmizdə siyasi sistemin getdikcə daha çox təkmilləşməsinə xidmət edir. Azərbaycanda 2020-ci ildə keçirilmiş Milli Məclisə növbədənkənar seçkilərin əsas səbəbi ölkədə aparılan sistemli islahatları dərinləşdirmək və parlamentin fəaliyyətini daha təkmil şəkildə təşkil etmək idi. Ölkə Prezidenti cənab İlham Əliyev 10 mart 2020-ci il tarixində VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında etdiyi çıxışında növbədənkənar seçkilərin respublikada həyata keçirilən sistemli islahatların ardı olduğunu qeyd etmişdi. Çox bəyənilən haldır ki, Avropa İttifaqı seçkilərin keçirilməsi ilə əlaqədar obyektiv bəyanat vermiş və Azərbaycan parlamenti ilə işləməyə hazır olduğunu bəyan etmişdir. Bu isə, prezidentimizin çıxışında deyildiyi kimi, seçkilərin tanınması deməkdir [9].

Bütün siyasi qüvvələrin eyni imkanlara sahib olaraq, sağlam rəqabət apararaq seçkilərdə iştirak etmələri nəticəsində altıncı çağırış Milli Məclis çoxpartiyalı parlament kimi formalaşdı. Bu da ölkədə siyasi sistemin tək-

milləşdirilməsi işində Milli Məclisin rolunun əvəzsiz olduğunu göstərir. İlk dəfə olaraq müxalifət partiyalarının nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində, eləcə də müxtəlif komitələrin rəhbərliyində təmsil olunurlar. Əlbəttə ki, bu fakt Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək baxımından böyük əhəmiyyət kəsb edir. Həmçinin dövlət başçımızın Milli Məclisinin ilk iclasında etdiyi çıxışında verdiyi tapşırıq və tövsiyyələrə uyğun olaraq, bu gün qanunvericilik sahəsində siyasi sistemin quruculuğu yolunda parlament tərəfindən lazımi işlər aparılır. Azərbaycanda çoxpartiyalı sistem möhkəm əsaslar üzərində qurulur və bu sistemin inkişafı naminə siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri tədricən yaradılır [5,6].

Qeyd olunmalıdır ki, bu gün Azərbaycanda davamlı olaraq aparılan islahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Xüsusilə ölkədə bir müddət əvvəl kadr islahatlarına ciddi ehtiyac duyulurdu. Cənab Prezidentin qeyd etdiyi kimi, bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirirdi. Buna görə də dövlət başçımızın tapşırına görə yerli icra orqanlarında və dövlət qurumlarında köklü islahatlara start verildi, hətta bu kimi işlərin bundan sonra da davam etdirilməsi qarşiya məqsəd qoyuldu [4].

Təbii ki, islahatların dərinləşməsi prosesi parlamentdən də yan keçə bilməzdi. Bu gün ölkədə müşahidə olunan proseslər göstərir ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verə bilib. Lakin mütərəqqi proseslər davam etməlidir. Bu baxımdan parlamentdəkilər qarşısında böyük vəzifələrin həll edilməsi durur. Siyasi sistemin formalaşdırılması üçün yeni qanunvericilik təşəbbüsləri irəli sürülməli, iqtisadi islahatların dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir. Cənab Prezident İlham Əliyevin açıqlamalarında Azərbaycan gəncliyinin milli-vətənpərvər ruhda tərbiyə almaları, xarici təsir altına düşməmələri dövlətin və cəmiyyətin qarşısında duran ən vacib məsələlərdən biri kimi qeyd olunmuşdur. Gənclərin Parlament seçkilərində çox sayda mandat almasının səbəbi də onlara göstərilən yüksək etimadla izah olunur.

Dövlət başçımızın çıxışında səsləndirdiyi fikirlər də təsdiqləyir ki, gənc nəslin milli və hərbi-vətənpərvərlik hissləri ilə tərbiyə olunmasında dövlətlə xalqın üzərinə düşən vəzifə eynidir [7,8,9].

Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycanın sürətli inkişafı, getdikcə artan iqtisadi və hərbi gücü bizə yaxın olan ölkələri sevindirdiyi kimi, bəzi xarici dairələri ciddi şəkildə narahat edir. Əlbəttə ki, bu yol xəyanət yoludur və iqtidara qarşı deyil, dövlətə qarşı edilən cinayətdir. Bu gün hər kəsin qarşısında duran ən önəmli məsələlərdən biri əlbəttə ki, ölkəmizin beynəl-

xalq mövqelərinin möhkəmləndirilməsidir. Bu məqsədlə, cənab Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycana qarşı əsassız ittihamlar irəli sürən təşkilatlarla daha səmərəli iş görülməlidir. O təşkilatlarda ki, ölkəmizə qarşı, qərəzli bəyanatlar verilir, həmin qurumlarda ölkəmizin mövqeləri gücləndirilməlidir.

İslahat prosesi ötən nailiyyətlərə söykənən və tələb olunan şərtlərə müvafiq aparılan yeniləşmə və təkmilləşmə siyasətidir. Bu siyasətin arzuolunan bəhrəsi müəyyən parametrlərin dolğun, dəqiq tədqiqinə və tətbiqinə əsaslanır:

- dövlət siyasətinin əsas ana xəttini göstərən ictimai-siyasi sabitliyin qorunması;
- islahat planının ideal formada tərtib və təşkil olunması;
- dövlət tərəfindən insan amilinə yüksək dəyər verilməsi;
- ediləcək dəyişiliklərin mahiyyəti, məqsədi və istiqamətləri üzrə etibarlı, dolğun məlumatlandırılma;
- insan hüquqları və söz azadlığının qorunması, demokratik və şəffaf mühitin mövcudluğu;
- inkişaf tempinin müasir standartları ilə yeni hədəflərin uzlaşdırılması;
- qabaqcıl ölkələrin təcrübə meyarlarından yararlanarkən, daxildəki hərtərəfli mövcud imkanlar, milli-mənəvi dəyərlər ilə uyğunlaşdırılmasına dair ümid və inam hissinin güclənməsi.

**Ədəbiyyat**:


1. Azərbaycan Respublikası Dövlət Proqramları, Sərəncam və Fərmanlar (1998- 2020).
2. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası.
3. Atakişiyev M. “Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda: tarixi reallıqlar, iqtisadi nailiyyətlər və siyasi perspektivlər” Bakı-2005.
4. Abasov Ə.S. “Dünyada və postsovet dövlətlərində islahatlar fəlsəfəsi”. Müasir İslahatlar: Ümumfəlsəfi əsaslar. Bakı, 2022.
5. Əlirzayev Ə.Q. “İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi problemləri: Təcrübə, meyllər və perspektiv istiqamətlər” Bakı, 2005.
6.Nuri. A. O., Süleymanov E. “Azərbaycan iqtisadiyyatı” Bakı 2010.
7. http://edu.gov.az/
8. http://www.e-qanun.az/
9. https://president.az

UOT- 321.01

**Təranə Səfər qızı Tahirzadə**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
Müasir fəlsəfə problemləri şöbəsi, laborant
Azərbaycan, Bakı, H. Cavid pr,115
https:// orcid.orq 0000-0002-8865-5690

# AZƏRBAYCAN HÜQUQI DÖVLƏT QURUCULUĞU YOLUNDA

**Xülasə**

*Məqsəd*. Məqalədə əsas məqsəd Azərbaycanda dövlətçiliyin inkişafı kontekstində hüquqi dövlət quruculuğu prosesini təhlil etməkdir. Burada bildirilir ki, müasir Azərbaycanda hüquqi dövlətin bərqərar olması və demokratik vətəndaş cəmiyyətinin inkişafı üçün bütün zəruri tədbirlər həyata keçirilir. Beynəlxalq meyar və standartlara uyğun qanunlar, normativ aktlar qəbul edilir, demokratik seçkilərin keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində əməli işlər həyata keçirilir.

*Mövzunun araşdırılma səviyyəsi*. Mövzu ilə bağlı, yeri gəldikcə, yerli və xarici ədəbiyyata müraciət edilmişdir. Məqalədə tanınmış elm adamlarından İ. İsmayılov, Ə. Abbasov, D. İsmayılov, Y. Nəsibov, V. Cəfərov və başqalarının hüquqi dövlətin formalaşması və inkişafı ilə bağlı fikirlərinə istinadlar edilmiş, münasibət bildirilmişdir.

*Elmi yenilik*. Müasir dövrdə Azərbaycanda hüquqi dövlət quruculuğunun bir sıra məsələləri yeni baxış bucağından təhlil edilmişdir.

*Metodologiya*. Məqalədə sistem yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Nəticə**. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində yeni qanunların qəbul edilməsi, ümumiyyətlə, qanunvericilik sisteminin daha da təkmilləşdirilməsi, siyasi mədəniyyətin müasir tələblər səviyyəsində formalaşdırılması zəruridir.

**Açar sözlər**: hüquqi dövlət, vətəndaş cəmiyyəti, konstitusiya, qanun, norma, fərd, şəxsiyyət, vətəndaş, əlamət.

**УДК - 321.01**

**Тарана Сафар гызы Тахирзаде**
лаборант
отдела "Проблемы современной философии"
Института философии и социологии НАНА,
Азербайджан, Баку, проспект Г. Джавида, 115
terane.tahirzade.89@mail.ru
https://orcid.org 0000-0002-8865-5690

# АЗЕРБАЙДЖАН НА ПУТЯХ СТРОИТЕЛЬСТВА ПРАВОВОГО ГОСУДАРСТВА

**Резюме**

*Цели и задачи статьи.* В статье подробно анализируется процесс строительства правового государства в Азербайджане. Отмечается, что в современном Азербайджане осуществляются все необходимые меры для установления правового государства и развития гражданского общества. Для этого принимаются законы, соответствующие международным стандартам, проводятся демократические выборы, защищаются права и свободы граждан.

*Степень исследованности темы.* При необходимости использовались местные и зарубежные источники. Автор ссылается на работы известных ученых: И. Исмаилова, А. Аббасова, Д. Исмайлова, Ю. Насибова, В. Джафарова и др., которые созвучны проблемам становления и развития правового государства и выражают свое отношение к ним.

*Научная новизна.* С новой точки зрения проанализирован ряд вопросов правового государственного строительства в Азербайджане в современный период.

*Методология.* В статье использованы методы системного подхода и сравнительного анализа.

**Результат**. В процессе построения правового государства в Азербайджане необходимо принятие новых законов.

**Ключевые слова**: правовое государство, гражданское общество, конституция, закон, норма, лицо, личность, гражданин, признак.

**UDC-321.01**

**Tarana Safar Tahirzade**
Laboratory Assistant,
Department "Problems of Modern Philosophy",
Institute of Philosophy and Sociology of ANAS,
Azerbaijan, Baku, H. Javid Ave, 115
E-mail: terane.tahirzade.89@mail.ru
https://orcid.org 0000-0002-8865-5690

## AZERBAIJAN ON ITS WAYS TO LEGAL STATE CONSTRUCTION

**Abstract**

*Purpose and objectives of the article*. The article analyzes the process of legal state building in Azerbaijan in detail. It is reported that all necessary measures are being implemented for the establishment of the legal state and the development of civil society in modern Azerbaijan. For this purpose, laws that conform to international standards are adopted, democratic elections are held, and the rights and freedoms of citizens are protected.

*Degree of the development of the topic*. Local and foreign sources have been used as appropriate. The article refers to the opinions of well-known scientists: I. Ismayilov, A. Abbasov, D. Ismayilov, Yu. Nasibov, V. Jafarov and others which resonate with the problems of formation and development of the legal state and expresse their attitude toward them.

*Methodology*. System approach and comparative analysis methods were used in the article.

*Scientific novelty*. A number of issues of legal state building in Azerbaijan in modern times have been analyzed from a new point of view.

**Result**. It is necessary to adopt new laws in the process of building of a legal state in Azerbaijan.

**Keywords:** legal state, civil society, constitution, law, norm, person, identity, citizen, sign

**Giriş**

Müasir dövrdə Azərbaycanda hüquqi dövlətin qurulması getdikcə inkişaf edib möhkəmlənən dövlətçiliyimizin əsas hədəfidir. Bu hədəfə doğru aparan çətin və mürəkkəb yol regional və beynəlxalq durumun ciddi təsirlərilə şərtlənir. Qonşu dövlətlərin maraq və təzyiqlərinin davamlı surətdə mövcud olduğu bir şəraitdə qarşıya qoyulan məqsədin gerçəkləşməsi baxımından özünəməxsus çətinliklər yaranır. Bəzi hallarda ölkəmiz başqa post-sovet dövlətlərilə müqayisədə daha ağır çətinliklərlə üzləşir. Lakin, bununla belə, Azərbaycanda cərəyan edən proseslərin mahiyyəti, sadəcə, çətinliklərə yol açan obyektiv və subyektiv amillərlə çərçivələnmir. Belə ki, həm də bir sıra üstünlükləri, danılmaz nailiyyətləri ehtiva edir.

Dünyanın yenidən formatlaşdırıldığı tarixi bir mərhələdə, istər-istəməz, lokal, regional və qlobal müstəvilərdə ortaya əlavə problemlər çıxır, ölkələr və xalqlar həlli çətin olan məsələlərlə üzləşir. Bu mənada Azərbaycan da bir çox yeni-yeni problemlərlə, təhdid və təzyiqlərlə üzləşməli olur, öz optimal ictimai meqatrendi və fəaliyyət düsturu barədə düşünməli, ona uyğun sistemli, ardıcıl hərəkət etmək məcburiyyətində qalır. Bu istiqamətdə möhtərəm ölkə başçısı, prezident İlham Əliyevin çoxşaxəli, olduqca məhsuldar və uğurlu fəaliyyəti obyektiv dünya ekspertləri, tanınmış dövlət adamları, siyasi xadimlər tərəfindən  xüsusi qeyd olunur və təqdir edilir. İkinci Qarabağ savaşında Axərbaycanın qazandığı parlaq qələbəni də məhz prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasətin, xalq-dövlət-ordu birliyinin möhtəşəm nəticəsi kimi dəyərləndirmək  olar. Tam əminliklə deyə bilərik ki, cənab prezident İlham Əliyevin həyata keçirdiyi təqdirəlayiq siyasət nəticəsində həm dövlətçiliyin və demokratik vətəndaş cəmiyyətinin inkişafı, həm də hüquqi dövlətin formalaşıb kamilləşməsi baxımından zəruri zəminlər və münbit şərait yaranmışdır.

İstənilən ölkədə hüquqi dövlətin formalaşıb qərarlaşması, bütün imkan və resurslara baxmayaraq, uzunmüddətli və mürəkkəb bir tarixi prosesdir. Və bütün ictimai sistemlərdə siyasi, hüquqi, iqtisadi, mədəni, sosial sahələrdə müvafiq proqramlar, kamil işlənilmiş layihələr, zəruri əməli tədbirlər həyata keçirməklə hüquqi dövlətin tələbləri səviyyəsində kompleks pozitiv nəticələrə nail olmaq mümkündür. Bir sözlə, cəmiyyətin köklü və hərtərəfli modernləşməsi, ictimai həyat sahələri üzrə aparılan islahatlar, hər şeydən əlavə, hüquqi dövlətin təkamülü və tərəqqisi cəhətdən olduqca böyük əhəmiyyət kəsb edir. Habelə, professor Əbülhəsən Abbasovun əsərlərində əsaslandırıldığı kimi, hüquqi dövlətin formalaşması, onun necəliyi və hansı keyfiyyətlərə malik olması milli səciyyədən, yəni, milli özünəməxsusluqdan xeyli dərəcədə asılıdır. Ümumiyyətlə, milli səciyyəni, xalqın mental xüsusiyyətlərini nəzərə almadan hüquqi dövlət quruculuğu istiqamətində uğurlar əldə etmək mümkün deyil.

Tamamən fərqli tarixi təcrübəyə, vətəndaşlıq mədəniyyətinə və vərdişlərinə malik olan bir əhalinin stereotiplərini yeniləri ilə dəyişmək asan deyil. Bu amil həm sıravi vətəndaşlar, həm də bələdiyyə, idarəetmə orqanları işçiləri üzərində ciddi rol oynayır. İkinci şərt isə Azərbaycanın hal-hazırda yaşadığı mövcud regional şəraitlə, böyük regional layihələrin qurulması ilə bağlıdır. Bütün bu son dərəcə gərgin və kompleks fəaliyyət tələb edən məsələlər bir sıra sosial işləri yüksək səviyyədə gündəmdə tutmağı və bu yöndə dövlət və ictimai strukturları yönəltməyi fiziki olaraq çətinləşdirir, bəzən də mümkünsüz edir.

Əvvəlcə onu qeyd edək ki, hümanist ideyaların təsiri altında XVIII əsrdə təkan almış dövlət və ictimai quruluşun dəyişilməsi, şəxsiyyət azadlığı, formal hüquq bərabərliyi və s. məsələlərin ön plana çəkilməsi, zəruri olaraq, "Hüquqi dövlət"i bir nəzəriyyə, təlim və praktiki problem kimi alman filosoflarının, xüsusilə də Kant və Hegelin tədqiqat obyektinə çevirmişdi. Hüquqi dövlət haqqında ilk dəfə yazan da məhz Kant olmuşdur. "Klassik alman fəlsəfəsinin banilərindən sayılan Kanta görə, dövlət – hüquqi qanunlara tabe olan insan çoxluğunun birliyidir. Hüquq isə ümumi qanunun vasitəsilə birinin digərinə qarşı özbaşınalığını məhdudlaşdıran, deməli, cəmiyyətdə çəkişmələri rədd edən şərtlərin məcmusudur. Kant belə bir müddəanı irəli sürüb müdafiə edirdi: dövlətin təyinatı təkmilləşdirilmiş hüquqdur, onun quruluşunun və rejiminin hüquqa maksimum uyğunluğudur. Məhz bu müddəaya görə, Kant hüquqi dövlətin nəzəri yaradıcılarından biri hesab edilir. O, belə bir zərurəti ciddi-cəhdlə təsdiqləməyə çalışırdı ki, dövlət bütün çoxsahəli fəaliyyətində yalnız və yalnız hüquqa əsaslanmalı, bütün hərəkətlərini hüquqla razılaşdırmalıdır. Əks halda, dövlət vətəndaşların

hörmət və inamını itirə bilər. Kant göstərirdi ki, hüquqi dövlətdə azadlıq tənqid azadlığı deməkdir. Hər bir vətəndaş dövlət başçısının ədalətsiz olan hər bir sərəncamını tənqid etmək hüququna malik olmalıdır. Kant ümumməcburi qanunlara əsaslanan burjua hüquq qaydalarını feodal hüquqsuzluğuna və özbaşınalığına qarşı qoyaraq, mülkiyyətə sahiblikdən doğan imtiyazların əleyhinə çıxır, xüsusi hüquq münasibətlərində bərabərliyin olmasını tələb edirdi" [İsmayilov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. Bakı, Qanun, 1999, s.25].

## Hüquqi dövlət və onun atributları

Hüquqi dövlətin atributları içərisində demokratik idarəetmənin olması və insan hüququnun tanınması əsasdır. Azərbaycan filosofu Ə. Abbasovun fikrincə: "Demokratiyanı, sadəcə, bir dövlət idarəçiliyi forması kimi, yaxud müxtəlif mexanizm və qurumların məcmusu kimi təqdim etmək özünü doğrultmur; o, idarəetmə forması olmaqla yanaşı, həm də sivilizasiya, mənəviyyat, siyasi mədəniyyət, şüur və həyat tərzi məsələsidir (azad seçkilər, hər bir şəxsin öz fikrini sərbəst ifadə etməsi, imkan bərabərliyinin təmin edilməsi və s.). Qeyd etmək lazımdır ki, demokratiya insan hüquqları ideyasından daha qədim tarixi köklərə malikdir. Müasir dövrdəki insan hüquqları və demokratiya anlayışları bir-birini tamamlayan kimi görünsə də, əslində, birincisi ikincisinin mövcud olması üçün ən əsas şərtlərdən biridir. Azad seçkilər demokratiyanın əsası olmaqla, hər bir şəxsə bərabər və azad səsvermə hüququnun tanınması, bərabər imkanların təmin edilməsi əsas insan hüquqlarındandır. Bəşəriyyət hər zaman bu hüquqlar uğrunda aparılan mübarizələrə şahid olmuşdur. Hakimiyyətin seçkilər yolu ilə təşkil olunması, vətəndaşların dövlət idarəetməsində iştiraketmə hüququ, birləşmək, sərbəst toplaşmaq və dinc yürüş hüquqlarını demokratiyanın siyasi cəhətdən ifadəsi hesab etmək olar. Siyasi azadlıqların tərkib hissəsi olan, səsvermə, birləşmə, yürüş, söz və mətbuat azadlıqları demokratiyanın əsas məzmununu təşkil edir ki, bunlar da cəmiyyətdə bərqərar olmazsa, həmin cəmiyyətdə xalq hakimiyyətindən bəhs etmək mümkün deyildir. Hüquqi dövlət, hakimiyyət bölgüsü konstitusion nəzarət, azad seçkilər və s. belə amillər demokratik sistemlərin təminatı kimi insan haqları nəzəriyyəsi baxımından müstəsna əhəmiyyətə malikdir" [Abbasov Ə. İnsan hüquqları və ictimai rəy. Bakı, Təknur, 2013, s.29-30].

Demokratiya "xalqın idarəsi" mənasını verir və siyasi iradənin xalqa aid olduğu siyasi sistemi ifadə edir. Demokratik idarəetmə zamanı bütün xalq qanunların qəbulu prosesində iştirak edir. Hər bir vətəndaşın söz, fikir

azadlığı qorunur. Xalq öz səlahiyyətindən sərbəst seçki yolu ilə seçdiyi nümayəndələr, millət vəkilləri vasitəsilə istifadə edir. Ölkəni idarə edənlər və qanunları qəbul edənlər xalqın razılığını qazanmaq məcburiyyətindədir. Yalnız xalqın iradəsi ilə hakimiyyət dəyişir, əsas qanunlara əlavə və düzəliş edilir, cəmiyyəti inkişafdan saxlayan maddələr qanunlardan və qanunverici aktlardan sərf-nəzər edilir. Vəzifədən kənarlaşdırılmaları da, yenə, xalqın iradəsi ilə, yəni, bu iradənin ifadə olunduğu sərbəst seçkilərlə baş verir.

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan dünyəvi dövlətdir. Azərbaycan dövlətinin dünyəvi dövlət səciyyəsi özünü bir neçə amillərdə göstərir. Dünyəvilik prinsipinin əsas məqsədi, əslində, vicdan azadlığını təmin etməkdir. Dünyəvilik prinsipi dövlətimizin vətəndaşlarını bir dini mənimsəmə, bu dinin tələblərini yerinə yetirmə və ya yetirməmə məsələsində öz vicdanları ilə baş-başa buraxır və onlara azad seçim imkanı verir. Dövlət müəyyən bir dinə və ya məzhəbə üstünlük vermədiyi üçün hər kəs sahib olduğu inanca görə yaşamaq imkanı əldə edir. Əslində, dövlətimizin sahib olduğu bu dünyəvilik modeli İslam dininə çox uyğundur. Çünki İslam dini azad iradəni əsas şərt olaraq müəyyən edir. Bir insanın İslamı din olaraq mənimsəməsi tamamilə öz azad iradəsi ilə olmalıdır. İslamı qəbul etdikdən sonra da Quranda əmr edilən ibadətləri yerinə yetirməsi və ya qadağalardan (oğurluq, cinayət kimi ictimai cinayət törətmirsə) çəkinməsi tamamilə öz vicdanı ilə olmalıdır. Əlbəttə, müsəlmanlar bir-birlərini Quranda izah edilən əxlaqi xüsusiyyətlərin tətbiq olunması üçün xəbərdar və təşviq edə bilərlər. Amma əsla bu mövzuda məcbur etmə ola bilməz. Yaxud da dünyəvi imtiyaz verilməklə şəxs dinin tələblərinə əməl etməyə yönləndirilə bilməz.

Qeyd etmək istərdik ki, "Azərbaycanda hüquqi dövlət quruculuğu istər iqtidar, istərsə də müxalifətdə olan ölkədaxili bütün siyasi qüvvələrin hədəfləri çərçivəsindədir. Fikrimizcə, bu Azərbaycan dövlətçiliyinin konstitusiyada göstərilən məqsədinə çata bilməsi üçün müsbət cəhətdir. Hüquqi dövlət konsepsiyasının, demək olar ki, bütün prinsipləri Azərbaycan cəmiyyətində qəbul edilən, üstəlik, mədəni-mənəvi xüsusiyyətləri ilə harmonik surətdə bağlı olan dəyərlərdir. Konsepsiyaya daxil olan dövlətçilik ideyalarının burada tətbiqi məsələləri bir sıra müəlliflərin də gündəmindədir" [İsmayılov D.Y. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, Adiloğlu, 2005, s.344].

Hüquqi dövlətin əsas əlamətlərindən biri insan azadlığıdır. Belə ki, insan azad olmasa, hüququn, qanunların əhəmiyyəti bilinməz. Fərdin sahib olduğu azadlıq özündə həmin fərdin təşəbbüs və toxunulmazlıq sahəsidir

və deməli, müəyyən sərhədlərdə reallaşır. “Azadlıq dedikdə, hər hansı bir addım atmaq, təşəbbüs göstərmək, qərar vermək kimi elementlər nəzərdə tutulur. Azadlıq bütün hüquqların mənbəyidir, hüquqlar isə azadlığın təmin olunması, daha doğrusu reallaşması üçün hüquq tərəfindən fərdə verilmiş, “sanksiyalaşdırılmış” səlahiyyətdir. Azadlıq özü-özlüyündə bir hüquq olsa da, bütün hüquqlar azadlıq demək deyildir. Hüquq, əsas etibarı ilə, azadlığın təminatı və ifadə vasitəsidir. İnsan öz azadlığını reallaşdırarkən, digər insanların da azadlığını nəzərə almalıdır. Əks təqdirdə cəmiyyətdə azadlıqlar “toqquşması” yarana bilər ki, bu da mahiyyət etibarı ilə azadlığın düzgün dərk edilməməsi nəticəsində meydana çıxmış olur. Belə ki, cəmiyyətdə insanlar bir-birinin azadlıqlarına qarşılıqlı hörmət etməlidirlər. İnsanlar azadlıqlara malik olmaqla yanaşı, bərabərdilər. Bərabərlik də insan hüquqlarının reallaşmasında azadlıq qədər əhəmiyyətli bir prinsipdir. İnsan hüquqlarının reallaşmasında yalnız azadlıq kifayət deyildir. Cəmiyyətdə fərdlərin qeyri-bərabər əsasda azadlıqlarının mövcudluğu özbaşınalıqla nəticələnə bilər. İnsan hüquqlarında azadlıq hamıya şamil olunmalı bir prinsip kimi nəzərdə tutulur. Məhz bərabərlik prinsipi azadlığın təklif etdiyi imkanların insanlara münasibətdə ayrı-seçkilik olmadan verilməsini şərtləndirir. Azadlıq və bərabərsizlik bir müstəvidə mövcud ola bilməz. Bu səbəbdən də azadlıq ideyası hakim olduğu məkanda bərabərsizliklərin ləğvi labüddür. Yalnız azad insanların bərabərliyi şəraitində bərabər hüquqlara malik olmaq, yəni, qanun qarşısında hamının bərabər tutulması mümkündür. Azadlıq və bərabərsizlik prinsipləri mahiyyət etibarı ilə fərqli mənalara malik olsalar da, bir-birini ən kamil formada tamamlayır. Tarixə nəzər salsaq görərik ki, cəmiyyətlərdəki sosial bərabərsizlik mövcud azadlıqlardan hamının faydalanmasına imkan verməmişdir” [Abbasov Ə.F. İnsan hüquqları və ictimai rəy. Bakı, 2013, s.29-30]

Əsas müsbət göstərici kimi qəbul olunmuş Konstitusiyanın hüquqi dövlət prinsiplərini tamamən ehtiva etməsi, burada hər hansı bir boşluğun və ziddiyyətin olmamasıdır. Nəzərə alaq ki, deyilən hal son dərəcə vacib göstəricidir və bir sıra dövlətlərin qarşısında əsas problem kimi gündəmdə durur. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əsas xidmətlərindən biri olaraq belə bir mükəmməl konstitusiyanın işlənilməsi olmuşdur. Bu, həm də, hüquqi dövlətçiliyin ilk illərində ona liderlik edən şəxsin uzaqgörənliyinin, yüksək siyasi qabiliyyətlərinin parlaq ifadəsi idi. Konstitusiya ilə bağlı çox önəmli vəziyyət isə onun bütün prinsiplərinin, o cümlədən, hüquqi dövlət prinsiplərinin legitimliyi, bütün xalq tərəfindən şəksiz qəbulu olmuşdur. Bu, o deməkdir ki, hüquqi dövlət ideyası üçün ictimai zəmin vardır. Belə ki, bu prinsiplər milli mentalitetin mahiyyəti ilə ziddiyyətə girmir-

dilər, əksinə, harmoniya təşkil edirdilər. Qeyd edək ki, əhalinin belə bir həssas və sayğılı mövqeyi, bir sıra dövlətlərdə, sadəcə, total itaət xüsusiyyəti kimi qəbul olunur. Yalnız kütləvi mədəni inkişaf səviyyəsi qənaətbəxş olan Azərbaycan kimi ölkələrdə arzu edilən xoşməramlı pozitiv səhnəyə obyektiv surətdə rast gəlmək olur.

Klassik alman fəlsəfəsinin banilərindən olan Hegelə görə, hüququn əhəmiyyəti ondan ibarətdir ki, hər kəs digəri ilə hesablaşmalı və onunla bir azad varlıq kimi rəftar etməlidir. Bir insanın başqa bir insanın azadlığını məhdudlaşdıran və ya bu azadlığı etiraf etməyən əməli hüquqa zidd olacaqdır. Onun verdiyi tərifə görə, "dövlət – hüquqi münasibətlərdə olan insanların cəmiyyətidir ki, burada insanlar öz təbii meyillərinə və hisslərinə uyğun hansısa fərdi-təbii münasibətlər hesabına yox, şəxsiyyətlərinin təsdiq (etiraf) edilməsinə görə bir-biriləri üçün əhəmiyyətli olurlar" [Гегель Г.В.Ф. Работы разных лет. В 2-х томах. т.2. Философская пропедевтика. М.: Мысль,1973.s.49-50].

Hegel özünün məşhur əsərlərindən olan "Ruhun fəlsəfəsi"ndə qeyd edir: "Bir insanın azadlığının digərində olması insanları daxilən birləşdirir. Əksinə, tələbat və ehtiyac onları yalnız zahirən bir yerə yığır. Ona görə insanlar çalışırlar ki, bir-birində özlərini tapsınlar. Lakin bu, o vaxta qədər baş verə bilməz ki, onlar öz təbiiliklərində, bilavasitəliklərində qalırlar, çunki bu sonuncular məhz o şeylərdir ki, insanları aralayır və birinin başqasına münasibətində azad olmasına maneə yaradır. Azadlıq ona görə, tələb edir ki, özünü dərk edən subyekt həm öz təbiiliyinin üzə çıxmasına yol verməsin, həm də digərlərinin təbiiliyinə dözümlülük göstərməsin. Beləliklə, azadlıq yalnız mübarizə vasitəsilə qazanıla bilər" [Гегель Г.В.Ф.Энциклопедия философских наук. Т.3. Философия духа. М.: Мысль, 1997. s.241].

Hüquqi dövlətin digər əsas prinsipi olan hakimiyyət bölgüsü sahəsində də bir sıra işlərin görülməsinə ehtiyac vardır. Belə ki, hakimiyyət bölgüsü qanunverici, icraedici, məhkəmə hakimiyyətləri arasında üfiqi əlaqələrin qurulmasını tələb edir. Siyasi təşkilatlanma istiqamətində də böyük işlər görülməsinə ehtiyac var. Vacib göstərici iqtisadi sistemin hüquqi dövlətə dayaq olacaq səviyyəyə çatdırılmasıdır. Orta təbəqənin böyüməsi, milli burjuaziyanın yaranması, elmi kadrların ölkədən axınının qarşısının alınması, kiçik və orta sahibkarlığın inkişafı, inhisarlaşmanın əngəllənməsi, təhsil və səhiyyənin inkişafı və s. məsələlərin həll edilməsi nəticə etibarı ilə hüquqi dövlət üçün qarantiya rolunu oynayan güclü iqtisadi sistemin formalaşmasına xidmət edir.

Azərbaycanda müsbət göstəricilərilər çoxdur. Bir tərəfdən, sosial təbə-

qələrin öz gələcəkləri haqqında düşüncələri bir ideyaya yönəlib, həyat tərzlərini vahid istiqamətdə və hüquqi dövlət prinsipləri ilə qurmaq istəyirlər. Digər tərəfdən, "Azərbaycanda etnik və dini müxtəlifliyə rast gəlinsə də, bu, böyük demoqrafik göstəricilərə malik milli-dini subyektlər səviyyəsində deyil və həmin xalqların əsas millətlə hər hansı bir anlamda fərq daşımırlar, bu fərq sadəcə onların yaddaşında müəyyən etnik qrupa aid olmaları kimi bir informasiya daşıma səviyyəsindədir.

Hüquqi dövlətin əsaslarından olan humanizm ideyaları hələ orta əsrlərdə Nizami, Nəimi, Nəsimi kimi mütəfəkkirlərin ideya bazası olmuşdur. Əminliklə həmin ideyaların ilk dəfə məhz Azərbaycanda hürufilikdə böyük bir cərəyan kimi meydana gəldiyini iddia edə bilərik. O zaman Avropada liberal dəyərlər haqqında heç təsəvvür yox idi. Əslində, burada təəccüblü bir hal yoxdur. Bugünkü Azərbaycan xalqının hamını – bütün dünyanı təəccübləndirən tolerant, insanpərvər keyfiyyatı həmin dəyərlərin xalqımızın təbiətinin tələbatı olduğunu sübut edir. Bu ölkə çox siyasi sistemlər, dövlət quruluşları görüb və müxtəlif ideoloji mühitdə yaşayıb. Lakin hər zaman da həyat tərzində, insanlara münasibətində mükəmməl humanist hisslər, davranışlar nümayiş etdirib. Onun təbiəti başqa cür olmağa imkan vermir. Ona görə də bir sıra xalqlardan fərqli, bəzilərindən isə çox fərqli olaraq humanist dəyərlər Azərbaycan xalqı üçün yad prinsiplər və ya kosmetik mədəni davranış tərzi ola bilməz" [Həsənov Ə., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Bakı, Azərbaycan, 2007, s.219].

Azərbaycanın həm ən müasir tarixinin, həm də bugünkü yerli və regional şərtlərinin gətirdiyi ciddi məsələlər var ki, onlar hüquqi dövlətçilik yolunda görülməli əsas işlərdir. Bu işlər hüquqi dövlət konsepsiyasının bəzi prinsiplərinin gerçəkləşməsi ilə bağlıdır.

Hüquqi dövlətin qanunun aliliyi kimi bir prinsipinin Azərbaycanda konkretləşməsi yolunda sözün həqiqi mənasında görüləsi işlər də az deyil. Burada həm bürokratik sistemlə, həm də əhali ilə bağlı komleks işlər aparılmalıdır. Dövlət səviyyəsində qanunun aliliyi prinsipinin gerçəkləşməsi prioritet məsələ elan olunmalıdır. Bununla bağlı olaraq yaxın, orta, uzun müddətli proqramlar hazırlanmalıdır. Ölkədə səlahiyyət sahiblərinin korrupsiya və cəzasızlıq sindromu yaradan fəaliyyətləri, məhkəmələrin fəaliyyəti və ictimai rəydə nüfuzu, əhalinin onlarla sosial əlaqələr qurarkən bürokratik aparatın yaratdığı şəraitə adekvat cavab verməsi, onların tələblərinə uyğun sosiallaşmaya getməsi kimi məsələlər təxirə salınmadan gündəmə salınmalı və bütün dövlət sisteminin fəaliyyəti bu istiqamətdə səfərbər olunmalıdır. İnzibati qaydada güc strukturlarından başlayaraq təhsil, mədəni-maarif sisteminə qədər bütün dövlət orqanlarının imkanlarından istifadə olunmalı, hər

bir dövlət strukturunun bu sahədə fəaliyyət proqramı qəbul olunub reallaşdırılmalıdır.

Qeyd edək ki, ölkəmizdə Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan qanundur. Konstitusiya təkcə qanunvericilik sisteminin yox, eyni zamanda hüquq sisteminin əsasını təşkil edir. Digər tərəfdən, Konstitusiya dövlətin bütün ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Konstitusiyasının 147-ci maddəsi öz əlamətlərini təsbit edib. Bu maddədə qeyd edilir ki, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanda ən yüksək hüquqi qüvvəyə malikdir.

"Hüququ, yəni, qanunları isə millətin seçdiyi nümayəndələrdən ibarət olan Azərbaycan Respublikası Milli Məclisi qəbul edir. Əgər qanunlarda bir boşluq olsa, bu halda qanunlar dəyişdirilir, yeniləri qəbul edilir. Dolayısilə, bu qanunların hər hansı bir şəkildə millətin əleyhinə olması qeyri-mümkündür" [Cəfərov V. Hüquqi dövlətin əlamətləri. Ekspress. 2016. 2 sentyabr, s.10].

Azərbaycan bütün böyük, kiçik, regional, qlobal problemləri ilə yanaşı, hüquqi dövlət ideyasına, sosial tərəqqiyə, ciddi dövlətçilik imkanlarına malikdir. Azərbaycandakı ictimai-siayasi proseslər bir daha təhlilə cəlb olundu, onların fəlsəfi mahiyyətinə nəzər salındı və bu qənaətə gəlindi ki, Azərbaycanda hüquqi dövlət ideyasının gerçəkləşməsi üçün zəruri şərait var, qəbul edilən qanunlar və qanunvericilik aktları beynəlxalq standartlara uyğundur, aparılan islahatlar bəşəri tələb və dəyərləri özündə ehtiva edir. "Azərbaycan mövcud imkanlardan yararlanaraq Cənubi Qafqazda, ümumiyyətlə, yaxın qonşu əraziləri əhatə edən regionda ən gözəl həyat şərtlərinə malik, nümunəvi bir ölkə səviyyəsinə çata bilər. Azərbaycan üçün hüquqi dövlət konsepsiyasının davamlı tətbiqində hansı prinsiplərin gerçəkləşməsinə diqqətin xüsusi olaraq yönəlməsinin gərəkliliyini araşdırmaq hər zaman zəruridir" [Nəsibov Y. Hüquqi dövlət quruculuğu. Bakı, 2016, s.84]. Hüquqi dövlətin əsas əlamətlərindən olan vətəndaş cəmiyyətinə həsr edilmiş çoxsaylı ədəbiyyata istinadən deyə bilərik ki, vətəndaş cəmiyyətinin mahiyyəti iki formada, yaxud yanaşma mövqeyinə görə şərh edilə bilər: sosiumun müəyyən vəziyyəti kimi və sosiumun müəyyən sferası kimi. Birinci mövqeyə əsasən, vətəndaş cəmiyyəti xüsusi tip cəmiyyətdir ki, insan hüquq və azadlıqlarını təmin edir və bu səbəbdən də sivil cəmiyyət sayılır. İkinci mövqeyə görə isə "vətəndaş cəmiyyəti" məfhumu altında dövlətin müdaxiləsi və tənzimləməsindən kənar olan hakimiyyətxarici əlaqə, struktur və institutlar nəzərdə tutulur. Tarixə nəzər salsaq, birinci mövqenin, əsasən, vətəndaş cəmiyyətinin bir ideya və fenomen kimi təşəkkül dövrünə təsadüf etdiyinin şahidi olarıq. Bu, Qərbi Avropda hakim olan kapitalist müna-

sibətləri sayəsində siyasət və iqtisadiyyat arasında ziddiyətlərin kəskinləşməsi dövrünə təsadüf edir. A. Tokvilin "Amerikada demokratiya haqqında" əsərindən sonra ikinci mövqe genişlənərək inkişaf etmişdir. A. Tokvilin vətəndaş cəmiyyəti ilə əlaqədar nəzəriyyəsi C. Lokkun nəzəriyyəsini üstələməyə başlamışdır. Bunu şəxsin dövlətdən asılığının azalması, dövlətin vətəndaş cəmiyyətinə müdaxiləsinin məhdudlaşdırılması, cəmiyyətin sosial quruluşunun mürəkkəbləşməsi, cəmiyyətdə üfüqi sosial münasibətlərin möhkəmlənməsi və yeni sosial təşkilat və hərəkatların yaranması ilə izah etmək olar [Abbasov Ə. İnsan hüquqları və ictimai rəy. Bakı, 2013, s.29-30].

İdeya və konsepsiyaları hüquqi dövlət anlayışı və mahiyyət əlamətləri baxımından xüsusi maraq doğuran mütəfəkkirlərin şəxsində tarixə ötəri baxışdan belə bir qənaətə gəlmək olar ki, hüquqi dövlət bir ideya, elmi nəzəriyyə, siyasi konsepsiya və praktika kimi bəşəriyyətin azadlıq, ədalət uğrunda mübarizəsi nəticəsində əldə etdiyi ən böyük naliyyətlərdən biridir. Hüquqi dövlət haqqında təlim despotimizə, tiraniyaya, avtokpatiyaya, feodal özbaşınalığına qarşı mübarizədə təşəkkül tapmış şəxsi iradəyə əsaslanan zorakılıq rejimlərinin hüquq və qanuna əsaslanan siyasi sistemlərlə əvəz edilməsini tələb edir. Bu baxımdan hüquqi dövlət, demokratiya və insan hüquqları kimi, ümumbəşəri sərvət sayılmalıdır. Məhz ona görə, hamı hüquqi dövləti qoruyub saxlamalı, cəmiyyətdə bir şəxsin ləyaqətlə yaşaması, onun azadlığı, şəxsiyyətin dövlətlə və eləcə də cəmiyyətin digər üzvləri ilə qarşılıqlı münasibətlərində ədalət prinsipinin təntənəsi istiqamətində fəaliyyət göstərməlidir. [İsmayilov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər.Bakı, Qanun, 1999, s.25s.28-29]. Müasir aləmin dərk edilməsində insan hüquqları və azadlıqlarının ön plana çəkilməsi, mübaliğəsiz, bəşər mədəniyyəti və mənəviyyatında baş verən nəhəng pozitiv dəyişkənliklərin nəticəsidir. Heç də təsadüfi deyildir ki, millətlərin sivil xarakterini müəyyən edən meyar - insan hüquqlarına dair beynəlxalq normaların milli qanunvericilikdə təsbit olunması və onların praktiki həyata keçirilməsi sayılır.

**Nəticə**

Konstitusion normaların legitimliyi ilə bağlı Azərbaycanda problem yaradacaq heç bir zəmin yoxdur. Zənnimizcə, bir dövlətin hüquqi dövlətçilik yolunda malik olduğu imkana Azərbaycan dövləti sahibdir. Hüquqi dövlətdə yaşamaq vətəndaşların qazancıdır. Belə ki, hüquqi dövlətdə hər bir vətəndaşın mülkiyyəti, konstitusion hüquq və azadlıqları qorunur. Belə dövlətdə heç kimin mülkiyyəti zorla müsadirə edilə bilməz, heç bir şəxs hüquqlarından məhrum edilə bilməz. Əgər hər hansı bir şəxs bu hüquqlarının

pozulduğunu, ədalətsizliyə məruz qaldığını düşünürsə, bu halda məhkəmə qaydasında pozulmuş hüquqlarını bərpa edə bilər. Hər bir vətəndaş hüquqi dövlətin qaydalarına uyğun olaraq dövlətdən ədalət tələb edə bilər. Cəmiyyət inkişaf edir və möhkəmlənir və buna uyğun olaraq yeni standartlar müəyyənləşir. Məhz yeniləşmələrə uyun olaraq qanunlarda da dəyişikliklər özünü ifadə etməli, insan hüquq və azadlıqlarının geniş dairəsini nəzərə alan əlavələr edilməlidir.

**Ədəbiyyat**:

1. İsmayilov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. Bakı: "Qanun" nəşriyyatı,1999.
2. Abbasov Ə.F. İnsan hüquqları və ictimai rəy. Bakı: "Təknur", 2013.
3. İsmayılov D.Y. Azərbaycanın transformasiyası prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: "Adiloğlu", 2005.
4.Nəsibov Y. Hüquqi dövlət quruculuğu. Bakı, 2016, s.149.
5.Cəfərov V. Hüquqi dövlətin əlamətləri. Bakı: "Ekspress".2016, 2 sentyabr.
6.Həsənov Ə., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Bakı: "Azərbaycan", 2007.
7. Гегель Г.В.Ф.Энциклопедия философских наук. Т.3. Философия духа. М.: Мысль, 1997.
8.Гегель Г.В.Ф. Работы разных лет. В 2-х томах. т.2. Философская пропедевтика. М.: Мысль,1973

**References**:

1.İsmayilov İ. Huquqi dovlet: mulahizeler ve teklifler. Baki: "Qanun", 1999
2. Abbasov A. İnsan huquqlari ve ijtimai rey. Baki: "Teknur", 2013
3. İsmayilov D.Y. Azerbayjanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Baki: "Adiloglu", 2005
4.Nesibov Y. Huquqi dovlet qurujulugu. Baki, 2016
5.Jeferov V. Huquqi dövletin elametleri. Baki: "Ekspress". 2016, 2 sentyabr
6.Hesenov A., Veliyev A. Azerbayjanın ve khariji olkelerin siyasi sistemleri. Baki: "Azerbaycan", 2007
7. Hegel Q. V.F. Ensiklopediya filosofskix nauk. T.3. Filosofiya dukha. M.: Misl, 1997
8. Hegel Q. V.F. Raboti raznikh let.V 2-x tomax. T.2. Filosofskaya propedevtika. M.: Misl, 1973

Formatı: 60*84 $^{1}/_{16}$.
Həcmi:35,25 ş.ç.v
Tirajı: 100

Direktor: Eyvazov Səməd
Texniki redaktor: Xəlilov Mail
Cildçi:Ruhəngiz Hacıyeva

"OPTİMİST" MMC -də çap olunmuşdur.
Azərbaycan, Bakı şəhəri, Nəsimi rayonu,
D. Əliyeva küç., 239.